ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник
научных статей

The actual problems of study of humanities

Interuniversity collection
of scientific articles

2/2018

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№2

2018

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125
Tel.: 596 21 44; 4970625
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2018

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **A.M.Məmmədli**
filol. e. d., prof. **A.Ə.Həsənov**
filol. e. d., prof. **T.H.Şükürbəyli**
filol. e. d., prof. **T.H.Məmmədova**
filol. e. d., prof. **F.Y.Veysəlli**
filol. e. d., prof. **İ.H.Həmidov**
filol. e. d., prof. **F.F.Cahangirov**
filol. e. d., dos. **N.Ş.Məmmədov**
filol. f. d., dos. **E.Ə.Şükürlü**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **R.M.Novruzov**
filol. e. d., prof. **M.Q.Qocayev**
filol. e. d., prof. **Ş.H.Xəlilli**
filol. e. d., prof. **R.M.Qeybullayeva**
filol. e. d., prof. **N.T.Məmmədov**
filol. e. d., dos. **R.K.Rəsulov**
filol. f. d., dos. **İ.M.Carçıyeva**
filol. f. d., dos. **Ə.Ç.Ağamirzəyev**

Pedaqogika
ped. e. d., prof. **A.N.Abbasov**
ped. e. d., prof. **O.M.Rəcəbov**
ped. e. d., prof. **F.N.İbrahimov**
ped. e. d., prof. **K.A.Məmmədov**
ped. e. d., prof. **İ.H.Cəbrayılov**
ped. f. d., dos. **O.Ə.Səmədov**
ped. f. d., dos. **Y.K.Alxasov**

İctimai elmlər
tarix e.d., prof**. M.C.Qasımlı**
fəlsəfə e.d., prof. **M.A.Əliyev**
fəlsəfə e.d., prof. **C.R.Məmmədov**
tarix e.d., prof. **F.F.İbrahimli**
tarix e.d., prof. **M.İ.Əmrahov**

Buraxılışa məsul: filol.e.d., prof. **T.H.Cəfərov**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. № 2/2018. – Bakı: Mütərcim, 2018. – 216 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2018
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2018

DİLÇİLİK - ЛИНГВИСТИКА

A.H.BAYRAMLI

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

OMONİMLƏRİN ÇOXMƏNALI SÖZLƏRDƏN FƏRQİ

Açar sözlər: *polisemiya, omonim, eliminasiya, konversiya, kalka, frazeologiya*
Ключевые слова: *полисемия, омонимы, элиминация, конверсия, калька, фразеология*
Key words: *polysemy, homonyms, elimination, conversion, kalka, phraseology*

Forma və mənasına görə söz qruplarının əsas hissəsini çoxmənalı sözlər və omonimlər təşkil edir. Onlar bir-biri ilə forma eyniliyinə, qarşılıqlı əlaqəyə əsasən bağlıdırlar. Sözün forma və mənası ilə maraqlanan, məşğul olan, onları tədqiq edən hər bir şəxs çoxmənalı söz və omonim məsələsi ilə qarşılaşmalı olur.

Söz mənaca inkişaf edir, yeni mənalar kəsb edir, həcmi genişlənir, yeni sözlərin yaranması üçün zəmin yaranır. Sözün yaranan yeni mənaları ilk mənasından ya qismən, ya da tamamilə ayrılır. Sözün mənaları arasında müəyyən dövrdə, şəraitdə sədd qoymaq olar, lakin bu hüdudu mütləq hesab etmək olmaz. Sözə həmişə inkişaf edən vahid kimi baxılmalıdır. Söz mənaca inkişaf etdikcə, öz təkmənalığından uzaqlaşaraq çoxmənalılığa və omonimliyə doğru gedir.

Polisemiya və omonimiyanın fərqləndirilməsi bir çox dilçilər tərəfindən leksikologiyanın və leksikoqrafiyanın ən vacib və ən mürəkkəb problemlərindən biri kimi nəzərdən keçirilir (1, s.46). Semantik söz yaradıcılığı nəzəriyyəsi, yəni sözlərin törəmə mənalarının differensiasiyası nəticəsində mənanın dəyişməsi yolu ilə yeni sözlərin yaranması məsələsi akademik V.V.Vinoqradov tərəfindən aparılmışdır. O, polisemiya və omonimiyanın fərqləndirilməsində ölçü vahidi kimi morfoloji söz yaradıcılığı prinsipini təklif etmişdir (3). Bu prinsip sözün morfoloji elementlərinin oxşar və fərqli cəhətlərinə əsaslanmışdır.

Omonimiya məsələsinə həsr olunmuş tədqiqat işləri ilə tanış olduqdan sonra deyə bilərik ki, həm səslənməsinə görə uyğun gələn, həm də bir sözün semantik differensiasiyası nəticəsində yaranan sözlər "omonim" termini ilə adlandırıla bilər. Omonimlərin seçilməsi zamanı sözün yalnız morfoloji və sintaktik əlamətlərinin fərqinə və sözyaradıcı münasibətlərin xüsusiyyətlərinə əsaslanmaq olmaz. Sözün omonimliyinin müəyyən edilməsində həlledici olan onun əsas mənalarının fərqidir.

Omonimlərin təyin edilməsinin ümumi universal bir resepti yoxdur. Polisemiya hadisəsini öyrənmək lazımdır ki, müəyyən individual şəraitdə omonimləşməyə gətirib çıxaran səbəbləri biləsən. Polisemiya barədə tədqiqatçıların belə bir fikri də vardır ki, sözün əsas mənası elə bir özəkdir ki, onun ətrafında bütün qalan leksik mənalar qruplaşır və buna görə də semantik planda vahid bir bitkinlik yaranır. Bəzi tədqiqatçılar polisemiya hadisəsinin mənfi tərəfi olduğunu da söyləyirlər. Belə ki, sözün çoxmənalılığı qeyri-aydınlıq, ikimənalıq yaradır.

Müxtəlif leksik mənalar bir söz daxilində çoxdan mövcud olduqları üçün aydın və anlaşıqlı olmalıdırlar. Amma məlumdur ki, semantikalarına görə bir-birindən çox uzaq olan leksik omonimlər arasında yenə də toqquşma halları və hətta onlardan birinin kənar edilməsi

(eliminasiyası) baş verir. Bu cür hallara omonimlərə nisbətən çoxmənalı sözlərin arasında daha tez-tez rast gəlinir, çünki dildə bir-birindən çox uzaqlaşmış və hətta bir-biri ilə əkslik təşkil edən mənalara malik polisemantik sözlər daha çoxdur.

Xarici ingilis mütəxəssisləri polisemik sözdə məna qarşıdurmalarına aid bir sıra nümunələri misal göstərmişlər. Rudskoqer (26) ingilis dilində dörd sifətin (*fair, foul, nice, proper*) təhlili əsasında göstərmişdir ki, əgər sözün müxtəlif leksik mənaları eyni ictimai və dialektik mühitdə mövcud olarsa, yaxın dil üslubunda və ədəbiyyatında istifadə edilərsə, oxşar sintaktik və frazeoloji funksiyalarda işlədilərsə, deməli onlar toqquşmağa meyllidirlər. Bu toqquşma nəticəsində isə onlardan biri və ya bir neçəsi periferiyaya keçəcək və ya tamamilə itəcək. O, qeyd edir ki, bu çox uzun bir prosesdir və bəzən yüz ilə qədər davam edir.

Fair sifətinin mənalarının inkişaf tarixi başqa bir alim, Menner tərəfindən də nəzərdən keçirilir (5, s.60). Menner hesab edir ki, mənalar arasında olan ziddiyyət, toqquşma tədricən yetişir. Bu toqquşma müəyyən dialektdə, şivədə, hətta bəzən professional jarqonda da baş verə bilər. Məsələn, *clever* sifətinin Yeni İngiltərənin bəzi rayonlarında işləndiyi mənalara nəzər salaq: 1*) xeyirxah; 2) xeyirxah, amma sadəlövh, iradəsiz, köntöy; 3) xeyirxah, amma köməksiz, məsuliyyətsiz; 4) həddindən artıq məsuliyyətli; başqalarının təsiri altına düşəcək qədər sadəlövh; 5) hər kəsə inanan, zəif iradəli; 6) savadsız; 7) səfeh, düşüncəsiz; 8) tənbəl, köməksiz, bivec.* İndi isə həmin sözün müsbət çalarlı mənalarına nəzər salaq: *9) bacarıqlı, cəld; 10) ağıllı* (21, s.73). *Clever* sifətinin burada göstərilən leksik mənaları bir-birinə ziddirlər və *clever* sözünün ədəbi dildəki mənası ilə toqquşurlar. Ədəbi dildəki mənaları isə belədir: *ağıllı, cəld, bacarıqlı,qabiliyyətli, istedadlı.*

Menner həmçinin *person* latın sözünün də inkişafı zamanı mənalarının toqquşmasına aid maraqlı bir misal göstərir. Klassik latın dilində *person* sözünün aşağıdakı mənaları var idi: 1) *aktyor, artist maskası; 2) artistin əsərdəki rolu; 3) insan.* Orta əsrlərin latın dilində digər bir şaxə inkişaf etdi ki, bu şaxə yeni mənalar əmələ gətirdi: *məhəllə keşişi.*

Person sözü ingilis dilinə fransız dilindən keçib və bu zaman həmin sözün müxtəlif mənaları var idi (Çoserin vaxtında *persoun* yazılırdı). Amma bu sözdəki ikimənalılıq ("insan" və "məhəllə keşişi") ona gətirib çıxartdı ki, sonuncu məna öz əvvəlki formasını itirərək, *parson* şəklində yazılmağa başlandı.

A.Rudskoqerin əsərində də maraqlı misallara rast gəlmək olar: *divers* – müxtəlif və *diverse* - ayrı, fərqli (nədənsə). Bu mənalar 1700-cü ilə qədər bir söz olublar; *humane* – *humanist, humanitar* və *human* – insani (ikinci forma yalnız XVII əsrin sonunda meydana çıxıb (7).

Bir çox hallarda ayrı-ayrı mənalar arasında mübarizə yeni mənanın əmələ gəlməsinə və dildə eyni tələffüzü, lakin fərqli yazılışı olan sözün, yəni omonimin yaranmasına gətirib çıxarır. Beləliklə, dildə mənaların fərqli şəkildə inkişafı nəticəsində leksik omonimlər əmələ gəlir: *discreet* – ehtiyatlı, diqqətli və *discrete* – ayrı - *discretus* latın sözündən yaranmışdır (ayrılma XVI əsrin sonlarında baş vermişdir); *plain* – ilkin olaraq *düz səth (torpağa, dama aid)* mənasını verirdi, sonralar başqa mənalarda, həmçinin emosional rəngarəng mənalarda da işlənməyə başlandı - *sadə və alçaq* mənalarında. Bu mənaları qarışdırmamaq məqsədilə "səthi" mənası XVII əsrdən latın mənşəli *planus* sözünün təsiri altında *plane* kimi yazılmağa başlandı.

Orta əsr ingilis dilində fransız mənşəli *flower* (çiçək) sözü çox tez bir sıra başqa mənalarla zənginləşdi. Bu mənalar içində "rəng" (məcazi mənada) mənası seçilirdi – "məhsulun ən yaxşı, seçmə hissəsi" (yalnız dənli bitkilərdən). XVII əsrin ikinci yarısında "un" mənası yarandı. Lakin bu mənanın yazılışı fərqli idi – *flour*. Bu ikinci məna XVIII əsrin ikinci yarısında dildə möhkəmləndi.

Haçansa eyni sözün müxtəlif mənalarının yazılışındakı fərq təkcə alınma sözlərdə rast gəlinmir. Məsələn, qədim ingilis dövründə *tunne* sözü işlədilirdi ki, orta əsr ingilis dilində bu söz *tonne* yazılırdı. Artıq XVI-XVII əsrlərdə bu səs kompleksi fərqli yazılmağa başlandı ki, bu fərq nəticəsində sonralar "ton" mənası da yarandı (əvvəlki mənası: iri çəllək – çaxır və pivə üçün).

Xüsusi dilçilik ədəbiyyatında, əsasən də akademik V.V.Vinoqradovun əsərlərində söz-yaradıcı faktor – çoxmənalı sözlərdən omonimlərin yaranmasının əsas göstəricisi kimi qiymətləndirilmişdir (3, s.48). İngilis dilində semantik parçalanma tez-tez sözyaradıcı səciyyəli fərqləndirici əlamətlərin müəyyən edilməsi ilə müşayiət olunur. İngilis dilində bu cür omonimlərin əmələ gəlməsinə misalları M.M.Falkoviç göstərmişdir (9, s.88).

Amma qeyd etmək lazımdır ki, omonimliyin müəyyən edilməsinin bu üsulu həm çoxmənalı sözlərdən yaranmış omonimlərə, həm də polisemik sözün müxtəlif mənalarına aid edilə bilər. Məsələn, rus dilçisi M.M. Falkoviçin fikrincə *wait* sözünün aşağıdakı sərbəst törəmələri vardır (9, s.88):

to wait – gözləmək (*to wait for smb*.) və *(to) wait* – xidmət etmək (stol arxasında), (*to wait on smb*.), *wait* – gözləmə, intizar, *waiting* – gözləmə, intizar, *waiter* – xidmətçi kişi, *waitress* – xidmətçi qadın və s.

Aydındır ki, semantik cəhətdən burada heç bir parçalanma yoxdur: süfrə arxasında qulluq edərkən qadın sifariş gözləyir. Bu misalda omonimiya yox, polisemiya mövcuddur. Bu da onunla sübut olunur ki, "gözləmək" sözü *wait* felinin bütün mənalarını birləşdirən (həmçinin ondan yaranmış *wait* isminin) kontekstdən kənar mənadır.

Belə hallara da rast gəlinir ki, bəzən sözün mənalarının parçalanması zamanı həm oxşar, həm də fərqli sözyaradıcı cərgələr əmələ gəlir. Məsələn:

İsimlər

club – dəyənək, çubuq, ağac , *club* – klub (ayrılıb yenidən formalaşmış məna), *clubs* – dəyənəklər, çubuqlar, xaç nişanı (kartda), *clubs* – klublar, *clubbing* – dəyənəklə döyülmək, *club-land* – Londonun zadəgan klubları yerləşmiş hissəsi, *club-foot* - əyripəncəlik, ayaqda şikəstlik, *club-law* – klubun nizamnaməsi, *club-law* – yumruq qanunu, *club-man* – klubun üzvü, kübar cəmiyyətin nümayəndəsi, *club-woman* – klubun qadın üzvü.

Sifətlər

club-footed - əyripəncə, ayağı şikəst, *clubable* - klubun üzvü olmağa layiq, istiqanlı, *club-shaped* – dəyənək şəklində, bir tərəfi yoğun.

Konversiya edilmiş fellər

(to) club – dəyənəklə döymək; yanlış komanda ilə cərgəni çaşdırmaq	*(to) club* – bir yerə toplaşmaq; yığıncaq təşkil etmək
(he) clubs – (o) dəyənəklə vurur	*(he) clubs* – (o) yığıncaq təşkil edir
clubbed – dəyənəklə döydü	*clubbed* – bir yerə yığışdılar; yığıncaq təşkil etdilər
clubbing – dəyənəklə döyərək	*clubbing* – bir yerə yığışaraq; toplaşaraq.

Müasir ingilis dilinin təkdilli lüğətlərində *club* sözü müxtəlif mənalarda verilir: 1) Torndaykın böyük amerika izahlı lüğəti üç omonim göstərir – dəyənək, klub və xaç nişanı; 2) Skit (8) omonim kimi yalnız – dəyənək və xaç nişanı sözlərini göstərir; 3) Hornbinin izahlı lüğətində də - dəyənək, klub və xaç nişanı sözləri omonim kimi göstərilir (4, s.16). Omonimiyanı "dəyənək" və "klub" mənalarında görmək olar, çünki onlar heç bir cəhətdən, hətta məcazi mənada belə bağlı deyillər. Bu nominativ cismi mənaların semantik cəhətdən uyğun gəlməməsi aydın şəkildə görünür.

V.V.Vinoqradovun əsərlərinin təsiri altında bu və ya digər səs komplekslərinin bəzi morfoloji xüsusiyyətləri də ölçü vahidi kimi nəzərə alınmışdır. Onların ingilis dilinə tətbiqi zamanı əsasən aşağıdakılar nəzərə alınmalıdır: 1) cəm halının müxtəlif şəkildə ifadə olunması və 2) tək və ya cəm halının yalnız bir formasının olması. Məsələn: 1) *Goose* – "qaz" sözü cəm halının əvvəlki formasını tək sait səslərin dəyişməsi şəklində saxlamışdır – *geese; goose* – dərzi ütüsü sözü isə cəm halında üstünlük təşkil edən formada yazılır – *gooses*; *staff* – taxta, çomaq, cəm halında – *staffs; staff* – 5 notlu xətkeş, cəm halında – *staves*; 2) *air* – hava, atmosfer, *iron* – kim. dəmir (element) cəm halında işlənmirlər. Amma *air* – nəğmə, musiqi və

iron – ütü sözlərinin cəm forması vardır; digər tərəfdən, *irons* – zəncir, qandal, *airs* – affektasiya, lovğalıq sözlərinin tək halda forması yoxdur. Bu sözlərin omonim hesab edilib-edilməməsi sual doğurur. Lakin ingilis dilinin izahlı lüğətlərini nəzərdən keçirdikdən sonra onların omonim hesab edilmədiklərini görürük. Müllerin ingilis-rus lüğətində yalnız *goose* – qaz və *goose* – dərzi ütüsü omonim kimi verilmişdir (6).

Beləliklə, qeyd etməliyik ki, nə sözdüzəldici cərgələrin qarşılaşdırılması, nə də müxtəlif modellər üzrə cəm halının əmələ gəlməsi polisemiya və omonimiyanın fərqləndirilməsində etibarlı əsas sayıla bilməz. Bu çətin məsələnin həllində sintaktik xüsusiyyətlər də arqument şəklində irəli sürülmüşdür. *Run* – idarə etmək, qaçmaq, istifadə etmək felinin müxtəlif məna qruplarını omonimlərə aid etmək lazımdır, belə ki, bu fel birinci qrupda dəyişən, ikinci qrupda isə dəyişməyəndir. Buna görə də bu sözlə bağlı birləşmələr bir-birindən kəskin şəkildə fərqlənə bilərlər: 1) *They will run power-stations; she is running a theatre; I ran a bus-line; we shall run a business*. 2) *They ran away with the stolen goods; if you have a bad cold, your nose runs etc*. Aydındır ki, bu ifadələr fərqli sintaktik və leksik distribusiya sahəsinə malikdirlər. Amma bütün bunlar bu vahidləri omonim hesab etməyə əsas vermir, çünki onlar semantik cəhətdən birdirlər. Məna ona görə dəyişir ki, *run* "fiziki sfera"dan "psixi sferaya" keçir. *Run* sözünün - idarə etmək, sürmək, minmək mənası isə ikisinin arasındadır: *to run a horse in the Derby; to run a car into a garage; to run a ship aground*.

Onu da qeyd etmək lazımdır ki, tərtibatçıları ingilis-sakslar olan təkdilli lüğətlərdə *run* sözü bütün mənaları ilə birlikdə bir söz kimi verilir. Əlbəttə hər bir sintaktik fərqlə yanaşı semantik fərq də olur, amma bu qarşılıqlı fərqlərdə hər dəfə omonimliyi görmək əsassızdır.

Yuxarıda söylənilən fikirlərin düzgün olduğunu sübut etmək üçün *too* zərfini misal gətirmək olar. Onun cəmi iki mənası var: "həddindən artıq" və "həmçinin" və bu sözlərin cümlədə dəqiq müəyyən edilmiş yerləri var. Birinci – aid olduğu sözün əvvəlində, ikinci isə - sonda işlənir. Sonda işlənən *too* – "həmçinin" bütün mənalı sözlərlə işlənə bilir, amma sözönü olan *too* – "həddindın artıq" yalnız sifət və zərflərin qarşısında işlənir. Bu cür yerləşməyə baxmayaraq, *too* – "həddindən artıq" dildə daha tez-tez işlədilir. O da maraqlı faktdır ki, *too* – "həmçinin", ona sinonimik olan *also* – "həmçinin" sözündən daha tez-tez işlənir (11, s.286). Onların bir-birindən ayrılması, fərqləndirilməsi faktları Britaniyanın bəzi leksikoqrafik işlərində qeyd olunub (4, s.16).

Sözyaradıcı cərgələrin və eləcə də morfoloji və sintaktik xüsusiyyətlərin nəzərdən keçirilməsi belə bir nəticəyə gətirib çıxarır ki, onlar həm eyni sözün müxtəlif mənalarına, həm də - omonim sözlərə aid edilə bilərlər.

Ümumiyyətlə, dildə sözlərin mənaca dəyişməsi tədricən baş verir və dilin həmin inkişaf mərhələsində bu və ya digər sözün mənasının ilkin mənadan tamamilə ayrılıb-ayrılmadığını müəyyən etmək olmur. Onların arasındakı sərhəd o qədər şərti və dağınıq görünür ki, birtərəfli təhlil üsulu ilə onları ayırmaq mümkün deyil.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, coxmənalı sözlərlə omonimlər arasındakı əsas yaxınlıq və oxşarlıq onların hər ikisinin formaca bir, mənaca müxtəlif olmasıdır. Məsələn, çoxmənalı *head* (baş) sözü heç bir formal dəyişikliyə uğramadan aşağıdakı birləşmələrdə müxtəlif mənalarda işlənir: *head doctor* (baş həkim), *head teacher* (baş müəllim), *the head of the group* (qrupun başçısı), *the head of the meeting* (iclasın sədri) və s. *Spring* (bahar), *spring* (bulaq), *spring* (tullanmaq) sözləri də eyni fonetik tərkibdə olaraq müxtəlif mənalar ifadə edir.

Çoxmənalı sözlərlə omonimlər arasında ***oxşar cəhətlər*** aşağıdakılardır:

1) hər ikisi forma eyniliyinə görə qruplaşan semasioloji vahidlərdir;

2) həm omonim, həm də çoxmənalı sözlər eyni səs kompleksi ilə ifadə olunur.

Məsələn, *chair* (stul) sözü həm omonim, həm də çoxmənalı sözdür;

3) hər ikisi qrafik və tələffüzcə fərqlənir. Məsələn, *finger* (barmaq), *wood* (meşə, odun) sözləri həm omonim, həm də çoxmənalı söz kimi işləndikdə yazılış və tələffüzlərinə görə bir-birindən fərqlənmirlər;

4) omonimlərin və çoxmənalı sözlərin yaratdığı cərgələrin üzvləri bir nitq hissəsinə aid olur. Məsələn, *to hit* (vurmaq) çoxmənalı sözün bütün mənaları eyni nitq hissəsinə - felə aid olduğu kimi, *finger, spring* tipli omonimlərin mənaları da (və ya mənalarının əksər hissəsi) eyni bir nitq hissəsinə - ismə aid olur və s.

Lakin bu oxşarlıq onları eyniləşdirmir. Çünki onların arasındakı fərqlər daha əsas olub onları müxtəlif söz qrupları kimi təhlil və izah etməyə imkan verir.

Omonimlərin çoxmənalı sözlərdən ***fərqli cəhətləri*** aşağıdakılardır:

1) *İfadə etdikləri əşya və hadisələrə görə*. Omonimlərin ifadə etdikləri əşya və hadisələr müxtəlif, bir-birindən çox fərqli olurlar. Onların arasında yaxınlıq və oxşarlıq yoxdur. Məsələn, *left* (sol) – *left* (tərk etdi); *mine* (minalamaq) – *mine* (mənimki) və s.

Çoxmənalı sözlərin ifadə etdikləri əşyaların arasında isə oxşarlıq vardır. Məsələn, *hand* (əl) – *hand* (saatın əqrəbi), *hand* (əl vermək) və s.

2) *Mənalarına görə*. Omonim cərgənin üzvlərinin mənaları müxtəlifdir. Onların arasında məna yaxınlığı olmur, bir-biri ilə əlaqəsi olmayan mənalar ifadə edirlər. Məsələn, *earnest* (beh) – *earnest* (ciddi); *second* (saniyə) – *second* (ikinci); *down* (pərqu) – *down* (aşağı) və s. sözlərinin ingilis dilində yaratdığı omonim cərgə üzvlərinin mənaları arasında heç bir əlaqə yoxdur.

Çoxmənalı sözlər də müxtəlif mənalar ifadə edir, lakin onların mənaları arasında yaxınlıq və əlaqə hiss olunur: *face* (üz) – *face* (səth) – *face* (üzləşmək).

Sözün mənaları arasında assosiativ əlaqəni, aralıq cəhətləri hiss etmək mümkün olduqda həmin söz çoxmənalı, bu mümkün olmayanda isə omonim olur. Çoxmənalı sözün leksik-semantik variantı əlaqədar mənanı itirdiyi zaman həmin sözün mənaca ayrılması, əlaqənin qırılması, itməsi ilə müəyyən edilir. Bu sözlərin hüdudu dəyişkən olduğundan çoxmənalı sözlərdən törəyən omonim sözlər məna əlaqəsinin izlərini müəyyən müddət ərzində özündə saxlayır. Çoxmənalı sözlərdə formaca eynilik və mənaca müxtəliflik deyəndə, əslində eyni sözün müxtəlif məna çalarları nəzərdə tutulur. Burada sözün əsas mənası ilə bağlı olan əlavə mənalar meydana çıxır və bu mənalar bir növ əsas mənaya tabe olur. Omonim sözlərdə isə müxtəlif sözlərin forma eyniliyindən söhbət gedir. Burada sözlər müxtəlif olduğu kimi, onların mənaları da tamamilə müxtəlif olur. Demək olar ki, bu mənaların və sözlərin ifadə etdikləri məfhumlar arasında əlaqə olmur.

Çoxmənalı sözlərlə omonimlər arasında əsas fərqdən başqa ikinci dərəcəli fərqlər də nəzərə çarpır:

1) ***Leksik-qrammatik fərq***. Çoxmənalı sözlərin bütün üzvləri eyni bir nitq hissəsinə, omonim cərgələrin üzvləri isə həm bir, həm də müxtəlif nitq hissələrinə aid olur.

2) ***Mətnə görə olan fərq.*** Çoxmənalı sözlərin əlavə mənalarını mətnsiz, situasiyasız, nitqsiz konkretləşdirmək olmur. Əlavə mənalar əsas mənadan törəyir, elə buna görə də yeni mənalar, yəni törəmə mənalar ancaq özündən əvvəl və ya sonra gələn sözlərin mənaları ilə bağlı olur. Çoxmənalı sözlərdə əsas məna müstəqil, o biri mənalar isə ondan asılı olur. Omonim sözlərin mənaları bir-birindən asılı olmadığına görə mətnsiz də məlum olur. Mətn sözün mənalarını dəqiqləşdirən bir vasitə kimi çıxış edir.

3) ***Milli xüsusiyyətinə görə olan fərq.*** Çoxmənalı sözlərin bütün üzvləri eyni bir dilə, omonim cərgələrin üzvləri isə mənşəcə həm bir, həm də müxtəlif dillərə məxsus ola bilir.

4) ***Cinas yaradıb-yaratmamalarına görə olan fərqlər***. Çoxmənalı sözlərin arasında qarşılıqlı əlaqə olduğundan onlar cinas yarada bilmir. Omonimlərlə cinaslar arasında bir uyğunluq var. Hər ikisi eyni fonetik tərkibli, mənaca müxtəlif sözlərlə bağlıdır. Elə buna görə də omonimlər cinas əmələ gətirir. Çoxmənalı sözlər isə obrazlılıq yaradır.

Ədəbiyyat

1. Ахманова О.С. Очерки по общей и русской лексикологии. М., 1957.
2. Будагов Р.А. Введение в науку о языке. М., 1965.

3. Виноградов В.В. Об омонимии и смежных явлениях. М., 1960.
4. Hornby A.S. and Parnwell E.C. An English Reader's Dictionary. London, 1960, 314 pp.
5. Menner R.J. Multiple Meaning and Change of Meaning in English, 1950.
6. Мюллер В.К. Англо-русский словарь. М., 1964.
7. Rudscoger A. Fair, Foul, Nice, Proper. A Contribution to the Study of Polysemy. Stockholm, 1962.
8. Skeat W.W. A Concise Etymological Dictionary of the English Language, Oxford, 1963.
9. Фалькович М.М. К вопросу об омонимии и полисемии. М., 1960.
10. www.merrian-webster.com/dictionary/homonyms
11. www.merrian-webster.com/dictionary/homonyms

А.У.Байрамлы

Разница между омонимами и многозначными словами

Резюме

В этой статъе повествуется о различии между омонимами и многозначными словами. Здесь говорится о том, что даже имея одинаковую форму, они различаются по смыслу. Это проблема настолько важна в лексикологии и лексикографии, что многие лингвисты отмечают ее в качестве важной задачи для решения.

В.В.Виноградов обозначает морфологическое словообразование в качестве основного фактора в различии омонимов и многозначных слов.

Этот принцип основывается на их схожих и различных свойствах. Всё это основывается на языковом материале.

После знакомства с исследовательской работой на тему «Омонимия» можем сказать, что и совпадающие по звучанию, возникшие при семантической дифференцации слова можно назвать омонимами. При выборе омонимов нельзя полагаться только на различие между морфологическими и синтаксическими признаками слов и свойств вербальных отношений. Для определения омонимии слова разница между его действительными значениями считается решающей. Нет общего универсального рецепта для определения омонимов.

A.H.Bayramli

The Differentiation Between Homonyms and Polysemy

Summary

This article deals with the differentiation between Homonyms and Polysemy. It is said that they are the same in form, but different in meaning. As it is the main problem in lexicology and lexicographs some linguists consider it as very important problem to be solved. V.V.Vinogradov suggested morphological word formation as the main factor in differentiation between homonyms and polysemy. This principal is based on their similar and different features. All of them are based on language material.

After familiarizing with the scientific researches done on the problem of homonymy, we can say that the words, which are the same in their articulatory form and have been formed by the semantic differentiation of the same word can be termed as "homonym". When choosing homonyms we cannot rest on the difference of morphological and syntactical signs of the word and the properties of word forming relations. The key factor in determining the homonymy of the word is the difference of its main meanings. There is no universal recipe for determining homonyms.

Rəyçi: filol.e.d., prof. Ə.H.Hacıyeva

Redaksiyaya daxil olub: 03.02.2018

F.İ.CƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Naxçıvan Müəllimlər İnstitutu
(Naxçıvan şəh., Heydər Əliyev pr., 1)

DİLİMİZ BU GÜN

Açar sözlər: *Heydər Əliyev, Azərbaycan dili, sərəncam, müstəqil, inkişaf, zəngin*
Ключевые слова: *Гейдар Алиев, Азербайджанский язык, распоряжение, независимость, развитие, богатство.*
Key words: *Heydar Aliyev, the Azerbaijani language, order, independent, development, rich*

"Dilimiz çox zəngin və ahəngdar dildir. Dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

Heydər Əliyev

El arasında belə bir rəvayət var ki, Allah yer kürəsini bir gün millətlər arasında bölüşdürməyə başlayır. Bütün millətlər tələskənlik edib öz ərazisini alır. O vaxtlar da, indinin özündə də işini səbirlə, təmkinlə görən Azərbaycan xalqı gecdən-gec Böyük Yaradanın hüzuruna gedir və özü üçün məskən istəyir. Bu milləti səbrini, dözümünü, qılığını xoşlayan Pərvərdigar yanına gələn elçiyə buyurur ki, mən özüm üçün bir cənnət guşə saxlamışdım. Siz milləti xoşladığım üçün öz məskənimi sizə halal edirəm, gedin yaşayın orda, ora sizin olsun. Bəli, bu cənnət guşə bizim yaşadığımız Azərbaycandır. Azərbaycanı bütün dünyaya tanıdan isə düşüncələri, biliyi, dünyagörüşü, fəaliyyəti ilə, bütün varlığıyla xalqına bağlı olan və tarixi missiya ilə Millətin atasına çevrilən Heydər Əliyevdir.

Təbii ki, Azərbaycan xalqının tarixində böyük fikir dahiləri çox yetişmişdir. Heydər Əliyev isə həm əsrimizin böyük fikir dahisi, həm də xalqın, vətənin, dövlətin bütövlüyünün təminatçısı, tarixdə ilk dəfə yaranmış milli dövlətçiliyimizin banisi, rəhbəri, qurucusu və sərkərdəsidir. Qədim yunan filosofları o kəsləri dahi hesab edirdilər ki, onlar heç kəsin görə bilmədiklərini görə bilsinlər. Heydər Əliyev məhz belə dahilərdən idi. Xalqımız üçün göstərdiyi misilsiz xidmətlər Heydər Əliyevi Ümummilli lider zirvəsinə yüksəltmişdir.

Heydər Əliyev böyük siyasi xadim olmaqla yanaşı vətənini, torpağını, xalqını, dilini sevən, onu öz dühası ilə yüksəklərə qaldıran görkəmli bir şəxsiyyətdir. Bəlkə də yeganə insandır ki, Azərbaycan üçün, doğma vətəni, xalqı, milləti üçün ömrünü şam kimi əritmişdir. Heydər Əliyevin taleyi millətin taleyi, xalqın taleyi idi. Azərbaycanın taleyi Heydər Əliyevin taleyi idi. Millətin dərdi, ağrısı onun dərdi, xoşbəxtliyi onun xoşbəxtliyi idi. Özünün dediyi kimi azərbaycanlı olması ilə daim qürur duyurdu: "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, azərbaycanlıyam." Dahi şairimiz S.Vurğunun bu məşhur misralarını söyləyərkən də vətən sevgisini gizlətmədi:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

– deyən ulu öndərin kövrəlməsi bir daha "Ana və oğul" məhəbbətinin nümayişinə çevrildi.

Bəlkə də buna görədir ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan xalqının tərəqqisi və inkişafı dövrü başladı. Xalqımızın milli-mənəvi dəyərlərinin qo-

runması, tariximizin düzgün istiqamətdə araşdırılması və öyrənilməsi, ana dilimizin rolunun artırılması kimi məsələlərin diqqətə çəkilməsi milli ruhun oyanışına təkan vermiş oldu.

Ulu öndərimiz bütün sahələrdə olduğu kim, dilimizin inkişafı istiqamətində də müstəsna xidmətlər göstərib. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın milli varlığının təsdiqidir. Millətin millət kimi formalaşmasında dil ən mühüm amildir. Hər bir xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi onun dilində öz əksini tapır.

Azərbaycan xalqının milli sərvəti sayılan Azərbaycan dili bugünkü inkişaf səviyyəsi ilə dünya dillərindən fərqlənir. Amma onu da unutmayaq ki, yaxın keçmişdə dilimiz ciddi sınaqlarla üzləşmiş və bu sınaqlardan qalib ayrılmışdır. Vaxtilə Azərbaycanın böyük şairi Süleyman Rüstəm dilimizin sabahını düşünərək bir vətəndaş kimi etiraz səsini qaldırdı: "Mən sənin dilinə dəymirəm, cəllad, Gəl sən də bu ana dilimə dəymə, Sənin də bağın var, gülün var, çəkin, Bağıma əkdiyim gülümə dəymə."

Bildiyimiz kimi, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddət ərzində dilimizin inkişafına xüsusi diqqət yetirildi. Lakin Azərbaycan Sovet İmperiyasının tərkibinə daxil olduqdan sonra bu istiqamətdə vəziyyət ciddi şəkildə dəyişdi. Belə ki, dilimizə qarşı böyük təzyiqlər başlandı. Çünki rus dilinin aparıcı dil olması, rəsmi tədbirlərdə rus dilində çıxışların üstünlük təşkil etməsi doğma ana dilimizə münasibəti dəyişdirirdi. Belə bir fikir hakim idi ki, hamı rus dilini öyrənməli və bu dildə danışmalı idi. Bu, isə ana dilimizə kölgə salır, dilimizin inkişafını ləngidirdi.

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dili səviyyəsinə qalxması, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Bu siyasətin əsası isə ən çətin bir vaxtda – "vahid dil" siyasətinin daha geniş şəkildə təbliğ edildiyi, milli dillərin sıxışdırıldığı bir vaxtda qoyuldu. Halbuki belə çətin bir vaxtda ana dili məsələsi ilə məşğul olmaq olduqca qorxulu idi. Ona görə qorxulu idi ki, dil məsələsini qabardanlar, bu barədə fikir söyləyənlər Sibirə sürgün edilirdi. Bu cür təzyiq və təqiblərə baxmayaraq, Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə ifadə edə bildi. Hətta ulu öndərin bu cəsarətli addımı nəticəsində 1978-ci il konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi qəbul edildi (1).

1978-ci il 2 aprel-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr edilmiş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dili Azərbaycan dilidir" (4, s.276). Əlbəttə, o dövrdə belə cəsarətli addımı Heydər Əliyev kimi dahi bir insan ata bilərdi. Bu, ulu öndərin öz xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri idi.

1978-ci ildə qəbul edilmiş Konstitusiya haqqında danışarkən Ulu öndər o günləri belə xatırlayırdı: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, heç kəs sizə mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsininz. Ancaq siz nə üçün bizə mane olursunuz... Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində böyük hadisə oldu" (6).

Heydər Əliyev bilirdi ki, dil də, tarix də, mədəniyyət də millətsiz mövcud ola bilməz və hər hansı bir milləti yer üzündən izsiz olaraq silmək üçün onun dilini, mədəniyyətini, tarixini əlindən almaq kifayətdir.

Müstəqillik illərində Heydər Əliyevin hərtərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün hüquqları özünə qaytarıldı. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın

12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk konstitusiyasında təsbit olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir". Konstitusiya komissiyasının noyabrın sonlarında keçirilən iclasında Heydər Əliyev bu məsələyə öz münasibətini bildirərək deyirdi: "Biz ən doğru, düzgün və ən əsaslı bir qərar qəbul etdik ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Bu, Azərbaycan xalqı üçün, onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli qərardır. Bu, Azərbaycanda bütün Azərbaycan xalqının tərkibini təşkil edən xalqların hamısının özlərinə bu dili qəbul etməsi üçün çox əsaslı bir qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmət, həm də gələcək nəsillər üçün böyük bir sənəddir". (2, s. 271-272)

Bu, məhz Heydər Əliyev qətiyyəti idi. 2001-ci il iyunun 18-də isə Ümummilli lider Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi barədə" fərman imzaladı. Bu fərman Azərbaycan dilinin inkişafı, tədqiqi, tərbiqi və təbliği barəsində bu günədək misli görünməmiş ən dəyərli tarixi sənəddir. Bu fərmanda eyni zamanda, latın qrafikalı Azərbaycan əlifbasına keçmək üçün hazırlıq işlərinin avqustun 1-i tarixinə qədər başa çatdırılması müvafiq təşkilatlar qarşısında bir vəzifə olaraq qoyuldu. Məlumdur ki, latın əlifbası da milli müstəqilliyimizi genişləndirən, respublikamızı sovet imperiyasından uzaqlaşdıran amillərdən biridir.

Eyni zamanda, müstəqil respublikamızda dövlətçilik ənənələrinin yarandığı bir mərhələdə dövlət dili haqqında fərman verildi. Bu fərmanda bir çox vəzifələr irəli sürüldü. Həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Respublika Prezidentinin 4 iyul 2001-ci il tarixli sərəncamı ilə komissiya yaradıldı.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni yollar açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Elə bu səbəbdəndir ki, ümummilli liderimiz Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i "Ana dili və əlifba günü" kimi təsis edildi.

2003-cü il yanvarın 2-də isə ulu öndərin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Öz doğma ana dilini sevən lider deyirdi: "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"(5, s. 34)

Göründüyü kimi, XXI əsr Azərbaycan dilinin inkişafında əlamətdar hadisələrlə zəngindir. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, ana dilimizin inkişafı, təsir dairələrinin genişlənməsi ilə bağlı Ulu öndərimizin verdiyi fərmanlar, sərəncamlar, qanunlar dilimizin daha da inkişafı üçün əlverişli şərait yaratdı.

Müstəqillik illərində Heydər Əliyevin qayğısı nəticəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Bu gün dilimizin özünəməxsus kamil qrammatik quruluşu, zəngin fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır.

Ona görə də Heydər Əliyev hər bir çıxışında qətiyyətlə dil məsələsinə toxunur və vurğulayırdı: "Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalarımızdan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun vətəndaşlıq borcudur"(3, s.121).

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən dil siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bəli, bu gün hər bir azərbaycanlı fəxr edir ki, məhz o, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın vətəndaşıdır, dili isə öz zənginliyi ilə dünyaya meydan oxuyan Azərbaycan dilidir.

Ədəbiyyat

1. "Azərbaycan" qəzeti. 4, 7, 9, 11 noyabr, 1995-ci il
2. Əliyev H. Müstəqillik yollarında. IV c., Bakı, 1997
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004.
4. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006.
5. Quliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003.
6. https://haydaraliyevcenter.wordpress.com

Ф.И.Джафарова

Наш язык сегодня

Резюме

Как известно, с приходом к власти великого лидера Гейдара Алиева начался этап прогресса и развития Азербайджана. Сосредоточение внимания на вопросах сохранения национально-нравственных ценностей нашего народа, исследование и изучение истории в необходимом направлении, повышение роли родного языка дали толчок усилению национального духа. Наш национальный лидер уделял особое внимание развитию нашего родного языка. В результате заботы Гейдара Алиева о родном языке, естественные права нашего языка были признаны, были восстановлены его позиции в обществе.

В статье рассматриваются мероприятия, осуществленные нашим великим лидером в направлении развития родного языка, освещаются принятые законы, постановления и распоряжения.

F.I.Jafarova

Our mother language today

Summary

As far as we know, with coming to power of Heydar Aliyev the period of flourishing and development started in Azerbaijan. Drawing attention of preserving national and spiritual values of our people, exploring our history, widening the role of the mother language and so on promoted the awakening of national spirit. Our common national leader made exclusive care towards the development of our mother language. Due to Heydar Aliyev's care, unjustice to our mother language was removed, it`s rights were preserved, it`s positions in the society were totally restored. The article deals with the events held by our great leader towards the development of our language, the laws and orders accepted by him were clarified.

Rəyçi: filol.e.d., prof. S.Ə.Həsənova

Redaksiyaya daxil olub: 30.01.2018

S.R.ƏZİZOVA

Ü.Hacıbəyli ad. Bakı Musiqi Akademiyası
(Bakı şəh., Ş.Bədəlbəyli küç., 98)

AZƏRBAYCAN ƏLİFBASI, AZƏRBAYCAN DİLİNİN YARANMASI VƏ İNKİŞAF TARİXİ

***Açar sözlər**: əlifba, run əlifbası, ərəb əlifbası, latın əlifbası, sait, samit*
***Ключевые слова:** алфавит, рунский алфавит, арабский алфавит, латинский алфавит, гласный, согласный*
***Key words:** alphabet, run alphabet, arabic alphabet, latin alphabet, vowel, consonant*

Dünya sivilizasıyasında bəşər tarixinin ən böyük və dəyərli nailiyyətlərindən biri yazı və əlifbanın kəşf edilməsidir. Bundan sonra artıq insanlar düşündüyü fikirləri və danışdığı sözləri yazıda ifadə etməyə nail olmuşlar. Digər tərəfdən bəşəriyyət əsrlərlə ərsəyə gətirdiyi bütün elm sahələrini, tarixini, adət-ənənələrini və ədəbi-bədii əsərlərini dünyanın müxtəlif ölkələrində göstərmək imkanı əldə etmişdir. İndi bunun nə dərəcədə əhəmiyyətli olmasını anlamaq çətin deyildir. Azərbaycan xalqının da yazı mədəniyyəti çox qədimlərə gedir. Deyilənlərə görə bizim şumerlər vaxtında əlifbamız olmuşdur. Lakin təəssüflər olsun ki, bu günə qədər tam şəkildə bizim əlimizə gəlib çatmamışdır. Əsas etibarilə Azərbaycan xalqının əski yazısı ərəb əlifbasıyla özünü göstərir. Bu da VII əsrdə İslam dininin yaranması və yayılması, ərəblərin istilaları nəticəsində öz dil, din, adət-ənənə, ədəbiyyat, elm və s. bütün Afrika, Yaxın və Orta Şərq, hətta Avropaya qədər yayılması ilə bağlıdır. Azərbaycan da istina deyildi. Beləliklə, biz də yarı xoş, yarı zor ərəb əlifbasını qəbul etməli olduq. Uzun illər, daha doğrusu 13 əsr (VII-XX) bu əlifbanın təsiri altında qaldıq (1, s.3).

Əlifba bu və ya digər dilin yazısında işlədilən həmin dil üçün qəbul edilmiş qaydada düzülmüş qrafik işarələr toplusudur. Əlifba sözü ərəb əlifbasının birinci iki hərfinin adından (əlif və be) düzəlmişdir. Əlifbanın kamilliyini göstərən başlıca şərtlərdən biri dildəki hər bir hərfə bir səsin uyğun gəlməsi, digəri isə diakritik işarələrin olmasıdır. Qədim türklər qrafik sistemləri oxşar olan run, uyğur, manixey əlifbalarından istifadə etmişlər (2, s.4).

Çox vaxt ilk əlifbanın yaradıcıları kimi finikkiyalılar, misirlilər, minoylar təqdim edilir və bu əlifbaların təxminən 4-5 min il yaşının olduğu hesab olunurdu. Amma mərhum dilçi alim Əjdər Fərzəlinin uzun illər apardığı tədqiqatlar dünyanın ilk əlifbası ilə bağlı indiyə kimi deyilən bütün fikirləri şübhə altına alır. Onun 30 ildən artıq müddətdə apardığı tədqiqatların nəticəsində Naxçıvanda Gəmiqaya adlanan ərazidə, Qobustanda, digər arxeoloji abidələrdə və Azərbaycan xalçalarında ilk dəfə olaraq qədim Azərbaycan əlifbası aşkara çıxıb. Onun bu araşdırması kitab şəklində çap edilib. "Nuhun gəmisi Gəmiqaya Qobustan əlifbası" kitabında dünyanın bütün əlifbalarının Azərbaycanda yaranan əlifbadan bəhrələndiyi əksini tapır. Qeyd edək ki, dilçi alim Qobustandan 6 min, Gəmiqayadan isə götürdüyü 1000 təsvir əsasında təhlillər aparıb. Əjdər Fərzəlinin tədqiqatları nəticəsində məlum olub ki, Qobustan və Gəmiqayadakı təsvirlərlə Mərkəzi Asiyadakı Orxon-Yenisey abidələri və digər qədim Türk yazıları arasında xeyli bənzərliklər mövcuddur. Tədqiqatçı həmçinin Nuh tufanından sonra yaranan ilk mədəniyyətin Gəmiqaya-Qobustan mədəniyyəti olduğunu göstərir (3, s. 10-18, 99-100).

Azərbaycanda piktoqrafik yazı nümunələri Qobustanda, Qazaxda, Gədəbəydə, Naxçıvanda qeydə alınmışdır. Təkcə Qobustanda 720 qayaüstü rəsmdə 4 mindən çox təsvir vardır. Azərbaycan əhalisi türk xalqlar qrupunun oğuz boyuna aid olduğundan bizim əlifba və yazı tariximiz qədim dövrlərə təsadüf edir. Türk xalqlarının qədim əlifbası run əlifbasıdır. Qədim run yazılı abidələri bizim eranın III əsrinə aid edilir. Türk run əlifbasının eramızın VII-

VIII əsrlərində istifadə edilməsi qeyd olunur. Qədim türk run yazıları, işarə və mətnləri Monqolustan, Çin, Sibir və Orta Asiya ərazilərində yayılmışdır. (4)

Azərbaycan xalqının və ümumxalq Azərbaycan dilinin təşəkkülü ilkin feodalizm dövrünün məhsuludur. "Kitabi-Dədə Qorqud"un son formalaşması bundan sonrakı dövrə VI-VIII əsrlərə aiddir. Bu zəngin abidə Azərbaycan şifahi ədəbi dilinin qiymətli nümunəsidir. XII əsrdən bu tərəfə ədəbi dilimizin inkişaf yolunu əks etdirən zəngin material var. Arada olan boşluğu doldurmaq üçün illərdən bəri aparılan axtarışlar tədricən nəticə verir. Bəxtiyar Tuncayın axtarışları nəticəsində IX əsr Azərbaycan alban dilinin zəngin və maraqlı bir nümunəsi əldə edilmişdir.

Tarixi sənədlərdə Səhl ibn Sunbatın adına rast gəldikdə həmişə məndə ona qarşı mənfi münasibət olub. Babəki ələ verməsə idi, Babək Bizansdan kömək alıb ərəbləri Azərbaycandan geri oturtsa idi, bizim taleyimiz tamam başqa cür olardı. Ən azı abidələrimiz qorunub saxlanmış olardı və biz I minilliyə dair ana dili - Azərbaycan türk dili ilə bağlı bu qədər məlumat qıtlığı ilə üzləşməzdik. Amma Sunbatın nəvəsi Qriqor Hammam xeyirxah işlər görüb – Frakiyalı Dionisinin qrammatikasını ana dilinə tərcümə edib, "Suallar və Cavablar" adlı traktat yazıb (856-865). Qriqorun adının qeyd edildiyi iki abidə tapılmışdır. B. Tuncay yazır: "Arranın böyük bir hissəsini özünə tabe edən Qriqor, özündən əvvəlki Xaçın knyazlarından fərqli olaraq, Kambisenanı da idarə edirdi. O, qısa müddətə olsa da, ləğv edilmiş Alban dövlətini bərpa etmişdi".

B.Tuncayın qeydlərindən aydın olur ki, albandilli abidənin (Qriqor Hammamın "Qramatika" əsərindən dövrümüzə qədər qalmış fraqmentin) üzərində nə vaxtsa əməliyyat aparılmış, yəni əlavələr edilmişdir. Əsər dövrün dil xüsusiyyətləri, elmi-fəlsəfi, təbii və dini görüşləri barədə kifayət qədər təsəvvür qazanmağa imkan verir. Göründüyü kimi, Qriqor Hammamın "Qrammatika" kitabından qalmış fraqment dövrün dil xüsusiyyətlərini öyrənmək üçün kifayət qədər material verir.

B.Tuncay axtarışlar aparmış, çini qab üzərində Manna dövrünə aid yazının şərhini vermiş, "erməni qıpçaqları" adı ilə xarici muzey və arxivlərdə yatan xeyli material üzə çıxarmış, "Qafqaz albanlarının dili və ədəbiyyatı" adlı qiymətli kitab çap etdirmişdir. Kitabda qıpçaq mətnlərinin geniş izahı ilə yanaşı, dil materialları əsasında alban dilinin fonetik, leksik və qrammatik quruluşu barədə maraqlı məlumat verilmişdir.

Qriqor Hammamın əsərindən qalan parça qarqar-qıpçaq dilinin abidəsi hesab olunur. Lakin bir sıra arxaik elementləri nəzərə almasaq, əsərin dili müasir Azərbaycan dilinin fonetik, leksik və qrammatik, xüsusən sintaktik quruluşuna tam müvafiqdir. Qriqor Hammamın əsərindən danışarkən, təbii olaraq, B.Tuncay əlifba məsələsinə də toxunmuşdur. Albanların özlərinin əlifbasının olması, qıpçaqlar üçün yeni əlifba yaradılması göstərir ki, albanlarla qarqarlar şivə xüsusiyyətləri ilə fərqlənmişlər. Bunlar bir daha sübut edir ki, albanlar hələ səlcuq oğuzları dünyaya gəlməzdən min illər əvvəldən Azərbaycanda kök salmış, "Dədə Qorqud"u yaratmış aborigen oğuzlardır. "Dədə Qorqud"da Qazan xanın "albanlar başı" kimi xatırlanması da bunu təsdiq edir.

IX əsr müəllifi Qriqor Hammamın "Alban dilinin qrammatikası" əsərindən əldə edilmiş orijinal mətnin ilk dəfə olaraq dili nəzərdən keçirilmiş, bir sıra morfoloji və sintaktik xüsusiyyətləri izah edilmişdir. Əsər qiymətli bir mənbə kimi IX əsr Azərbaycan türk dilinin fonetik, leksik və qrammatik quruluşu haqqında aydın təsəvvür yaradır. Azərbaycan dilinin səlcuqlardan çox-çox əvvəl təşəkkül tapmış olduğunu sübut edir (5, s.41-42,48-49).

Azərbaycan xalqının böyük oğlu dramaturq, materialist filosof M.F.Axundov ümumən şərq xalqlarının, xüsusən azərbaycanlıları maarifləndirmə və mədəniyyət aləminə daxiletmə yolu ilə feodalizm və din əsarətindən xilas etmək uğrunda mübarizə apararkən, ictimai münasibətin, mədəniyyətin ən kəskin silahı olan dili nəzərdən qaçırmamış, hətta dil və onun təzahür forması olan yazı ilə xüsusi məşğul olmuşdur.

M.F.Axundov dil və yazı məsələsi həll edilməyincə milli azadlığın, mədəni inkişafın, mədəni xalqlar sırasına daxil olmanın qeyri-mümkünlüyünü qeyd edərək, birinci növbədə xalqın savadlanması, elmi mənimsəməsi və savadın elmin vasitəsi olan dil-yazı məsələsinin həll etmənin zəruri olduğunu göstərmişdir. Dil və təfəkkür arasındakı bağlılığı, dilin ictimai mənaları ifadə edən bir vasitə olduğunu da M.F.Axundov dürüst surətdə dərk etmiş və dili sadəcə səs kompleksi kimi deyil, "ifadeyi-məna" kimi tanımışdır. Ümumən Azərbaycan dilinin, xüsusən Azərbaycan ədəbi dilinin formalaşıb inkşaf etməsində bir sıra dillərin bu və ya digər formada, rol oynadığını, təsir etdiyini doğru və dürüst surətdə müəyyənləşdirən M.F.Axundov, azərbaycanlıların müəyyən dövrdə Azərbaycan xalqına yad olan gətirilmə bir dili - ərəb dilinin ədəbi dil kimi işlətməyə məcbur olduqlarını və beləliklə Azərbaycan dilində yerli-yersiz ərəb sözlərinin işlənməsi ilə azərbaycanlıların öz ana dillərinin öyrənmədə xeyli çətinliyə düçar olduqlarını qeyd edərək, belə deyir: "Ərəblər bizə qalib gələrək öz dillərini bizə qəbul etdirdilər və öz dillərini bizim dilə qarışdırdılar. Bizi, əsl öz dilimizdə yazılan kitabları anlamaq üçün, ərəb dilini və onun qaydalarını öyrənməyə məcbur etdilər" (6, s.3-5).

1901-1920-ci illərdə Azərbaycan əlifbasının dəyişdirilməsi məsələsi müzakirə və mübahisə obyekti olsa da, əlifba dəyişməmiş qalmışdır. 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti yaranandan az sonra Azərbaycanda kargüzarlığın türk dilində aparılması ilə bağlı qərar qəbul edilir.

Əsrin əvvəllərində hökumətin fəal üzvlərindən biri olan Nəriman Nərimanov da Ərəb yazısını tənqid etmişdir. Nərimanov həll yolunu Kiril əlifbasının qəbulunda görürdü. O, özü bu dəyişilmiş yazı ilə bir neçə əsərlərini yazmış, Azərbaycan fonetikasının səciyyəvi cəhətlərini daha da dəqiqləşdirmişdir. 1921-ci ildə Nəriman Nərimanov Dadaş Bünyadzadə ilə birgə Azərbaycan SSR-də dövlət dilinin türk dili olması ilə bağlı dekret imzalayırlar. 1921-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının ilk Konstitusiyası qəbul edilir və oraya dövlət dili haqqında maddə salınmır. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. Azərbaycan rəsmi olaraq 1923-cü il oktyabrın 20-də Latın qrafikalı əlifbaya keçdi. Əvvəllər hər iki əlifba istifadə olunurdu. 1924-cü ildə Mərkəzi İcraiyyə Komitəsinin Azərbaycanda dövlət dilinin türk dili olması ilə bağlı qərarı qəbul olunur. 1929-cü ildə tətbiq olunan Azərbaycan əlifbasında 25 hərf (a, b, c, d, f, g, e, h, i, c, k, l, m, n, o, p, q, r, s, u, t, v, x, y, z) latın əlifbasından götürülmüşdü. Bunlardan 6-sı sait (a, e, i, o, u, y), 19-u samitdir (b, c, d, f, g, h, c, k, l, m, n, p, q, q, s, t, v, x, z). Halbuki Azərbaycan dilində 9 sait, 23 samit səs vardır.

Azərbaycan latın qrafikalı əlifbaya keçəndən beş il sonra Türkiyə də bu əlifbaya keçdi. Lakin imperiya siyasəti yenidən - 1939-cu ildə latını kirillə əvəz etdi, 10 il sonra İosif Stalin türklərin bu addımına qarşı kiril əlifbasını Sovet İttifaqının bütün müsəlman ölkələrinə tətbiq etdi.

1939-cü ilin 15 noyabrında latın əsaslı Azərbaycan əlifbasının kiril əsaslı əlifba ilə dəyişdirilməsi və yeni əlifbanın 1940-cı ilin yanvarından tətbiq olunması haqqında qərar qəbul olunmuşdur. Beləliklə də, xalqımızın mənəvi sərvətlərinə xəyanət əli uzadıldı. Yaradılmış minlərlə mənəvi sərvət xəzinəsi istifadəsiz qaldı. Bu, həm də xalqımızın psixologiyasına, mənəviyyatına vurulan böyük zərbə idi.

1956-cı ildə Azərbaycanın 1937-ci ildə qəbul olunmuş Konstitusiyasına aşağıdakı məzmunda maddə əlavə edilir: "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" (7).

1925-ci il tarixdən etibarən Azərbaycanda S.Ağamalıoğlunun təşəbbüsü ilə latın qrafikalı əlifbaya keçidin tərəfdarları müxtəlif tədbirlər keçirir, yeni əlifbanı kütlələrə tanıtmaqla məşğul olur, yeni əlibfaya tam şəkildə keçmək üçün maddi-mənəvi stimul yaratmaq uğrunda əzmlə mübarizə aparırdılar. Görülən mühüm işləri N.Nərimanov o zaman yüksək qiymətləndirirdi: "Mən artıq əminəm ki, yeni əlifba sözsüz həyata keçəcəkdir". Ərəb əlifbasından latına ilk keçid prosesini o vaxt yüksək dəyərləndirənlər onu "Şərqdə mədəni

inqilab" adlandırırdılar. Türkiyə naziri Səbri bəy Moskvada olarkən demişdir ki, latın əlifbasının Şuralar İttifaqında yaşayan türk-tatar xalqları arasında həyata keçməsi başqa türk xalqları üçün də nümunə ola bilər. Əsrin 20-ci illərində latın əlifbasının qəbulu sahəsində sonuncu dönüş ili Birinci Ümumittifaq Türkoloji Qurultayın çağırıldığı (1926-cı il 6 fevral) ərəfəyə təsadüf edir. Bu qurultayda latın əlifbasının sözügedən dövrün mədəni inkişafındakı rolu, azərbaycanlıların həyatındakı əhəmiyyəti və s. üzərində geniş dayanılmışdır. 1929-cu ildən başlayaraq Ümumittifaq MK-nın rəhbərliyi altında digər türk xalqları da yeni əlifbaya - latına keçirlər. Həmin ildə qazax, tatar, özbək dillərində standart orfoqrafiyalar yaradılır və istifadəyə buraxılır. 30-cu illərdən türkmən, başqırd, qaraqalpaq dillərinin əlifbası və orfoqrafiyası formalaşır. Beləliklə, türk ədəbi dillərinin orfoqrafiya bazaları yaradılır (8, s.88).

Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu.

Azərbaycan bir əsrdə 4 əlifba dəyişikliyinə məruz qalmışdır.(9)

Ərəb Cənubi Azərbaycanda (1929-cu ilə qədər həm də Şimali Azərbaycanda)	**Latın (1929–1939) Şimali Azərbaycanda**	**Kiril (1939–1991) Şimali Azərbaycanda**	**Latın (1992-h.h.) Şimali Azərbaycanda**
ا,آ	A a	А а	**A a**
ب	B b	Б б	**B b**
ج	C c	Ҷ ҷ	**C c**
چ	Ç ç	Ч ч	**Ç ç**
د	D d	Д д	**D d**
ائ،ئ	E e	Е е	**E e**
ع ,(کسره)	Ə ə	Ә ә	**Ə ə**
ف	F f	Ф ф	**F f**
گ	G g	Ҝ ҝ	**G g**
غ	Ƣ ƣ	Ғ ғ	**Ğ ğ**
ح,ه	H h	Һ һ	**H h**
خ	X x	Х х	**X x**
ی	Ь ь	Ы ы	**I ı**
ی	I i	И и	**İ i**
ژ	Ƶ ƶ	Ж ж	**J j**
ك	K k	К к	**K k**
ق	Q q	Г г	**Q q**
ل	L l	Л л	**L l**
م	M m	М м	**M m**
ن	N n	Н н	**N n**

و	O o	О о	**O o**
و	Ɵ ɵ	Ө ө	**Ö ö**
پ	P p	П п	**P p**
ر	R r	Р р	**R r**
ص,س,ث	S s	С с	**S s**
ش	Ş ş	Ш ш	**Ş ş**
ط,ت	T t	Т т	**T t**
و	U u	У у	**U u**
و	Y y	Ү ү	**Ü ü**
و	V v	В в	**V v**
ی	J j	Ј ј	**Y y**
ظ,ض,ز,ذ	Z z	З з	**Z z**

Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi. 1991-ci il dekabrın 25-də Azərbaycan Ali Soveti latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması ilə bağlı qərar qəbul etdi. Bunun tam rəsmi tətbiqinə 10 il sonra başlanıldı. Azərbaycan Respublikası ərazisində bütün idarə-müəssisələr, dövlət və qeyri-dövlət qurumları, Azərbaycan dilində olan bütün nəşrlər latın qrafikalı əlifbaya keçdilər. Bu tarixi proses prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanına əsasən gerçəkləşdi. Prezident Heydər Əliyev latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycanın siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq 2001-ci il avqustun 9-da daha bir fərman imzaladı. Həmin fərmanla 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edildi. Həmin vaxtdan etibarən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir (10).

Ümummilli lider Heydər Əliyevin imzaladığı fərmanlar, azərbaycançılıq ideyasının formalaşması və milli-mənəvi dəyərlərin qorunub saxlanması yolunda göstərdiyi misilsiz xidmətlərdəndir.

Ədəbiyyat

1. Cahan Agamirov – Əski Azərbaycan yazısı Bakı 2016.
2. Nadir Məmmədov, Cəmalləddin Rəhimov-"Latın qrafikalı yeni azərbaycan əlifbası" Maarif nəşriyatı-1992.
3. Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Aqra" Elmin İnkişafına Dəstək İctimai Birliyi tərəfindən nəşr edilən "Nuhun gəmisi Gəmiqaya Qobustan əlifbası" Bakı 2014.
4. Zaur Əliyev –Azərbaycan əlifbası, Azərbaycan dilinin yaranması və inkişaf tarixi.
irshadtv.com
5. Qəzənfər Kazımov –"Alban yazısı haqqında" "IX əsrin anadili Alban abidəsi və onun dili haqqında" Türkologiya Beynəlxalq elmi jurnal №-18.

6. Ə.Dəmirçizadə “M.F.Axundov dil haqqında və M.F.Axundovun dili” Azərbaycan XMK nəşriyyatı – Bakı 1941.

7. Zaur Əliyev –Azərbaycan əlifbası, Azərbaycan dilinin yaranması və inkişaf tarixi.

irshadtv.com

8. Ф.Агазаде, К.Каракашлы «Очерк по истории развития движения нового алфавита и его достижения. Изд. ВЦКНТА, Казань, 1928.

9. az.wikipedia.org-Azərbaycan dili

10. az.wikisource.org “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı 18 iyun 2001

С.Р.Азизова

Азербайджанский алфавит, создание азербайджанского языка и история развития

Резюме

Экземпляры пиктографической письменности в Азербайджане найдены в районах Гобустан, Казах, Кедабек и в Нахичеване. Только в Гобустане насчитывается более 4000 видов наскальных рисунков на 720 камнях.

В следствие того, что Азербайджанский народ относится к Огузской ветви Тюркской народности, история нашего языка и алфавита очень древняя.

Алфавит всегда считался необходимым условием для прогресса и процветания каждого народа. Однако, были случаи, когда алфавиты мешали культурному развитию и прогрессу Азербайджанского народа, в особенности развитию литературного языка. Необходимо отметить, что в Азербайджане в течение столетия алфавит изменили 4 раза. До 1929 года письменность на Азербайджанском языке проводилась по арабской графике, 1922-1939 гг. – по латынской графике (до 1929 г. – параллельно по арабской графике), в 1939-1991 гг. по кириллице, с 1991 года по латинской графике.

После провозглашения суверинитета нашей Республики, создавшаяся историческая ситуация дала возможность укрепиться латинской графике в нашем алфавите. 18 июня 2001 года президент Гейдар Алиев дал указание о необходимости укрепления латинской графики в алфавите.

9 августа 2001 года он подписал новый указ. Согласно этого указа, каждый год 1 августа в Азербайджане отмечается День алфавита и языка.

S.R.Azizova

Azerbaijani alphabet, creation of Azerbaijani language and history of development

Summary

In Azerbaijan, the pictograms were discovered in the area of Gobustan, Gazakh, Gadabay, Nakhchivan. There are more than 4000 rock paintings on 720 rocks just in Gobustan. As Azerbaijanis belong to the Oghuz branch of the group of Turkish people, the history of our alphabet and language dates back to ancient times. The Alphabet has always been considered as essential for cultural development and progress at all times. However, there were the alphabets which hindered the cultural development and progress of Azerbaijani, as well as the development of literary language.

It should be noted that the Azerbaijani alphabet has been changed four times in one century. Before 1929, Azerbaijani was written only in the Arabic alphabet. In 1922-1939 years, a Latin script alphabet was used (in parallel with Arabic alphabet till 1929), but in 1939-1991 the Azerbaijani language was written in a Cyrillic alphabet and then it was replaced with the Latin alphabet in 1991.

After gaining the independence, created historical conditions opened new perspectives to our people to join the common writing system of the world nations and made the restoration of the Latin alphabet necessary. This historical process was realized by the Decree of the president Heydar Aliyev dated June 18, 2001. Also one more the decree was signed on August 9, 2001.

According to this decree, August 1 st was marked as the Day of the Azerbaijani alphabet and the Azerbaijani language.

Rəyçi: ped.e.d., prof. O.Rəcəbov

Redaksiyaya daxil olub: 02.02.2018

N.Y.HACIYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ MÜSBƏT KEYFİYYƏT BİLDİRƏN BƏZİ SİFƏTLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sifətlər, struktur, təsnif, informasiya, şəkilçi*
Ключевые слова: *прилагательные, структура, классификация, информация, окончание*
Key words: *adjectives, structure, classification, information, ending*

Dilçilik ədəbiyyatlarında predmetin əlamətlərini bildirən sözlərə, nitq hissəsinə sifət deyilir və bir qayda olaraq təyinedici söz funksiyasında çıxış edir. Digər nitq hissələri kimi öz strukturuna görə ingilis dilində olan sifətlər sadə, düzəltmə və mürəkkəb olurlar. Həmçinin bəzən predikat kimi cümlədə işlədilə bilər. Məsələn:

That day was gloomy. - O gün hava tutqun idi.

Başqa dillərdən fərqli olaraq ingilis dilində olan sifətlər bir qayda olaraq hal, cinsə görə heç bir şəkilçi qəbul etmir, qədim ingilis dilində (orta ingilis dövründə) onun formal şəkilçisi **"-e"** səviyyəsinə gəlib çatır (3, s.66).

Digər dilçilik ədəbiyyatlarında da bu fikirlərə rast gəlmək olar.

Digər səciyyəvi cəhət ondan ibarətdir ki, sifətlər təsnif olunarkən onları mənalarına görə təsnif edirlər: əsli sifətlər – *dear, big, deep* və s.; nisbi sifətlər – *weekly, silken, wooden, vietnamese* və s. Başqa bir bölgü də vardır ki, bu da sifətlər mənalarına və qrammatik səciyyəvi xüsusiyyətinə görə keyfiyyət bildirən sifətlər və nisbi sifətlər adlanır. Bunları vurğulamaqda bizim fikrimiz heç də sifətləri qrammatik cəhətdən təhlil etmək deyildir. Bizim məqsədimiz bəzi sifətlərin semantik xüsusiyyətlərini kontekst daxilində tədqiq etməkdir.

Sifət əşyanı, hadisəni bir-birindən ayırmağa, həmin əşya və hadisələri fərqləndirməyə, bununla da əşyalar və hadisələr haqqında ətraflı, müfəssəl məlumat verməklə informasiyanı qəbul edən üçün anlamanın və qavramanın tez baş verməsini asanlaşdırır. Başqa bir məqam ondan ibarətdir ki, əlamət və keyfiyyət maddi varlığın ayrılmaz tərkib hissəsidir. Təbii olaraq bu ona görədir ki, mövcud olan varlıq (əşya) müəyyən formaya, əlamətə, keyfiyyətə malikdir. Bu əlamət və keyfiyyət, həmçinin forma qeyd etdiyimiz sifət vasitəsilə informasiyanı qəbul edənə çatdırılır. Məhz buna görə də zaman-zaman tədqiqatçılar dildən bəhs edərkən sifətə aid mütləq şəkildə fikir söyləmişlər və bu proses həmişə davam etməkdədir.

A.Leontyev belə hesab edirdi ki, nitq hissələrinin mənaya görə təsnif edilməsi inandırıcı deyildir. Bu o dildə danışanların "dilçilik hissiyatıdır. Belə bir hissiyat isə dilçi olmayan şəxslərdə də özünü göstərə bilər" (6, s. 81).

İngilis dilində müəyyən şəkilçilər vardır ki, həm isim, həm də sifət yaradırlar və buna görə də morfoloji əlamətlər nitq hissələrinin təsnif olunmasında mükəmməl, başqa sözlə həlledici rol oynamır. Bizim fikrimizcə, ingilis dilində sifətləri başqa nitq hissələrindən fərqləndirən əsas əlamət onların lüğəvi mənasıdır (əlbəttə şəkilçilərin də rolu vardır).

Məsələn, ingilis dilində *"fine"* sözü həm isim kimi *"cərimə"* mənasında, sifət kimi *təmiz, yaxşı (hava haq.), çox gözəl, qəşəng, zərif, xırda, saf, saflaşdırılmış, iri, çox böyük, iddialı, nazlı, əzilib-büzülən, ədabaz,* feil kimi isə *cərimələmək, cərimə ödəmək*, eləcə də *təmizləmək, şəffaf etmək, təmizləmək* mənalarına malikdir.

Biz bu keyfiyyətlərin kontekst daxilində işlədilməsini izləyək:

At last a day fine enough for the flight arrived. - Nəhayət uçuş üçün kifayət qədər yaxşı gün (münasib) gəlib çatdı.

The print is too fine for my eyes. - Şrift gözlərim üçün olduqca gözəldir.

It was fine if you invite us in! - Sizin dəvətiniz çox gözəldir/lütfkarlıqdır.

It was fine of you to come. - Gəlməyiniz yerinə düşdü (çox yaxşı oldu).

It was fine to bathe in the clear, refreshing water of the lake. - Gölün təmiz, şəffaf suyunda çimmək olduqca gözəl idi (ürəyəyatan idi).

a fine sense of humour - zərif yumor hissi/incə yumor hissi

a fine baby - iri uşaq

a fine copper - saflaşdırılmış mis

I could not wear Jim's hat but his clothes were fine (E.Hemingway). - Mən Cimin şlyapasını geyə bilmədim, lakin onun paltarı çox gözəl idi.

She is too much of fine day. - O həddindən artıq iddialı xanımdır.

Jim has made a fine job of garden. - O bağda böyük iş görüb.

Sonuncu iki cümlədə *"fine"* sözü özünün əlbəttə ilkin leksik mənasından bir qədər uzaqlaşıb əlamətin əndazəsi artıb və ona görə də bir qədər mənfi keyfiyyəti ifadə edib. Burada dahi Nizaminin *"Bir inci saflığı varsa da suda, Bəzən çox içilsə dərd verər o da"* yada düşür. Həmin kontekstdə də *"fine"* sözünün *"iddialı"* semantik çalarlıqda işlədilməsi hansısa əlamətin özünü həddindən artıq göstərməsidir.

"Fine" sözü ilə bağlı daha bir neçə cəhəti qeyd etmək istərdik. *"Fine"* sözü yaxşı keyfiyyəti, məzmunu, ideyanı ifadə edə bilir.

This is a fine book; you'll enjoy it. - Bu çox əla kitabdır, siz ondan zövq alacaqsınız.

Əlbəttə, cümlənin tərcüməsində asanlıqla müşahidə edə bilirik ki, *"fine"* sözü semantik tutumunda qeyd etdiyimiz kontekstdə həm kitabın keyfiyyəti, məzmununu və orada olan ideyanın necə əhəmiyyətli olması haqqında informasiya verir.

"Fine" sözünün başqa keyfiyyəti ondan ibarətdir ki, həmçinin hava haqqında işlədilərkən semantik çalarlığına daha yeni bir rəng qatır: *It is a fine day. What fine weather! - Gözəl gündür. Nə gözəl hava!* Bu ifadələrin arxasında *yağış yağmır, günəşli bir gündür, günəş parlaq şəfəq saçır.*

İnsan haqqında işlədilərkən isə onun mənəvi cəhətdən sağlam, təbiətən insanpərvər olması keyfiyyətini ifadə edir. *He's a fine man; he'll help us. - O mənəviyyatlı, xeyirxah adamdır, bizə kömək edəcəkdir.* Digər kontekstdə isə *"fine"* sözü hər hansı bir əşyanın, sənət əsərinin yaxşı, əla tərtib olunmasını ifadə edə bilir. *What a fine piece of work that painting is. - O rəsm əsəri necə də gözəldir (qəşəng).* Doğrudur, belə kontekstlərdə bəzən *"good"* sözü də işlədilə bilər, lakin unutmaq lazım deyildir ki, heç də sözlərin birləşə bilmək qabiliyyətindən asılı olaraq *"fine"* sözünün semantik quruluşunda olan çalarlıqlar *"good"* sözündə yoxdur. Adi halda hava haqqında hər iki sözü işlətsək də *"good"* sözü ilə fikir ifadə edilərkən sadəcə havanın təmiz və münasib olması nəzərdə tutulur, *"fine"* işlədilərkən bir qədər əvvəl qeyd etdiyimiz kimi, *"yağış yağmır, günəş parlaq şəfəq saçır"* anlayışı göstərilir.

Müsbət keyfiyyət bildirən daha bir qrup sifətlərin kontekstdə işlədilərkən hansı semantik çalarlığı ifadə etməsinə diqqət yetirməyimiz yaxşı olardı. Məsələn, *good-looking - yaxşı görünüşlü* – burada insanın zahiri görünüşü nəzərdə tutulur.

He's a good looking man, isn't he? - O xoşagələn/maraqlı adamdır, deyilmi?

She is a good-looking girl too. They make a good-looking pair/couple. - O qız da xoşagələndir – yaxşı görünüşlüdür. Onlar gözəl cütlük yaradırlar. Gözəl görünüşlü cütlükdürlər.

Müsbət keyfiyyəti ifadə edən başqa bir söz *"handsome"* sözüdür. Maraqlı cəhət ondan ibarətdir ki, həmin söz kişi cinsinə aid olduqda yəni kişi cinsinin keyfiyyətini ifadə edərkən, qadın cinsinin keyfiyyətini ifadə etdiyindən fərqli semantik çalarlığı göstərir.

He's handsome lad, the handsomest/most handsome in town. - O çox yaraşıqlı/boylu-buxunlu oğlandır, şəhərdə ən qədd-qamətlidir.

Qadınlar haqqında işlədilərkən isə yaraşıqlı, cazibədar, gözəl və qamətli mənalarını *"handsome"* özündə ehtiva edir. Məsələn,

What a handsome girl she is and what a fine character she has. - O qız necə də cazibədar, qamətlidir və necə gözəl xasiyyəti vardır.

Tərcümədən və kontekstdən göründüyü kimi burada xeyli fərqli semantik çalarlıq ifadə olunur.

Həmin söz məsələn bina haqqında keyfiyyəti bildirərkən daha yeni bir semantik çalarlığı göstərə bilər.

What a handsome old building Maiden Tower is! - Qız qalası nə əzəmətli qədim binadır!

"Handsome" sözü ilə hətta atalar sözü də formalaşıb və həmin atalar sözünün kontekst daxilində işlədilməsinə də bədii ədəbiyyatda rast gəlmək olur. Təbii olaraq biz həmin atalar sözünü ayrıca götürülmüş cümlə tərkibində deyil, kontekstdə təhlil etmək istərdik.

After he had gone and they were alone in their bedroom Mr. And Mrs. Carter talked him over. "He is handsome, you can't deny that" she said. "Handsome is as handsome does. Do you think he's after her money? (W.S.Maugham).

Fred Menson otağı tərk etdikdən sonra mister və misiz Karter yataq otağında tək qaldılar onun haqqında danışdılar.

-Yaraşıqlı/boylu-buxunlu oğlandır – heç nə demək olmaz xanım Karter qeyd etdi.

-Əməli gözəl olan gözəldir. Adam sözünə görə yox, əməlinə görə gözəldir. Sizə elə gəlmirmi ki, o onun qızının puluna görə belə hərəkət edir?

Onu da qeyd etmək lazımdır ki, *"handsome"* adətən isimdən əvvəl gəlir: *He managed to make a handsome profit out of the deal. - O sazişdən böyük məbləğdə gəlir əldə edə bildi (əla/yaxşı/yüksək gəlir əldə etdi mənasında).*

There are some handsome prize to be won. - Qələbə üçün əla prizlər vardır (5, s.693).

Vurğulamaq istərdik ki, hətta lüğətlərin özündə də *"handsome"* sözünün şərhində bəzi çalarlıqları fərqli şərh verilir. "Oxford Advanced Learner's Encyclopedic Dictionary"-də göstərilir ki, *"handsome"* - kişilərə aid təyin funksiyasında *good-looking - yaxşı görünüşlü* kimi, qadınlara aid təyin funksiyasında yaxşı biçimli bədən quruluşu və qamətli, cazibədar görünüş-anlamını ifadə edir. Məsələn,

I would describe her as handsome rather than beautiful. - Mən onu gözəl deyil, məhz qamətli, biçimli fiquralı kimi təsvir edərdim.

Tərcümədən göründüyü kimi qadın haqqında *"handsome"* özünün ilkin mənasından bir qədər fərqli çalarlıq ifadə edir.

Bütün yuxarıda apardığımız təhlilə əsasən belə qənaətə gələ bilərik ki, kefiyyət bildirən sifətlərin semantik quruluşu bütövlükdə kontekstdən çox asılıdır.

Ədəbiyyat

1. Musayev O.İ. İngiliscə-Azərbaycanca lüğət. B., 2003, 1673 s.
2. Arnold I.V. The English Word. 1986.
3. Ganshina M. and Vasilevskaya. English Grammar. M., 1958, 471 p.
4. Longman Exams Dictionary. Person Education Limited, 2006, 1831 p.
5. Oxford Advanced Learner's Encyclopedic Dictionary. Oxford University Press, 1993, 1081 p.
6. Леонтьев А.А. Фиктивность семантического критерия при определение частый речи. Вопросы теорий частей речи. Из-во Наука, Л., с.8.

Н.Я.Гаджыева

О некоторых семантических свойствах прилагательных, выражающих позитивные качества в английском языке

Резюме

В статье рассматриваются качественные свойства прилагательных, выражающих позитивность. Автор попытается дать информацию о классификации прилагательных с грамматической точки зрения, а также о их лексическом значении. С помощью контекста автор попытает-

ся вкратце дать информацию о семантике прилагательных. Автор отмечает, что в некоторых словарях семантическая структура прилагательных комментируется с разными отличиями. А также приводятся примеры с прилагательными, выражающими позитивность в пословицах.

N.Y.Hajiyeva

On some semantic peculiarities of adjectives expressing positive qualities in English

Summary

The article deals with the qualities of adjectives which express positiveness. The author tries to give classification of adjectives from grammatical point of view and lexical meaning. With the help of context the author tries to give brief information on semantics of adjectives. The author states that, in some dictionaries the semantics of adjectives is commented on different diversities. Therefore there are given translation of positive adjectives within proverbs.

Rəyçi: p.f.d., dos. L.S.Əsədova

Redaksiyaya daxil olub: 21.02.2018

X.Ə.QOCAYEVA
e-mail: khatira.gocayeva@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ DİSKURSUN İNTONASİYA TƏHLİLİ HAQQINDA

Açar sözlər: *diskurs, intonasiya, məzmun sözləri, köməkçi sözlər, vurğu*
Ключевые слова: *дискурс, интонация, содержательные слова, вспомогательные слова, ударение*
Key words: *discourse, intonation, content words, function words, stress*

Məlum olduğu kimi, dil daşıyıcıları, yaxud bu və ya digər dildə danışanlar fonemləri sözlərdə, sözləri isə cümlələrdə birləşdirmək bacarığına malik olduqları kimi, cümlələri də məzmunca əlaqələndirmək, bir-biri ilə birləşdirmək və daha böyük sintaktik vahidlər yaratmaq bacarığına malikdirlər. Dili bilmək daha mürəkkəb fikirləri və ideyaları əlaqəli cümlələrlə ifadə etmək bacarığını da özündə birləşdirir. Cümlədən nisbətən böyük olan linqvistik vahidlər diskurs adlanır. Mətn və diskurs təhlilinə gəldikdə onu demək olar ki, mətn təhlilində cümlələrin özündən böyük sintaktik vahidlərdə necə qurulduğunu, təşkil olunduğu məsələsi ön plana çəkilir. Diskurs təhlilində isə insanlar dildən necə istifadə edirlər, onu necə işlədirlər məsələsi ön plana keçir (3, s.91). Diskurs təhlil daha çox üslubi məsələləri, dilin funksiyalarına, danışanın niyyəti, motivi, marağına və s. diqqət yetirməyi nəzərdə tutur. Diskurs təhlili daha çox danışıq aktlarına - təsvir etmə, soruşma, tərifləmə, izahetmə, üzr istəmə, rədd etmə və s. cəhətləri ön plana çəkir.

Danışıq aktının yerinə yetirdiyi funksiyalar eksplit və implisit ola bilər. Məsələn,

I advise you to see a doctor. (məsləhət, eksplit)

I would see a doctor it I were you. (implisit)

Mətnin - diskursun daxili əlaqələrinin formalaşmasına xidmət edən amillər içərisində leksik, qrammatik vasitələrlə yanaşı, intonasiya da mühüm rol oynayır (2, s.144).

Danışıq zamanı bütün dillərdə nitq axını kiçik səs kəsiklərində təzahür edir. Burada səs kəsikləri dedikdə heca və ritmik qrup deyil, burada fonetik vahidlərdən böyük olan, mənalı nitq vahidləri – sintaqmlar, söyləmlər nəzərdə tutulur. Danışıq zamanı təzahür edən kiçik səs axınları, kəsikləri bir cümlədən böyük olmur. Belə cümlələr bir sintaqma, yaxud bütöv bir söyləmə uyğun gəlir. Məsələn, *Mary left the party because she was tired"* cümləsində iki cümlə vardır: *a) "Mary left the party" b) Because she was tired. "Mary intended to leave the party"* cümləsində də iki kloz vardir: *a) Mary intended, b) to leave the party.* Burada ikinci kloz *(to leave the party)* birinci cümlənin üzərində, ona əsasən müəyyən edilir. Lakin bu iki kloz bir-birilə elə möhkəm bağlıdır ki, onu bir səs kəsiyi, axını kimi götürmək olar, daha doğrusu, onları bir söyləm kimi götürmək olar (5, s. 99-100).

Diskursun təhlilində bəzi dilçilər, məsələn, Ceymz Paul Gii, danışıq aktında baş verən səs axınının kəsiklərini stənzə (şeirin bənd forması) formasında verməyə və təhlil etməyə üstünlük verir. Belə ki, o, bir uşağın söylədiyi hekayənin yazılı diskurs formasını aşağıdakı kimi verir və hər bir misranı (səs axınının kəsiklərini) əlifba sırası ilə qeyd edir. Uşağın nəql etdiyi mətn: *"There was a hook on the top of the stair way and my father was pickin me up and I got stuck on the hook up there and I hadn't had breakfast, he wouldn't take me down until I finished all my breakfast cause I didn't like oatmeal either".*

Bu hekayəni danışarkən dil vahidlərinin danışıq aktında üzvlənməsini, yəni səs kəsikləri formasında - klozlar formasında təzahürünü aşağıdakı şəkildə göstərir.

1_a *there was a hook*

1_b *on the top of the stairway*

1_c and my father was pickin me up
1_d and I got stuck on the hook
1_e up there
1_f and I hadn't had breakfast
1_g he wouldn't take me down
1_h until I finished all my breakfast
1_i cause I didn't like oatmeal either. (5, s. 100)

Bu səs axını kəsiklərinin, yaxud sintaqmların, söyləmlərin ingilis dilində necə işlənməsini başa düşmək üçün bir-biri ilə çox yaxın və daxili əlaqədə olan bir neçə linqvistik anlayışları, o cümlədən funksional sözlər, məzmun sözləri, informasiya, vurğu, intonasiya, misralar və stənzələr (bəndlər) kimi anlayışları nəzərdən keçirməyə ehtiyac vardır.

Qeyd edək ki, məzmun sözlərinə *(content words)*, leksik sözlər, daha doğrusu, ayrılıqda işlənən və özlərinin leksik-semantik mənası olan sözlər daxildir ki, bunlar da əsas nitq hissələrindən ibarətdir: isimlər, sifətlər, feillər, zərflər. Bu kateqoriyadan olan sözlər "açıq" kateqoriyaya daxildir. Belə ki, onların dildə çoxlu üzvləri vardır və onlar yeni mənaların yaradılmasında, yeni sözlərin formalaşmasında, eləcə də başqa dillərdən alına bilinən sözlərdir.

Funksional sözlər (onlar bəzən qrammatik sözlər adlanır) nisbətən kiçik kateqoriyalara daxildir və onlara "qapalı" kateqoriyalar deyilə bilər. Belə ki, bu sözlər dildə kəmiyyətcə azdır, yeni sözlər yaratmır və onların başqa dillərdən alınması məhduddur. Bu qəbildən olan sözlərə determinantlar, (artikllar, işarə əvəzlikləri) müxtəlif tipli əvəzliklər *(he/him, she/her, himself/herself)* və s. sözönləri bağlayıcılar aid edilir. Qrammatik sözlər göstərir ki, leksik-semantik sözlər söz birləşmələrində və cümlələrdə biri digəri ilə necə əlaqəyə girir və ünsiyyət prosesində bu sözlərin əlaqəsi ilə bir parça informasiya məzmunla necə uyğunlaşdırılır.

Məsələn, söyləmdə determinant kimi çıxış edən *"the"* müəyyən artikl sonra gələn informasiyanın artıq məlum olduğunu, əvəzliklər isə onların referensi haqqında əvvəlcədən məlumat verildiyini siqnal edir. Sözönləri isimləri və ismi birləşmələrini başqa sözlərə bağlayır və s.

Leksik və qrammatik sözlərə xas olan səciyyəvi və fərqli xüsusiyyətlər özünü vurğu və intonasiya baxımından da fərqli göstərir. Belə ki, mətn-diskurs daxilində leksik sözlər vurğu və intonasiya baxımından qrammatik sözlərdən fərqlənir. Belə ki, leksik sözlər mətn-diskurs daxilində qrammatik sözlərə nisbətən vurğu və tonlarla daha qarşılıqlı sıx münasibətdə olur. Başqa sözlə desək, leksik-semantik sözlər diskursda vurğu daşıyır və yeni informasiyaların daşıyıcısı kimi çıxış edir. Belə ki, leksik sözlər semantik vahidlər olaraq vurğu və intonasiya baxımından da özlərini fərqli göstərir. Vurğu və ton bu qəbildən olan sözlərin semantikasına informativlik dərəcəsinin tutumuna bələdçilik edir. Ancaq qrammatik sözlərin vurğu və intonasiya ilə qarşılıqlı münasibəti zəifdir və əsasən situativ-kontrastiv səciyyəvidir. Məsələn,

I want to know where he is traveling to.

Bu söyləmdə (cümlədə) *"to"* sözönü, yəni qrammatik söz olub, vurğu daşımır.

I don't want to know where he is travelling from.
I want to know where he is travelling to.

Bu söyləmlərdə qrammatik sözlər situativ-kontrast səciyyəli olduğundan *"from"* və *"to"* vurğu daşıyır və tonik vurğu ilə xarakterizə olunur.

İngilis dilində informasiyanın gözəçarpan cəhəti vurğu vasitəsilə qeyd edilir. Öz növbəsində də müxtəlif vurğu modelləri nitq axını kəsiklərinin intonasiya konturunu formalaşdırır.

İngilis dilində intonasiya konturları (modelləri) intonasiyanın struktur elementlərindən; söyləmin vurğusuz, və vurğulu hecalarından formalaşır. İntonasiya konturları (modelləri) dörd əsas elementdən təşkil olunur: taktönü, şkala, nüvə və taktardı (7, s.276).

Bu konturlar şkalalara və nüvə tonlara görə bir-birindən fərqlənir. İntonasiya konturlarında şkalaya və nüvə tonlara görə fərqlənən konturlar danışanların birinin digərinə, situasiyaya, onun predmetinə və modal-emosional münasibətləri ifadə edir. İngilis dilində

informasiyanın gözəçarpan cəhəti, qabarıqlığı nüvə tonlarının və onların istiqamətlərinin dəyişməsi ilə də siqnal edilir.

İndi isə kiçik bir diskurs nümunəsini intonativ baxımından nəzərdən keçirək:

Speaker A: Have you read any good books lately?

Speaker B: Well, I read a shocking book recently.

[Goes on to describe she book]

Qeyd edək ki, ingilis dili daşıyıcıları şüursuz olaraq danışıqda bir neçə vurğu dərəcələri işlədir və eşidirlər. Cümlə vurğusu fiziki baxımından bir sıra keyfiyyət və kəmiyyət elementlərinin, o cümlədən səsin ucalığının və uzunluğunun artması, səs tonunun aşağı və yuxarı istiqamətdə dəyişməsi, tempin azalması və s. kombinasiyasından ibarətdir ki, bunlar da sözün əsas vurğu daşıyan hecasında baş verir.(1, s.245)

Vurğu ton baxımından "Speaker B"-in cavabına nəzər saldıqda aşağıdakıları müşahidə etmək olar: "B"-in cavabından birinci söz olan *"well"* leksik mənalı söz deyil, bu söz burada danışan "B"-ni, danışan "A" ilə bağlayır. Bu o demək deyildir ki, *"well"* başqa formada vacib deyildir. Belə sözlərin maraqlı diskurs funksiyası vardır. Bu söz cümlələr arasında informasiyaları əlaqələndirməyə kömək edir. Odur ki, burada *"well"* sözü digər leksik sözlərə nisbətən az vurğu dərəcəsinə və alçaq səs tonuna və səs ucalığına malikdir.

"B"-nin cavabında ikinci söz "I" əvəzliyidir. Bu söz "A"-nın verdiyi sualdan tamamilə aydındır və o, qrammatik söz olduğundan informasiyada gözəçarpan deyil, odur ki, bu söz çox zəif vurğu, kifayət qədər az səs ucalığı və alçaq tonla səciyyəvidir. Cavabda *"read"* və *"book"* sözləri verilən sualda olduğundan onlar dinləyiciyə artıq məlumdur və az informasiya daşıdığından zəif dərəcəli vurğuya malikdir. Bununla belə onların vurğu dərəcəsi qrammatik sözlər olan *"well", "I"* və *"a"* sözlərindən daha çoxdur. Bu cavabda *"shocking"* artıq məlum olmayan yeni informasiyanın daşıyıcısı kimi çıxış edir. Bu söz cümlədə yeni informasiya daşıdığından danışan şəxs onu vurğu və ton baxımından daha qabarıq verir. Bu sözə qüvvətli vurğu dərəcəsi verilməsilə yanaşı, səsin ucalığı da artır, səsin tonu hərəki və sürüşkən olur. Belə ki *"shocking"* sözündə səs tonunun sürüşkənliyi intonasiya qrupunun, vahidinin foksunu məna mərkəzini qeyd edir.

"B"-nin cavabında leksik mənalı söz olan *"recently"* o qədər də gözəçarpan deyil, baxmayaraq ki, o, "A"-nın sualında qeyd edilməmişdi, amma *"recently"* sözü A-nın sualında işlənən *"lately"* sözü kimi nəzərdə tutulmuşdur. Odur ki, bu söz də *"read"* və *"book"* sözləri kimi vurğu dərəcəsinə malikdir, ola bilsin ki, bir qədər çox.

Bir çox hallarda intonasiya foksu məna mərkəzi sonuncu leksik məna daşıyan sözün üzərinə düşür. Məsələn, *"This summer, Mary finished fifteen assigned books".* Söyləm bir neçə formada verilən suala cavab ola bilər və burada suallara verilən cavablarda intonasiya fokusu *"book"* sözündə olacaq. Müqayisə edək:

1) Mary finished fifteen assigned what's? - Books.

2) What has Mary finished? - Fifteen assigned books.

3) What has Mary done? - Mary finished fifteen assigned books.

4) What happened? - sualında da eyni cavabı vermək olar.

Ünsiyyət prosesində intonasiya foksunun hansı sözün üzərində olması qoyulan sualların məzmununa aid kontekstdən asılı olur. Məsələn, yuxarıda qeyd edildiyi kimi, əvəzliklər qrammatik sözlər olub, gözəçarpan informasiya daşımırlar. Onu da qeyd edək ki, bu qəbildən olan sözlər kontekstdən asılı olaraq söyləmin intonasiya foksunu - mərkəzini öz üzərinə götürə bilir. Məsələn,

A: Did Mary shoot her husband?

V: No, she shot your husband!

Bu kontekstdə yeni və gözəçarpan informasiya daşıyan söz *"Your"*-dur. Bu söz kontrast məna daşıdığından – *yours, not hers* - güclü vurğu dərəcəsi ilə deyilir və o, həm də intonasiya qrupunun foksunu təşkil edir. Danışan şəxs bir şeyi digəri ilə qarşılaşdırdıqda, yaxud qabarıq

nəzərə çarpdırdıqda əlavə vurğu dərəcəsindən (daha güclü vurğudan), daha dramatik səs dəyişməsindən və səsin ucalığından istifadə edir ki, belə fonetik vasitə də emfatik vurğu adlanır.

İndi isə əvvəldə uşağın söylədiyi diskursu vurğu, ton və məzmun baxımından nəzərdən keçirək. Diskursun yazılı forması stənzə (şeir bəndi) formasında verilir. Burada vurğulu sözlərin altından xətt çəkilir. Qeyd edək ki, uşağın söylədiyinə bu variantda bəzi əlavə məlumatlar daxil edilir.

2^a last yesterday
2^b when my father
2^c in the morning
2^d and he ....
2^e there was a hook
2^f on the top of the stairway
2^g and my father was pick in me up
2^h and I got stuck on the hook
2^i up there
2^j and I hadn't had breakfast
2^k he wouldn't take me down
2^l until I finished all my breakfast
2^m cause I didn't like oatmeal either

Burada altından xətt çəkilən sözlər qrammatik sözləri çıxmaqla, hərçənd ki, onlar birləşmələr arasında yapışqan rolunu oynayır, yeni informasiya daşıyır və onlar eləcə də vurğu, ton daşıyıcıları kimi çıxış edir. Burada birinci xətt 2^a hadisənin baş verdiyi zaman haqqında məlumat verir. İkinci xətt 2^b hadisənin başlıca obrazı olan atanı təqdim edir. Üçüncü xətt 2^c birinci hadisənin baş verməsi haqqında məlumat verir. Dördüncü xətt 2^d uşağın danışığında ləngiməni, tərəddüdü göstərir. Beşinci xətt 2^c qarmağı təqdim edir. Altıncı xətt 2^f qarmağın harada olduğunu göstərir. Yeddinci xətt 2^g qarmağa ilişən hərəkəti göstərir. Sonrakı xətlər də bu qaydada müəyyən gözəçarpan informasiya daşıyıcıları kimi çıxış edir. Burada uşağın danışığında səs axını bir sintaqma uyğun gəlir və yaşlı adamların danışığından fərqlənir. O mənada fərqlənir ki, yaşlı adamların kodaçma qabiliyyəti uşaqlara nisbətən şüurlu olduğundan onların danışığındakı səs axınının kəsikləri nisbətən uzun olur. Odur ki, üslubi baxımdan, üslubi amillərdən asılı olaraq səs axınının kəsikləri diskursda fərqli ola bilər (5, s. 107).

Aparılan təhlil göstərir ki, leksik sözlər məna yükü və informativliyinin dərəcəsinə görə qrammatik sözlərdən fərqlənir. Bu fərq də onların cümlədə (söyləmlərdə) vurğulu və vurğusuz olması, eləcə də intonasiya qrupunun mərkəzini (foksunu) öz üzərinə götürməsi ilə şərtlənən amil kimi özünü göstərir. Qrammatik sözlərin isə ünsiyyət prosesində leksik sözlər arasında əlaqə yaratmaqdan, daha doğrusu, onları bir-birinə yapışdırmaqdan ibarətdir. Digər tərəfdən, qrammatik sözlər ünsiyyətdə tez-tez təkrar olunduğundan onlar bir növ köhnə, artıq dinləyiciyə məlum olan informasiyaların daşıyıcısı kimi çıxış edir. Bu xüsusiyyət də onların ünsiyyət prosesində vurğu və tonal elementlərin distribusiyasına təsir göstərir. Qeyd edək ki, leksik sözlərin də ünsiyyətdə təkrarına yol verilir, bu halda onlar da köhnə məlumatın daşıyıcısı kimi vurğu və tondan kənarda qalır. Məsələn, yuxarıda uşağın söylədiyi mətn-diskursda ata sözü *"my father"* 2^b və qarmaq *"hook"* 2^e sözü yeni informasiya daşıyıcıları kimi çıxış edir və vurğu-ton elementləri ilə səciyyələnirsə, onlar diskursun sonrakı hissələrində, o cümlədən *"and my father pick in me up"* 2^g, *"and I got stuck on the hook"* 2^h sıralarında vurğu və tondan kənarda qalır.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ingilis dilində diskursun təhlilində seqment vasitələrlə yanaşı, diskurs mətnin qavranılmasında və anlaşılmasında intonativ vasitələr mühüm rola malikdir.

Ədəbiyyat

1. Axundov A., Babayev S., Zeynalov F.H. İngilis və Azərbaycan dillərində vurğunun ritmik-melodik xüsusiyyətləri. Bakı: BDU, 1996.
2. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi. Bakı: "Elm", 2001.
3. Məmmədov A.Y., Məmmədov M.M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: "Çaşıoğlu", 2010.
4. Brazil D. et al. Discourse intonation and language teaching. London: Longman, 1980.
5. Gee J.P. Discoruse analysis (theory and method). London and New York: 1999.
6. Roach P. English phonetics and phonology. 4th edition. Cambridge University Press, 2009.
7. Wells J.C. English Intonation. Cambridge University Press, 2012.

X.A.Годжаева

Об интонационном анализе дискурса в английском языке

Резюме

В статье рассматривается анализ дискурса на интонационном уровне в английском языке. Также было обращено внимание на отличие лексических слов от грамматических по степени смыслового значения и информативности. В статье на интонационном уровне сделана попытка изучения лингвистических элементов дискурса, которые определяют их функциональное и семантическое значение, а также осмысление информации переданной в дискурсе.

Kh.A.Gojayeva

On an intonational analysis of discourse in the English language

Summary

The article deals with the analysis of discourse at intonational level in the English language. Also, it was shown that lexical words differ from grammatical words in terms of their meaning and informative value. In the article an attemp is made to study the linguistic elements of discourse at intonation level which determine their functional and semantic importance, as well as better understanding of the information conveying in discourse.

Rəyçi: f.e.d., prof. Ə.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 07.03.2018

A.A.QULİYEVA
e-mail: aydanguliyeva7@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İSPAN DİLİNDƏ QEYRİ-MÜƏYYƏNLİK KATEQORİYASI

Açar sözlər: *qeyri-müəyyənlik kateqoriyası, qeyri-müəyyən əvəzliklər, qeyri-müəyyən artikllar, ispan dili*
Ключевые слова: *категория неопределённости, неопределенные местоимения, неопределенные артикли, испанский язык*
Key words: *category of indefinite, indefinite pronouns, indefinite articles, the Spanish language*

Məntiqi-qrammatik kateqoriyalar geniş semantika spektrinə malik olduğundan dilçiliyin həmişə öndə olan tədqiqat obyektidir. Öyrənilməsinin əsası Aristotellə başlayan məntiqi kateqoriyaların dildə təcəssümü müxtəlif qrammatik ünsürlər vasitəsilə reallaşır. Mövzum çoxşaxəli və həm ispan, həm də azərbaycan dilçiliyi və tərcüməşünaslığı üçün maraqlıdır. Qeyri-müəyyənlik kateqoriyasının ispan və azərbaycan dillərində tərcümə baxımından müqayisəli öyrənilməsi bu mənada əhəmiyyət kəsb edir.

Qeyri-müəyyənlik, aid olduğu ismin qeyri-müəyyən kəmiyyətini ədədlərlə göstərməyən morfoloji kateqoriyadır (2, s.71). Bu, insana da aid ola bilər (aşağıda insan üzü şəklinin altında göstərilən sxemdəki kimi), eyni zamanda ayrı-ayrılıqda heyvan və əşyalara da (şüşənin üzərinə qoyulmuş stəkanın sağ və solunda göstərildiyi kimi). Əgər biz aşağıdakı cədvəldə stəkanın sağ tərəfinə baxsaq görərik ki, yavaş –yavaş su ilə dolur (dolmuş suyun miqdarı "nəysə" *-algo-* damlası "həddindən artıq" *-demasiado-* sözünün daşması ilə dəyişir. Təsəvvür edək ki, onun sol tərəfində kəmiyyət formaları ilə müəyyənləşdirə biləcəyimiz qeyri-müəyyən sayda stəkanlar var.

Esquema 58: Los indefinidos

con sustantivos contables		**con no contables**
PERSONAS	**PERSONAS, ANIMALES Y COSAS**	**CANTIDAD**
	cuanto,a,os,as tanto,a,os,as varios,as demás cada cierto,a,os,as semejante, es tamaño,a,os,as mismo,a,os,as propio,a,os,as otro,a,os,as igual,es tal,es cualquier,a,cualesquiera un,o,a,os,as algún,o,a,os,as	demasiado,a,os,as todo,a,os,as mucho,a,os,as poco,a,os,as más menos bastante, es suficiente,es algo
quienquiera, quienesquiera alguien		
nadie	ningún,o,a,os,as	nada

Qeyri-müəyyən əvəzliklərin önəmi ispan dilində olduğu kimi digər dillərdə də sərhədsizdir, bunun da dörd başlıca səbəbi və fərqli bir özünəməxsusluğu var [3, s.309]:

- Geniş bir kateqoriyadır; belə ki, heç bir dilin qrammatikası digəri ilə bütün qrammatik formaların uyğunluğunda üst-üstə düşmür (yuxarıda göstərilən sxemə digər formaları da əlavə etmək və ya ordan çıxartmaq olardı);

- Bu əvəzliklər bir növ çoxsaylı morfoloji formaların da daxil olduğu "qarışıq və nizamsız əşya qutusu"dur. Sanki bu morfoloji formalar digər paradiqmalarda ya tamamilə yoxdur, ya da müəyyən bir hissəsi, buna görə də məhz burda toplanmışlar (buna nümunə olaraq "artikl"ı göstərmək olar: *un,o,a,os,as*);

- Mənaları da çoxdur; belə ki, çox işlək formaları olduğuna görə hədsiz sayda xüsusi dəyər qazanmışdır: (məsələn, *cierto,a,os,as*);

- Onların sintaqmda sintaktik ifadə vasitələri kastelyan dilində geniş müxtəlifliyə sahibdir. Məsələn, *poco* sözü *"Come un poco de todo" (hər şeydən biraz yeyir)* cümləsində özək rolu oynayır; zərf(li) əvəzlikləşmədə (pronominalizasiya) "*Come poco" (az yeyir)* və *"Come pan poco hecho" (az bişirilmiş çörək yeyir)* və *"Come poco pan" (az çörək yeyir)* cümləsində isə müəyyən əvəzlik rolunda oynayır.

İndi isə bu qeyri-müəyyən sözlərin hər birinə ayrı-ayrılıqda nəzər yetirək:

Alguien/nadie – Kimsə/heç kim

Quienquiera (hər kim) ilə yanaşı insana aid olan yeganə qeyri-müəyyən əvəzliklərdir. Nə şəxsə, nə də kəmiyyətə görə uzlaşmırlar. Spesifikləşməli olduğu zaman isə *algún/ningún (bəzi, bir, hər, hansısa/heç)* formasına keçir, eyni ilə *algo/nada (nəsə, bir şey/heç nə) – da* olduğu kimi (3, s. 310).

Quienquiera – Hər kim

Orta cinsə aiddir, cəm şəklində qadın və kişi cinsi isə *quienesquiera* halında olur. *Quien quiera* forması ilə səhv salınmamalıdır: *Quienquiera que pueda hacerlo no coincidirá siempre con quien quiera hacerlo (Bunu edə bilən kəs bunu eləmək istəyən kəslə hər zaman həmfikir olmur).*

Algún/ningún – Bəzi, hansısa, hər/heç

Hər ikisinin beş forması var: orta cinsi *(alguno, ninguno),* kişi cinsi və cəm forması, qadın cinsi və cəmi *(alguno,os,a,as),* eyni zamanda qısaltmaları da olur *(algún, ningún).* Əsas xüsusiyyətləri bunlardır:

- İnkar cümlələrində orta cinsə çevrilir ancaq aid olduğu ismin ya qarşısında, ya da ondan sonra işlənməlidir: *No tengo ningún libro/No tengo libro alguno (heç kitabım yoxdur).*

- *Alguien/nadie (kimsə/heç kim)* və *algo/nada (nəsə, heç nə)* sözləri ilə qarşılıqlı əlaqədə olur.

- Eləcə də bəzi qəlibləşmiş ifadələrdə işlənir: *de ninguna manera (heç bir şəkildə, heç bir halda), en modo alguno (heç bir şəkildə), alguno que otro (bəziləri, digərləri, bu və ya digər).*

Uno – Bir

Beş forması var: orta cins (uno), kişi cinsi və cəm forması, qadın cinsi və cəm *(uno,a,os,as),* həmçinin sonluğu atıla da bilir *(un),* eləcə də artikl olaraq formaları var *(el uno, los unos, la una, las unas, lo uno – orta cins).* Eyni zamanda *alguno/ninguno (hansısa/heç biri)* və törəmələrində monem kimi çıxış edir. Aşağıdakı xüsusiyyətləri daşıyır:

- Təkdə olan yeganə rəqəmdir; belə ki, *"uno"(bir)-dan* artıq mənası olduğuna görə cəm halda rəqəm olmur;

- Onun ifadəli dəyəri, yaxud da artımı bu cür konstruksiyalı cümlələrdə daha aydın nəzərə çarpır: *¡Es ya una mujer! (O, artıq (bir) qadındır), ¡Es un sinvergüenza! (O, (bir) utanmazdır) ¡ Es un Picasso! (O, (bir) Pikassodur)¡Vaya una música que toca ese! (Onun çaldığı musiqiyə bir bax!);*

- Bəzən rəqəmsal bir təqribilik mənası daşıyır: *Tiene unos cincuenta años (Təqribən 50 yaşı var);*

- Şəxs əvəzliyinin I şəxsinə bərabər ola bilər, yəni onu əvəz edə bilər, belə ki bu halda fel III şəxsdə olmalıdır: *Acaba uno por ceder siempre ante los hijos (Hər zaman övladlarının istədiyini edir).*

- *"todos a una"* tipli xüsusi ifadələrdə və digər birləşmələrdə iştirak edir: *uno...otro (biri digərini), una (de)...que (biri), una vez que (bir dəfə), una vez + participio (bir dəfə + feli sifət).*

Cualquiera (Hər kəs, istənilən)

Bütün formaları mövcuddur: orta cins *(cualquiera),* kişi və qadın cinsi həm təkdə, həm cəmdə, eləcə də cins fərqi olmadan *(cualquiera, as),* həmçinin xüsusi bir hal kimi cəm forması *(cualesquiera)* və qısaldılmış forması *(cualquier).* Bu qeyri-müəyyən formanı anlamaq və hər zaman edilən səhvlərdən qaçınmaq üçün bu nümunələrə baxaq:

- *Cualquier hombre o mujer lo haría (İstənilən kişi, yaxud qadın bunu edərdi);*

- *Eso lo hace un hombre o mujer cualquiera (Bunu istənilən kişi və qadın edir);*

- *Eso lo hacen dos hombres o mujeres cualesquiera (Bunu istənilən iki kişi və qadın edir);*

- *Eso puede hacerlo un cualquiera, o una cualquiera, o dos cualquieras (Bunu istənilən kişi və ya qadın, yaxud da hər ikisi edə bilər);*

- *Cualquiera puede hacerlo (Hər kəs bunu edə bilər);*

- *Cualquiera que pueda hacerlo, lo hará (Bunu edə bilən hər kəs edəcək);*

- *Cualesquiera que puedan hacerlo, lo harán (Bunu edə bilən istənilən kəslər edəcəklər).*

Tal – Belə

Beş forması mövcuddur: orta cins *(tal),* kişi və qadın cinsi və onların cəm forması *(tal, tales).* Eyni zamanda qəlibləşmiş ifadələrdə də işlənirlər: *fulano de tal (yəni, belə ki, belə bir filankəs), le pareció tal cual (kimi göründü), lo hace como si tal cosa (sanki, belə bir şeymiş kimi bunu edir), estuvo hablando de desórdenes y tal (O nizamsızlıqlardan və s. danışırdı), ¿Qué tal estás?(necəsən?), que si tal (birdən əgər), que si cual (birdən əgər), son tal para cual (onlar üçün belədir)...*sintaktik əlaqəli birləşmələrdə də işlənir: *tal...tal (belə), tal cual (olduğu kimi), tal y como (kimi), cual...tal (nə...belə), de tal suerte que (belə bir şəkildə), de tal modo que (beləliklə), de tal manera que (belə bir şəkildə), en grado tal que (bu dərəcədə, elə bir həddə), con tal de (que) (beləliklə).*

İgual – Bərabər, eyni

Beş forması var, eyni zamanda zərf forması *(igual):* orta cins *(igual),* qadın və kişi cinsinin cəm formaları (*igual, iguales). İgualito* və *igualico* formalarını da ala bilir. Sintaktik əlaqələrdə iştirak edir: *igual...que (eyni), igual (de)...que (eyni),* həmçinin *a igual trabajo (eyni işə), igual salario (eyni məvacib).* Qeyri-müəyyənlik kateqoriyası elə bir universal məntiqi-linqvistik kateqoriyadır ki, tərcümə prosesində onun bütün semantik çalarları incəliklə açılır. Bu kateqoriyanın ifadə vasitələri bir-birini əvəzləyə bilir, mənaca genişləndirə və ya daralda bilir [4, s.84]. Ümumiyyətlə, ispan dilində qeyri-müəyyənlik çalarları xüsusi leksemlərlə düzəlir: *mucho tiempo antes (çox əvvəl), después más tarde (çox sonra)* və s. Burada qeyri-müəyyənliyin sırf leksik yolla düzəldiyini görürük. Başa düşüldüyü kimi qeyri-müəyyənlik dilə ekspressivlik, emosionallıq, bir sözlə, üslubi dəyərlər verir.

Ədəbiyyat

1. В.С.Виноградов, Грамматика испанского языка. Москва: Книжный дом «Университет», 2000, с.67-70.

2. E.A.Llorach, Gramática de la lengua española . Madrid: "Espasa Calpe" S.A., 2000, p.70-71, 198-201.

3. E.Coseriu, Teoría del lenguaje y lingüística general . Madrid: "Gredos" Biblioteca Románica Hispánica, 1962, p.308-310.

4. L.G.Torrego, Grámatica didáctica del español. Madrid: Ediciones SM, 2005, p.82-90
5. О.Г.Берестова, Понятийная категория состояния в философии и лингвистике // Известия ПГПУ им. В.Г.Белинского, 2012, №-27, с.199-201
6. "Pronombres indefinidos". Lingolia Simplemente mejor en idiomas, Copyright 2017
https://espanol.lingolia.com/es/gramatica/pronombres-y-determinantes/pronombres-indefinidos

А.А.Гулиева

Категория неопределенности в испанском языке

Резюме

В статье анализируются категория неопределённости, неопределённые местоимения и дается сравнение с данными местоимениями в азербайджанском языке. В обоих языках существуют неопределённые местоимения, которые являются ярким примером лингвистических единиц. А также успешно функционирующих во всех стилистических приемах. Различные виды неопределённых местоимений охватывают разнообразные нюансы семантической неопределенности. Также подчеркивается факт того, что данные местоимения невозможно заменить другими частями речи. Неопределенные местоимения как по форме, так и по содержанию демонстрируют неопределённость.

A.A.Guliyeva

The category of indefinite in Spanish

Summary

The article analyzes the category of indeterminacy, indefinite pronouns and compares them with the given pronouns in the Azerbaijani language. In both languages there are indefinite pronouns, which are a vivid example of linguistic units. And also successfully functioning in all the merging techniques. Different types of indefinite pronouns cover a variety of nuances of semantic indeterminancy. It also emphasizes the fact that these pronouns can not be replaced by other parts of speech. Indefinite pronouns both in form and content show indeterminancy.

Rəyçi: filol.f.d. A.V.Quliyeva

Redaksiyaya daxil olub: 06.02.2018

Ü.İ.ZEYNALOVA
e-mail: zeynalova.ulviyy@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ SONOR SAMİTLƏRİN FONETİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *sonorlar, hecayaradan səslər, variativlik, approksimantlar, burun səsləri*
Ключевые слова: *сонорные, слогообразующие звуки, вариативность, аппроксиманты, носовые звуки*
Key words: *sonorants, syllabic sounds, variation, approximates, nasal sounds*

Məlum olduğu kimi samit səsləri müxtəlif prinsiplər üzrə təsnif edirlər və onların hər biri özünəməxsus fizioloji və akustik üstünlüyə malikdir. Hər bir səsin üç aspekti vardır: artikulyator, akustik, oditor və səslər bu səviyyələrə görə tədqiq olunur.

Dilçiliyin fonetika və fonologiya sahəsində sonorlar və ya resonantlar elə danışıq səsləridir ki, onlar səs cığırında davamlı, kəsilməyən hava axını nəticəsində əmələ gəlir. Sonorlardan bəhs edərkən öncə onu qeyd etmək yerinə düşərdi ki, fonoloqların bu səslər barəsində bəzi mülahizələri olub. Sonorlar dildə olan bütün digər səslərdən fərqlidirlər.

Sonor səslərin tələffüzündə ton küyə üstün gəlir. Artikulyator xüsusiyyət sayəsində sonorlar samitlərə deyil, sait səslərə oxşayırlar. Akustik cəhətdən sonorlar bütün başqa samitlərə qarşı qoyulurlar. Çünki, bu səslər müəyyən struktur quruluşa görə təsnif olunurlar və səslərin ümumi gücü çox yüksəkdir (3, s. 60).

Cingiltili samitlərin tələffüzündə musiqili ton küyə üstün gələrsə, belə samitlər sonor samitlər adlanır. "Sonor" sözü latın dilindən götürülüb, mənası "sonor" -səs, "ant" isə -küy deməkdir. Bu səslərin tələffüzü zamanı yaranmış hava axını üçün keçid xeyli genişlənir. İngilis dilində yeddi sonor samit səs vardır [m,n,ŋ,w,j,r,l].

Sonorlar cingiltili səslərdir. Ümumiyyətlə, sonor səsləri aşağıdakı kimi qruplaşdıra bilərik: kipləşən və novlu sonor, yaxud burun sonorları [m,n,ŋ], yarımsaitlər və ya approksimantlar [w,j], süzülənlər [l,r]. Funksional cəhətdən, yəni hecadakı mövqelərinə görə [r,j,w] samit kateqoriyasına daxil olduğu halda, fonetik nöqteyi-nəzərdən sonorlar daha çox sait səslərə meylli olurlar (6, s. 11).

torpaq" əsəri bu mövzuda yazılmış ən təsirli ədəbi nümunələrdəndir. Əsərdə kəndlərdə əli silah tutan bütün kişilərin orduya cəlb olunması və geridə qalanların çəkdiyi sıxıntılar, əzab-əziyyətlər təsirli bir dillə qələmə alınmışdır. Bir yandan ərzaq qıtlığı, aclıq, səfalət, digər yandan isə cəbhədən gələn ölüm xəbərləri, müharibənin uzanması səbəbilə orduya çağırılma yaşının aşağı çəkilməsi, ayrılıqlar, göz yaşları bir sözlə, müharibənin bütün dəhşətləri oxucunun gözləri önündə canlanır.

Amerikan yazıçısı Cozef Hellerin "Tələ-22" romanı İkinci Dünya müharibəsindən sonra yazılan ən tutarlı müharibə ədəbiyyatı nümunələrindən biridir. Lakin C.Heller bu romanında müharibəyə kinayə ilə yanaşmış, onu oxucuya ironik kontekstdə təqdim etmişdir. İnsanlıq tarixinin ən amansız müharibəsi, müharibənin tam ortası, Aralıq dənizində bir ada, adada bir-birindən ağılsız pilotlar, zabitlər, əsgərlər, heç yaşamamış ölülər və bütün bunların arasında bir bombardımançı pilot Con Yossarian. Bütün bunlar Cozef Hellerin 1961-ci ildə yazdığı anti-militarist "Tələ-22" romanının məğzinin sadəcə kiçik bir hissəsidir. İkinci Dünya müharibəsi zamanı İtaliya yaxınlığında xəyali bir ada olan Pianosada keçən Tələ-22 müharibəyə istiqamət verən təfəkkürü, müharibənin fərdi və kollektiv qavrama tərzini tənqid atəşinə tutur. Əsərin baş qəhrəmanı - anti-qəhrəman Yossarian ABŞ hava qüvvələrində bombardımançı pilotu vəzifəsini icra edir. Pilotlara bəzi müəyyən tapşırıqları icra etdikdən sonra evlərinə qayıda biləcəklərinə söz verilmişdir. Lakin verilən tapşırıqları yerinə yetirdikləri halda tapşırıqların sayı artırılır və beləliklə də pilotların evə qayıtması imkansız bir hal alırdı. Bu ərəfədə hər iki tərəfdən itkilər davam edirdi. "Tələ-22"də müharibənin bu bürokratik axmaqlığı çox sadə bir ifadə ilə təcəssüm etdirilir: "tələ-22". Bu bir qaydadır. Həmin qaydaya görə artırılan uçuşlara etiraz edən bir zabitin etirazı bir şərtlə qəbul olunardı ki, ağlı yerində olmasın. Amma buna etiraz edərsə deməli ağlı yerində idi. Bu vəziyyəti başa düşüb dərk etməsi onun dəli olmadığının sübutu idi. Orduda dəli olduğunu iddia edəni vəzifəsindən azad edirdilər, lakin bunu iddia edirsə, yəni bunun fərqinə vara bilirsə deməli dəli deyildir. Yossarian isə hər iki halda evə qayıda bilmirdi.

Romanın aşağıdakı sətirlərinə nəzər salaq:

"Bəli, sadəcə bir qayda var idi -"tələ-22". Bu qaydaya görə ağlı başında olan bir insan gerçək və yaxın təhlükələr qarşısında öz təhlükəsizliyi ilə yaxından maraqlanmalı idi. Or dəli idi, buna görə də, torpaq vəzifəsinə qoyula bilərdi. Sadəcə bir şey tələb etməli idi. O, bunu tələb etdiyi an dəliliyi keçmiş olacaq, beləliklə məcburən vəzifə uçuşunu yerinə yetirməli olacaqdı. Əgər Or tez-tez vəzifə uçuşuna çıxarsa dəli, əks halda ağıllı hesab olunardı. Amma ağıllı idisə uçuşları həyata keçirmək məcburiyyətində idi. Əgər uçuşlara razı idisə dəli idi və buna razı olmaq məcburiyyətində deyildi. Amma razı olmazsa ağıllı idi və uçuşları həyata keçirməli idi. Tələ-22-nin ağıllara durğunluq gətirəcək qədər sadə bir qayda olması qarşısında Yossarian heyrətlənmişdi. Uzun bir fit çaldı: - "Bu tələ-22 necə də zəruri bir qayda imiş"- dedi.

– "Haqlısan ən yaxşı qaydadır" - deyərək həkim Danika təsdiqlədi (Tərcümə bizimdir-Ə.Ə) "

Əsərin başqa bir hissəsində Yossarianla həkim Danikanın söhbətinə diqqət yetirək:

" – Xəstəxanada lisenziyalı bir psixiatr məni müayinə etdi və onun qərarı bu oldu ki, mən həqiqətən dəliyəm.

– Aha?

– "Nə aha?" - Həkim Danikanın anlayışsızlığı Yossarianın ağlını qarışdırmışdı. -"Bunun nə demək olduğunu başa düşmürsən? Artıq mənə uçuşu qadağan edib, evə göndərə bilərsən. Dəli bir adamı ölümə göndərə bilməzlər, elə deyilmi?"

– "Başqa kim ölümə gedər ki?" (Tərcümə bizimdir – Ə.Ə) "

"Tələ – 22" ilə C.Heller ingilis dilinə yeni bir ifadə qazandırmışdır - "tələ – 22". Məntiqi baxımdan içindən çıxılması mümkün olmayan bir vəziyyəti izah etmək üçün "tələ – 22" ifadəsi işlədilir.

Romanda Milo Minderbinder obrazının timsalında müharibənin bəzi insanlar üçün qazanc mənbəyi olması, bazar iqtisadiyyatı və ac qurdlar tənqid edilir. Polkovniklərin, mayorların, generalların, bir sözlə, bir çox rütbəlilərin öz mənfəətləri uğruna etdikləri və hətta edə biləcəkləri açıq-aşkar ifşa olunur.

"Tələ-22" əsərində müharibənin sadəcə düşmənlə mübarizədən ibarət olmadığını, burada fərdi-psixoloji travmalardan söhbət getdiyini anlamaq mümkündür. Bu anti-qəhrəman Yossarianın və onun digər hərbiçi yoldaşlarının timsalında öz əksini tapır. Onların psixoloji durumları olduqca qarışıqdır. Xüsusilə Yossarian gah ətrafdakıların onu öldürməyə çalışdığını iddia edir, gah evə qayıtmağın yollarını axtarır, özünü xəstə kimi aparır. Qara ciyərindəki ağrıya görə hərbi xəstəxanada müalicə alan Yossarian üçün həkimləri aldatmaq heç də çətin deyildi. Çünki onun qızdırması hər zaman 38 dərəcə olardı. Bu vəziyyət isə həkimləri çaş-baş salırdı, ona sarılıq diaqnozu qoya bilmirdilər. Müharibədən sağ qurtulub evinə getməkdən başqa dərdi olmayan, digər tərəfdən də 60-cı illərin müharibəyə qarşı mübarizə ruhunu daşıyan Yossarian özünü dəliliyə vurur. Ətraf mühit tərəfindən psixoloji təzyiqlərə məruz qalaraq Yossarian hamının onu öldürmək istədiyini düşünür. O, eyni zamanda öz yoldaşlarının da psixoloji gərginliyini anlayır. Yossarianın qaçmaq istədiyi isə sadəcə müharibə deyildir, o həm də müharibənin bütün qalıqlarını geridə qoyaraq sakit həyat yaşamaq istəyir.

Əldə edilən qalibiyyətin yüksək qeyd olunmaması da özlüyündə "Tələ – 22"nin müharibənin mənasızlığına işarə etdiyini sübuta yetirir. Müharibənin hərtərəfli mənasızlığı və absurdluğu romanda kinayəli bir üslubla oxucuya çatdırılır.

Ədəbiyyat

1. Joseph Heller- "Catch-22"
2. https://www.britannica.com/biography/Joseph-Heller
3. https://www.britannica.com/topic/Catch-22-novel-by-Heller#ref1243346
4. http://www.kitapyurdu.com/kitap/madde-22/81021.html
5.http://www.dr.com.tr/Kitap/Madde-22/Joseph-Heller/Edebiyat/Roman/Dunya-Roman/urunno=0001687358001
6. http://kitap.yazarokur.com/madde-22
7. https://1000kitap.com/kitap/madde-22--16444

А.Э.Ализаде

Тема войны в контексте ироничности в романе «Уловка -22» Джозефа Хеллера

Резюме

«Уловка -22» Джозефа Хеллера – один из самых последовательных примеров военной литературы, написанной после Второй мировой войны. Однако С. Хеллер переживал по поводу войны в этом романе и представил ее читателю в ироничном контексте. В «Уловка -22» можно понять, что война – это не просто восприятие противника, а то, что речь идет о личностно-психологических травмах. Это отражено в герое Йоссариане и его других военных друзьях. Их психологическое состояние очень неоднозначно. Тот факт, что триумф победы часто неизвестен, свидетельствует в «Уловка-22» о бессмысленности войны. Абсурдность войны представляется читателю по-новому.

A.E.Alizadeh

The subject of war in the context of the irony in the "Catch-22" novel by Joseph Heller

Summary

American writer Joseph Heller's “Catch-22” novel is one of the most consistent examples of war literature written after the Second World War. However, J.Heller was nervous about the war in

this novel and presented it to the reader in an ironic context. In the “Catch-22”, it is possible to understand that the war is not merely the enemy's perception, but that it is talking about personal-psychological traumas. This is reflected in anti-hero Yossarian and his other military friends. Their psychological state is very complicated. The fact that uncertainty of the triumph of the victory is indicative of the meaninglessness of the war in the "Catch-22". Absurdity of the war are presented to the reader in a novel manner.

Rəyçilər: filol.f.d., dos. H.Ə.Əliyeva;
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(12.02.2018-ci il tarixli iclasının qərarı (pr. №07)).

Redaksiyaya daxil olub: 16.02.2018

A.H.HÜSEYNOVA
filologiya üzrə elmlər namizədi, dosent
e-mail: sdu.adil@gmail.com

Sumqayıt Dövlət Universiteti
(Sumqayıt şəh., 43-cü məhəllə)

ABBAS PƏNAHİ MAKULUNUN HEKAYƏLƏRİNDƏ VƏTƏN HƏSRƏTİ MOTİVLƏRİ

Açar sözlər: *mühacirət ədəbiyyatı, Makulu, milli hökumət, məsləkdaşlar, Şimali Azərbaycan, Cənubi Azərbaycan, siyasi şərait, şah rejimi, vətən xainləri, fədailər, demokrat nəşriyyatı*

Ключевые слова: *эмигрантская литература, Макулу, Национальное правительство, единомышленники, Северный Азербайджан, Южный Азербайджан, политическая обстановка, шахский режим, предатели родины, федаи, демократическая печать*

Key words: *immigrant literature, Makulu, national government, adherents, North Azerbaijan, South Azerbaijan, political conditions, shah's regime, traitors to homeland, fedais, democratic publication*

Azərbaycanda mühacir ədəbiyyatının görkəmli nümayəndələrindən biri Abbas Pənahi (Makulu) Cənubi Azərbaycanda "Azərbaycan" qəzetində fəailiyyətə başlamış, azadxahlıq və dövlət əleyhinə çevrilişdə günahlandırılaraq şah rejimi tərəfindən həbs edilibdir. Onun "Təbriz gecələri", "Mübarizlər", "Səttarxan", "Xiyabani", "Gizli zindan","Heydər Əmioğlu" əsərləri çap olunmuşdur. Cənubi Azərbaycan mühacirət ədəbiyyatının tədqiqatçısı Mahmızər Mehdibəyova A.P.Makulunun mühacir həyat və yaradıcılığı (40-cı illər) haqqında yazır: "Əzilən, haqqı tapdalanan, istismar və təhqir edilən başqa güneylilər kimi, Abbas Pənahinin də ürəyində uşaq yaşlarından azadlıq uğrunda xoş xəyallar baş qaldırmış və o, öz həyatını bu müqəddəs iş uğrunda yorulmadan çalışmağa həsr etməyi qərara almışdı. 1941-1946-cı illərdə Cənubi Azərbaycanda yaranmış siyasi şəraitlə bağlı olaraq Abbas Pənahi də Azərbaycan Demokrat Firqəsinin işində yaxından iştirak edir, milli hökumət qurulduqdan sonra isə bütün varlığı ilə onun yolunda çalışmağa, öz xalqının müstəqilliyi uğrunda bütün güc və istedadını sərf etməyə başlayır. 1946-cı ilin noyabrında dünyada siyasi şəraitin dəyişməsindən xaincəsinə sui-istifadə edən şah rejimi milli hökuməti qan içində boğduqdan sonra A.P.Makulu da başqa məsləkdaşları ilə birgə Şimala mühacirət edir və Bakıda yaşayıb işləməyə başlayır. Ədəbi fəailiyyətə də burada başlayan Makulu "İnqilab və mədəniyyət" jurnalında, "Azərbaycan" qəzetində eləsə də başqa mətbu orqanlarda hekayə, felyoton, povest və romanları ilə çıxış etməyə başlayır. "Sirli çoban", "Qırmızı aşıqlar", "Təbriz gecələri", "İntiqam dəstəsi", "İki rəqib", "Məzhəb təəssübü" kimi ilk hekayələri "İnqilab və mədəniyyət" jurnalında və "Azərbaycan" qəzetlərində işıq üzü görəndən sonra ədib 1950-ci ildə "Təbriz gecələri" adlı hekayələr kitabını nəşr etdirir" (1, s.42-43) Tədqiqatçı A.Makulunun əsərlərində milli hökumətin süqutundan sonra azərbaycanlılara zülm edildiyindən, onların qətl və edam edildiyindən bəhs edir.

1946-cı ildə Şimali Azərbaycana mühacir edən A.R.Makulunun 1950-ci ildə Bakıda "Təbriz gecələri" adlı hekayələr kitabı nəşr edilmişdir.Yazıçının kitaba daxil olan "İntiqam dəstəsi" hekayəsində Azərbaycan Milli Hökumətinin süqutu zamanı ADF fəallarının fədakarlığı, demokratların İran şah rejimi tərəfindən təqib olunması, vətən həsrəti, qəhrəmanlıq motivləri öz əksini tapmışdır. Hekayədə Cənubi Azərbaycanda milli azadlıq hərəkatının fəallarına divan tutan, onları edam etdirənlərdən qisas alan xalq intiqamçılarının gizli fəailiyyəti bədii şəkildə təsvir edilmişdir. Əsərdə fədailər 21 Azər-12 dekabr 1945-ci ildə Azərbaycan Milli Hökumətinin ideyalarını daşıyanlar, onun qurulmasında fəal iştirak edənlər "xain Qavamüsəltənəninin İngiltərə və Amerika dövlətlərinin tələbi və köməyi ilə Azərbaycan

Milli Hökumətinə qarşı etdiyi xain basqınından, indi Təbrizdə hökumətin mürtəce İran dövləti əlində olmasından və hər yerdə Azərbaycan demokratlarının təqib edilməsindən" [3,169-170], onların edam edilməsindən, güllələnməsindən xəbərdar olan kimi mütəşəkkil bir qüvvəyə çevrilir, şah rejiminin jandarmlarına, yerli xainlərə-cəməd bəylərə, bağır bəylərə ölüm hökmü verib məhv edirlər. Jandarm vəkilbaşı onların rejim üçün təhlükəli olduğunu bildirir: "Bunlara əhəmiyyətsiz baxmaq olmaz, çünki bunlar indi özlərini bir intiqam dəstəsi kimi göstərir, bir dəqiqə bir yerdə aram tutmurlar. Əgər iş bir az da belə gedərsə onların dəstələri yekəlib böyüyəcək, onların öhdələrindən heç vaxt gəlmək mümkün olmayacaq" (3, s.181). Beləliklə, intiqam dəstəsi xalqın azadlığına, dilinə, namusna toxunan xainləri cəzalandırırlar. İntiqam dəstəsinin sıralarının genişlənməsi xalq hərəkatının hələ də tamamilə məhv edilmədiyini sübut edir, gələcəkdə Azərbay-canın müstəqilliyi uğrunda mübarizənin davam edəcəyinə inamı və ümidi ifadə edir.

"Qırmızı aşıqlar" hekayəsində A.Makulu Azərbaycan Milli Hökumətinin süqutundan sonra şah rejiminin kəndləri xarabazara döndərməsini, Azərbaycan xalqına divan tutmasını, gəncləri, demokratları, fədailəri dar ağaclarından asmasını, qocaları zindana atmasını, qadınları, uşaqları sürgün etməsini, xalqın acınacaqlı vəziyyətini təsvir etmişdir. Hekayədə İran şah rejiminin öz cinayətlərini Azərbaycan demokratlarının "ayağına yazması", ədalətsiz şahın "adil şah" kimi təqdim edilməsi, əhalinin adi insani hüquqlarının pozulması da bədii əksini tapmışdır.

"Təbriz gecələri" hekayəsində müəllif Azərbaycan Milli Hökumətinin süqutundan sonra qatillərin, soyğunçuların, xainlərin meydan suladığını, şah rejiminin onları silahlandıraraq öz xalqına qarşı cinayət törətməyə vadar etmələri, Qəvamülsəltənənin vədinə xilaf çıxaraq Azərbaycana basqın etdikləri göstərilir: "Dünya bir saatın içində dəyişilmişdi. Qəvamülsəltənə Azərbaycan Milli Hökuməti ilə bağladığı əhd-peymanı tapdalayaraq, Amerika silahının gücü ilə Azərbaycana basqın etmişdi. Milli hökumət başçıları qardaş qanı tökülməsin deyə silahı yerə qoymuşdular. İndi işlər yenə də Qarnıyırtıq Kazım kimi adamların əlinə keçmişdi. Onlar bir il müddətində əl-qollarını bağlayan demokratlardan intiqam almağa, həm də vaxtdan istifadə edərək talan yolu ilə özlərinə "bir gün ağlamağa" çalışırdılar. Çapıq Qənbərlə yoldaşları da bu fikirdə olan adamlardan idilər" (4, s.130). Hacı Ələsgər, Cəmşid-xan, Beytulla, Səttarzadə, Çapıq Qəmbər, Dabanıçəkik, İsgəndərxan, Həsənxan, Ələkbərzadə və başqa varlı təbəqələr, eyni zamanda əyyaş, quldur, öz xalqına, milli-demokratik hərəkətə xain çıxanlar gizli fəailiyyətə keçmiş demokratik qüvvələri məhv etmək üçün şah rejiminə, güc strukturlarına kömək edirlər. Yazıçı onların əsas məkrli niyyətlərini doktor İsgəndərxanın dili ilə belə deyir: "Müsəlmanın işini elə bu cür şeylər dalı qoyur. Siz özünüz yaxşı bilirsiniz ki, mən bir nəfər həkim babayam, nə kəndim vardı yer bölgüsünə düşsün, nə adam öldürmüşdüm işim məhkəmədə olsun, nə də mədəniyyət üstündə həbs olunmuşdum. Bununla belə iki gündü yuxunu özümə haram edib bu xain vətənfüruşların kökünü qazmaqda bir saniyə də olsun qəflət etmirəm. Mən sizin yerinizə olsam bu söhbətləri buraxıb, ancaq bizə rəhbərlik edib yaxamızı o xainlərin əlindən xilas edənlərdən bərk yapışaram. Biz rəhbərlərimizin əmrlərini yerinə yetirməklə öz haqşünaslığımızı sübuta yetirməliyik" (4, s.141).Əsərdə məlum olur ki, demokratları məhv etmək üçün onları "demokratiyanın beşiyi" ABŞ silahlandırır, bütün antimilli işlərə bu ölkənin Təbrizdəki konsulu rəhbərlik edir, ABŞ və İngiltərə öz geosiyasi maraqlarını əsas tutaraq Cənubi Azərbaycanın demokratik, muxtar dövlət olmasından, gələcəkdə onun Şimali Azərbaycanla birləşəcəyindən ehtiyat edirdilər.

Hacı Ələsgərin dediyindən məlum olur ki, amerikalıların və ingilislərin "tankı və təyyarəsi olmasaydı dövlət qoşunu cəsarət edib Azərbaycana həmlə edə bilməzdi" (4, s.142). Vətən xainləri "onların boyunlarına böyük haqq qoymuş" ağalarının yolunda canlarından keçmələrinə belə and içib, demokratlara qarşı görüləcək "tədbirlər planını" bəyan edirdilər: "Demokrat başçılarının rəsmi surətdə mühakimə edilib edam olunacaqlarını nəzərə alıb, onlardan tutulanları dövlət qoşunu şəhərə varid olana kimi möhkəm yerdə saxlamalısınız. 2-ci

3-cü dərəcəlilər küçə-bacada öldürülsünlər. Demokrat nəşriyyatına od vurulub yandırılsın" (4, s.142). Buradan aydın olur ki, öz xalqına qarşı çıxan xəyanətkarlar, fədakar Azərbaycan oğullarını məhv etmək, onların həyata keçirdikləri mütərəqqi ideyaları məhv etməyə fürsət gözləyirlərmiş.Lakin bu xəyanətkar qüvvələrə qarşı xalqın azadlığı, müstəqilliyi və parçalanmış vətənin birliyi uğrunda millətin potensial gücünü təmsil edən "demokratik gənclər təşkilatı" vətən xainlərinə özlərinin intiqam məhkəməsi ilə ölüm hökmü verirlər. Demokratik firqə və Məcidin başçılıq etdiyi gənclər təşkilatı Azərbaycan Milli Hökumətinin rəhbəri S.C. Pişəvərinin lazım gəldikdə gizli fəaliyyətə keçmək ideyasını reallaşdırmaq üçün xalqın bütün mütərəqqi qüvvələrini öz ətrafında birləşdirməyi qərara alır: "Rəhbər bugünkü günləri görüb və bizim vəzifələrimizi qabaqcadan müəyyənləşdiribdir. İndi hər bir firqəçinin borcudur ki, milli hökumətimizin dağıdılmasından ruhdan düşməyərək düşməni əzib dağıtmaq üçün fəailiyyətini birə yüz artırsın. Dünya imperialistlərinin itaətkar nökəri olan İran hökuməti ilə dünənə kimi açıq-açığına vuruşurdursa, bu gündən bu yana gizli döyüşlərə girişməliyik Bu xalq (Azərbaycan xalqı –A.H) öz parlaq tarixində dəfələrlə bu cür hadisələrlə qarşılaşıb, amma düşmənə əyilməyib və həmişə mərəkədən qalib çıxıbdır. Düşməni aradan qaldırmaq üçün indi yüzlərlə mənim və sənin kimiləri gizli fəaliyyətə başlamalıdır. Tehran cəlladları tərəfindən vəhşicəsinə öldürülən yüzlər və minlərlə fədailərimizin, vətəndaşlarımızın qanını almayınca heç bir azərbaycanlı rahatlanmayacaqdır" (4, s.143). Təşkilat azadlıq fədailərinin mülkünə, həyatına qəsd edənlərdən intiqam almağı, fədailərin düşmən təqiblərindən yaxa qurtarmasını təmin etməyi, gizli vərəqələr vasitəsilə həqiqəti xalq arasında yaymağı planlaşdırır.

"Təbriz gecələri" hekayəsində İranın mərkəzi qoşunlarının Cənubi Azərbaycanda işğalçılıq hərəkətləri, onların faşistlərlə müqayisə ediləcək qəddarlığı təsvir edilir: "Təbrizin vəziyyəti getdikcə pisləşirdi. Tehran qoşunu şəhərə daxil olandan sonra xalqa edilən zülmün həddi-hüdudu yoxdu. Şəhərə böyük hay-küylə gələn Tehran qoşunu özünə "istila ordusu" adı verərək Təbrizi və Cənubi Azərbaycanın başqa şəhər və kəndlərini bir yad qoşun kimi soyub - talayırdı. Hökumət talançıların əməllərinə göz yumur və onları bir az da qızışdırırdı. Küçələrdə arxların içi meyitlərlə dolu idi. Şəhərin bir çox yerində dar ağacları qurulmuşdu. Gündə bir neçə demokrat bu dar ağaclarından asılır və onlarca adam həbsxanalara atılırdı. Milli hökumət qüvvələrinin qan tökülməsin deyə, silahı yerə qoymalarından imkan taparaq şəhərə döyüşsüz-davasız girən İran qoşununun acgöz zabitləri şəhərdə çox həyasızlıq edir, qarşılarına çıxan hər kəsi demokratsan deyə söyür, küçənin ortasında tapançalarını çəkib günahsız adamları qırırdılar. Mürtəcelərin və Tehran zabitlərinin çox xoşladığı işlərdən biri kitab yandırmaq təntənəsi idi. Şəhər meydanında, məktəblərin həyətlərində tonqallar çatılır, Azərbaycan dilində nəşr olunan kitablar, jurnal və qəzetlər oda atılıb yandırılırdı. Bu məsələ üstündə camaatla hökumət qoşunları və yerli satqınlar arasında az toqquşma olmamışdı. Xalq öz ana dilində çıxan kitabları əzizləyir, əlindən vermək istəmirdi. Məktəblilərdən bu kitabları almaq daha da çətin olurdu. Mürtəce fars müəllimləri məktəbə soxulan ajan və əmniyyələrin qamçılarının gücü ilə uşaqların əlindən bu kitabları alıb tonqallara atırdılar" (4, s.150). Müəllif kitab yandıranlara İran dövlətinin mükafat verdiyini qeyd edir. Bu tonqal Hitlerin Berlində marksist ruhlu kitabları yandırdığı zaman yaranan tonqalı xatırladır. Demokratik gənclər təşkilatı maarif nazirliyinin anbarındakı kitabların və jurnalların arasına bomba yerləşdirir və nəticədə onları yandırarkən bombaların partlaması vətən xainlərinin bir hissəsinin məhv olmasına səbəb olur. Bu isə xalq tərəfindən ilk intiqam aktı kimi qarşılanır.

Vətən xainlərinə ölüm hökmünü yerinə yetirən demokratik gənclər təşkilatı onların üzərinə aşağıdakı məzmunda vərəqə qoyurdular:"Azərbaycan demokrat cavanlarının intiqam məhkəməsi işə başladı.Azərbaycan demokrat cavanlar təşkilatının yaratdığı "İntiqam məhkəməsi" vətənə və xalqa xəyanət edənlərin cinayət işinə baxmağa başlamışdır. Birinci növbədə Hacı Ələsgər, Hacı İbrahim oğlunun işinə baxıldı. Məhkəmə Hacı Ələsgərin vətən xaini olmasını sübuta yetirdi. O, şəhərdə qətl-qarət törədənlərin başçılarındandır. O, bu az

müddətdə onlarca demokratı tutdurub, vətənimizə xaincəsinə soxulan və hər yerdə xalqımızın qanını axıdan Tehran cəlladlarının əlinə vermişdir. O, bir neçə nəfərlə bərabər vətənə edəcəkləri gələcək xəyanətlər haqqında Amerika konsuluna vermək üçün təəhhüd (öhdəçilik-A.H.) imzalamışdır. Biz o təəhhüdün üzünü də burada çap edirik ki, xalq vətəni satan bu adamların nə qədər xain və alçaq olduqlarını görsünlər. Qoy hamı bilsin ki, Azərbaycan demokrat firqəsi və onun mübariz dəstəsi olan demokrat cavanlar ittifaqı yaşayır və vətən düşmənlərini məhv etməyə var qüvvəsilə çalışacaqdır. Azərbaycan xalqının azadlığı yolundakı mübarizə davam edir. Xalq, vətən və azadlıq düşmənlərinə ölüm!" (4, s.165). Bu vərəqənin məzmunundan görünür ki, vətənə xəyanət əməlləri törədən, satqınçılıq, düşmənçilik yolu tutan, Azərbaycanın siyasi və milli-mənəvi birliyinə qarşı şıxanlar ölümə məhkumdurlar.

A.Makulunun "Gizli zindan" hekayəsində İranda Rza şah rejiminin ölkədəki bütün xalqlara, o cümlədən Azərbaycan xalqına etdiyi zülm və istibdad, xalqın azadlığı uğrunda mübarizə aparan qəhrəman oğulların gedər-gəlməzə göndərilməsi, gizli zindanlara salınması təsvir edilmişdir. Yazıçı Rza şahın bərpa etdiyi gizli zindana daha çox azərbaycanlıların salındığını göstərir: "o bilir ki, onun zalim səltənətini axırda azərbaycanlılar vurub dağıdacaqlar, torpaq ilə yeksan edəcəklər, ona görə qorxusundan belə edir" (2, s.78). Rza şah vətənpərvər azərbaycanlıları özünün gizli zindanlarına saldırır, ömürlük əzab verirdi. Bu azərbaycanlı dustaqlar "İranda olan hər bir azərbaycanlı kimi öz vətənlərinin dərdini çəkirdilər" (2, s.78). Buradakı dustaqların onda səkkizi azərbaycanlılardan ibarət olduğu üçün gizli zindanın "rəsmi dili Azərbaycan dili" idi.

Hekayədə sovet ordusunun "xilaskarlıq" missiyası mədh olunur. A.Makulu sovet Azərbaycanında yaşadığına görə kommunist ideologiyasına uyğun hərəkət edirdi. "Bütün İran zəhmətkeşlərinə azadlıq gətirən Sovet Ordusu bizim ailələri böyük xoşbəxtliyə çatdırdı" (2, s.123). Əslində isə işğalçı rus ordusu əsrlər boyu da, sovet dövründə də (1990-cı il 20 yanvar faciəsi bunun ən yüksək zirvəsi idi) Azərbaycan xalqının başına bəlalar açmış, bədbəxtliklər gətirmişdir.

A.Makulu "Sirli çoban" hekayəsində Cənubi Azərbaycanda milli adət-ənənələr, toponimlər, maddi mədəniyyət abidələrindən, dağlarından, qayalarından bəhs edilir, Maku şəhəri və qalasının təsviri verilir. Əsərdə tayfalararası münaqişə və qan davasının milli birliyə ziyan vurduğu göstərilir.

Beləliklə, A.Makulunun hekayələrinin əsas ideya istiqamətlərini bölünmüş vətən dərdi, Cənubi Azərbaycanda milli hərəkatın yenidən başlanmasına inam motivləri, xalqın layiq olduğu bütün bəşəri hüquqlara nail olmaq arzusu, vətən xainlərinə nifrər ruhu təşkil edir.

Ədəbiyyat

1. Mehdibəyova M. Cənubi Azərbaycan mühacirət nəsri (1947-1990-cı illər)Bakı: Nurlan, 2007, 190 s.
2. Makkulu Abbas Pənahi.Gizli zindan.//Təbriz geceləri, Bakı: Azərnəşr, 1950. s.42-124
3. Makkuli Abbas Pənahi. İntiqam dəstəsi.//Təbriz gecələri. Bakı: Azərnəşr, 1950,166-201
4. Makulu Abbas Pənahi.Təbriz gecələri.// Təbriz gecələri, Bakı: Azərnəşr,1950, s.124-166

А.Г.Гусейнова

Ностальгические мотивы в рассказах Аббаса Панахи Макулу

Резюме

В статье исследуются тоска по родине, печаль расставания, демократическое движение, начавшееся на Юге, самоотверженная борьба азербайджанского народа за свободу и независимость в рассказах выдающегося представителя эмигрантской литературы Южного Азербайджана Аббаса Панаха Макулу. Автор рассматривает и анализирует продолжение борьбы,

которую вели демократические силы, выжившие после падания Азербайджанского Национального правительства, меры, предпринимаемые ярым врагом азербайджанского народа – режимом палача Пехлеви, направленные на уничтожение национального духа, объединившегося для этого с предателями родины и врагами народа.

A.H.Huseynova

Homesickness motives in Abbas Panahi Makulu's stories

Summary

In the article, homesickness, sorrow of parting, democratic movement in South, selfless fight for independence and freedom of Azerbaijani people have been analyzed. The author has illustrated survived democratic forces' struggle, brutal and hangman Pahlavi regime's measures aimed at destroying the national spirit of Azerbaijani people by wild methods, collaborative action of traitors to homeland with enemies of state.

Rəyçilər: prof. A.İ.Məmmədov;
SDU-nun Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrası
(02.02.2018-ci il tarixli iclasının qərarı (pr. №06))

Redaksiyaya daxil olub: 26.02.2018

V.Ə.HÜSEYNOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SİNKLER LÜİSİN SATİRİK DÜNYASI

Açar sözlər: *Sinkler Lüis, satira, realizm, kinayə, Amerika ədəbiyyatı*
Ключевые слова: *Синклер Льюис, сатира, реализм, аллюзия, амерканская литература*
Key words: *Sinclair Lewis, satire, realism, allusion, American literature*

XX əsrin əvvəllərində Amerika ədəbiyyatı realizm cərəyanının yüksəlişi ilə müşahidə olunurdu. Tədricən ABŞ-ın kapitalist cəmiyyətinin sosial ziddiyyətlərə səbəb olduğunu, insanların yoxsulluq uçurumuna yuvarlandığını, sosial faciələri yazılarında əks etdirən müəlliflər meydana çıxmaqda idi. Bu dövrün ən məhşur realist yazıçıları arasında Sinkler Lüisin (1885-1951) də özünəməxsus yeri vardır. Sinkler Lüis XX yüzillik Amerika ədəbiyyatının əvəzedilməz yumoristi və satiristi idi. O, inanırdı ki, heç nə gülüşün hücumlarına tab gətirə bilməz. Oynaq və qeyzli şəkildə qurulmuş kinayəli cümlələrini demək olar ki, bütün əsərlərində, mühazirələrində və esselərində görə bilərik. Onlar kimi gəldi gülüdürə və düşündürə bilirdi, ancaq maraqlı burasıdır ki, Sinkler Lüisin dilinin kəsəri mühazirələrində iştirak edən dinləyiciləri və ya oxucularını incitmirdi, əksinə, insanlar get-gedə onu daha da çox sevir və ehtiyac duyurdular.

Görkəmli yazıçının kinayəli satirası istər ABŞ siyasi həyatını, istərsə də cəmiyyətin əxlaq qaydalarını insanların özünə güzgü kimi göstərirdi. Sinkler Lüis hər kəsi öz sarkazmı və qara yumoru ilə tənqid edirdi: rüşvətxor dövlət işçilərini, irqçiləri, müstəmləkəçi siyasətçiləri, xürafatçı dindarları, kilsə mövhumatını, dini və milli ehkamlardan törəyən əxlaq qaydalarını və bunların fonunda qadınların cəmiyyətdən sıxışdırılıb təcrid olunmalarını, fiziki və mənəvi güclərinin heçə sayılmasını. Onun hədəfi yalnız yaşlılar deyil həm də gənclər idi.

Sinkler Lüisə şöhrət qazandıran üç böyük əsərinin fəlsəfi satirası diqqəti çəkir. Yazıçı Amerikanın kiçik şəhərindən bəhs edən "Baş küçə" (*Main Street, 1920*) əsərindəki həyat tərzini və "Bebbit" (*Babbit, 1922*) romanında işgüzar həyat və iş adamını satira atəşinə tutursa, "Ərrousmit" (*Arrowsmith, 1925*) romanında tibb elmi və alimlərini tənqid hədəfinə çevirir.

"Baş küçə" (1920) əsəri ilə özünə böyük oxucu kütləsi qazanan Sinkler Lüis XX əsr Amerika ədəbiyyatı tarixində ilk dəfə olaraq əsil orijinal bədii əsər yarada bilmişdir. "Baş küçə" əsərindən əvvəl "Sərbəst külək" (1919) romanını nəşr etdirən Lüis Qofer-Preri şəhərini ilk dəfə bu əsərində təqdim edir. Yazıçının "Baş küçə" romanı ilə başlayan uğuru əslində ilk dəfə "Sərbəst külək" əsərində təcrübədən keçirilir. Məhz bu əsərdəki müxtəlif səpgili üsullardan istifadə yazıçının "Baş küçə" romanının uğurlu alınması ilə nəticələnmişdi. Lüis bir növü gələcək əsəri üçün zəmin yaradaraq işlədəcəyi üsulları sınaqdan keçirərək püxtələşmiş və ən mükəmməl əsərini yaratmışdı (5).

"Baş küçə" əsərində də həmin Qofer-Preri şəhəri və onun Baş küçəsinin sakinləri təsvir olunur. Amma əvvəlki əsərindən fərqli olaraq yazıçı öz kəskin tənqidi münasibətini gizlətmir hələ üstəlik onlardan bəzilərinə olan düşmən münasibətini də açıqlayır. Çünki Baş küçənin sakinlərinin çox hissəsi özündənrazı və mədəniyyətsiz insanlardır. Onları düşündürən əsas amil isə pul və varlanmaq hərisliyidir. Lakin Qofer-Preridə mənəvi ruhani dəyərlərdən təcrid olmayan insanlar da var. Bununla belə onları da aydın insanlar adlandırmaq olmaz. Şəhərin mənəvi-əxlaqi iqlimini təyin edən bu insanlar deyil, öz faciəli taleyi ilə diqqəti çəkən rəssam Mayls Bernştamdır.

"Baş küçə" romanındakı personajlardan yalnız kiçik bir qismini "Kulici tanıyan adam" povestinin qəhrəmanı Şmalsla müqayisə etmək olar. Çünki Sinkler Lüis bu əsərində mənfi qəhrəmanlarının çatışmayan cəhətlərini xırdalıqlarına qədər təsvir etmir. Lakin onun ilk əsərinin əsas xüsusiyyəti odur ki, yazıçı özünü məhz bu əsərində bir sənətkar kimi təsdiq edə bilmişdi. Yazıçının Qofer-Preri şəhərinin simasını əks etdirən personajları Baş küçənin sakinləridir və məhz onlar Amerikan şəhərini eybəcərləşdirmiş, sadə insanları gündəlik yaşam sevincindən məhrum etmişlər.

Əsərin əsas qəhrəmanlarından olan Kerol Kennikot heç də satirik obraz deyil, lakin bu qadın Qofer-Preridəki həyatın mənfi ruhunu duyan obrazdır, Lüis onun gözlərilə bu şəhərdə baş verən bütün hadisələrə gülür və öz etirazını bildirir. Roman satirik xarakterli, ümumiləşdirilmiş kiçik bir çıxışla açılır. Sinkler Lüis birbaşa "Baş küçə"lərə münasibət bildirməklə öz kitabının əsas məqsədini açıqlayır. Yazıçı belə bir bəyanatla çıxış edir ki, onun əsərində elə də qeyri-adi bir şey təsvir olunmayacaq, əksinə bu Amerika üçün xarakterik olan Baş küçə - Qofer-Preridir. Bu da "hər bir Baş küçənin davamı ola bilər" (2, s.17). Bununla da yazıçı bütün Amerikanın Baş küçələrinin də xarakteristikasını vermiş olur. Əsərin hər bir sözü – kinayə, gülüş və sarkazmla doludur. "Baş küçə" – sivilizasiyanın zirvəsidir" deyən yazıçı əslində söylədiyi fikrin mənasının əksini sübuta çalışır (2, s.18).

"Baş küçə" romanına qədər Sinkler Lüis daha çox məişət xarakterli əsərlərlə çıxış edirdi. Bu əsərlə isə Sinkler Lüis əsil Amerika həyat tərzini əks etdirmişdir. Əsər həm konsepsiyasına, həm yazılışına, həm də obrazların xarakteri və Amerika məişətinin təfsilatına görə olduqca bədii və eyni zamanda fikircə dərin olan ictimai, kütləvi bir əsərdir.

Ötən əsrin iyirminci illərində Sinkler Lüis ilk dəfə olaraq qeyri-satirik, yəni gülüş dogurmayan, amma acı həqiqəti göstərən tənqidi əsər yazmağa cəhd göstərir. Hələ "Bebbit" romanında yazıçı sanki gələcəkdə yazacağı əsərə işarə edirmiş kimi kiçik bir epizodda sintetik kauçuk üzərində tədqiqat aparan iki alimin iki gün laboratoriyadan çıxmadığını göstərir. Müəllif burada iş dünyasının fırıldaqlarından uzaq olan elm fədailərini ötəri xatırlamaqla onları meşşan iş adamları ilə qarşı-qarşıya qoyur.

Sinkler Lüisin "Baş küçə" əsərindən sonra sevilən ikinci əsəri "Bebbit"dir. Bu əsərin qəhrəmanı "Kulici tanıyan adam" povestinin qəhrəmanı Şmalsa bənzəsə də əsər öz məzmunu baxımından adı keçən povestdən qat-qat üstündür. Təbii ki, məzmun və estetik dəyərindən savayı əsərin qəhrəmanı da Şmalsdan fərqli olaraq xeyli inkişaf etmiş şəxsiyyətdir. Bebbit gənclik illərində yaxşı tərbiyə aldığından seçim etməyi də bacarır. O uzun müddət *Vicdanlı Vətəndaşlar* yarıfaşist Liqasına daxil olmaqdan imtina edir. Elə buna görə də Bebbit ən yaxın dostu Pol Rislinqin faciəsini ürək ağrısı ilə xatırlayır. Onun dostu olan Pol gicbəsər arvadına olan qısqanclığı ucbatından cinayətə əl atır. Məhz bu səbəbdən də əsərin qəhrəmanı daima təbiətin qoynunda olmağa can atır, cazibədar və şairanə bir qadın arzulayır.

Bebbitin hissləri, hələ tamamilə məhv olmamış insani duyğuları, xeyirxahlıq mələyi olması haqqında həddən artıq çox danışılır. Hətta əsərin qəhrəmanı Pol ilə olan dostluğuna sadiqliyini onun daxili monoloqunda görürük. Belə ki, o həbs edildikdə öz kontoruna qayıdaraq Polsuz həyatın mənasız olduğunu düşünür. Romanda Bebbitin gənclik illərinin ən gözəl anlarına sadiqliyi dəqiqliklə təsvir olunur. Lakin Zenitin irticaçı dairələri onu *Vicdanlı Vətəndaşlar* Liqasına qoşulmağa təhrik edirlər. Buna baxmayaraq o əvvəlcə dözümlülük nümayiş etdirir və liqaya qoşulmur. Bütün bunlara rəğmən Bebbit obrazı satirikdir. Bu cür işbazların həyatı boş və mənasızdır. Amma bəzən Lüis bu haqda qeyri-satirik formada danışır. Rislinq bu barədə öz fikrini belə ifadə edir: "hətta bir çox iş adamlarını bu qaçdı-qovdu, çəkişmələr və arvadları cana gətirib. Onlar öz uşaqlarını korazehin adlandırırlar. Amerika iş adamlarının mənfi tərəfləri hər şeydən əvvəl özünü bebbitlərin inamı və davranışlarında göstərir" (3, s.56).

Hələ "Baş küçə" romanında Sinkler Lüis amerikalıların standarta meylliliyini açıqlamışdı. O qeyd edirdi ki, "ümumi oxşarlıq – fəlsəfənin fiziki ifadəsinin axmaq firavanlığıdır" (2,

s.357). "Bebbit" əsərində bu mövzu daha qabarıq nəzərə çarpdırıldığından Lüis öz mövqeyini aydınlaşdırmağa çalışır ki, sualın satirik qoyuluşu oxucunu yanlış nəticə çıxarmağa sövq etməsin. Yazıçı Con Steynbekin bir sıra əsərlərində olduğu kimi antisənaye mövqeyində durmur və patriarxallığa meyl göstərmir. Yazıçının görüşləri iki personajın mübahisəsində verilir (1).

Ümumiyyətlə, əsərdə satira bütün dünyaya şamil edilir. O dünyaya ki, orada standartlar hökm sürür. Hətta Bebbitin malikənəsində hər şey standartdır. Bebbitin yataq otağı standart eskizlər əsasında qurulub. Otaqdakı əşyaların quruluşunun standarta uyğun olduğunu ayrı-ayrılıqda detallarına qədər təsvir edən yazıçı əsərin sonunu acı bir paradoksla bitirir: "... Bebbitlərin evində yalnız bir çatışmayan cəhət var idi – o ev deyildi" (4, s.190).

Bebbitlərin evinin bu şəkildə detallaşdırılmasını müəllif sanki mebel kataloqu tərtib edirmiş kimi verir. Lakin bütün bu lüzumsuz sadalamalar əslində əsərin satirik əsasını təşkil edir. Sinkler Lüisin satirasının obyekti yalnız ABŞ həyat tərzinin standartlaşmasını göstərmək deyil, ümumiyyətlə insanın əşyaların təsiri altına düşməsini, rahatlıq və dəbdəbə dalınca qaçmasını göstərməkdir.

Əsərin qəhrəmanı sadəcə olaraq rahat və gözəl əşyalardan istifadə etmir. O birbaşa onların əsirinə çevrilib. Sən demə yalnız "Baş küçə" romanında sözügedən çirkab və eybəcərlik gülüş hədəfinə çevrilmir, həmçinin Bebbiti əhatə edən rahatlıq və təmizlikdə gülüş hədəfinə çevrilə bilər. Çünki Bebbit və onun kimiləri hər səhər onu yuxudan oyadan gözəl zəngli saatla fəxr edirlər. Belə bir saatı əldə etmək, belə böyük və geniş otaqlarda yaşamaq Bebbit üçün əsas dəyərlərdən biridir.

Sinkler Lüisə görə yeni amerikan nəsli üçün Bebbit idealdır və o əsil kişidir. Tənqidçi Mark Şorer Lüis haqqındakı qeydlərinin birində bildirir ki, "Bebbit"in müəllifi elə öz qəhrəmanına oxşayır. Lüisi öz qəhrəmanından fərqləndirən cəhət isə onun müşahidə qabiliyyətinə malik olmasıdır" (3, s.170).

Göründüyü kimi Mark Şorer Sinkler Lüisi tənqid etsə də onun müşahidəçilik xüsusiyyətini qeyd etməyi unutmur. Əslində isə Bebbitə zahirən bənzəməyə çalışmayan bir çox iş adamları əslində elə daxilən bebbitlərə bənzəyir. Elə bu səbəbdən də "bebbitizm" satirası öz dəyərini bu gün də saxlamış və öz bədii dəyərini itirməmişdir. Belə ki, Bebbitə bənzəmək əslində özünü bir insan kimi məhv etmək deməkdir. "Bebbit" romanını Amerika işbazlarının həyat ensiklopediyası adlandırmaq olar. "Baş küçə" əsərində olduğu kimi "Bebbit" romanının əvvəlində də Lüis romanının satirik mövzuda olduğunu açıq-aydın bildirir. Öz qəhrəmanını oxucuya təqdim edən müəllif bildirir ki, Zenit şəhəri nəhəng zavodları ilə sanki "nəhənglər üçün" ucaldılıb. Lakin Bebbitdə heç bir "nəhənglik" yox idi. Çünki o, insanlar üçün lazımlı heç bir şey istehsal edə bilmir: "Nə yağ, nə ayaqqabı, nə də şeir" (3, s.175).

Janr və məzmun baxımından Sinkler Lüisin digər əsərlərindən fərqlənən "Ərrousmit" (*Arrowsmith,1925*) romanı 1925-ci ilin mart ayında işıq üzü görür. Yazıçı bu əsəri üzərində üç il işləmişdi. Bu əsər Sinkler Lüisin "ən sevimli" əsəri hesab olunur. Hətta o özü də qeyd edirdi ki, "Bebbit" mənim ən yaxşı xəritəm "Ərrousmit" isə ən sevimli əsərimdir. Ola bilsin ki, Sinkler Lüis əyalət həkiminin oğlu olduğu və böyük qardaşı Klodun atasının yolunu davam etdirməsinə hörmət əlaməti olaraq bu əsərini daha çox dəyərləndirirdi (1, s.6).

Sinkler Lüis bir çox düşüncələrini məhz bu obrazında cəmləşdirir. Floberin Emma Bovari - "bu mənəm" fikrini Lüisin dili ilə ifadə etsək onda o: "Ərrousmit – bu mənəm" deyə bilərdi. 1941-ci ildə "Ərrousmitin ölümü" adlı zarafatyana avtonekroloq yazan Lüis həm özünə, həm də kitabına kinayəli şəkildə yanaşaraq özünü qəhrəmanına bənzədir. Çox sonralar Pol de Kryui xatırlayırdı: "Yazıçının Martin Ərrousmitin – bu inadcıl gəncin dəlicəsinə mikrobioloq olmaq istəyini, onun elmi və mənəvi mübarizəsini əks etdirə bilmək bacarığı adamı heyran edir" (4, s.6).

Ümumiyyətlə, bu romanın yazılmasında Sinkler Lüisin məşhur bakterioloq Pol de Kryui ilə tanışlığı olmuşdur. Pol de Kryui özü də bir sıra roman-traktatları ilə tanınır. Onun "Mikrobların ovçuları" romanı elm adamlarının həyatını əks etdirən əsər kimi bu gün də

sevilir və oxunur. "Ərrousmit" romanını yazmaq qərarına gələn Lüis bir neçə ay virusologiya və biokimya ilə bağlı elmi əsərləri oxumuş, eyni zamanda Nyu-Yorkun laborotoriya və klinikalarını gəzmişdi. O bir növ yaradacağı hər personajın şəxsi işini hazırlamışdı. Lüis həmçinin romanda Mak Gerkovski institutu adlanan Rokfellerin eksperimental təbabəti institutunun fəaliyyətini də öyrənmişdi. Hətta yazıçı "Ərrousmit" romanının kulminasiya epizodları üçün vacib olan bəzi məlumatlara görə Bermud adalarına da ekspedisiyaya getmişdi. Əsərin qəhrəmanı məhz burada – Sent Qubert adasında taun epidemiyasına qarşı mübarizə aparır.

"Ərrousmit" romanı Arçibald Cozef Kroninin "Qala" (*The Citadel, 1937*) romanı ilə müqayisə oluna bilər. Amma buna baxmayaraq iyirminci illərə görə "Ərrousmit" özündə bir sıra yenilikləri əks etdirən əsər idi. İlk dəfə olaraq Sinkler Lüis "Ərrousmit" əsəri ilə elm dünyasını və bu dünyanın daxilini bütün dramatizmi və mübarizəsi ilə əks etdirmişdi. Yazıçı əsl elm adamı ilə şöhrət və karyera düşkünü olan insanların müqayisəsini verməklə, ikincilərin birincilər üzərindəki hökmranlığını onların sosial baxımdan üstünlüyü və bu üstünlüyü qorumaq adına elm aləminə gəlmələrini təsvir edir. O dövr üçün qeyri-adi hesab olunan bəzi nüansları da yazıçı açıqlamaqdan çəkinmir. Belə ki, o kommersiya ruhunun laborotoriyaya necə nüfuz etməsini, yalançı şəxsiyyətlər qarşısında əyilən başları, tərbiyəsiz sponsorları və onlara qarşı çıxan ictimai fikri göstərməsidir. Həqiqətən də özünüdərkə gedən yolda insanın istər ruhən və mənən, istərsədə istedadı, çalışqanlığı və dözümü sayəsində əldə etdikləri ən ağır sınaqdır. Yazıçı elm adamının bu keyfiyyətlərini önə çəkərkən insanın bu sınaq qarşısında dözümsüzlüyünü də söyləyir. Lüisin fikrincə əsil alimə öz fəaliyyətini davam etdirmək üçün sərbəst axtarış imkanı verilməlidir.

Təbii ki, Lüis elm sahəsinin tədricən ideoloji təkamüllə toqquşacağını görməyə bilməzdi. Mənəvi dəyərlərdən və prinsiplərdən uzaq olan siyasi ideologiya elmlə ziddiyyət təşkil edir. Ona görə də yazıçı bu dilemmanın hər zaman elm adamları qarşısında duracağını və elmin yüksək dərəcədə təşkil olunmuş istehsal sahəsinə çevriləcəyini də öncədən duyurdu. Ərrousmitin müəllimi olan professor Qotlib alimin etik əqidəsini belə ifadə edir: "*Do too much more, but don't let anyone to use you*" (8, 29). (Bacardığınızdan iki dəfə daha artıq çalışın, lakin heç kəsə icazə verməyin ki, sizdən istifadə etsinlər). Buna baxmayaraq bu elm fədaisinin həyatı göstərir ki, heç də həmişə bu iki tələbi birdən yerinə yetirmək mümkün olmur. Məşhur yazıçı Jül Vernə görə öz kabinetində fikir xarüqələri yaradan adamın özünü dünyadan tədric edərək praktik həyatdan uzaqlaşması təbii haldır. Lakin XX yüzilliyin həyat şəraiti belə adamları qəbul etmir.

"Ərrousmit" romanının əsas personajları qəhrəman insanlardır. Əsərdə bu personajlar çoxluq təşkil edir. Bu bütün çətinliklərə sinə gərən həkim və elm adamı Ərrousmitin özü, daima yoxsulluq və yalançı alimlərlə mübarizə aparan böyük alim Qotlib, həkimlik borcunu yerinə yetirmək üçün hər cür təhlükəyə məruz qalan Sondelius və Ərrousmitin birinci arvadı, qayğıkeş və zərif Leoradır. Sinkler Lüis əsərinə ad verərkən çox düşünmüş və ona bir neçə ad qoymuşdu. Əvvəlcə o, romanı "Mədəni", "Vəhşi", "Dağıdıcı", "Barbar" adlandırır. Daha sonra "Maks Qotlibin kölgəsi" adı üstündə dayanan yazıçı bu variantı da uğursuz hesab edir. Çünki Ərrousmit öz müəllimindən çox irəli getmişdi. Pol de Kryui ilə söhbətdən sonra Lüis xüsusi ad üzərində dayanır. "Mən bundan uğurlu ad tapa bilmərəm" deyən yazıçı bildirir ki, artıq onun "Baş küçə" əsəri uğurlu adına görə sadə amerikalıların dilində əzbərdir və biznesmenləri isə "Bebbitlər" deyə çağırırlar. Ona görə də elə bir ad tapmalıyıq ki, həkim-tədqiqatçıların həyatına uyğun olsun.

Lakin Lüisin əsəri yalnız həkim sənətinin təsviri ilə yekunlaşmırdı. Naşirə göndərdiyi məktubda o iki başlığı "Martin Ərrousmit" və "Doktor Ərrousmit" adlarını müqayisə edir. Lüis yazırdı: "Ərrousmit Martindən böyük adamdır nəinki həkimdən. Onun şəxsi həyatı və elmi fəaliyyəti daha vacibdir, nəinki həkimliyi" (4, s.23). Sinkler Lüisin digər əsərlərində olduğu kimi bu əsəridə faktoqrafikdir. Demək olar ki, bütün personajların prototipləri vardır.

Məsələn, Martinin sevgilisi və arvadı Leora Pol de Kryuinin prototipi keçmiş şəfqət bacısı Ri Barbarinin obrazıdır. Maks Qotlibin prototipləri isə Miçiqan universitetinin professoru Corc Novi və məşhur bioloq, əslən Almaniyadan olan şovinizm və millitarizmin əleyhinə çıxan Jak Lebdir. Onların hər ikisi əsərdə xatırlanır.

"Ərrousmit" romanı işıq üzü gördüyü gündən böyük ədəbi hadisəyə çevrilmişdi. "Ərrousmit" əsərinə görə Sinkler Lüisə məşhur Pulitser mükafatı təqdim olunur. "İlin ən yaxşı romanı" adını almasına baxmayaraq Lüis nümayişkaranə şəkildə ondan imtina edir. Mükafatın şərtlərinə görə bu ancaq "sağlam Amerika həyat tərzini" əks etdirən əsərlərə təqdim olunurdu. Ona görə də yazıçı mətbuatda çıxış edərək bütün Amerika yazıçılarını belə rəsmi idarələrin himayədarlığından qorumağa çağırır. 1959-cu ildə əsərin Qərb ölkələrində nəşri 700 min nüsxə tirajla buraxılır. 1968-ci ildə isə ABŞ-da C. Qriffinin redaksiyası ilə bu əsərlə bağlı tənqidi məqalələr toplusu buraxılır.

Artıq kamillik zirvəsində olan Sinkler Lüisin əsas üstünlüyü onda idi ki,o, ən sevimli qəhrəmanlarını belə idealizə etmirdi. Hər halda yazıçı bunu açıq şəkildə göstərməyə çalışmırdı. Ərrousmit şöhrətpərəstlik hissindən də uzaq deyildi. Onun həyatı daha çox özü-özüilə mübarizəyə həsr olunmuşdu. Bununla o insanlığa xidmət etməyə çalışırdı. Əsərin əsas qəhrəmanlarından biri olan Qotlib çox mürəkkəb şəxsiyyətdir. Sinkler Lüisin nəsri özünəməxsus bədii üslubi keyfiyyətlərlə yanaşı, həm də dərin fəlsəfi-estetik məzmuna malikdir. O, bir nasir kimi daha çox insan və cəmiyyət münasibətlərinin sosial-psixoloji yönlərinə diqqət yetirmiş və yaratdığı epik səhnələrdə, təsvir etdiyi mürəkkəb ziddiyyətli situasiyalarda insanın mənəvi dünyasını məhv edən, onu alçaldan səbəbləri aşkarlamağa cəhd göstərmişdir. "Ərrousmit" romanında yazıçı yaradıcı şəxsiyyətin keçdiyi ağır zəhmətli yolundan danışır. Alim xarakterini yazıçı həqiqi və realist şəkildə yaradır. Dərin faktik materiala malik olması istedadlı yazıçını görkəmli alimlərin təkrarolunmaz obrazlarını Ərrousmit və Qotlib surətlərində cəmləməyə imkan vermişdir. Yaradıcı şəxsiyyət bütün dövrlərdə burjua cəmiyyəti ilə konfliktə girmişdir. Yazıçının fikrincə belə konfliktin həllinin üç yolu vardır. Birincisi – bütün məsuliyyət yükündən azad olmaq və açıq-açığına üsyan etmək, ikincisi – burjua cəmiyyəti ictimai fikrinə güzəştə getmək, üçüncüsü – tam kompromiss. Ərrousmit daha çox üçüncü variantı seçir və bununla da öz elmi axtarışlarını davam etdirə bilir.

Görkəmli yazıçı Sinkler Lüis bütün nəsr əsərlərində, o cümlədən də məşhur "Ərrousmit" romanında insanın mənəvi faciəsini, psixoloji dramını pul-sərvət ehtirasından doğan eybəcərliklə bağlayırdı. O, içərisində yaşadığı hadisə və proseslərə öz yazıçı vicdanı ilə etiraz edir, insanı alçaldan hər cür maddi və mənəvi talançılığı pisləyirdi. Yazıçının bütün əsərlərində mövcud qanun-qaydaları satira atəşinə tutmaq hissi güclüdür.

İyirmi-otuzuncu illər ABŞ ədəbiyyatının ən maraqlı əsərlərindən biri hesab olunan "Ərrousmit" romanında ilk dəfə olaraq elm adamının keşməkeşli həyatı dəqiq, real və faktik şəkildə verilir. Sinkler Lüis hələ uzun illər bir yazıçı kimi ABŞ ədəbiyyatı ənənələrinin humanist və proqressiv yönlərini işıqlandıran mahir stilist olaraq qalacaqdır.

Ədəbiyyat

1. James M. Hutchisson, The Rise of Sinclair Lewis, (1920–1930), N.Y., 1996, 234 p.
2. Lewis, Sinclair. Main Street. A Signet Classic. New York: New American Library, 1998.
3. Lewis, Sinclair. Babbitt. A Signet Classic. New York: New American Library, 1998.
4. Lewis, Sinclair. Arrowsmith. A Signet Classic. New York: New American Library, 1998.
5. Ryan Poll. Main Street and Empire. N.Y., 2012, 358 p.

В.А.Гусейнова

Сатирический мир Синклера Льюиса

Резюме

Статья посвящена изучению романов американского писателя Синклера Льюиса. Синклер Льюис в «Главной улице» восстает против лицемерия. В «Бэббите» он создаёт классический образ стандартного обывателя, с его стихийными попытками бунтарства против наиболее вызывающих противоречий капиталистического общества, развивая таким образом мотивы «Главной улицы». На «Главной улице», «Беббит» и «Эрроусмит», Синклер Льюис с огорчением описывает постоянный конфликт между человеком и обществом.

Конфликт между личностью и обществом, служащий основным движущим противоречием всего творчества писателя, трактуется во всех этих произведениях как внесоциальная проблема. Новизна исследования видится в том, что данные романы никогда прежде не сопоставлялись. Актуальность исследования обусловлена важностью анализа романов, созданных в периоды расцвета США (20-е и 30-е годы XX века). В ходе исследования автор приходит к выводу о том, что в романах представлено капиталистическое общество, однако герои этих произведений весьма различаются, поскольку имеют разные ценности. Показаны герои , которых не занимает вопрос о смысле существования человека.

V.A.Huseynova

Sinclair Lewis's Satirical World

Summary

The article is devoted to the study of the novels by American author Sinclair Lewis. Sinclair Lewis in "Main Street" revolts against hypocrisy. In *Main Street*, *Babbitt* and *Arrowsmith*, Sinclair Lewis concerned himself with the recurring conflict between the individual and its society.

The conflict between the personality and society serving as the main driving contradiction of all works of the writer is treated in all these works as an extra social problem.

The results of comparative analysis of texts are presented from the point of view of the representation of the image of material world and the characters, as well as concepts of the meaning of human existence. The novelty of the research is seen in the fact that these novels have never before been compared. The relevance of the study stems from the importance of the analysis of the novels created in the heyday of the United States (20-ies and 30-ies of XX century). In the study the author comes to the conclusion that in both novels a capitalist society is presented, but the characters of these works are very different because they have different values. It is shown that the heroes of S. Lewis ("pygmies") are doing an end in itself making money.

Rəyçilər: f.f.d., dos. N.M.Nuriyeva;
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(12.02.2018-ci il tarixli iclasının qərarı (pr. № 07))

Redaksiyaya daxil olub: 13.02.2018

A.S.MƏHƏRRƏMOVA
e-mail: maharramova.ayshan@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

RİÇARD BAXIN «CONATAN LİVİNQSTON ADLI QAĞAYI» ROMANI MÜSBƏT DÜŞÜNCƏNİN APOFEOZU KİMİ

Açar sözlər: *azadlıq, mübarizə, mövcudluq, buddizm fəlsəfəsi, identiklik axtarışı*
Ключевые слова: *liberty, struggle, existence, buddhism philosophy, the quest for identity*
Key words: *свобода, борьба, существование, буддистская философия, поиск идентичности*

E.Vanderxill özünün "XX əsrin mistikaları. Ensiklopediya" əsərində yazır: "Bir dəfə Kaliforniyada Belmont Şor kanalının dumanlı sahilində gəzərkən, R.Bax "Conatan Livinqston adlı qağayı" sözünü deyən bir səs eşitdi. R.Bax, qulağında bu səslə, evə tələsdi, yazı masasına əyləşdi və bir kinofilm kimi gözünün önündən keçənləri yazmağa başladı. Lakin gördüyü fraqment qısa idi və ardı yox idi. R.Bax hadisəni öz gücünə davam elətdirmək istədi, lakin bacarmadı, 8 ildən sonra yenidən gözünə görünən günə kimi..." (1, s.58).

1970-ci ildə "Conatan Livinqston adlı qağayı" ayrıca kitab şəklində dərc olundu və tezliklə bestsellerə çevrildi. Roman barədə E.Vanderxill yazır: "Burada əsərin sadə süjetindən danışmağa ehtiyac yoxdur. Mən bu alleqorik povestin sırf fəlsəfi tərəflərinə aid olan bir neçə tənqidlərimlə kifayətlənirəm"(1, s.58). Vanderxillə görə Conatan haqqında hekayə faktiki olaraq, yerin qarmaqarışıq qanunlarından xilas olmağı bacaran və yerdə digər əziyyət çəkənləri də xilas etməyə tələsən buddist müqəddəsi Bodxisatvanın hekayəsidir. Burada həmçinin, sərt yanaşma, hərəkətlilik, möcüzələr və biliyin onu qəbul etmək istəyənlərə ötürülməsi ideyası var. Buddist fəlsəfəsinin əks-sədası povestdə açıq-aşkar eşidilir:

"Bizim əksəriyyətimiz irəli çox ləng hərəkət edib. Haradan gəldiyimizi unudaraq, haraya aparıldığımıza önəm verməyərək, yalnız içində olduğumuz anı yaşayaraq, bir dünyadan ona eynilə oxşayan digər dünyaya yollanmışıq. Sən heç təsəvvür edirsənmi biz həyatda yeməkdən, vuruşmaqdan və dəstədəki hakimiyyətdən daha vacib məsələlərin mövcud olması kimi ilk düşüncəni dərk edənədək neçə ömürdən keçməliyik? Min ömürdən, Conatan, on mindən! Sonra kamillik deyilən bir anlayışın mövcud olduğunu öyrənənədək başqa yüz ömürdən və həyatımızın mənasının kamilliyə çatmaq və onu gələcək nəsillərə ötürməkdən ibarət olduğu fikrini qəbul etmək üçün isə daha yüz ömürdən. Eyni qayda əlbəttə burada da mövcuddur. Burada öyrəndiklərimizə uyğun olan növbəti dünyanı seçirik. Əgər heç nə öyrənməmişiksə növbəti dünya da eyni olacaq və biz həmin maneələri yenidən adlamalı olacağıq"(Tərcümə bizimdir - M.A).

Lakin bu fraqmentdən görünür ki, R.Baxın öz fəlsəfəsi buddizmdən çox fərqlənir. Buddistlər təsdiq edir ki, kədər həyatın qaçılmaz yol yoldaşıdır. Hər kəsin can atdığı azadlıq isə həyatın tamamilə sona çatmağı və hər şeyin əsasında duran şəxsiyyətin boşluğa qayıdışıdır. R.Baxda belə bir yanaşma yoxdur. O, hər şeydən əvvəl, həyatın faciəsini inkar edir. O söyləyir: "Sənin cahilliyin ədalətsizliyə və insanlığın faciəsinə nə qədər dərin inanmağınla ölçülür"(1, s.58). Onun fikrincə, bütün problemləri və bədbəxtlikləri biz özümüz özümüzə yaradırıq, çünki, biz yaşamın ayrı üsulunu bilmirik və ya onu qəbul etmirik.

Bundan başqa R.Baxın nəzərdə tutduğu azadlıq heç də həyatdan, yaxud şəxsi "mən"-dən də azad olmaq demək deyil. "Sizin bütün bədəniniz təpədən dırnağa kimi, görə biləcəyiniz formada, öz düşüncənizdən başqa bir şey deyil. Düşüncələrinizə vurulan zəncirləri qırın və siz bədəninizə vurulan zəncirləri qırmış olacaqsınız"- deyə Conatan öz şagirdlərinə söyləyirdi (Tərcümə bizimdir - M.A). Dünyanı öz illüziyaları kimi dərk edərək şəxsiyyət yeni

imkanlar qazanır və özünüinkişaf prosesində ona daha çox perspektivlər açan başqa bir dünyaya keçid alır. "Conatan Livinqston adlı qağayı"da bu dünya "səmalar" adlanır və burada mükəmməlliyə nail olmaq üçün maneə, sərhəd yoxdur: "Tırtılın dünyanın sonu adlandırdığı şeyi ustad kəpənək adlandırır"(4). Lakin hər kəpənək də inkişafın növbəti mərhələsində sadəcə olaraq bir tırtıldır.

R.Bax dünyanı bu şəkildə bizə təsvir edir və bir çoxları ondan ilhamlanır. Əsər insanlara, bütün gündəlik problemlərə quşun uçuş yüksəkliyindən baxmaqda, öz şüurunun qüdrətini dərk etmək və ruhunun gücünə inanmaqda kömək edir. Məşhur Amerika fantastı Rey Bredberi yazırdı: "Riçard Baxın bu kitabı ikiqat təsir gücünə malikdir. O, mənə uçuş hissi bəxş edir və məni cavanlığıma qaytarır"(1, s.59).

Romanın mahiyyəti bir quşun uçmaq və uçuşun nə demək olduğunu dərk etmək arzusundan ibarətdir. Sadə və aydın dildə yazılan əsər öz uçmaq arzusunu həyata keçirtmək üçün dəstəsinə qarşı çıxaraq, cəmiyyətin bariyerlərini aşıb keçən Conatan Livinqston adlı qağayıdan bəhs edir. Bir qağayının həyat hekayəsinin təsvir olunduğu bu əsər, eyni zamanda, dərin məna ifadə edən metafora və ya alleqoriyadır. Əgər "Conatan"ı cəmiyyətin hər hansı bir üzvü ilə, "Dəstə"ni isə patriarxal cəmiyyətlə müqayisə etsək, görərik ki, hekayə öz mənliyini tapmaq üçün cəmiyyətin stereotiplərinə qarşı vuruşan bir fərdin hekayəsidir. Əsərin qəhrəmanı olan Conatan Livinqston adlı qağayını yalnız yem axtarışı üçün uçmaq maraqlandırmır, o, mükəmməl uçmağın sirlərini öyrənmək istəyir. Müəllif yazır: "Əksər qağayılar yemək tapmaq üçün dənizin sahilinə gedib qayıtmaq kimi uçuşun ən sadə formalarından daha artığını öyrənməyə maraqlı deyillər. Çox qağayılar üçün uçmaq yemək qədər vacib deyil. Bu qağayı üçün əsas olan yemək deyil uçmaq idi. Conatan Livinqston adlı qağayı uçmağı istənilən başqa bir şeydən daha çox sevirdi. Lakin o, başa düşdü ki, bu cür düşüncə tərzi ona digər quşların arasında hörmət qazandırmır"(Tərcümə bizimdir - M.A.).

Conatan bir müddət digər quşlar kimi davranmağa çalışır: "Liman körpüləri və balıqçı qayıqlarının ətrafında dəstə ilə hay-küy salmaq və boğuşmaq, balıq və çörək qırıntıları üçün suya baş vurmaq..."(Tərcümə bizimdir - M.A). Onun, sevdiyi şeylərin arxasınca getməyib digərləri kimi davranmaq niyyətinin bir sıra müsbət tərəfləri vardı. Sürüdən biri olmaq qərarı ona rahatlıq gətirirdi. İndi, onu öyrənməyə vadar edən gücün qarşısında heç bir maneə, bu yolda heç bir bədbəxtlik və uğursuzluq olmayacaqdı. Lakin sonda o, qağayıların bu həyatının mənasız olduğu qənaətinə gələrək öz məqsədinin arxasınca gedir. Bəzən uğursuzluğa düçar olaraq bəzən isə böyük bir uğuru təcrübədən keçirərək öz uçuş texnikasını mükəmməlləşdirməyə çalışır.

Bir gün o, qağayıların sürətli uçma rekordunu qırdıqdan və mürəkkəb uçuş fiqurlarını yerinə yetirdikdən sonra bu uğurunu eşidən qağayıların buna çox sevinəcəklərini düşünür: "İndi yaşamaq üçün nə qədər çox səbəb var! Sahillə balıqçı qayıqları arasında vurnuxma əvəzinə, nə üçün yaşadığımızı anlayarıq! Cəhalətdən qurtula, mükəmməl, ağıllı və bacarıqlı bir varlıq kimi özümüzü dərk edə bilərik. Azad ola bilərik! Uçmağı öyrənə bilərik!"(Tərcümə bizimdir - M.A). Lakin dəstə onun sevincini bölüşmək əvəzinə, onu sürgün edir: "Bu dünyaya qarnımızı doyurmaq və bacardığımız qədər çox yaşamaq üçün göndərilməyimiz xaricində, həyat sadəcə bir müəmmadan ibarətdir"(Tərcümə bizimdir - M.A).

Bu fraqmentlərdən açıq-aşkar göründüyü kimi, əsərdə iki tərəf arasında güclü təzad mövcuddur. Yazıçı əsərdə, uçuşa sadə, primitiv aspektdən yanaşan, vaxtını sahil kənarında mürgüləyərək keçirən, yalnız yem axtarışı üçün uçuşlar edən, hətta bəzən balıq tutmaq əvəzinə, suya atılmış qida tullantıları ilə qarnını doyuran digər tənbəl qağayılarla, qağayı cəmiyyətində formalaşmış bu cür həyat tərzi ilə barışa bilməyən, həyatın mənasının uçuşun gözəlliyini duymaqda olduğuna inanan Conatan arasında yaratdığı təzad vasitəsilə insanlar arasındakı mənəvi problemləri ön plana çəkmiş, insanın cəmiyyətlə münasibətlərindəki ziddiyyətləri və yenilikçi fərdlərin cəmiyyətin qadağaları ilə mübarizəsini əks etdirmişdir.

"Conatan Livinqston adlı qağayı" povestində şəxsiyyət axtarışı özünü müxtəlif səviyyələrdə göstərir. Bu ilk növbədə, mövcudluq və yüksək bilik xatirinə cəmiyyətin normalarını rədd edən və uçuş təlimatçısı kimi öz gerçək şəxsiyyətini tapan protaqonistin simasında öz təcəssümünü tapır. Digər tərəfdən bu özünü Conatanın, mənliyinə və azadlığına qovuşmaq istəyən digər quşlar üçün vasitəçi rolunu oynamasında büruzə verir. Nəticə göstərir ki, şəxsiyyət axtarışı ümumilikdə fərdi, sosial, psixoloji və mənəvi interfeysdir. Conatan azadlığın, sevginin, gücün və bütün yaraları sağaltmaq iqtidarında olan mərhəmətin rəmzinə çevrilir. Müəllif qağayı Conatanın timsalında bir daha vurğulayır ki, güclü inam, istək, cəsarət olduqdan sonra insan bu həyatda çox şeyə qadirdir. Əsərdən sitat burada yerinə düşür: "Uçmağı hər zaman öyrənmək olar, sadəcə onu istəmək lazımdı"(6).

Ədəbiyyat

1. Вандерхилл Э. "Мистики XX века". Энциклопедия (1996). (с.526)
2. Critical Literary Analysis: Jonathan Livingston Seagull -https://janelliguiang.wordpress.com
3. Jonathan Livingston Seagull (2014).pdf
4. İllusions quotes by Richard Bach - https://www.goodreads.com
5. Аудиокнига Ричарда Баха - "Чайка по имени Джонатан Ливингстон"
6. Ричард Бах-цитаты - http://www.livelib.ru

A.C.Магеррамова

Роман Ричарда Баха «Чайка Джонатан Ливингстон» - апофеоз позитивного мышления

Резюме

В этой статье моральные проблемы рассматриваются в контексте анализа популярного произведения Ричарда Баха "Чайка Джонатан Ливингстон". Джонатан Ливингстон – метафорический образ человека, ищущего свое призвание и готового заплатитъ для этого любую цену. Иногда ценой является непонимание со стороны близких. Некоторым великим людям в истории человечества пришлось заплатить эту цену ради достижения более высоких ценностей. "Чайка Джонатан Ливингстон" передает внутреннее восприятие человека на пути открытия этой истины. Проблематичный характер взаимоотношений между индивидом и обществом заключается в том, чтобы определитъ свой собственный смысл, цели в жизни, потому что общество болъше не предоставляет этого индивидууму. Проблема с Джонатаном Ливингстоном также аналогична.

A.S.Maharramova

Richard Bach's novel «Jonathan Livingston Seagull» as the apofeosis of positive thinking

Summary

In this article, moral problems is reviewed in the context of the analysis of Richard Bach's popular work "Jonathan Livingston Seagull". Jonathan Livingston is the metaphoric image for the person seeking out what he is called to do, and being ready to pay whatever price it takes. Sometimes the price is misunderstanding from those close to you. Some of the greatest people in the history of mankind had to pay this price for pursuing higher values. "Jonathan Livingston Seagull" conveys the inner perception of the person on the path of discovery of this truth. The problematic nature of the relationship between individual and society is to determine one's own meaning, aims and goals in life, because society does not provide the individual with these any longer. Then the degree to which the self is connected with it and how it is accepted by others becomes problem. The problem with Jonathan Livingston is also similar.

Rəyçilər: filol.f.d., dos. H.Ə.Əliyeva;
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(12.02.2018-ci il tarixli iclasının qərarı (pr. №07))
Redaksiyaya daxil olub: 16.02.2018

L.M.QƏDİROVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İSA HÜSEYNOVUN POVESTLƏRİNDƏ KİŞİ TİPAJLARI

Açar sözlər: *İ.Hüseynov, bədii nəsr, kişi, tipaj, insan və mühit, müharibə*
Ключевые слова: *И.Гусейнов, художественная проза, мужчина, типаж, человек и окружающая среда, война*
Key words: *I.Huseynov, artistic prose, man, type, human and environment, war*

Azərbaycan bədii nəsrinin inkişaf yollarını araşdırarkən zaman-zaman onun yenilənməyə doğru getdiyinin şahidi oluruq. Buna görə də hər bir dövr, yaxud mərhələdən sonra ədəbiyyatda bütün parametrlər üzrə yeniləşmənin getməsini müşahidə etmək olar. Nəsrin inkişafını şərtləndirən amillərdən biri də onun obrazlarının, xarakterlərinin daim dəyişməyə məruz qalmasıdır. Çünki həyat dəyişdikcə bu həyatı, dünyanı təsviretmə imkanları da dəyişir və yeniləşir. Tənqidçi Yaşar Qarayevin belə bir fikri doğru səslənir ki: "Nəsrin hərəkəti təkcə qəhrəmanın yox, yazıçı fikrinin, onun ideya-bədii yaradıcılıq simasının öz hərəkətində və inkişafında izlənməlidir" (1, s.177). Nəsrin müxtəlif parametrlər üzrə bu izlənilməsi maraqlı qənaətlərə gətirib çıxarır. Belə ki, nəsr zaman keçdikcə yalnız mövzu və problematika cəhətdən deyil, həm də obraz yaradıcılığı etibarilə dəyişir, inkişaf edir. Bunsuz həm təsvir olunan həyatın, həm də əsərin bir vəhdət halında olmasının özü şübhə altına alınmış olar. Bu mənada, ötən əsrin 50-60-cı illərinin bədii nəsrində təsvir olunan kişi tipajlarına nəzər yetirmək kifayətdir.

Əgər cəmi bir neçə onillik əvvəl bədii nəsrdəki kişi tipajlarının, yaxud qəhrəman tipinin sxematik və bir-birinə bənzəməsini nəzərə almış olsaq, bu illərdə müasir insanın, dövrün psixoloji və mənəvi-əxlaqi hərəkətlərini özündə ehtiva edən kişi tipajlarının yarandığını görmək olar. Özü də bu qəhrəmanlar özündən əvvəlki kişi tipajlarından məzmununa, davranışına və mahiyyətinə görə də fərqlənir. Bu, hər şeydən əvvəl, dövrün həqiqətlərinin bədii dərkində yazıçı axtarışlarının nəticəsi kimi mənalanır. Çünki hər bir qəhrəman tipi (kişi tipajları da daxil olmaqla) öz-özlüyündə yazıçının bədii niyyətinin, estetik idealının mahiyyətini əks etdirir. Başqa sözlə, dövrün əsərlərini qiymətləndirərkən mətnlə yanaşı, obraz yaradıcılığı da onun mahiyyətini açmaq üçün hər hansı bir açar vasitəsi rolunu oynayır. Bədii nəsrdə bu cür kodların mövcudluğunu araşdıran professor Qorxmaz Quliyevin fikrincə, bu kodların köməyilə sənətkarın yaşayıb yaratdığı dövrün həyatını, insanlarını və onların mənəvi-əxlaqi aləmini öyrənmək mümkündür: "Məhz kodun yardımı ilə müəllif bədii mətnin müxtəlif səviyyəli elementlərini üzvi vəhdətdə birləşdirməyə və mənalandırmağa nail olur" (2, s.39). Bu baxımdan İsa Hüseynovun kişi tipajları bədii nəsrdə sənətkar kontekstinin bəzi mühüm cəhətlərini özündə əks etdirir. Bu cür kişi tipajları ilk olaraq 50-ci illərdə İ.Hüseynovun povestlərində özünü göstərməyə başlayır. Onun "Saz", "Doğma və yad adamlar", "Kollu Koxa", "Şəppəli" və s. povestlərində realizm artdığı kimi, insanla mühit, cəmiyyət arasında da əlaqələr genişlənməyə doğru getmişdir. Ona görə ki, bu dövrdə cəmiyyətin özünün mənzərəsi dəyişmişdi, indi qalırdı bədii ədəbiyyatın bu mənzərəni əks etdirməsi. Yazıçının "Tütək səsi" povestində yaradılan kişi tipajları tamamilə yeni məzmundadır. Bu tipajlardan onların hansı mühitdə, necə yaşadığını, hansı əxlaqi kodeksə sahib olduğunu öyrənmək mümkündür. Maraqlı cəhət burasındadır ki, yazıçının bir çox tipajları bir neçə əsərinin əsas qəhrəmanı kimi çıxış edir. Qılınc Qurban, Səməd Əmirli, Cümrü kimi tipajlar bir neçə əsərinin epizodik, yaxud əsas qəhrəmanlarından olur. Bəzən də bu tipajlar mahiyyət, xarakter etibarilə eyni olsalar da, müxtəlif adlarla adlandırılmışdır. Məsələn, "Tütək səsi" povestindəki Mehbalı əmi

ilə "Saz" povestindəki İsfəndiyar kişi sanki eyni xarakterli olmaqla yanaşı, həm də əsərdə bir-birinə yaxın funksiyanı daşıyırlar. Hər iki tipajın xarakterində humanizm və ədalət prinsipi başlıca yer tutur.

"Tütək səsi" povestində Cəbrayıl, Nuru, Tapdıq, Cümrü obrazlarının təsviri müharibə dövrünün psixologiyasını açmaq üçün ən yaxşı vasitə olur. Povestin yeniyetmə qəhrəmanları kolxoz sədri Cəbrayıla qarşı çıxırlar. Lakin bu qarşıçıxma heç də nəsil və təfəkkür dəyişməsindən irəli gəlmir, kolxoz sədrinin qanunsuz və əxlaqsız hərəkətlərinə qarşı yönəlir. Belə ki, müharibəyə getmiş atalarının namusunu, ismətini qorumaq işi bu yeniyetmələrin öhdəsinə düşür və onlar bu şərəfi ləyaqətlə qorumaq missiyasını üzərlərinə götürür. Onlar cəbhədə vuruşan atalarını müqəddəs hesab etməklə yanaşı, onların arxadakı namusuna göz dikən insanlara qarşı da bir yerdə hərəkət edirlər. Doğrudur, onlar hələ çox gənc və gücsüzdürlər. Lakin ən əsası yazıçı onların mübarizəsinin əxlaq kodeksi üzərində qurulduğunu və hər hansı bir mənəvi problemə əsaslandığını göstərmək istəmişdir. "Tütək səsi" povestinin süjet xəttinin əsasında Tapdıqla Cəbrayılın mübarizəsi qoyulur. Müharibədən qara kağızı gələn atasının namusunu qorumaq Tapdığın üzərinə düşür. Lakin 15 yaşlı sısqa Tapdıq mübarizəni güc yolu ilə apara bilməzdi. Cəbrayıl həm hökumət adamı idi, həm də fiziki cəhətdən çox güclü idi. Ona görə də Tapdıq hər gün onun qapısını daşlayır və kənddə kolxoz sədrinə qoşulmuş mahnını oxumaqla onu buradan bezikdirməyə çalışır. Hər gün demək olar, ki, bu mənzərə təkrarlanır. Tapdıq kolxoz sədrini ələ salan mahnısını oxuyub qapısını daşlayır, Cəbrayıl isə həyətə çıxıb Tapdığı döyür. İkisindən biri kənddən getməli idi. Tapdığın yoldaşları istəyir ki, yığışıb sözü bir yerə qoyalar, Cəbrayılın kənddən çıxıb getməsi şərtini irəli sürələr. Lakin buna mane olan Cəbrayılın müharibə üçün yarım milyon tank pulu verməsi olur. Adının Cəbrayılla çıxmasından qorxuya düşən Söylü arvad ona ərə getməyə razı olur. O, qorxurdu ki, ərə getməsə, oğlanları ilə Cəbrayıl arasında qan düşər. Ancaq oğlanları Tapdıq da, Cümrü də onun ərə getməsi ilə də barışa bilmirlər. Söylü aravadın oğlu Tapdıqla söhbətində müharibənin törətdiyi mənəvi-əxlaqi problemlər qoyulur. Evdən aralı bir yerdə yaşayan Tapdıq anasının gətirdiyi yeməklərə əl vurmur, Cəbrayıla qarşı mübarizəsini davam etdirir. Bunun yaxşı qurtarmayacağını hiss edən anası Söylü deyir: "-Barış demirəm... onnan mənim özümün də ulduzum barışmaz. Ancaq əl çək o mahnını oxumağından, əl çək, gözümün işığı! Cavan-cümrü hamı qoşulub sənə, hamı "ağ fətir, əmlik əti" deyir, onu görəndə çöldə qızlar da ağız-ağıza verib oxuyurlar, onun da gözündən qan damır! Bunun axırı yaxşı olmaz, Tapdıq! (3, s.329).

Əgər Tapdıq Cəbrayıl kişiyə qarşı aktiv mübarizə aparırsa, onun kiçik qardaşı Cümrü başqa yola əl atır. Onun Cəbrayılla mübarizə, yaxud münaqişə aparması mümkünsüz olduğundan, hər gün damın başına çıxıb tütəkdə yanıqlı havalar çalır. Cəbrayıl isə onun guya özünü əsgərliyə getməmək üçün dəliliyə vurması barədə kənddə söz yayır. Əslində isə yazıçı Cümrünü başına hava gəlmiş kimi göstərmək istəməmişdir. Cümrü ağlını itirməmişdir, sadəcə olaraq daşürəkli, qəddar Cəbrayılla başqa yolla mübarizənin mümkün olmadığını bilərək bu yola əl atmışdır. O, Cəbrayılla mübarizədə zəifliyini dərk edərək tütək səsi ilə ona təsir göstərmək istəyir. Lakin bunun da mümkün olmadığını gördükdə, əlindəki tütəyi Cəbrayıl kişinin dodaqları arasına soxaraq "-çal deyirəm sənə!..",-deyə onun tütəyi çalmasını istəyir. Elə bu hərəkət də bəs edir ki, Cəbrayıl "istrebitelni batalyona" əmr etsin ki, onu maşına basıb aparsınlar. Əslində Cəbrayıl da məhz gücünə arxayınlaşıb kənddə bu əməllərdən çıxırdı. İ.Hüseynov həm də Cəbrayıl obrazı ilə həm də müharibə dövründə vəzifəsindən istifadə edən gücün obrazını yaratmış olur. Əgər əvvəlki bədii nəsrimizdə hökumət adamının humanistliyi təsvir edilirdisə, İ.Hüseynovda onun qəddarlığı və güc, hökumət faktorundan istifadə edərək şəxsi istəklərini yerinə yetirməsini göstərirdi. Bu tamamilə nəsrimizdə yeni kişi tipajı kimi mənalanır. Bu tipajlar həm də müharibə dövrünün adamları kimi səciyyələnir. Müharibə dövrü isə ekstremal vəziyyətləri əks etdirirdi. Deməli ki, yazıçı bu tipajları yalnız bədii təxəyyül məhsulu kimi verməmiş, həm də həyatı dərk etmək üçün yaratmışdır. Müharibə isə

adamları dəyişdirmişdir. Ona görə də bu kişi tipajları ağır həyata və şəraitə uyğunlaşmışdır. Bu xüsusiyyətlər yazıçının digər əsərlərindəki kişi tipajları üçün də keçərlidir.

İ.Hüseynovun İsfəndiyar kişi, Qılınc Qurban ("Saz"), Sultan Əmirli, Əlləzoğlu, Mədəd Əmirli, Çax-Çux, Təftiş Abbas, ("Yanar ürək"), Kollu Koxa "(Kollu Koxa"), Molla Gülən ("Quru budaq") və b. kişi tipajları da dövrün mənəvi-əxlaqi problemlərini açmaq üçün müəyyən açar ola bilir. Ümumiyyətlə, İ.Hüseynovun əsərlərində kişi tipajları nəzərə çarpacaq dərəcədə üstünlük təşkil edir. Onun əsərlərinin aparıcı qüvvəsini kişi obrazları təşkil edir. Bəlkə bu ona görədir ki, yazıçının bütün əsərlərində ictimai-siyasi proseslərin təsvirinə daha çox yer verilir və bu halda kişilər də önə çıxır. Hər halda bu məlumdur ki, yazıçının əsərlərində kişi tipajları qadın obrazlarından bir neçə dəfə çoxdur. Bundan başqa qadın obrazları heç bir əsərinin aparıcı qüvvəsinə çevrilmir, yalnız nadir hallarda hadisələri idarə edən tərəf olur. Belə ki, İ.Hüseynov hər hansı bir mətləbi yalnız hadisə və süjet xəttilə deyil, həm də xarakterlə, obrazlar vasitəsilə əks etdirir. Bu cür kişi tipajlarından biri də Qılınc Qurban və İsfəndiyar kişidir. Bəzən bu obrazları qarşı-qarşıya da qoyurlar. Lakin yazıçının məqsədi onları bir-birinə qarşı qoymaq deyil, dövrün mahiyyətini, məzmuunu bu obrazlar vasitəsilə açmaq olmuşdur. Sovet sədri Qılınc Qurban balaca, arıq bir kişi idi, ancaq yeriyəndə alov kimi yeriyir, danışanda od kimi danışırdı. Onun keçmişi qaçaqlarla mübarizədə keçmiş, sovet hökumətinin qurulmasında böyük rol oynamışdı. Lakin Qılınc Qurban aradan çox illər keçməsinə baxmayaraq, yenə də eyni əzmlə, qəddarlıqla və inamla dövlətə qulluq etmək missiyasını yerinə yetirirdi. Yazıçı əsərdə onu olduğu kimi təsvir edir, yəni onun xarakteri haqqında təhlillər vermir, onu oxucu müzakirəsinə çıxarmır, əksinə nəticə çıxarmağı oxucunun öhdəsinə buraxır. Qılınc Qurbanın keçmişi və indisi barədə məlumat verərkən yazır: "Kənddə söyləyirdilər ki, bu balaca kişi vaxtilə hər əlində bir mauzer, təkbaşına yüz qaçağın üstünə gedərmiş. Gah çoban, gah dərviş, gah da dilənçi libasında, qaçaqlara lap yaxınlaşandan sonra, birdən cır-cındırının altından mauzerləri çıxarıb, özünü daşın dalına verərmiş. İsfəndiyar kişi bu deyilənlərin heç birini öz gözü ilə görməmişdi, ancaq hamısına inanırdı. Çünki Qurban kişinin indisinə bələd idi" (4, s.23). Yazıçının onun adının əvvəlinə Qılınc epitetini də əlavə etməsi tipajının mahiyyətini açmağa xidmət edir. Doğrudan da, Qılınc Qurbanın sözü itidir, hər sözünün arxasında bir əməl durur, dediyini edəndir, heç kəsə güzəştə getmir. Ona görə də, onun haqqında "Qılınc Qurban qından çıxıb. Görəsən kimi kəsməyə getdi",-sözlərini deyirlər. Qılınc qından çıxdısa, mütləq kəsməlidir. Bunun nəticəsidir ki, onun dövründə üç para kənddə nə ilxıdan at aparılmış, nə anbar yarılmış, nə də vaqonun qapısını sındırıb taxıl aparmışdılar. Yazıçı əsər boyu kişi tipajlarını yaradarkən obrazların əhvali-ruhiyyələrini, psixologiyasını, düşüncələrini ön plana çəkərək onun xarakterini yaratmağa çalışır. Tənqidçi Akif Hüseynov Qılınc Qurbanın tipajını təhlil edərkən belə bir qənaətə gəlir: "Saz" povestində Qılınc Qurbanın əməlləri bailavasitə müzakirə obyektinə çevrilmir; təkcə ona görə yox ki, onun sözünün qabağına söz çıxartmaq hünər istəyirdi, həm də ona görə ki, müəllif özü belə bir niyyətdən uzaqdı; həmin əməllərin dərkini də, qiymətləndirməsini də oxucuya həvalə edir" (5, s.52).

İ.Hüseynov Qılınc Qurban tipajına "Quru budaq" povestində də müraciət edir. Burada da Qılınc Qurban özünün əzəli rolundadır; cəmiyyətdə nizam-intizam yaradan bir tipaj kimi təsvir olunur. Doğrudur, əvvəlki əsərdəki Qılınc Qurbanla "Quru budaq"dakı Qılınc Qurban arasında müəyyən fərq vardır. Bunu yazıçı özü deməsə də, əsərdəki hadisələrdən çıxan nəticə deyir. Bu əsərdə Nuru onu "ədalət qılıncı" adlandırır. Lakin Nurunun "ədalət qılıncı" adlandırdığı Qılınc Qurban təhkiyəçinin "-Qılıncınızı görmürəm, Qurban əmi, hanı sizin ədalət qılıncınız?",-deyərkən belə cavab verir: "-Hə-ə?.. Deməli görmürsən?..-Bədbəxtin qolunu xurd-xəşil eləyib tullayıbsan ora, dilini dinməzinə qoymaq əvəzinə hələ bir ədalət qılıncı da istəyirsən məndən?! Bərəkallah!.." (3, s.414). Buradakı Qılınc Qurban da "Saz"dakı Qılınc Qurbana çox yaxındır, bəzi hallarda isə eynidir.

"Saz" povestində Qılınc Qurbanla yanaşı, İ.Hüseynov İsfəndiyar tipajına da geniş yer vermişdir. Müharibə onun da həyat tərzini dəyişmiş, iki övladı Rəhmanla Bəhmən müharibəyə gedərək geri qayıtmamışdılar.

Sultan Əmirli obrazı da İ.Hüseynovun ən yaxşı və mürəkkəb kişi tipajlarından biridir. Bu tipaj bir qədər də Qılınc Qurbanı xatırladır. O da Qılınc Qurban kimi dövlət, hökumət adamıdır, partiya uğrunda çalışıb, müəyyən işlər görüb. O da bir qədər qəddardır, prinsipialdır. Hər iki tipaj vasitəsilə yazıçı ictimai eybəcərliyi təsvir etmək və ziddiyyətləri ortaya çıxarmaq istəmişdir. Lakin Sultan Əmirli tipajının daşıdığı mənəvi yük daha böyükdür. Əgər Qılınc Qurban kollektiv eybəcərliyin bir nümayəndəsi kimi təsvir olunursa, Səməd Əmirlidə müsbət xarakterlər və milli dünyagörüş üstünlük təşkil edir. Maraqlıdır ki, yazıçı Sultan Əmirliyə qarşı romanda Əlləzoğlu tipajını yaratmışdır ki, bu da tipajların fərqli cəbhələri özündə ehtiva etdiyini aydın göstərir. Sultan Əmirli hər zaman özünün şəxsi mənafeyini yox, xalqı, dövləti düşünür və bunun uğrında mübarizə aparır. Əlləzoğlu isə ancaq şəxsi mənafeyini düşünür; o zahirən fağır, məzlum kimi görünsə də, əslində çox təhlükəlidir, azacıq bir müqavimətə rast gələn kimi dərhal iynələrini sancmağa hazırdır. O, məqsədinə çatmaq üçün hər şeyə əl ata bilər; müxtəlif müdafiə üsullarına müraciət edər, çoxlu faktlar toplayar, yalan və böhtanlar uydurar. Səməd əmirlini əlində möhkəm saxlamq, daha sonra isə var-dövlətinə toxunmaq üçün kağız əhvalatından da məhz bu məqsədlə möhkəm yapışıb ona qarşı istifadə etməyə çalışır. Başqa bir yerdə isə əksinə, Səməd Əmirlinin acığını soyutmaq üçün dəridən-qabıqdan çıxır, ona yaltaqlanır, bülbül kimi onun qarşısında ötür. Tənqidçi Asif Əfəndiyev Əlləzoğlu tipajının xarakterini qiymətləndirərkən obrazlı şəkildə yazır: "Əlləzoğlu qorxunc adamdır. Ona görə eybəcər adamdır ki, həyatda hərislikdən, vara pərəstiş etməkdən, hər bal pətəyindən bir damla udmaqdan başqa bir şey bilmir. Onun təkcə boyu yox, fikirləri, duyğuları da sısqadır" (6, s.46).

Əlbəttə, tənqidçi haqlıdır, ona görə ki, yazıçı Əlləzoğlu tipajını özünəməxsus şəkildə yaratmışdır. İndiyədək bədii nəsrimizdə yaranan kişi tipajlarından fərqlənir. Onun zahiri görünüşü (eybəcərliyi) ilə daxili, demək olar ki, bir-birini tamamlayır. Oxucu süjet boyu bütün varlığı ilə var-dövlət üçün yeganə qızı Gülgəzi fəlakətə sürükləyən Əlləzoğlunu daha yaxşı tanıyır.

Sultan Əmirli tipajı isə hər hansı bir fərdin deyil, müəyyən bir qrupun düşüncəsini, fəlsəfəsini əks etdirir. Doğrudur, yazıçı onu tündxasiyyət, eqoist kimi təsvir edir, vaxtilə rayonu inkişaf etdirən bir şəxsin indi onun qarşısında bir kötüyə çevrilməsi göstərilir, bununla belə, Səməd Əmirli oxucu düçüncəsində mənfi xarakter olaraq qalmır. Onun müəyyən həyat fəlsəfəsi vardır və dostları ilə bu həyat fəlsəfəsini reallaşdırmağa çalışır. İndi o çıxdığı mühitdən uzaqlaşmasına baxmayaraq, oxucu ona inanır. Əslində bəzi xüsusiyyətlərinə görə Səməd Əmirli elə Sultan Əmirli tipajının davamıdır. Səməd Əmirlinin davamı isə Mədəd Əmirlidir. Azərbaycan bədii nəsrində ilk dəfə olaraq, yazıçı nəsil tipajları verməyə müvəffəq olur. Sultan Əmirli-Səməd Əmirli-Mədəd Əmirli obrazları mahiyyət etibarilə ümumilikdə dövrün, zamanın bir-birini əvəz edən tipajlarıdır. Onlar fərdi cəhətdən müxtəlif xarakterlərə malik olsalar da, mahiyyət etibarilə bir-birini davamıdır. Yenə də A.Əfəndiyevə müraciət etsək belə bir qənaətlə qarşılaşıarıq: "Sultan Əmirlinin öz mühti, ağsaqqalları dil biləni, əxlaq dostları vardır. Sultan Əmirli tək deyil, bəlkə Sultan Əmirlilər qrupunun bir nümayəndəsidir. Buna görə də onun labüd süqutu həmin qrupun süqutu oldu" (6, s.48).

Yazıçının Əmirlilərin sonuncu nümayəndəsi Mədədin Əmirlilər mülkü ilə uşaq bağçasının arasında yeni bir cığır açmasını təsvir etməsi çox şey deyir. Buradan görünür ki, ictimai amillərin təsirilə Mədəd də atasının yolunu davam etdirəcəkdir.

İ.Hüseynovun Molla Gülən ("Quru budaq") tipajı da özünəməxsus olmaqla yanaşı, bütün mahiyyəti ilə yenidir. O da öz dövrünün adamıdır. Yazıçı 20-ci illər hadisələrinin təsvirində ictimai münsibətlərin bir ucunda da Molla Güləni təsvir edir. Lakin o zamandan müəyyən bir vaxt keçmişdir. İndi o yeni münasibətlər sistemində özünün yeni rolunu oynamaqdadır. Məktəbdə təsərrüfat işləri üzrə müavin olan Molla Gülən əvvəllər mollalıq edər, ovsun

oxuyar, dua yazarmış. Ağac budağına sabun sürtüb Tahir müəllimə sui-qəsd düzəltdiyinə görə Qılınc Qurban onun səsini almışdı. O, hər zaman qara kabus kimi Şövkəti izləyir. Onun bütün fikri-zikri Tahir ruhunu gənclərin qəlbindən silmək, məktəbi, maarif yurdunu xarabazara çevirməkdən ibarətdir. Onun simasında yazıçı təmizliyə, gözəlliyə, ədalətə qarşı duranların xarakterini açmaq istəmişdir. Ancaq Şövkətin simasında Molla Gülənlərə qarşı barışmaz əhvali-ruhiyyəni göstərir. Şövkət Molla Gülənə qarşı güzəşt fəlsəfəsilə heç cür razılaşa bilmir.

İ.Hüseynov "Kollu Koxa" povestində də Azərbaycan bədii nəsrini tipajlarla zənginləşdirmişdir. Kollu Koxa tipajının xarakteri, duyğu və düşüncələri ilə xalq içərisindən çıxdığı üçün onun ümumiləşmiş obrazına çevrilir. Kollu Koxanın psixologiyasında təsvir edilən cəhətlər onun obrazını bir qədər də bütövləşdirir. Yazıçı ilk andaca Kollu Koxa haqqında bir neçə informasiya verməklə obrazın şəxsiyyətinə, hərəkət və fəaliyyətinə maraq yaradır. Obrazın şəxsiyyəti ilə bağlı suallar oxucu marağını daha da artırır: "-Bizim Qaracalarda, uşaqları və yeniyetmələri çıxmaq şərtilə, neçə adam varsa, bir o qədər də ləqəb var. Hamısını uydurub yapışdıran da Koxadır. Daha doğrusu, Koxa idi. İndi o, kənddə yoxdur. İndinin özünün də ləqəbi var: Kollu koxa. Bəs bu ləqəbi kim qoşub? Nə üçün Kollu?" (11, s.259)

Kollu Koxanın kəndin hər bir adamına ləqəb qoşmaqla məşğuldur. Lakin onu cəmiyyətə bağlayan, subyektivlikdən çıxarıb ictimai münasibətlərə çevirən detallar da çoxdur. Kollu Koxa indi Qaracalarda yoxdur, haçan gələcəyi isə məlum olmasa da, heç kimin yadından çıxmır. Kolxoz sədri daim onu fikirləşir, fikirləşir ki, kəndə gələndə onu işdən necə çıxarsın. Hər zaman qarşısında dayanıb nəfəs alan, gülə-gülə "Cındı qarı, Dinqə Dəmir, Həsir Haşım", -deyə sadalayan Koxanı görür. Koxanın ləqəbləri sərrast və tutarlı olur, hətta rayondan gələn qonaqlar belə Koxadan ləqəbləri sadalamağı təkidlə xahiş edirdilər. Əsərin psixologizmi də məhz buradan doğur. Yazıçı ayama qoşan Kollu Koxanın dili ilə insanların daxili aləmini, düşüncəsini, xarakterini açmağa çalışır və deməliyik ki, buna nail olur. Doğrudur, Kollu Koxa Qılınc Qurban kimi fəaliyyət prosesində təsvir olunmur, bu cəhətdən onları müqayisə etmək olmaz. Lakin Kollu Koxanın ləqəblərinin sirri açıldıqca Qılınc Qurbanların da daxili aləmi aydınlaşır. Kollu Koxa obrazının əsərdə oynadığı ictimai yük hərtərəflidir. Kollu Koxa hamı kimi bir fərd olmasına baxmayaraq cəmiyyətə təsir göstərir, onu təmizləyir, saflaşdırır, sağlamlaşdırır. O, bununla camaatın gözünü açır, ona pis yaxşıdan seçməyi öyrədir. Yazıçı "ayama" qoşmaqla şeir qoşmağı müqayisə edərək üstünlüyü birinciyə verir və demək istəyir ki, xəlvətə çəkilib mənasız şeirlər yazmaqdansa, cəmiyyət üçün bu cür xeyirli işlər görmək lazımdır.

Kollu Koxa obrazında insanın fərdi aləminin təsviri probleminə toxunan tənqidçi A.Əfəndiyev obrazın bu xüsusiyyətini yüksək qiymətləndirərək yazırdı: "Kollu Koxanın fəaliyyəti, müəyyən mənada, kollektivin vicdanı, özünü dərketmə qabiliyyəti, narahatlığı, inkişaf təmayülü-səviyyəsinə yüksəlir. O, ətrafındakılara yalnız zahiri təsir göstərmir. Onların daxili aləminə nüfuz edir, onları düşünməyə, həyəcanlanmağa, narahat olmağa vadar edir. Adi suçu ilə savadlı aqronomu da, rayonun fəxri sayılan Qılınc Qurbanı da, inzibati işçiləri də rahat yaşamağa qoymayır. Onlara gülür və onları kamilləşdirir" (6, s.45).

Beləliklə, İ.Hüseynovun 50-60-cı illər bədii nəsrində yeni tipajların yarandığını aydın görmək olur. Bu tipajları ümumiləşdirərək aşağıdakı qənaətlərə gəlmək mümkündür:

a) İ.Hüseynovun kişi tipajları yeni dövrün mahiyyətini, ictimai-siyasi düşüncəsini əks etdirirdi;

b) bu obrazlar bütün xüsusiyyətlərilə bədii nəsrimizi zənginləşdirir;

c) İ.Hüseynov tipajları adından tutmuş məzmununa qədər yeni və orijinaldır; və s.

d) İ.Hüseynov bədii nəsrində kişi tipajları qadın obrazlarından dəfələrlə çox olmaqla yanaşı, həm də süjet xəttinin əsasını təşkil edir.

Göründüyü kimi, İ.Hüseynov yaradıcılığı Azərbaycan nəsrini yalnız mövzu və problematika baxımından deyil, kişi tipajları baxımından da zənginləşdirmişdir. Onun yaradıcılığını bu istiqamətdə araşdırmaq və ədəbi tənqidin mövqeyini öyrənmək onun ədəbi irsini yenidən araşdırmaq üçün ən yaxşı vasitə ola bilər.

Ədəbiyyat

1. Qarayev Y. Poeziya və nəsr. Bakı, Yazıçı, 1979, 198 s.
2. Quliyev Q. Xüsusidən ümumiyə. Bakı, Elm və təhsil, 2016.320 s.
3. Hüseynov İ. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1988, 416 s.
4. Hüseynov İ. Seçilmiş əsərləri. 2 cilddə, II c., Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1988, 368 s.
5. Hüseynov A. Nəsr və zaman. Bakı, Yazıçı, 1980, 185 s.
6. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, Gənclik, 1976, 192 s.

Л.М.Гадирова

Мужские типажи в повестях Исы Гусейнова

Резюме

Статья посвящена мужским типажам в творчестве Исы Гусейнова. Одним из факторов, способствующих развитию художественной прозы Азербайджана, является функциональность мужских типажей. Показано, что в этой художественной прозе мужские типажи изменились и обновились. Потому что действие прозы не только изменяет идею писателя, облик его художественного творчества, но и изменяет образы и обновляется. Мужские типажи, изображенные в художественной прозе 50-60-х годов прошлого века, также появились в результате этого нововведения. Каждый тип героя (включая мужских персонажей) отражает сущность художественного замысла, эстетическую идею самого писателя. Мужские типажи в повестях Исы Гусейнова–Исфандияр, Гылынч Гурбан («Саз»), Султан Амирли, Аллазоглу, Мадат Амирли, Чах-чух, Тяфтиш Аббас («Горящее сердце»), Коллу Коха («Коллу Коха»), Молла Гулян «(Сухие ветви») и др. также могут играть важную роль в понимании причин духовных и моральных проблем эпохи. Можно прийти к выводу, что творчество И.Гусейнова обогатило азербайджанскую прозу не только с точки зрения тематики и проблематики, но и мужских типажей.

L.M.Gadirova

Male types in the Isa Huseynov's tales

Summary

The article is devoted to male types in the creativity of Isa Huseynov. One of the factors contributing to the development of Azerbaijan's artistic prose is the functionality of male types. It is shown that in this artistic prose, male types have changed and updated. Because the action of prose not only changes the writer's idea, the appearance of his artistic creativity, but also changes images and is updated. Male types, depicted in the artistic prose of the 50-60s of the last century, also appeared as a result of this innovation. Each type of hero (including male characters) reflects the essence of artistic design, the aesthetic idea of the writer. Male types in the tales of Isa Huseynov–Isfandiyar, Gilinj Gurban (Saz), Sultan Amirli, Allazoglu, Madat Amirli, Chakh-chukh, Taftish Abbas ("The Burning Heart"), Kollu Kokha ("Kollu Kokh"), (Dry branches) and others can also play an important role in understanding the causes of the spiritual and moral problems of the epoch. We can come to the conclusion that I.Huseynov's creativity enriched Azerbaijani prose not only from the point of view of subjects and problems, but also male types.

Rəyçi: BSU-nun Azərbaycan ədəbiyyatı kafedrası
(24.01.2018-ci il tarixli iclasının qərarı (pr. №06))

Redaksiyaya daxil olub: 22.02.2018

Z.A.RÜSTƏMOVA
e-mail: zulfiyye_rustemova@hotmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SOL BELLOUNUN "HERSOQ" ROMANININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Sol Bellou, "Hersoq", məktub, simvol, avtobioqrafiya*
Ключевые слова: *Сол Беллоу, "Герцог", символ, письмо, автобиография*
Key words: *Saul Bellow, "Herzog", symbol, letter, autobiography*

XX əsrin ikinci yarısında Amerikada yaşayan ən məşhur yəhudi yazarlardan biri Sol Belloudur. Yaradıcılığı və məşhurluğu ilə Amerika ədəbiyyatının klassikləri sıralarına daxil olan Bellounun qəhrəmanları identikliyinin axtarışı ilə bütün dünyanı səyahət edirlər. Onlar öz unikal şəxsiyyətləri ilə öz mövcudluqlarını təsdiq etmək və insanın dünyadakı əsl mövqeyini aydınlaşdırmağa çalışırlar. Bellou yaradıcılığı insanın mürəkkəb daxili aləminin açılmasında böyük rol oynayır. Yəhudi əsilli Amerikalı müəllif müharibədən sonrakı müasir absurd dünyada varlığın identifikasiyasi, insan mövcudluğunun mənasızlığı, bəşər sivilizasiyasının itirilmiş mənəvi dəyərlərini romanlarında əsas xətt kimi işləmişdir. O, yaradıcılığında Amerika ədəbiyyatının romantikasını və Fransız ekzistensializmini eyni dərəcədə zirvəyə qaldırmağa nail olmuşdur. Nitşe fəlsəfəsini Amerika mədəniyyətində Yəhudi ənənələri fonunda roman janrında işləyərək XX əsr dünya ədəbiyyatına öz töhvəsini vermişdir.

Bellounun romanları qəhrəmanlarının öz mövcudluq axtarışları, həyat uğrunda mübarizələri ilə diqqəti cəlb edir. Müasir reallığın xaosunda rahat yaşamaqdansa, öz reallıqlarını yaradır və orada "rol" oynamağa çalışırlar. Müxtəlif sosial situasiyalarda "uyğun" "rol"ları ifa etməkdənsə, özünü bütün saxtakarlıqdan uzaqlaşdırmağı üstün tuturlar.

Sol Bellou "Hersoq" romanını1964-cü ildə çap etdirmişdir. Əvvəlki romanı "Ogi Marçın macəraları" kimi bu romanına görə də Milli Kitab mükafatına layiq görülmüşdür. İrihəcmli olan bu roman üçüncü şəxsin dilindən verilir, tez-tez Mozes Hersoq tərəfindən yazılan müxtəlif ünvansız məktublarla təhkiyyəçinin "sözü" kəsilir. Mozes orta yaş krizinin, intellektual və psixoloji bir çöküşün içindən oxucuya xitab edir. Ailəsi, akademik həyatı darmadağın olmuş, Mozes Hersoq ailəsinə dostlarına, yaşayan və həyatını itirən məşhurlara heç vaxt göndərməyəcəyi məktublar yazır və dünya ilə, tarixlə, öz həyatı, məhv olmuş xəyalları ilə bağlı suallar verir, üzr istəyir, şikayət edir. Romanda zaman anlayışı düzxətli deyildir. Təhkiyyəçi tez-tez keçmiş və indiki (flashback/flashforward) zaman arasında səyahət edir. Mozes Hersoq keçmişi xatırlayaraq Qərbi Massaçusesdəki indiki həyatının necə formalaşdığını anlamağa çalışır.

Romanın adı Ceymis Coysun "Ulis" romanından götürülmüşdür, Coys epizodik obraz kimi tacir Mozes Hersoqu romanının 12-ci hissəsinə daxil etmişdir. Hersoq sözü əslən Alman sözü olub ürəkli insan, Mozes isə Musa peyğəmbərin adından götürülüb və insanları arxasınca aparan mənasını daşıyır. Mozes Hersoq yeni dünyanın apokalipsisini simvolizə edir. Eyni zamanda Hersoq dünyadakı çətinlikləri özündə cəmləşdirir və nihilizmə qarşı çıxır. Dünyanın bu modeli kifayət qədər pisdir, lakin insanlıq öz ümidini itirməməli və hər şeyin yaxşılığa doğru dəyişəcəyini düşünür.

Orta yaşlı professor olan Mozes Hersoq ikinci həyat yoldaşı Madlin və qızı Cun arasındakı münasibətlər bu romanın əsas süjet xəttini təşkil edir. Eyni zamanda baş qəhrəmanın dostlarına, düşmənlərinə, müxtəlif insanlara yazdığı, lakin göndərə bilmədiyi məktublar hadisələrin gedişatında önəmli rol oynayır. Mozes Berkşirdə yaşayır və bir gün qızı və keçmiş həyat yoldaşını görmək üçün Nyu Yorka gəlir. Keçmiş həyat yoldaşı onu ən yaxın dostu

Valentayn Gersbaxla aldatmış və Hersoqdan boşanmışdır. Qızının vəlayətini almaq üçün mübarizə aparan ata öz doğma şəhəri olan Çikaqoya gəlib çıxır. Mozes atasının köhnə silahını götürür və keçmiş həyat yoldaşı və onun məşuqu olan ən yaxın dostunu vurmaq qərarına gəlir. Onları izlədikdən sonra öldürə bilməyəcəyini anlayır. Hersoqun insanı keyfiyyətləri, humanistliyi burada oxucuya daha aydın şəkildə təqdim olunur, nə qədər onlar xəyanətkar olsalar da, Mozes qızının anasına, bir vaxtlar sevdiyi qadına və güvəndiyi, dost dediyi insana atəş açа bilmir, hətta dostuna haqq qazandırır: "…o bunu etməyə məcburdur- dostluqdan, acıdığından, ürəyinin genişliyindən. O hətta Madelinin psixopat olması barədə mənimlə həmfikirdir." (1, s.90) Çarəsizliklə Valentaynın keçmiş həyat yoldaşı Fobe Gersbaxdan qızının vəlayətini almaq üçün kömək istəyir. Xanım Gersbax ona yardımcı olmaqdan imtina edir. Nyu Yorkda yaşayan başqa dostunun köməkliyi ilə qızı görüşməyə nail olan Mozes aftomobil qəzasına düşür, Cuna heç nə olmasa da, Mozes şüurunu itirir və oyananda qanunsuz silah saxladığını üçün həbsxanada olduğunu görür. Qardaşı Vil onu buradan çıxarır və müalicə alması üçün psixi xəstəxanaya yatırdır. Əsərin sonunda isə artıq heç kimə məktub yazmamaq qərarı alan Hersoq oxucuya təqdim olunur.

Romanın maraqlı cəhəti ondadır ki, burada əsas süjet xəttindən kənarda bir neçə süjet xəttləri var və onlar özlərini Mozes Hersoqun məktublarında və təxəyyülündə göstərir. Məktublardan bizə məlum olur ki, Madlin Mozesin ikinci həyat yoldaşı olur və onun birinci yoldaşı Deyzidən Marko adlı bir oğlu belə var. Həmçinin Mozes Hersoqun Kanadaya köç edən mühacir yəhudi ailələrindən birində doğulduğu, atasının heç bir işdə qərar tuta bilməməsi və nəhayət çəkməçilik məşğul olması kimi faktları da buradan öyrənirik. Bellou öz bioqrafiyasından istifadə edərək Mozes Hersoqun atasının obrazını və uşaqlıq xatirələrini öz keçmişinə uyğunlaşdırmışdır. O da Mozes kimi Rusiyadan Kanadaya mühacir edən yəhudi ailənin övladı idi. Atası çörəkçəlik, ticarət və başqa işlərlə məşğul olsa da, ən sonda çəkməçilikdə qərar tutmuşdur. Sol Bellounu atası Mozesin atası kimi var gücü ilə hər işdə çalışaraq övladlarını "yuxarı səviyyəli insanlar" sıralarına qoşmaq istəyir. (6) Həmçinin Valentayn obrazı yazıçının öz dostu Cek Ludvikin prototipidir. Uzun müddət dost olan Sol və Cek Valentayn kimi Solun ikinci həyat yoldaşı ilə yaxın münasibətdə olmuşdur. Ramona obrazı da Bellounun yoldaşından boşandıqdan sonra görüşdüyü Fransız dili üzrə professor olan Rosette Lamontun bədii obrazıdır. Həm Lamont, həm də Ludvik "Hersoq" romanını aftobioqrafik elementləri qeyd etmədən əsərin "böyük nəaliyyət" olduğunu ifadə etmişdilər. Bir vaxtlar yazıçı olmaq arzusunda olan, hətta "Romantizm və Xristianlıq" adlı dissertasiya işini yazır və bu bir neçə dilə tərcümə olunur, lakin Mozes hec cür onun ikinci hissəsini çap etdirməyə nail ola bilmir. Hersoq cəmiyyətin zəruri tələbatlarını, problemlərini meditasiya yolu ilə öyrənməyə nail olur, tamamilə tək qaldıqdan sonra dünyaya üzünü çevirir. "Gerçək olan budur- bədən! Biz yox. Mən yox. Gerçək olan orqanizmdir. Nə qədər ki, o öz formasını saxlamaq və mühitdən ona lazım olanı sormaq gücündədir, bu zaman o, neqativ entropiya axınını, onu sərf etdiyi başqa həyatı özünə yığır, qalığını isə ən sadə formada dünyaya qaytarır." (1, s.275) Tanrı, ölüm və gələcək hər zaman naməlumdur, lakin optimist olmaq ümidini itirməmək lazımdır. Mozes Bellounun "Henderson yağış kralı" romanının qəhrəmanı Hendersonun əksinə olaraq ölümü qəbul edir, ölümdən qorxmaqdansa, həyatdan zövq alaraq yaşamaq lazımdır. Cəmiyyətdən özgələşmə məsələsini isə Hersoq qəbul etmir, onun fikrincə insanlar cəmiyyətin içərisində öz mövcudluğunun əsl mənasını tapa bilərlər və həqiqətən xoşbəxt ola bilərlər.

Əsərdə Çikaqo və Nyu York kimi şəhərlər ayrıca bir obraz kimi çıxış edir. Mozes şəhəri tərk edərkən arxasında buraxdıqlarını - meqapolisdə yaşamağın çətinliklərini Massaçusesin uzaq yerinə köçərək unutmağa çalışır. Hersoq öz adına uyğun olaraq davranır, hər zaman insanlığın əsas problemlərini – ölüm, həyat, müharibə, sevgi, vergilər, qadınlar, insanın zəfəri və başqa mövzular onu daim düşündürür. O, hər şeyi fəlsəfi düşünür və ürəyinin səsinə qulaq asaraq götür qoy edir, qərar verir, onun əsas prinsipi düzgünlükdür. Onun sadəlövhliyinə gülən dostlarına kor-koranə güvənir. Buna görə də öz həyat yoldaşının onu ən yaxın dostuna

dəyişməsi Hersoqun əzab çəkməsinin əsas səbəblərindən biridir.

Romanda işlənən əsas mövzulardan biri məktublardır. Mozes məktublarını müxtəlif qazetlərə, dostlarına, məşhur və məşhur olmayan bir çox insana göndərir. Bu məktublar romanın bütün hissələri boyu süjet xəttini izləyir. Bu məktublar Mozesin dünyaya baxışının oxuculara çatdırılması üçün ən önəmli vasitədir. Romanda yaradılan qadın obrazları Mozesin əzablarının əsas səbəbkarlarıdır. Onun həyatdakı bütün problemləri iki həyat yoldaşı, xəstəlikləri isə gündəlik eşqlərinin nəticəsidir. O, bütün problemlərinin səbəbini dağılmış evliliklərində görür. Sol Bellou həmçinin simvollar ustası kimi də tanınır. Gül, saat, ev kimi predmetlər romanda simvol olaraq istifadə olunmuşdur. Mozes dünyanın qarma-qarışıq halını qarışıq, lakin gözəl olan gül buketinə bənzədir. Saat romanda keçmiş və gələcəyi simvolizə edir. Gözəl təbiət mənzərələri ilə əhatə olunmuş, şəhərdən uzaq yerləşən ev isə cəmiyyətdən təcrid olunmuş Mozes Hersoqun özünü təmsil edir.

Yazıçı öz müsahibələrinin birində qeyd edir: ““Hersoq” sadəcə beyin fırtınasıdır. Bir gün mən özümü məktub yazarkən gördüm – hər yerdə. Sonra bu mənə ölkənin mental vəziyyəti ilə bağlı bir əsər yazmaq kimi gözəl idea verdi.” (5) Müəllifin bu romanı baş obrazın dünyaya baxışı, məktublarla özünü ifadə forması, həmçinin avtobioqrafik elementləri ilə dünya ədəbiyyatının inciləri sıralarında layiqli yeri tutur. Bellounun romanları öz unikal süjet xətti və qəhrəmanlarının qeyri-adi mənəvi aləmləri ilə diqqəti cəlb edir.

Ədəbiyyat

1. Sol Bellou, “Hersoq”, Şərq-Qərb”, Bakı, 2013.
2. http://www.nytimes.com/books/97/05/25/reviews/bellow-herzog.html
3. https://www.theguardian.com/books/2009/may/16/herzog-saul-bellow-digested
4. https://en.wikipedia.org/wiki/Herzog_(novel)
5. https://en.wikipedia.org/wiki/Saul_Bellow
6. https://www.newyorker.com/magazine/2015/05/11/young-saul
7. https://studme.org/76510/literatura/bellou_odinokiy_intellektual_bezduhovnom_mire

З.А.Рустамова

Художественные особенности в романа «Герцог» Саула Беллоу

Резюме

«Герцог» - это история Моисея Херцога Савла Беллоу. Он - профессор средних лет, его жизнь неуклонно распадается вокруг него. Он потерпел неудачу как писатель и учитель, как отец, и его жена предала его с близким другом. Герцог видит себя как выжившего и по личным, и по возрастным проблемам. Он пишет неотправленные письма друзьям и врагам, коллегам и знаменитым людям. Он пишет о своих сокровенных секретах в своих письмах. Саул Белло использовал в этом романе автобиографические элементы, символы, интересные мотивы.

Z.A.Rustemova

Literary Features in Novel "Herzog" By Saul Bellow

Summary

“Herzog” is the story of Moses Herzog by Saul Bellow. He is middle-aged professor, his life steadily disintegrates around him - he has failed as a writer and teacher, as a father, and has lost the affection of his wife to his best friend. Herzog sees himself as a survivor, both of his private disasters and those of the age. He writes unsent letters to friends and enemies, colleagues and famous people. He writes about his innermost secrets in his letters. Saul Bellow used autobiographical elements, symbols, interesting motifs in this novel.

Rəyçilər: filol.f.d. Ü.Əliyeva;
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(12.02.2018-ci il tarixli iclasının qərarı (pr. №07))
Redaksiyaya daxil olub: 16.02.2018

A.XƏNDAN
filologiya üzrə fəlsəfə doktoru, dosent

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

XX ƏSR TÜRK POEZİYASINDA ATATÜRK OBRAZI VƏ MİLLİ MÜBARİZƏ MÖVZUSU

Açar sözlər: *Atatürk, poeziya, milli hisslər, vətən, əruz, heca, cümhuriyyət*
Ключевые слова: *Аматюрк, поэзия, национальные чувства, родина, антропоморфизм, слог, республика*
Key words: *Ataturk, poetry, national feelings, homeland, anthropomorphism, syllable, republic*

Birinci Dünya müharibəsinin sonunda Osmanlı dövləti məğlubiyyətə məruz qalır və Türkiyə 30 oktyabr 1918-ci ildə Mondoros sazişinə imza atmalı olur. Bu sazişin nəticəsində İngiltərə, Fransa, İtaliya, Amerika və Yunanistan Türkiyəni işğal etmiş oldular. Lakin türk milləti işğal qüvvətlərinə qarşı mübarizəyə başladı. Bu mübarizənin başında isə Mustafa Kamal Paşa durdu. Məhz onun rəhbərliyi ilə müqavimət hərəkatı baş qaldırdı və 1920-ci il 23 apreldə Türkiyə Böyük Millət Məclisi açıldı. Məhz bundan sonra milli mücadilə məclis tərəfindən idarə edilməyə başlandı. Türk xalqı ağır itkilər verərək, böyük qəhrəmanlıqlar göstərərək, bütün çətinliklərə sinə gərərək düşmənləri öz vətənlərindən qovmağa və istiqlaliyyətini əldə etməyə nail oldu. Beləcə, 1923-cü il 29 oktyabr Məclisin qəbul etdiyi qərarla respublika qurulmuş oldu. Artıq Osmanlı İmperiyasının yerində müstəqil Türkiyə Cumhuriyyəti quruldu. Bu tarixdən başlayaraq yeni bir Türkiyənin yaradılmasına start verildi. Demək olar ki, dövlətin bütün sahələrində islahatlar həyata keçirilməyə başlandı. Bu islahatların ideoloqu məhz Mustafa Kamal oldu.

Dövlətin rəsmi qurumları sosial, siyasi, iqtisadi və mədəni həyatı gerçəkləşdirən islahatlarla yenidən quruldu. Türk milliyyətçiliyinin dirçəliş prosesi bu dövrdən etibarən sürətlə həyata keçirilməyə başlandı. Bunun üçün türk tarixini daha dəqiq və dərindən öyrənmək üçün Türk Tarixi Tədqiq Cəmiyyəti (Türk Tarix Qurumu) yarandı və sözsüz ki, bir millətin ən vacib dəyəri olan dil sahəsində islahatlar aparıldı. Bunun üçün Türk Dili Tədqiq Cəmiyyəti (Türk Dil Qurumu) yaradıldı. Beləliklə, Türkiyə Cümhuriyyəti dövləti millət birliyinə, bu ölkədə yaşayan hər bir kəsin türk milli birliyi içində qaynaşmış bir millət olmasına çalışdı. Osmanlı dövlətinin son dönəmlərində arxa plana atılan türklük, türk milləti, türk milli varlığı cumhuriyyətlə birlikdə ön plana çıxır və bütün ölkədə bir milli inkişaf həyəcanı başlayır. (2, s.268)

Şeyx Səid üsyanından sonra Şərq İstiqlal Məhkəməsi bütün təkkə və zaviyyələrin fəaliyyətinin dayandırılması qərarına gəlir. 2 sentyabr 1925-ci ildə hökümət təkkə, zaviyyə və türbələrin bağlanılmasına, din xadimlərinin geyiminə və məmurların geyimləriylə bağlı da reforma keçirmiş oldu. 26 dekabr 1925-ci il beynəlxalq saat və təqvim qəbul edildi. 17 fevral 1925-ci il Mədəni qanun, 1 mart Türk Cəza qanunu və yeni sistem yaratmaq naminə bir sıra başqa qanunlar qəbul edildi. Sözsüz ki, bütün bu yeniliklərin həyata keçməsi üçün Mustafa Kamal böyük səy göstərirdi.

Atatürkün liderliyi ilə başlayan türk milliyyətçiliyi hərəkatı sözsüz ki, türk ədəbiyyatında da öz əksini tapmış olur. Milləti ağır mübarizə, müharibə dövründən sonra yeni bir işıqlı həyat qurmağa ruhlandıranların başında şair və yazıçılar dururdular. Bu məqsədlə onlar öz qələmlərinin gücünə güvənərək əsərlərində türk millətinin qəhrəmanlığından söhbət açaraq, yeni ideallar uğrunda, yeni cəmiyyət qurmaq naminə xalqa dəstək olurdular. Beləcə, həm nəsrdə, həm də nəzmdə vətən, millət, Atatürk mövzusunda əsərlər qələmə alınırdı. İmkan

daxilində Şərq və Qərb dillərinin təsirindən arınmış bir türkcə, türkün milli vəzni olan heca və yenə milli türk nəzm vahidi olan dördlük, türkün ana qucağı, vətəni Anadolu, türk millətinin dini və milli dəyərləri, imperializmdən qurtuluş mövzuları türk şeirində hakim ünsür olmağa başlayır. (2, s.269)

Mustafa Kamal Atatürkə həsr olunmuş şeirlər o dövrün əsas mövzuları arasındadır. Türkiyənin qurucusuna istər sağlığında, istərsə də 1938-ci il vəfat tarixindən sonra müxtəlif şeirlər həsr edilmişdir. Atatürkçü şairlər adlandırılan Beş hecaçıların yaradıcılıqlarında Atatürk obrazı mühüm yer tutur. Orxan Seyfi Orxonun Atatürkə olan sevgisi fikrimizcə, onun "Atatürkün ölümü" şeirində olduqca güclü hisslərlə vəsf edilmişdir:

Gidiyor, rast gelemez bir daha tarih eşine,
Gidiyor, onyedi milyon kişi takmış peşine!
Gidiyor, sonsuz olan kudreti sığmaz akla,
Gidiyor, göğsünü çepçevre saran bayrakla!
Gidiyor, izleri üstünde birikmiş yaşlar,
Gidiyor, yerde kılıçlarla eğilmiş başlar... (6, s.139)

Misralardan göründüyü kimi şair Atatürkün dəfn mərasimini təsvir edir. Bu mərasimdə bütün türk xalqı iştirak edir. Gözlərdə yaşlar, kədər dolu üzlər və Atatürklə vəda mərasimi. Misraların eyni sözlə - "gidiyor"la başlanması və bu sözün təkrarı tabutun arxasınca gedən axının ritmini çatdırmaqda yardımçı olur. Beşinci bənddə isə artıq misra başqa sözlə başlayır və bu da şairin yeni bir fikrinin ifadəsinə kömək edir sanki:

Yine bir devr açacakmış gibi en başta o var,
Hıçkıran seste o var, sessiz akan yaşta o var! (6, s.140)

Müəllif bu cümlələrilə Atatürkün böyüklüyünü, onun qurucusu olduğu dövlət üçün etdiklərinin misilsizliyini qeyd edir. Atatürk yenə də öndədir, çünki o, hər zaman millətinin önündə olub, millətiniin öndəri olub. İndi də o, öndə gedir, arxasınca yenə də öz millətini aparır, sanki yeni bir dövr açmağa doğru millətini arxasınca aparır. Atatürkün ölümüylə onun böyüklüyünün daha da artmasını isə şair bu misralarıyla bildirir:

Büyüyor, gökten inip toprağa yaklaştıkça,
Büyüyor,gitgide gözlerden uzaklaştıkça! (6, s.140)

Bu son bənddə "büyüyor" sözünün təkrarı ilə Orxan Seyfi fikrinin daha güclü təsir etməsinə nail olur.

Orxan Seyfinin şair dostu Faruq Nafiz də Atatürkçü olaraq ulu öndərə şeirlər həsr etmişdir. Şairin "Çankaya" şeiri məhz Mustafa Kamala həsr olunub:

Bu hıyaban ebediyyet yoludur,
Gider Allaha kadar burdan ucu,
Karşıdan bakma geçerken, yolcu!
Belki bir derd ile bağrın doludur.

Bu hıyaban avutur cümle yası,
Dinlen altında yeşil bir dalının,
K.N.BAYRAMOV

Tərtər uşaq musiqi məktəbi
(Tərtər r., R.Kərimov küç., 2)

İXTİSASÇI MÜƏLLİM VƏ İFAÇILIQ

Açar sözlər: *müəllim hazırlığı, ifaçılıq, kollec, musiqi məktəbi, şolfecio, solist*
Ключевые слова: *подготовка учителя, исполнительство, колледж, музыкальная школа, сольфеджио, солист*
Key words: *teacher training, performance, college, music school, solfege, soloist*

İxtisasçı müəllim ilə ifaçı bir-birindən fərqlidirlər. Belə ki, hər bir şəxs çox yaxşı ixtisas müəllimi ola bilər, lakin, onun ifaçılığı müəllimliyindən yuxarı səviyyədə ola bilməz. Və yaxud əksinə. Çox nadir adamlara nəsib olur ki, həm müəllimliyi və həm də ifaçılığı yüksək səviyyədə olsun. İstər müəllimlikdə, istər ifaçılıqda və istərsə də hər bir işdə təkəbbürçülük kənarda qalmalıdır. Təkəbbürlük elə bir bəlalı şeydir ki, o, hər bir kəsi mənəviyyatdan uzaq salar və hər bir kəsin qəlbində ona qarşı nifrət oyadar. Ona görə də hər bir fərd, xüsusən müəllimlər ictimaiyyətdə özünü həddən artıq nümunəvi aparmalı, müəllimlik adını əməli şəkildə uca tutmalıdır.

Yaxşı müəllim aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

1. Allahın verdiyi istedad və bacarıq
2. İlk bünövrədən ona verilmiş təhsilin yüksək səviyyədə olması və öz üzərində çalışması
3. İş təcrübəsi stajının çox olması
4. Əhatəsində olan həmfikirlərinin sağlam düşüncələri və onun istiqamətləndirilməsi
5. Qarşısına qoyduğu ən birinci dərəcəli vəzifə vicdanlı müəllim olmağı nəzərdən qaçırmaması

Müəllimlər əsasən 4 kateqoriyaya bölünür:

1. İbtidai siniflər üçün
2. Kollec tələbələri üçün
3. Akademiya tələbələri üçün
4. Ustad dərslərin keçirilməsini təmin etməyi bacaran müəllimlər

İbtidai sinifdə təhsil alanlara müəllimlik etmək ən məsuliyyətli bir vəzifədir. Ona görə ki, həmin şagirdlərin bünövrəsinin düzgün qoyulması, notların düzgün oxunuşunun yüksək səviyyədə təmin edilməsi, xüsusilə, şagirdlərin solfeciosuna diqqət yetirilməsi, musiqidə səslənən əsərin ölçülərini şagirdə düzgün izah edilməsi əsas faktordur. Əgər bu və digər məlum xüsusiyyətlər şagirdə olduğu kimi tətbiq edilərsə, o zaman şagird öz sinif proqramının reallaşmasında çətinlik çəkməz. Müəllim ibtidai siniflərdə müxtəlif müsabiqələrin keçirilməsində, bölgələrdə solo konsertlərin verilməsində iştirak etməsi təşəbbüsündə həm maraqlı olmalı və ən azı onu əməli şəkildə arzu edənlərdən olmalıdır. Eyni zamanda müəllim ibtidaidən şagirdi gələcək üçün ən mükəmməl bir ixtisasçı kimi yetişdirib onu növbəti təhsil ocaqlarına təhvil verməkdə maraqlı olmalıdır.

Müəllim bununla öz işini yekunlaşdırmamalıdır. İrəliyə getmək lazımdır. Çünki, qarşıdan yeni nəslin nümayəndələri, yeniyetmələr gəlir. Onlarla əvvəlkindən fərqli şəkildə işləmək lazımdır. İş təcrübəsi həmişə öz sözünü deyir.

Kollecdə təhsil alan tələbələrə müəllimlik etmək öncəki müəllimlərdən fərqli olaraq daha məsuliyyətli olmağı tələb edir. Birincisi, ona görə ki, yeni təhsil alan tələbə razılaşsaq ki, ən aşağısı normal səviyyədə olan bir tələbədir və ona hər hansı bir kollec müəlliminin məsuliyyətsiz yanaşması həmin tələbəyə və onun ixtisas müəlliminə qarşı yolverilməz bir hörmətsizlikdir. Bu da nəticə etibarı ilə həmin tələbənin və müəllimin zəhmətini yerə vurmaqla yanaşı, sözü gedən tələbənin gələcək perspektivlərinin üstündən xətt çəkilməsinə gətirib çıxarır. Ona görə də məsuliyyət, məsuliyyət və yenə də məsuliyyətli olmaq lazımdır. Kollec tələbələrinə elə bir şərait yaratmaq lazımdır ki, tələbələrin özləri bir-birləri ilə səmimiyyətlə rəqabət apararaq öz aralarında ixtisas dərslərində iştirak etsinlər ki, özlərinin müəyyən nöqsanlarının aradan qaldırılmasına müvəffəq olsunlar.

Kollecdə təhsil alan tələbələr elə yaş hədlərində olurlar ki, onları diqqətdən kənar saxlasan və ya onlara cüzi şəkildə marağını azaltsan, bu bir növ həmin tələblərə qarşı həm laqeyitsizlik və eyni zamanda demək olar ki, bir xəyanətdir. Müəllim hesab etməməlidir ki, onun qarşısındakı adi bir tələbədir, hesab etməlidir ki, onun qarşısında duran tələbə onun mənəvi bir övladıdır. Yəni kimliyindən asılı olmayaraq müəllim qarşısında olan hər bir kəsə ziyalı tərəfdən baxmalıdır.

Akademiyada təhsil alanlara müəllimlik etmək daha fəxr edicidir. Çünki ixtisas müəllimləri ibtidaidən yetişdirdiyi tələbələrə ali təhsil verir. Bu halda müəllim həmin tələbələrin daha yüksək səviyyədə təhsil almaları üçün öz əzmkarlıqlarını nümayiş etdirməkdə həm maraqlı olurlar və həm də həmin tədrisdən zövq alırlar. Bu zaman müəllimlər daha incə, zərif xassələrə diqqət yetirərək, dərsi tələbələrə daha da yüksək səviyyədə tədris edirlər.

Yaxşı olar ki, həmin müəllimlər tələbələrə tədrislə bağlı hansısa bəstəkarın əsərlərini öyrətməzdən əvvəl məlum əsəri əvvəlcədən xarakterizə etsin, həmin əsərlərin kimlər tərəfindən necə ifa edildiyi barədə tələbələri məlumatlandırsın və həmin müxtəlif peşəkar ifaların daha da yüksək səviyyədə səslənməsini obyektivliklə qeyd etsin və bildirsin ki, həmin ifaçı kimi jestlər etməsindən uzaq olsunlar. Çünki həmin peşəkar ifaçı hansısa əsəri ifa edirsə həmin əsəri öz hissiyyatı ilə bəstəkarın fantaziyalarına uyğunlaşdırır. Tələbə isə bilməlidir ki, hər bir ifaçı özünəməxsus, öz düşüncələrini ortaya qoymaqla həmin əsəri ifa etməlidir. Müəllim tələbənin ifasındakı düşüncələrinin yanlış olduğunu aşkara çıxardığı təqdirdə o zaman o, tələbənin istiqamətini daha doğru yola yönəltməsini təmin etməlidir.

Belə hallara da rast gəlinir ki, ixtisas müəllim ilə tələbənin arasında dərs proqramının seçilməsində fikir ayrılıqları baş verir. Bu zaman tələbə bilməlidir ki, müəllim onun xüsusi qabiliyyətini bilərək və ya nəzərə alaraq bu seçimi edir. Lakin müəllim bunu da nəzərdən qaçırmamalıdır ki, tələbənin də istəyi öz istəyi ilə hardasa üst-üstə düşməlidir ki, həmin tələbə də öz marağına görə həmin dərsi tez mənimsəsin. Buna görə də hər bir münasibət səmimi olmalıdır.

Ustad dərslərinin keçirilməsi çox nadir müəllimlərə qismət olduğuna baxmayaraq, hesab edirəm ki, ustad dərslərin verilməsi pik bir zirvədir. Burada həmin müəllim sanki müdrik bir şəxs kimi öz bilik və bacarığını nümayiş etdirir. Bu mərhələni keçən şəxslər sanki onun ictimaiyyətə baxışlarını müsbət mənada dəyişdirir, insanda sağlam düşüncələr meydana gətirir ki, bunun da nəticəsi olaraq hər bir fərd istər-istəməz cəmiyyətdə daha təmkinli, daha ülvi və daha da ciddi olurlar.

Burada ustad müəllimlər elə bir dərs tədris edirlər ki, onun keçdiyi dərs nəinki hansısa bir fərdə xeyir verir, hətta bir çox maraqlı olan öyrəncilər həmin ustad müəllimin axtarışında olduqlarından həmin dərsi izlədiklərinin şahidi oluruq. Ona görə də hər zaman müəllimlərə, xüsusən, ustad müəllimlərə diqqət yetirmək hər bir vətəndaşın mənəvi borcudur.

İfaçılıq

İfaçılıq bəstəkarın demək istədiklərini əks etdirən, onu olduğu kimi geniş kütləyə təbliğ edən məsul şəxslərdən ibarətdir. İfaçıdan o qədər şey asılıdır ki, o, ifa etdiyi əsərə görə əsərin müəllifinə tamaşaçının rəğbətini daha da artıra bilər və ya öz ifası ilə əsəri elə kökə sala bilər ki, o zaman tamaşaçı əsərin müəllifini deyil, həmin solisti tənqid atəşinə tutar. Bu da həmin tamaşaçıların əhval-ruhiyyəsinin korlanmasına gətirib çıxarır və onların istirahətinin pozulmasına səbəb olur.

Musiqidə belə hallara rast da gəlinir ki, müəllif öz əsərini nə qədər çox gözəl ifa edirsə də, elə ifaçılara rast gəlirik ki, ifaçı həmin əsəri müəllifdən də daha gözəl ifa edir. İfaçı olmaq sənət baxımından ən məsuliyyətli bir sənətkarlıqdır.

Bir çox ifaçılar var ki, əsərlərdəki səslənməni gözəl verir, əsərin bütün nyuanslarına əməl edir və hətta əsərin xarakterini də öz ifası ilə gözəl xarakterizə edir. Lakin orada incə bir şey dinləyicilərin bir çoxunu qane etmir. O da həmin ifaçının yerli-yersiz üz cizgisinin, əl hərəkətlərinin eybəcər hala salınması ilə əlaqədardır.

Lakin elə ifaçılar vardır ki, əsərdə olan bütün xassələri, o cümlədən bütün jestləri elə edir ki, hər bir xoşniyyətli dinləyicini qane edir. Çünki sözügedən ifaçı məğrur xarakterini göstərməklə, demək olar ki, cəmiyyətə bir mesaj verir. Bu kimi jestlər düşüncəli insanlar üçün bir təsəllidir və ən əsası böyük bir məktəbdir.

İfaçının ifa etdiyi proqramın yüksək səviyyədə həyata keçirilməsində əsasən 6 şərt vardır:

1. Solistin yüksək əhval-ruhiyyəsinin olması
2. Repertuar seçimi və onun ardıcıllığı
3. Solistin ifa etdiyi proqramı tam təkmilləşmiş formada bilməsi
4. Dinləyicilərin kimlərdən ibarət olması
5. Geyiminə xüsusi diqqət yetirməsi
6. Səhnədə özünü səmimi aparması

Əgər hər bir kəs öz işinə, öz sənətinə, öz peşəsinə vicdanla yanaşarsa, o zaman onların mühit dairəsi daha sağlam və daha xeyirxah kəslərdən ibarət olur ki, onun da cəmiyyətdə faydası əvəzedilməzdir.

İstər ixtisasçı müəllim, istərsə də ifaçı çalışmalıdır ki, həm öz, həm də başqalarının əhval-ruhiyyəsinin qeydinə qalsın. Repertuarında yer alan ardıcıllığa ona görə fikir verməlidir ki, ifa etdiyi əsərdə özünü yorğun hesab etməsin ki, sürəkli alqışlar baş verdiyi zaman dinləyicilərin arzusunu yerinə yetirsin.

Dinləyicilərin kimlərdən ibarət olmasını hər zaman diqqətdə saxlamaq lazımdır. Ona görə ki, ifaçı bilməlidir ki, kimlərin qarşısındadır. Yəni həmin auranı dəyərləndirib öz istiqamətini müəyyənləşdirməkdə çevik düşünməlidir.

İfaçının geyiminə xüsusi diqqət yetirməsi onun mədəniyyətidir.

Səhnədə özünü səmimi aparması hər şeydən əvvəl həm özünə qoyduğu bir hörmətdir və həm də tamaşaçılara.

İfaçı bir şeyi unutmamalıdır! O da ki, bəstəkarın əsərinə müdaxilə etməməsini. Əgər ifaçı müdaxilə etmək istəyirsə, zəhmət çəksin özü yeni ürəyi istədiyi bir əsər yaratsın. Buna baxmayaraq, üzdəniraq ifaçı fikrində israrlıdırsa, deməli həmin şəxsin "təşəbbüsü"nü qiymətləndirməkdən heç kəs çəkinməməlidir. Yeri gəlmişkən, cəmiyyətin zövqləri, demək olar ki, korlanmaq üzrədir. Yuxarıda qeyd etdiyim kimi, bütün işlərin başında hər bir kəs üçün bir şey durur - o da Vicdandır!

Ədəbiyyat

1. O.Rəcəbov. İbtidai musiqi nəzəriyyəsi. Bakı: Mütərcim, l993. 150 s.
2. O.Rəcəbov. Uşaqlar və Mahnılar. Bakı: İşıq, 1985. 185 s.
3. F.Sadıqov. Uşaqlar və Musiqi ifaçıları. Bakı: Şirvan, 1995. 120 s.
4. Т.Кенгерли. Музыкальная педагогика. Баку: Elm. 2005. 290 s.

К.Н.Байрамов

Учитель по специальности и исполнительство

Резюме

Хороший педагог – специалист, в первую очередь, должен знать свою специальность в совершенстве. Одновременно он должен любить свою профессию. Именно по этой причине в моей научной статье обозначены качества, которыми должен обладать профессиональный учитель, а также категории, на которые они подразделяются.

Спектр положений, с которыми сталкивается исполнитель при исполнении, нашли свое отражение в настоящей статье.

При этом раскрыты причины невмешательства исполнителя в произведения композитора. В начале каждой работы раскрыты упущенные моменты.

K.N.Bayramov

A professional teacher and mastery

Summary

Good professional teacher should know his (her) specialty excellently first of all. Moreover, teacher should love his specialty. Thus, range of qualities, which professional teacher should have, and also range of categories, on which they are divided, have been classified in my scientific article.

Range of provisions, with which the performer is confronted in connection with performance has been reflected in the article.

Reasons of non-intervention of performer to composer’s pieces have been presented here. Clarification was made toward significant factors which should be considered by performer in the beginning of each work.

Rəyçi: prof. O.M.Rəcəbov

Redaksiyaya daxil olub: 01.02.2018

N.B.CƏFƏROV
e-mail: denri-nc@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MƏKTƏBLİLƏRİN MƏNƏVİ-İRADİ KEYFİYYƏTİNİN FORMALAŞDIRILMASI YOLLARI

***Açar sözlər**: mənəvi-iradi keyfiyyətləri, təlim prosesində, fiziki tərbiyə dərslərində, əməkdaşlıq bacarıqları*
***Ключевые слова:** моральные и волевые качества, процесс обучения, занятие физкультурой, совместные навыки*
***Key words:** moral and volitional qualities, the learning process, physical education, joint skills*

Azərbaycan Respublikasında fiziki tərbiyə sisteminin məqsədi - hərtərəfli harmonik inkişaf etmiş, sağlam və yüksək əmək məhsuldarlığına və vətənin müdafiəsinə hazır ola, fəal müasir cəmiyyət qurucuları yetişdirməkdən ibarətdir. Belə məqsədlərin əsaslandırılmış qoyuluşunun obyektiv səbələrindən biri, ilk növbədə istehsalatın və hərbi işin tərəqqisi ilə əlaqədar, insanların fiziki inkişafına və fiziki hazırlığına göstərilən tələbatdır. "Azərbaycan Respublikasının Konstitusiyası"nda insanların sağlamlığının qorunması haqqında göstərilir:

Maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

Maddə 41. Sağlamlığın qorunması hüququ

I. Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

III. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər (14).

BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası"nda uşaqların (18 yaşına qədər olanlar uşaq sayılır) sağlam böyüməsinə xüsusi yer verilmişdir.

Maddə 6.

2. İştirakçı dövlətlər uşağın sağ qalmasını və sağlam inkişaf etməsini maksimum mümkün olan dərəcədə təmin edirlər.

Maddə 24.

3. İştirakçı dövlətlər uşaqların sağlamlığına mənfi təsir göstərən ənənəvi praktikanın aradan qaldırılması məqsədilə hər cür səmərəli və lazımi tədbirlər görürlər.

Maddə 29.

1. İştirakçı dövlətlər razılaşırlar ki, uşağın təhsili aşağıdakılara yönəldilməlidir:

a) uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki qabiliyyətinin ən tam həcmdə inkişaf etdirilməsinə

Maddə 32.

1. İştirakçı dövlətlər uşağın iqtisadi istismarından və sağlamlığı üçün təhlükə törədə bilən və ya təhsil almasına mane ola bilən, yaxud sağlamlığına və fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafına ziyan vura bilən hər hansı işi yerinə yetirməkdən müdafiə edilmək hüququnu tanıyırlar (8)

"Uşaq hüquqları haqqında**"** Azərbaycan Respublikasının Qanununda məsələ öz əksini bu şəkildə tapmışdır:

Maddə 8. Uşağın yaşamaq və inkişaf etmək hüququ

Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

Maddə 9. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ vardır. Dövlət uşaqların həyatının mühafizəsi və sağlam inkişafını təmin edir, ekoloji təhlükəsizliyini təmin edən şərait yaradır, onların keyfiyyətli yeməklə, içməli təmiz su ilə təchizi üçün müvafiq tədbirlər görür.

"Təhsil haqqında**"** Azərbaycan Respublikasının Qanununda uşaq və gənclərin fiziki və psixi sağlamlığına xüsusi diqqət yetirilmişdir.

Maddə 32. Təhsil alanların hüquq və vəzifələri

32.3.10. Sağlamlıq üçün təhlükəsizlik və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

32.3.11. İnsan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

Maddə 33. Təhsil verənlərin hüquq və vəzifələri

33.3.7. Uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək.

"Azərbaycan Respublikası təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın "Strateji hədəflər və tədbirlər" hissəsində məsələyə bu şəkildə yer verilir**:**

1. Sərişləyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması;

2.1.1. Təhsil verənlər üçün təhsilin bütün pillələrində təhsil alanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi.

"Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"nda göstərilir ki, 2.3. Ümumi təhsilin məzmununa dair ümumi tələblər aşağıdakılardır: Təhsil alanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onlara davamlı inkişaflarını təmin edən, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informatik – kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etmək;

7.2. Təhsil alanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini, müəyyən edən təlim nəticələri və məzmun standartları aşağıdakı tələbləri ehtiva edir: Təhsil alanların sağlamlığının qorunması məqsədilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunun 18-ci maddəsində "Əhalinin sağlamlığının qorunması" sahəsində yetkinlik yaşına çatmayanların hüquqlarında göstərilir: "Yetkinlik yaşına çatmayanların sanitariya-gigiyena tələblərinə cavab verən şəraitdə" təhsil almaq və əməklə məşğul olmaq hüququ vardır (14).

Bu məsələ "Sanitariya- epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunda öz əksini bu şəkildə tapmışdır: Maddə 23. Uşaqların və yeniyetmələrin tərbiyəsi, təhsili və istehsalat təcrübəsi şərtlərinə əməl edilməsi sahəsində vəzifələr

Dövlət orqanları, ictimai birliklər, müəssisələr, təşkilatlar, idarələr və vətəndaşlar məktəbəqədər uşaq tərbiyə müəssisələrində, orta məktəblərdə və texniki peşə məktəblərində, digər idarə və müəssisələrdə uşaqların və yeniyetmələrin təhsili və tərbiyəsi, istehsalat təcrübəsi şərtlərini, onların iaşəsi, sanitariya məişət təminatı, əmək və istirahət şəraiti üzrə sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə əməl olunmasını təmin etməlidir **.**

Fiziki tərbiyənin spesifik sahələrinə və tərbiyənin digər növləri ilə onun qarşılıqlı əlaqəsinə nəzərən əsas vəzifələr 3 qrupa ayrılır:

1.Müasir cəmiyyətdəki insanların hərəki qabiliyyətlərin inkişafı sağlamlığın möhkəmləndirilməsi, yüksək ümumi iş qabiliyyətinə nail olmaq;

2.Azad cəmiyyət qurucusu olan Azərbaycan vətəndaşlarının həyatda zəruri olan hərəkət, bacarıq, vərdiş və xüsusi biliklərin sistemli şəkildə formalaşdırılması və təkmilləşdirilməsi;

3.Müstəqil Azərbaycan Respublikası vətəndaşlarının mənəvi, iradi və estetik keyfiyyətlərinin tərbiyə etdirilməsi, zehni inkişafın təkmilləşdirilməsi.

Fiziki tərbiyə sistemində insanların psixoloji xüsusiyyətləri nəzərə alınır. İdmançıların psixoloji hazırlığı onun psixoloji keyfiyyətləri ilə müəyyən olunur. Psixoloji keyfiyyətlərə iradi və mənəvi keyfiyyətlər aiddir. İradi keyfiyyətlərə - mərdlik, qələbəyə inam, mətanətlik,

prinsipiallıq, özünü ələ almaq və s. Mənəvi keyfiyyətlər - vətənpərvərlik, humanistlik, yoldaşlıq, kollektivçilik, dəqiqlik, intizamlıq, nəzakətlik və s. Bu keyfiyyətlər idmançını psixoloji cəhətdən yarışa hazır edir.

"İnsanın mənəvi-iradi xüsusiyyətləri çox geniş və bu günümüz üçün çox aktual olan bir problemdir. Bura insan mənəviyyatından və əxlaqından başlamış insanların bir-birinə olan münasibəti, mədəniyyəti, onların ünsiyyət qurmaq bacarığı, mübarizliyi, iradəsi, cəmiyyətə və vətəninə olan sevgisi və nəhayət, liderlik qabiliyyəti daxildir. İnsanlarda bu xüsusiyyət insan şüurunun qavramağa başladığı gündən formalaşmağa başlayır" (3, s.14).

İradə insan fəaliyyətinin xüsusi formasıdır. O, insandan öz davranışını tənzim etməyi, bir sıra başqa istək və meylləri ləngitməyi tələb edir. İradə şüurlu olaraq qarşıya qoyulmuş məqsədlərə müvafiq müxtəlif əməliyyatların ardıcıl surətdə təşkili və ya həyata keçirilməsini nəzərdə tutur. İradi fəaliyyət zamanı insan öz-özünə hakimlik edir, öz şəxsi qeyri-ixtiyari impulslarını nəzarət altına alır və lazım olduqda onları boğur, cilovlayır. İradənin təzahüru, yəni insan tərəfindən müxtəlif növ iradi işlərin və iradi hərəkətlərin icrası şəxsiyyətin elə bir fəallıq formasıdır ki, orada şüur mütləq iştirak edir. İradi fəaliyyət üçün bir sıra elə aktların, hərəkətlərin olması zəruridir ki, orada şəxsiyyət öz səylərini və icra olunan psixi proseslərinin xüsusiyyətlərini geniş ölçüdə dərk edə bilsin. Buraya yaranmış vəziyyətin qiymətləndirilməsi, aparılacaq əməliyyat üçün müvafiq yolun tapılması, məqsədə nail olmaq üçün lazımi vasitələrin seçilməsi, qərar qəbulu və s. aiddir.

Bəzi hallarda iradi fəaliyyət insanın həyat yolunu təyin edən, onun ictimai, mənəvi simasını səciyyələndirən qərarların qəbul edilməsi ilə əlaqədar olur. Ona görə də insan şüurlu fəaliyyət göstərən bir şəxsiyyət kimi bütünlükdə belə hərəkətin icrasına cəlb olunur. Belə hallarda insan artıq təşəkkül etmiş əqidə və görüşlərə, əxlaqi prinsiplərə istinad edir. İnsanın həyat yolu üçün əhəmiyyətli olan məsul iradi hərəkətlərin icrası zamanı onun bütün görüşləri, əqidələri, ayrı- ayrı fikirlər, hisslər formasında insanın şüurunda aktuallaşaraq (canlanaraq) situasiyanın qiymətləndirilməsinə qəbul olunan qərarın xarakterinə və onun icrası üçün tələb olunan vasitələrin seçilməsinə təsir edir.

İradi fəaliyyətin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, iradı hərəkəti insan həmişə bir şəxsiyyət kimi icra edir. Məhz bununla əlaqədar olaraq insan iradi hərəkətin icrası üçün tam məsuliyyət daşıyacağını aydın dərk edir. İnsan əsasən iradi fəaliyyət sayəsində özünü bir şəxsiyyət kimi dərk edir, aydın surətdə başa düşür ki, özünün həyat yolunu, taleyini tam surətdə özü müəyyən edir.

Müvəffəqiyyətli həyat və fəaliyyət üçün insanlara intizamlılıq və məsuliyyətlilik, səbrlilik və mübarizlik kimi mənəvi-iradi keyfiyyətlərə ehtiyac duyurlar. Bu keyfiyyətlər şəxsə cəmiyyətin mənəvi-hüquqi normalarına asanlıqla, məcburiyyət olmadan uyğunlaşmağa imkan verir.

Yuxarıda sadalanan xüsusiyyətlərin hər birinin formalaşdırılması yalnız müvafiq şərait təmin olunduğu halda mümkündür. Mənəvi-iradi xüsusiyyətlər yalnız onun təzahür etdirilməsi üçün zərurət olduqda və uşaq, yeniyetmə bu zərurətin tələblərinə müvafiq fəaliyyət qurmağa çalışdıqda formalaşa bilər. Başqa sözlə, hər bir fərd iradənin nə olduğunu dərk etmək, hiss etmək üçün müəyyən bir çətinliyin, daha dəqiq desək, məhz fiziki çətinliyin dəf olunması prosesini keçməlidir. Heç kim anadan cəsarətli doğulmur. Bu daha çox həyatda formalaşan insanı xüsusiyyətdir. Bu xüsusiyyət, ilk növbədə, icrası risk tələb edən hərəki fəaliyyəti yerinə yetirərkən formalaşa bilər.

Göründüyü kimi, mənəvi-iradi xüsusiyyətlərin formalaşması mexanizminin əsasında onların şagird tərəfindən "fiziki cəhətdən hiss edilməsi, yaşanması" durur.

Şəxsiyyətin ən əhəmiyyətli güclü mənəvi-iradi xüsusiyyətləri intizam, məsuliyyət, səbr və məqsədəuyğunluqdur. Bu keyfiyyətlərin, eləcə də şəxsiyyətin formalaşması həm də fiziki tərbiyə və idman fəaliyyəti zamanı baş verir. Uşaqların inkişafında erkən yaşdan başlayaraq bu fəaliyyət mühüm yer tutur.

Məktəb dövründə uşaq bilik, bacarıq və vərdişlərə sahib olur. Bu zaman onun dünyəvi baxışının təməli qoyulur, iradəsi və xarakteri formalaşır. Bu dövrdə müəllimlərin təhsilalanlarda mənəvi inam və düşüncələrin formalaşmasına rəhbərlik diqqət tələb edir. İntizamlılıq və məsuliyyətin formalaşması məktəbin gündəlik vəzifəsidir.

Hər bir fəaliyyət zamanı qarşıya qoyulmuş məqsədə nail olmağa səy göstərilir. Məqsədin aydınlığı, hərtərəfli və dərin dərk edilməsi çox əhəmiyyətlidir. Bu, insanın qüvvələrini səfərbər edir. Onu ciddi mübarizələrə təhrik edir. Məqsəd dərk edildikdən sonra ona nail olmaq arzusu doğur. Arzu müəyyən məqsədin əldə edilməsinə yönəlməkdir. O, həyati və fəal olmalıdır. Arzu etdiyimiz məqsədə nail olmaq üçün düşünür, yollar müəyyənləşdirir və vasitələr əldə edirik.

Şəxsiyyətin mənəvi-iradi keyfiyyətləri elə iradi iş prosesində təzahür edir və formalaşır. İradi keyfiyyətlər – mürəkkəb psixi xüsusiyyətlər kimi insanın həyatı prosesində formalaşır, psixoloji səciyyəsinə görə vasitəli xarakter daşıyır.

Şəxsiyyətin mənəvi-iradi keyfiyyətlərini 3 qrupda birləşdirmək olar:

1. İlkin iradi keyfiyyətlər – iradi güc, təkidlilik;
2. Törəmə iradi keyfiyyətlər – qətiyyətlilik, cəsarət, özünü ələ almaq, inam;
3. Üçüncü iradi keyfiyyətlər – məsuliyyətlilik, intizamlılıq, işgüzarlıq, təşəbbüskarlıq.

Mənəvi-iradi keyfiyyətləri mənfi və müsbət olmaqla iki qrupa bölmək olar. Müsbət mənəvi-iradi keyfiyyətlərə təkidlilik, qətiyyət, cəsarət, özünü ələ almaq, məsuliyyətlilik, intizamlılıq, müstəqillik, səbrlilik və s. aid edirlər. Bunların hər birinin əksini mənfi mənəvi-iradi keyfiyyətlər təşkil edir. Mənfi mənəvi-iradi keyfiyyətlərə mənəvi-iradi nöqsan kimi təqlidçilik, tələqinə qapılmaq, neqativizm, tərsliyi də aid etmək olar.

Mənəvi-iradi fəaliyyət prosesində uşağın müvafiq iradi keyfiyyətləri təzahür edir və formalaşır. Uşaqlarda mənəvi-iradi fəaliyyət müxtəlif formada cərəyan edir. Biri təkidlilik göstərir, digərində bu keyfiyyət müşahidə olunmur, biri özünü çox müstəqil aparır, digəri, əksinə, tez təsir altına düşür, biri öz əzmi ilə hamını heyran edir, digəri isə öz qətiyyətsizliyi ilə fərqlənir və s. Beləliklə, şəxsiyyətin mənəvi-iradi fəaliyyəti müsbət və mənfi cəhətdən səciyyələndirən davranışında mənəvi-iradi işlərin icra üsulları müəyyənlik və sabitlik kəsb etdikdə, onlar şəxsiyyətin özünün səciyyəvi mənəvi-iradi keyfiyyətlərinə çevrilir.

Mənəvi-iradi fəaliyyətin yüksək səviyyəsi çox parlaq şəkildə insanın özünü ələ almaq (dözümlülük, soyuqqanlılıq) bacarığında təzahür edir. İnsan bacarığı sayəsində özünü ələ alaraq tənbəllik, qorxu kimi maneələri aradan qaldırır və düşünülmüş, əsaslı surətdə qəbul etdiyi qərarı həyata keçirmək qabiliyyətini göstərir. Başqa sözlə desək, soyuqqanlılıq arzuedilməz, həm də güclü təhrikedici qüvvələri özünə tabe etmək bacarığından ibarətdir. İradə insanın özü tərəfindən bəyənilməyən hisslərin: əsəbiliyin, qorxu, hiddət, qəzəb, ümidsizlik affektlərinin və s.-nin təzahürünü cilovlamaq bacarığında ifadə olunur.

A.Puni hesab edir ki, "Hər bir insanın iradi keyfiyyətləri bir vahid sistem kimi çıxış edir, lakin bu sistemin quruluşu şəxsiyyətdən asılı olaraq dəyişir. Bundan başqa, eyni şəxsdə müxtəlif fəaliyyətlərdə iradi keyfiyyətlər dəyişir. Buna görə güclü iradəli keyfiyyətlər məcmusu mobil, dinamik bir sistem hesab edilə bilər " (6, s.14).

Belə bir sual meydana çıxır: mənəvi-iradi keyfiyyətlər necə əmələ gəlir və necə formalaşır? Müxtəlif mənəvi-iradi keyfiyyətlərin formalaşması yolları haqqında sualın cavabı bir cür deyil. Mənəvi-iradi keyfiyyətin xarakterindən asılı olaraq, onun konkret təşəkkül şəraitindən danışmaq olar. Lakin şəxsiyyətin mənəvi-iradi keyfiyyətlər kompleksinin formalaşmasına kömək edən ümumi cəhətləri də yaddan çıxarmaq olmaz. Dəyərli mənəvi-iradi keyfiyyətlərin inkişafına şəxsiyyətin bir sıra mühüm xüsusiyyətləri təsir edir. Belə xüsusiyyətlərə ilk növbədə qüvvətli borc hissini, həyati məqsədlərin aydınlığını, bu məqsədlərə nail olmaq ehtirasını aid etmək olar. Bu xüsusiyyətlər insana öz davranışında fəal, öz niyyətlərində təkidli olması üçün lazımi şərait yaradır, onu öz məqsədinə nail olmağa imkan verən hərəkətləri icra etməyə sövq edir.

Q.D.Babuşkin və V.N.Smolençova hesab edirlər ki, mənəvi-iradi keyfiyyətlərin formalaşmasında aşağıdakı qaydalara riayət olunmalıdır:

1) əhəmiyyətsiz çətinliklərlə başlamaqla onların intensivliyini tədricən artırmaq. İlk mərhələdə asan tapşırıqlar məktəblilərdə mənəvi-iradi keyfiyyətlərin formalaşmasına kömək edir; 2) təyin edilmiş vəzifəni yerinə yetirməyə sövq etmək; 3) çətin tapşırığın yerinə yetirilməsinə əminlik yaratmaq; 4) məktəblilərdə sürətli və güclü hərəkətlərin icrasına səbəb olmaq; 5) tapşırıqların həyata keçirilməsinə diqqət göstərərək yerinə yetirməsini tələb etmək (5, s.54) və s.

Bundan əlavə, müəlliflər mənəvi-iradənin formalaşması üçün vacib və zəruri şərait kimi özünütərbiyə olduğunu göstərirlər. Bu baxımından, özünütərbiyənin əsas prinsipləri aşağıdakılardır:

"1) özünənəzarət etməyi bacarmaq, istədiyinizi deyil, lazım olanı etmək;

2) hər zaman və hər şeydə mükəmməllik göstərmək, öz fəaliyyətinin öncəki və son nəticələrini gözləmək şərti ilə hər şeyi dəqiq, səliqəli yerinə yetirmək;

3) öz fəaliyyətindəki uğursuzluqların səbəbini başqa bir şəxslərdə deyil, ilk növbədə qeyri-obyektiv səbəblərdə deyil, özündə axtarmaq və həmişə özü üçün ciddi bir hakim olmaq (5, s.88).

Həyat yolunun bütün mərhələlərində insanın öz qarşısında qoyduğu məqsədlərə nail olması üçün o, həmişə çətinliklərlə mübarizə aparmalı olur. Bəzən insan çətinliklər qarşısında geriyə çəkilməli, öz iddia səviyyəsini endirməli olur və bunu bir uğursuzluq sayaraq iztirab çəkir. Çətinliklərin aradan qaldırılmasında, məqsədə çatmaq üçün iradi səy göstərilməsində möhkəm əqidənin, həyat məsələləri haqqında yetkin, kamil görüşlərin və əsil insan ləyaqətinin böyük əhəmiyyəti vardır.

Müvafiq psixi proseslərin və xassələrin fəaliyyətdə təşəkkül etməsi prinsipi şəxsiyyətin iradəsi sahəsində son dərəcə əyani şəkildə əks olunur. İnsan iradi hərəkətlərə riayət etdiyi, səy göstərdiyi, öz daxilində (ətalət, tənbəllik, mənfi adətlər, təsadüfi əhvali-ruhiyyəyə qapılma) və ətraf mühitdə olan maneələrlə mübarizə etdiyi üçün onda əsaslı qərar qəbul etmək qabiliyyəti, təkidlilik, soyuqqanlılıq, təmkinlilik və s. kimi mənəvi-iradi keyfiyyətlər inkişaf edir. İnsanın özünə hakim olmaq (soyuqqanlılıq) kimi dəyərli mənəvi-iradi keyfiyyətini heç nə çətinliklərlə gündəlik mübarizə praktikası kimi daha yaxşı formalaşdırmır.

Uşaqların mənəvi-iradi keyfiyyətlərinin formalaşmasında kollektivin rolu böyükdür. Əgər kollektivə mənsub olmaq uşaq üçün əzizdirsə və o, həmin kollektivin fikri, rəyi ilə hesablaşırsa, iradə tərbiyəsində belə kollektivin rolu daha böyük olur. Uşaq kollektivlə öz dərin bağlılığını hiss edirsə, o, həmin kollektivdə özü üçün davranış nümunələri görür. Hər bir yekdil kollektiv öz üzvlərindən müəyyən davranış qaydalarına riayət etməyi tələb edir. Bu tələblər götürülmüş vəzifələrin vaxtında yerinə yetirilməsindən, yoldaşlara fəal münasibət bəsləmək və qayğı göstərməkdən, kollektivi ləkələməməyə çalışmaqdan və s. ibarətdir. Bu tələblər kollektivin üzvü üçün elə bir şərait yaradır ki, o, yoldaşlar onun haqqında pis düşünməsin deyə özünü işdə göstərməyə, təmkinli, soyuqqanlı olmağa məcbur edir. Kollektivin verdiyi müsbət qiymət göstərilən səy və bəzən keçirilən xoşagəlməz emosiyalar müqabilində onun üçün mükafat olur.

Kollektivin keyfiyyətcə daha çətin tapşırıqlarını yerinə yetirdikcə, yüksək səviyyədə müstəqillik və təşəbbüskarlıq tələb edən hərəkətlər icra etdikcə uşağın lazımi mənəvi-iradi keyfiyyətləri də inkişaf edir. Müntəzəm surətdə icra edilən uğurlu mənəvi-iradi hərəkətlər sayəsində uşaqda öz qüvvələrinə inam əmələ gəlir və o, insanlarla birgə fəaliyyətdən razılıq hissi duyur.

Şəxsiyyətin mənəvi iradəsinin inkişafı təsirli bir qüvvə kimi ətrafdakı reallıqların və şəxsiyyətin özünün dəyişməsi ilə nəticələnir. Bu prosesdə mühüm amil fiziki tərbiyə və idmandır. "Fiziki tərbiyə fənninin tədrisi zamanı məktəbli şəxsiyyətinə, onun ətrafdakılarla əməkdaşlığına və şagird yoldaşlarının fiziki, psixi, mənəvi-iradi keyfiyyətlərinin formalaşdırılmasına şüurlu, məqsədyönlü, hərtərəfli humanist təsir üçün böyük imkanlar yaranır (7, s. 6)".

Çünki məhz bədən tərbiyəsi dərsləri prosesində məktəblinin sosial xarakteri özünü göstərir və formalaşır, kollektiv münasibətlərin mexanizmləri ortaya çıxır. Fiziki tərbiyə dərslərində yalnız hərəki bacarıq və vərdişlər yaranmır, həm də insanın digər keyfiyyətləri (qabiliyyətləri): onun intellektual keyfiyyətləri, estetik qabiliyyətləri, ünsiyyət bacarıqları, mənəvi davranış normaları formalaşır. "Fiziki tərbiyə özünəməxsus xüsusiyyətləri ilə seçilir və insana müxtəlif hərəkətləri öyrətməklə onun fiziki keyfiyyətlərini inkişaf etdirir və zənginləşdirir, təkmilləşdirir. İnsanın təkmilləşməsində isə mənəvi-iradi hərəkətlər mühüm rol oynayır. Hərəki qabiliyyətlər, çalışmalar sayəsində təşəkkül tapır və iradi hərəkətlərin məqsədyönlü fəaliyyətinin icrasına səbəb olur" (4, s.15).

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" // Azərbaycan müəllimi. 2013, 24 oktyabr

2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu): I-XI siniflər. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsi Texnologiyaları Mərkəzi, 2015

3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995

4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000

5. Qurbanov H. H. Fiziki tərbiyənin tədrisi metodikasi. Bakı: Müəllim, 2010, 244 s

6. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2008

7. Бабушкин Г. Д., Смоленцева В. Н. Психология физической культуры и спорта. Омск: Сиб ГУФК, 2007, 270с.

8. BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası". Bakı, 1992

9. "Sanitariya-epidemioloji salamatlıq haqqında". Bakı, 2006

10. Пуни А.Ц. Психологические основы волевой подготовки в спорте. М.: ФиС, 1997. С. 54.

11. Теория и методика физической культуры: учебник / под ред. Ю.Ф. Кулюткина. М.: Сов. спорт, 2004. С. 6

12. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2000

13. Гогунов, Е.Н. Психология физического воспитания и спорта. М.: Академия, 2003, 288 с.

14. "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998

15.Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010

Н.Б.Джафаров

Научно-теоретическая основа формирования нравственных и духовных качеств школьной личности

Резюме

В общеобразовательной школе формируются такие нравственные качества, как ответственность за свои поступки и поведение своих товарищей, глубокая заинтересованность в общем успехе, сила воли, стремление к достижению высоких результатов. Наряду с этим, занятия позволяют школьникам развивать быстроту, ловкость, силу, упорство, терпение. Для реализации этих целей педагогу необходимо приложить немало усилий, направленных на развитие жизненно важных целей, уметь соотносить их с нравственными ценностями общества, проявлять морально-волевую готовность к преодолению трудностей.

N.B.Jafarov

The scientifically-theoretical basis of the formation of moral and spiritual qualities of school personality

Summary

In the general education school such moral qualities are formed as responsibility for their actions and the behavior of their comrades, deep interest in common success, will power, aspiration to achieve high results. Along with this, classes allow schoolchildren to develop in their own speed,

agility, strength, perseverance, patience. To realize these goals, the educator needs to make a lot of efforts aimed at the development of vital goals, the ability to correlate them with the moral values of society, to show moral and strong-willed readiness to overcome difficulties

Rəyçi: ped.e.d. P.B.Əliyev

Redaksiyaya daxil olub: 15.02.2018

İ.Ə.ƏHMƏDOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

KONSERTMEYSTER SİNFİNDƏ VOKAL ƏSƏRLƏRİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *R.Şuman,vokal silsiləsi, romans, konsertmeyster, romantizm*
Ключевые слова: *Р.Шуман, вокальный цикл, романс, концертмейстер, романтизм*
Key words: *R.Shuman, vocal cycle, romance, concertmaster, romanticism*

Ümumtəhsil məktəbləri üçün nəzərdə tutulmuş musiqi müəlliminin peşəkarcasına hazırlanmasının əsas xüsusiyyəti onun çoxcəhətliliyinə əsaslanır. Konsertmeyster sinfi musiqi biliklərinin cəlb olunmasının təbii mərkəzi kimi çıxış edir və onun işində musiqi təhsilinin ən müxtəlif tərəfləri öz istiqamətlərini dəyişir. Musiqi şöbənin konsertmeyster sinfinin proqramının məqsəd və vəzifələri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə musiqi məktəblərinin müvafiq proqramlarından bir qədər fərqlənir. İlk növbədə bu fərq, musiqi şöbələrin konsertmeyster sinfinin konsert təşkilatları ilə musiqi üzrə tədris müəssisələrində işlərin aparılması üçün peşəkar konsertmeysterlərin hazırlanmasını məqsəd kimi öz qarşısına qoymamasından ibarətdir.

Musiqi şöbələrinin istənilən kurslarının, o cümlədən də, konsertmeyster sinfi kursunun əsas xüsusiyyəti - onun əsasının təcrübi musiqili-pedaqoji fəaliyyət üçün zəruri hesab edilən bilik və elmin tələbələr tərəfindən mənimsənilməsinə dair peşəkar-pedaqoji məqsədyönlülüyündən təşkil olunmasından ibarətdir.

Tələbələrinin gələcək fəaliyyətinin xarakteri ilə bağlı olan musiqi şöbəsi onların universal səviyyədə hazırlanması, solo ilə xoru akkompanement etmək bacarığı, transponə etmək (bir tondan başqa tona keçmək) bacarığı, vərəqi üzündən oxuma və əsəri duyma qabiliyyətinə əsasən seçəbilmə bacarığı kimi konsertmeyster-akkompanement işinə dair bir sıra biliklərə yiyələnməsini tələb edir.

Özlərinin sonrakı pedaqoji işlərində gələcək musiqi müəllimləri, istər xalq çalğı alətləri sinfinin tələbələri, istərsə də pianoçular akkomponementdə əksər hallarda fortepianodan istifadə edirlər. Bütün bunlarla əlaqədar olaraq musiqi şöbəsində konsertmeyster sinfində kursun keçilməsi, tələbələrin məhz hansı xüsusi aləti öyrənməsindən asılı olmayaraq, bütün tələbələr üçün vacib şərt hesab olunur.

Musiqi müəlliminin xüsusi hazırlıq keçməsinin ən mühüm tərəflərindən biri də konsertmeyster işinin mənimsənilməsinə əsaslanmışdır, belə ki, gələcək müəllimlərin peşəkar fəaliyyətlərində nəinki ifaçı rolunda, həmçinin də, konsertmeyster ilə akkompaniator rolunda da çıxış etməsi lazım gələcək. Konsertmeyster fəaliyyətini həyata keçirən gələcək müəllim növbəti bacarıqlara da malik olmalıdır:

- xor və solo ifasına akkompaniment etmək (müşayiət etmək);
- solo ilə xoru ifa edən şəxsi ifa ilə tanış etmək;
- öz-özünü akkompaniment etməklə, nəğməni ifa etmək;
- akkompanimet partiyasını müxtəlif tonnalığa transposiziya etmək;
- duyma qabiliyyətinə müvafiq olaraq melodiyalar ilə məşhur nəğmələri seçmək;
- ansamblda ifaya uyğunlaşma biliklərinin mənimsənilməsi.

Bu proqramın digər xüsusiyyəti isə burada məktəb nəğmələri ilə uşaq xoru ədəbiyyatının öyrənilməsinə diqqətin cəlb olunmasından ibarətdir. Bunu anlamaq mümkündür – musiqi müəlliminin konsertmeyster kimi gələcək fəaliyyəti məktəb xoru ilə uşaq xoru studiyasının çıxışları, solo ifaçıları və vokal ansambllar ilə işin aparılması ilə şərtləşdirilmişdir. Konsertmeyster sinfindəki məşğələlər də tələbələri məhz bu prosesə hazırlamalıdır.

Uşaq məktəb mahnıları ilə aparılan işlər, musiqi şöbəsində fərdi musiqi tədrisinin üç fənninin – solo ifası, xor dirijorluğu və konsertmeyster sinfi fənninin tədris proqramının özülünü təşkil etmiş olur.

Konsertmeyster sinfində məktəb mahnıları üzərində aparılan işin məzmunu ümumtəhsil məktəbində nəğmə oxuma səviyyəsində akkompanimentin (müşayiətin) səciyyəvi xüsusiyyətini daha dolğun şəkildə əks etdirməlidir. Akkompanement məktəbdə aparılan işin əhəmiyyətli hissəsini təşkil edir. Pedaqoq mahnıların öyrənilməsi üzərində işləyərkən nəğməni oxuyan uşaq kollektivinə diqqətlə nəzər yetirməlidir. Müəllim özü də şəxsən oxuyur və akkompanementin ifa olunmasına məsələn, baş ilə işarə olunan auftaktlar, fasilələr zamanı sərbəst əlin istifadəsi və ya tənəffüsün alınması məqamını, girişi, səsin azaldılmasını, ibarənin bitməsini göstərməklə əlin birinin azad edilməsi kimi dirijorluq elementlərini də daxil edir.

Buradan göründüyü kimi, akkompanement (müşayiət) zamanı müsiqi müəlliminin tapşırıqları da bir qədər mürəkkəbləşir. İş şəraitinə uyğunlaşmaq zərurəti meydana çıxır. Musiqi dərsində müsiqiçinin gündəlik konsertmeyster fəaliyyətinin zəruri şərtləri tərəfindən akkompanement ilə kifayət qədər sərbəst davranmanın tələb olunduğu müəyyən edilmişdir. Buna görə də konsertmeyster sinfində məşğələlər zamanı tələbəyə akkompanementi seçmək, nota mətninin daha da sadə şəklə salmaq kimi vərdişlər aşılanmalıdır. Məşğələlərin bu növündə daha yüksək nəticələrə nail olmaq üçün tələbədə qavrama qabiliyyətinin, akkompanementin tam fakturasını əvəz edən akkordun, akkord sxemlərinin vacib strukturunu sərbəst şəkildə qurmaq bacarığının varlığı olduqca zəruridir. Yəni harmonizasiya – akkompanementin seçimi ilə bağlı tədrisin zəruri tərkib hissəsidir.

Vokal müsiqi – səs üçün musiqi – müsiqi sənətinin ən qədim növlərindən biridir. Xalq-mahnı sənətinin ən sadə və primitiv formalarından başlayaraq və müasir dövrün daha mürəkkəb əsərlərinə kimi vokal müsiqi nitq, söz ilə ayrılmaz şəkildə bağlıdır.

Mahnı – tamamlanmış və sərbəst lətif melodiyadır. Mahnının melodiyası hətta sözsüz və instrumental müşayiətsiz ifa olunduqda belə parlaqlığını və ifadəliyini itirmir. Mahnı xalqın həyatına nüfuz edib, əbədi yaşayaraq, insanı ən müxtəlif vəziyyətlərdə müşayiət edir. Lakin mahnı tərkib hissəsi kimi operanın və ya hər hansı bir digər musiqi əsərinə – kantataya, oratoriyaya daxil ola bilər. Müşayiət altında bir səs üçün lirik vokal əsəri əksər hallarda mahnı deyil, romans adlandırırlar. "Romans" – ispan mənşəli sözdür. İlkin dövrlərdə «elmi» latın dilində oxunan nəğmələrdən fərqli olaraq cəmiyyətin kübar təbəqəsinin mahnıları «roman», yəni ispan dilində ifadə olunurdu.

Romansın çiçəklənməyə başladığı dövr – XİX əsrin birinci yarısına təsadüf edir. Mahnı ilə müqayisədə, romansda müsiqi ilə sözün əlaqəsi daha sıx və müfəssəldir. Musiqi nəinki poetik mətnin ümumi xarakterini, bəzən də ayrı-ayrı poetik obrazları da təcəssüm etdirir.

Vokal əsərin təhlilinə keçməzdən əvvəl, ilk növbədə, bunlara fikir vermək lazımdır:

1. Əsərin adına, belə ki, məhz əsərin adında romansın əsas obrazı açıqlanır. İfanın müəyyənləşdirici üslubu və xarakteri. Məsələn: elegiya, barkarola, lay-lay və.s.

2. Tempə və metronomaya dair göstərişlər. Müəllifin göstərişinə uyğun olmayan tempdə ifa əsəri tanınmaz şəklə sala bilər. Bu baxımdan nəinki tempə dair göstərişlərə diqqətlə yanaşmaq, eləcə də bu və ya digər hərəkətin nisbi sürəti haqqında daha aydın təsəvvürə də malik olmaq tələb olunur.

3. Bütün əsərin tonallığının, eləcə də rast gəlinən ahəng və tonallıq ilə bağlı dəyişiliklərin təyin olunması.

4. Mövcud ölçü və ya dəyişiliklər.

5. Əsərin xarakterini, əhval-ruhiyyəsini, səs çalarını təyin etmək zəruridir. Bu baxımdan, səslənmənin xarakterinə, romansın ümumi əhval-ruhiyyəsinə aidiyyatı olan dinamik və aqogika məqamlarına diqqət yetirmək zəruridir.

6. Fortepiano üçün partiyada akkompanement üçün vacib əhəmiyyət kəsb edən səslərə diqqət yetirmək vacibdir (bas xətti, kulminasiya məqamları, harmoniya və ritmika münasibətlərində vacib səslər). Akkompanement sənətində baslar xüsusi əhəmiyyət kəsb edir. Əsas melodik səsə qarşı münasibətdə daha primitiv də olsa, melodik səs əmələ gəlir. Akkompaniatorun əsas vəzifəsi hər zaman basların yaratdığı melodik xətti dinləməkdən ibarətdir. İlkin hazırlıq zamanı bas melodiyasını ifa etmək daha faydalıdır və bu zaman melodiyanı ümumi səs kütləsində dinləmək daha asan olur. Melodiyanın bas ilə birlikdə məşqi də xüsusilə faydalıdır.

7. Pedallama hərtərəfli şəkildə düşünülməli və işlənilməlidir.

Vokal əsərlərin üzərində işləyərkən girişə, sona, fortopianonun solo partiyasına, başqa sözlə desək, preludiyaya, postludiyaya, interludiyaya xüsusi diqqətlə yanaşmaq lazımdır.

Dahi Avstriya bəstəkarı R.Şuman tərəfindən dünya musiqi sənətinin inkişafına verilən töhfəni qiymətləndirməmək çətindir. Şuman Bethovendən cəmi 29 il sonra vəfat etsə də, o, musiqi sənətində yeni istiqamət olan – romantizmin ilk dahi nümayəndəsi kimi çıxış etmişdir. Mahnılar sahəsində Şumanın əməyi müstəsna olaraq böyük və danılmazdır. Şumanın mahnı irsi həqiqətən də möhtəşəmdir. O, indiki dövrə kimi hələ də tam şəkildə açıqlanmamışdır. Lakin Şumanın mahnıları arasında elə əsərlər də vardır ki, onların böyük dəyəri bəstəkarın zamanında və ya onun vəfatından sonrakı ilk illərdə hamı tərəfindən qəbul olunmuşdur. Belə əsərlərə Şumanın «Şairin məhəbbəti» adlı mahnılar silsiləsi də məxsusdur. Bu silsilə nəinki bir sıra gözəl mahnılardan, eləcə də bu janrın daha parlaq nümunələrindən biri olan mahnılar silsiləsindən də ibarətdir. Silsilənin vokal melodikası bir sıra özünəməxsus cəhətləri aşkar edir. Reçetativ elementlər daha böyük diqqətə layiqdir. Biz silsilənin mahnılarında fortepiano partiyasının daha mürəkkəb partiyasına rast gəlmirik. Fortepiano ilə birlikdə səslənən vokal partiyaların səsi heç bir yerdə batırılmır, heç bir yerdə ikinci plana çəkilmir, əksinə fortepianonun «akkompanementi» vokal partiyanı dəstəkləyir və sərfəli şəkildə vokal partiyanı nəzərə çarpdırır. Silsilənin əlamətdar xüsusiyyətlərindən biri də – musiqi təsvirinin əhəmiyyətli rolundan ibarətdir. «Mən qəzəblənmirəm» mahnısında isə məhz fortepiano vasitəsilə dəstəklənən vokal partiyanın köməyi ilə su axınının böyük daşqını əks olunur.

Bütün bunlara baxmayaraq, fortepiano partiyası təsviriliyin əsas daşıyıcısıdır. Bir çox mahnılarda onlar daha parlaqdır. Şuman «Şairin məhəbbəti» mahnılar silsiləsində müxtəlif təsvirilik növlərini istifadə edir. «Şairin məhəbbəti» mahnılar silsiləsində səs və fortepiano bir o qədər də bərabərhüquqlu olmasa da, buna daha yaxındır. Onların hər biri öz sahələrində, birlikdə isə sıx vəhdət şəklində fəaliyyət göstərir.

Tələbə konsertmeyster sinfində nailiyyətə nail olmaq üçün musiqi alətini gözəl mənimsəməlidir. Konsertmeyster sinfində tələbə musiqi duyumlu-mədəni insan, yüksək erudisiyaya malik musiqiçi olmalıdır. Onun harmoniyanı, musiqi formalarının təhlilini, müxtəlif dövrlərin musiqi ədəbiyyatını gözəl bilməsi zəruridir. Bu biliklər əsərin bədii məzmununa daha dərindən nüfuz etməyə, ifanın üslubunu və xarakterini dərk etməyə kömək edəcəkdir.

Ədəbiyyat

1. Соловьёв Н. Ф. Шуман, Роберт-Александр, Энциклопедический словарь Брокгауза и Ефрона: в 86 т. (82 т. и 4 доп.). - СПб., 1890-1907.

2. Ганзбург Г. И. Песенный театр Роберта Шумана, Музыкальная академия, 2005 г. №1. С. 106-119.

3. Ганзбург Г. Театрализация в вокальных циклах Роберта Шумана: Исследование. Saarbrücken: LAP Lambert Academic Publishing, 2012,128 с.

4. Житомирский Д. В. Роберт Шуман: Очерк жизни и творчества. М., 1964, 2-е изд. М., 2000.

5. Свириденко С. Шуман и его песни. - СПб., 1911.

И.А.Ахмедова

Значение вокальных произведений в концертмейстерском классе

Резюме

В данной статье представлены основные моменты, необходимые в работе над вокальными произведениями в классе концертмейстерского мастерства. В процессе обучения на примере романсов Р.Шумана студенты изучают базовые навыки аккомпанирования. Целью педагога является подготовка студента к профессиональной деятельности. Освоив основные принципы аккомпанирования вокальных произведений Р.Шумана, студенты имеют возможность перейти на следующую, более сложную ступень в постижении секретов концертмейстерского мастерства. Это произведения композиторов конца 19-начала 20 вв.

I.A.Ahmadova

The importance of vocal works in the accompanist class

Summary

This article presents the main points needed in the work on vocal works in the concertmaster class. In the process of learning, using the example of romances by R.Shuman, students learn basic accompaniment skills. The teacher's goal is to prepare the student for professional work.

Having mastered the basic principles of the accompaniment of R. Schuman's vocal works, students have the opportunity to move to the next, more complex stage in comprehending the secrets of concertmaster skill. These are the works of composers of the late 19th and early 20th centuries, the use of vocal works in concertmaster's class.

Rəyçilər: dos. K.R.Sədirxanova,
dos. A.F.Aşumova

Redaksiyaya daxil olub: 28.02.2018

B.H.ƏSƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏ

Açar sözlər: *şagird, qiymətləndirmə, summativ, nailiyyət*
Ключевые слова: *ученик, оценка, суммативный, достижение*
Key words: *student, evaluation, summative, achievement*

Fransa təhsil sistemində "Qiymətləndirmə" nə deməkdir? Qiymətləndirmə şagirdin müvəffəqiyyət dərəcəsini dəqiq və ya düzgün qiymətləndirməyə imkan verən hərəkətdir. Qiymətləndirmə şagirdlərin nailiyyətlərini müəyyənləşdirməyə imkan yaratmalıdır. Qiymətləndirmə nailiyyətləri təsdiqləməli, həmçinin əldə edilən bacarıqları da müəyyənləşdirməlidir. M.Barlov öz məqaləsində qiymətləndirməyə belə bir tərif vermişdir: "Qiymətləndirmək-müvəffəqiyyət ilə birlikdə müvəffəqiyyət dərəcəsini təyin etməkdir" (1). Qiymətləndiricinin məqsədi şagirdləri qiymətləndirməkdən başqa, şagirdlərə daha yaxşı işləmək imkanı verməkdir. Daha sonra o yazır: "Qiymətləndirmə müəllimin potensiallarını artırmağa imkan verməlidir və bunun üçün özünə olan inancını artırmalıdır (1, s.6-7).

Qiymətləndirmənin məqsədi şagirdin performansını əlaqələndirmək deyil, onun öyrənməsini yaxşılaşdırmaqdır. Qiymətləndirmədə müəllimlərin topladığı məlumatlar şagirdlərin ehtiyaclarını ödəməklə onların strategiyalarını, təlimlərini və öyrənmələrini dəyişdirməyə imkan verir. Bu yanaşma həm də şagirdlərə özlərini tənzimləmələrinə sövq edir və onları öz məqsədlərinə çatmağa köməklik edir.

Qiymətləndirmənin əsas məqsədi hər bir şagirdin tam potensialına çatmasını təmin etmək üçün öyrənməni təkmilləşdirmək və öyrənmə üçün lazım olan vasitələrə yer verməkdir. Qiymətləndirmə şagirdlərin öyrənməsinə dəstək, təlim strategiyalarının hazırlanması və dəyişdirilməsi üçün bir təlimatdır. Təlim prosesi əsasən şagirdyönümlü fəaliyyətə təkan verən bir yoldur. Eyni zamanda şagirdlərin ehtiyaclarına cavab verən və şagirdin müvəffəqiyyətinə istiqamət göstərən tədris qiymətləndirmə prosesinin vacib bir hissəsidir. Qiymətləndirmə prosesi:

1) şagirdi öyrənmə və dəstəkləməyə yönəldir;

2) öyrənmənin növbəti addımlarını planlaşdırmaq üçün şagird irəliləyişini izləyir;

3) müəllimə şagirdin ehtiyaclarını ödəmək üçün tədris təcrübələrini tənzimləməyə sövq edir;

4) öyrənmə prosesində şagir haqqında dəqiq və təsviri rəy verməyi tələb edir;

5) müstəqil öyrənmə vərdişlərini inkişaf etdirməyi formalaşdırır;

6) nəzərdə tutulan öyrənmə nəticələrinin nailiyyətinin nə dərəcədə olduğunu müəyyənləşdirir;

7) şagird nailiyyətindən valideynlərin müəllimlər tərəfindən məlumatlandırılması kimi prosesləri özündə cəmləyir.

Qiymətləndirmənin aşağıdakı əsas prinsipləri vardır:

- hər hansı qiymətləndirmənin əsas məqsədi şagirdin öyrənilməsini maksimum dərəcədə artırmaqdır. Qiymətləndirmə şagirdin öhdəliyini, motivasiyasını və nəzərdə tutulan öyrənmə nəticələrinə nail olmaq üçün imkan verməlidir;

- qiymətləndirmə şagirdi öyrənməyə sövq etməli və bilik əldə etməsini təmin etməlidir. Qiymətləndirmə prosesi müvafiq qiymətləndirmə strategiyalarının balansına əsasən davam edən prosesdir. Bunlar tədris prosesi boyunca inteqrasiya olunmalı, müşahidələrdən, söhbətlərdən və şagirdin öyrəndiklərindən əldə edilməlidir;

- qiymətləndirmə tədris planına aid olan gündəlik strategiyaları, bacarıqları və bilikləri nümayiş etdirməlidir;

-qiymətləndirmə strategiyaları hazırkı tədris proqramının öyrənmə nəticələrinə birbaşa istinad edərək planlaşdırılmalıdır;

-bütün qiymətləndirmə formaları ədalətli olmalı və hər bir şagirdin təcrübə və biliklərini əks etdirməlidir. Şagird nailiyyətinin ünsiyyəti aydın və şəffaf olmalıdır, nəzərdə tutulan öyrənmə nəticələrinə əsaslanmalıdır. "Qiymətləndirmə" şagird üçün nəzərdə tutulan öyrənmə nəticələrinə nail olmaq üçün müxtəlif vasitələr və üsullarla bilikləri nümayiş etdirməyə imkan verir və yalnız müəyyən olunmuş sual-cavab formalarına əsaslanır. Şagirdin bilik və bacarıqları, yalnız şagirdə aid olan hesabat kartında qeyd edilir (2, s.7-15).

Fransa təhsil sistemində şagird nailiyyətlərini qiymətləndirmənin aşağıdakı istiqamətləri mövcuddur: 1) diaqnostik; 2) formativ; 3) summativ.

Diaqnostik qiymətləndirmə tədris ilinin başlanğıcında aparılan qimətləndirmə formasıdır. Şagird haqqında toplanmış məlumatlar illik proqnozun bir hissəsi kimi, planlaşdırılan inkişafı düzəltmək üçün hər bir yeni ardıcıllığın başında mütəmadi olaraq nəzərdən keçirilir. Bu qiymətləndirmə forması şagirdlə müəllimin daha yaxşı işlənilməsinə kömək edir. Diaqnostik qiymətləndirmədə şagirdə daha çox üstünlük verilir və müəllimin gözləntilərini aydınlaşdırır. Burada müəllim şagirdlərin işini, seçimini qiymətləndirmək və onları şagirdlərin real ehtiyaclarına uyğun olaraq düzəltmək üçün bir vasitədir. Bu, müəllimə şagirdlərin bilik və bacarıqlarını təyin etməyə imkan verir. Onun funksiyası əvvəlki öyrənmə və bilik balansını tərtib etməkdir. Bu, əsl ehtiyaclara uyğunlaşmaq və tədrisi planlaşdırmağa imkan verir.

Şagirdlərin məktəb ilinə yaxşı başlaması, müəllimin şagirdin bilik və bacarıqlarının hansı səviyyədə olması haqqında məlumatlanması vacibdir. Ümumilikdə qeyd etsək, şagird fəaliyyətini nəzərdən keçirmək üçün diaqnostik qiymətləndirmə əsasdır. Bu tip qiymətləndirmə (diaqnostik qiymətləndirmə) səhvin bir səhv olaraq yaşandığını, ancaq öyrənmənin öyrənilməsini təmin etmək üçün istifadə olunmur, şagirdin bildiklərini və ya bilmədiklərini necə öyrəndiyini ortaya qoyur. Çətinliklə şagirdləri müəyyənləşdirir və bu çətinliklərin tipini müəyyən edir. Bu, daha çox öyrənməni təşkil etmək üçün imkan yaradır. Şagirdi həvəsləndirir və onun təlim metodlarından xəbərdar olması ilə onu təlimə cəlb olmağa imkan yaradır. Şagirdə çətinlikdən, eləcə də öz nailiyyətlərindən xəbərdar olmaq imkanı verir (4, s.11-12).

Formativ qiymətləndirmə öyrənməni müşayiət edir. Müəllim üçün öyrənmə nəticələrini və çətinliklərini müəyyənləşdirmək, təkmilləşdirilmə üçün təlimat hazırlamaq və tərəqqi üçün məqsədləri müəyyənləşdirməyə imkan verir. Şagirdin müvəffəqiyyətini göstərmək üçün bir tapşırığın formativ qiymətləndirilməsi mütləq qeyd edilmir. Təkmilləşdirmə üçün təlimatların yaranması üstünlük təşkil edir. Formativ qiymətləndirmənin funksiyası öyrənmə prosesini yaxşılaşdırmaq üçün şagirdlərə kömək etməklə müvafiq düzəlişləri təmin etməkdən ibarətdir. Formativ qiymətləndirmə pedaqoji funksiyaya malikdir. Müəllim üçün təsirlər çoxdur, çünki formativ qiymətləndirmənin həyata keçirilməsi müəllimin münasibətində dəyişiklik tələb edir:

qiymətləndirmə münasibətlərinin dəyişməsi;

səhv statusu;

pedaqoji qərarlar və qiymətləndirmələrin həyata keçirilməsində şagirdlərin iştirakı.

L.Allala görə, formativ qiymətləndirmə aşağıdakı formalarda ola bilər: 1) nəzarət və ya sorğu əsasında; 2) şifahi qarşılıqlı əlaqə, fərdi fəaliyyət və ya alt qruplarda interaktiv nəzarət əsasında; 3) tədris üçün toplanmış sübutların əsasında.

Formativ qiymətləndirmə öyrənməyə konstruktiv yanaşmanın bir hissəsidir. Bu qiymətləndirmə metodu müxtəlif tədris vasitələrinə əsaslanır. Formativ qiymətləndirmədə "səhv" anlayışına müsbət yanaşılır, səhvlər öyrənmənin bir hissəsidir, fərqləndirilmiş bir yanaşmada təhlil edilməli və səhvlərin aradan qaldırılmasına diqqət yetirilməlidir. Şagird səhvlərindən xəbərdar olmaq və onları düzəltmək yolu ilə irəliləyir. Özünüqiymətləndirmə və birgə qiymətləndirmənin inkişaf etdirilməsinə kömək edir (3, s.1-3).

Ümumiyyətlə, yekun qiymətləndirmə üç əsas meyar ilə müəyyən edilir:

-testlər, tapşırıqlar və ya layihələr şagirdlərin biliklərini öyrənmək üçün istifadə olunur;

-summativ qiymətləndirmələr müəyyən bir təlimat dövrünün sonunda verilir və buna görə də diaqnostikadan çox qiymətləndiricidirlər, yəni tədris prosesinin və nailiyyətlərinin müəyyənləşdirilməsi üçün daha uyğun şəkildə istifadə olunur. Təhsil proqramlarının effektivliyini qiymətləndirir, təkmilləşdirilmə tərəqqisini ölçür. Summativ qiymətləndirmə nəticələri şagirdə aid olan hesabat kartında bal və ya qiymətlər kimi qeyd olunur (5, s. 23-24).

Summativ qiymətləndirmə ilin sonunda həyata keçirilir. Xarici dil tədrisində summativ qiymətləndirməni bəzən yekun verən qiymətləndirmə də adlandırırlar. Təlim prosesində fəaliyyətin sonunda şagird nailiyyətlərini qiymətləndirmək üsuludur. Bütün qiymətləndirmələr yekunlaşdırıla bildiklərindən onlar summativ funksiyaya malikdirlər. Summativ qiymətləndirmə kurs, semestr, proqram və ya tədris ili sonunda, şagirdin əldə etdiyi bilik və bacarıqlarının akademik nailiyyətlərini qiymətləndirməkdə istifadə olunur.

Ədəbiyyat

1. https://dumas.ccsd.cnrs.fr
2. http://vieux.csap.ca/D230-56.pdf
3. https://fr.wikipedia.org/wiki/%C3%89valuation_formative
4. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu). (I-XI siniflər). Bakı, Təhsil Problemləri İnstitutunun nəşriyyatı, 2013, 105s.
5. Əsədova T. Xarici dil kurikulumu //Azərbaycan müəllimi. Bakı, Azərbaycan, 8 oktyabr 2015-ci il, s. 15.

Б.Г.Асадова

Оценивание в преподавании французкому языку как иностранному

Резюме

В этой статье говорится об оценивании французкого языка как иностранного. Были обозначены характеристики, цели и объекты оценивания. А также показана степень важности оценивания в достижениях учеников. Для оценивания ученических достижений, существуют три основных направления (диагностический, формативный, суммативный).

B.H.Asadova

Evaluation of foreign language (french) teaching

Summary

This articile deals with the evalution of foreign language (French) teaching. The features, goals and objectives of the evaluation have been interpreted. It also demonstrates how important the assessment is in student achievement. Here are three main aspects of assessment (diagnostic, formative, summative) to evaluate student achievement.

Rəyçi: f.f.d., prof. R.C.Cabbarov

Redaksiyaya daxil olub: 21.02.2018

C.T.GÜLİYEVA
e-mail: jamila3gulieffa@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİ FAKÜLTƏLƏRİNİN AŞAĞI KURS TƏLƏBƏLƏRİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

Açar sözlər: *leksik bacarıq, tədris materialları, xarici dil tədrisi, metodik təsnifat*
Ключевые слова: *лексические упражнения, учебные материалы, преподавание иностранных языков, методическая классификация*
Key words*: lexical exercise, teaching materials, foreign language teaching, methodical classification*

Məqalənin aktuallığı baxımından qeyd etmək istərdim ki, kommunikativ təlimi təşkil edən əsas prinsiplərdən biri məhz interaktivlik prinsipidir. Hər hansı xarici dilin, xüsusilə də qlobal miqyasda əsas ünsiyyət dili statusu əldə etmiş ingilis dilinin öyrədib-öyrənilməsində əsas məqsəd həmin dildən kommunikativ məqsədlərdə istifadə etmək qabiliyyətinə yiyələnməkdən ibarətdir (3, s.102).

Dilin aspektləri olan leksika, qrammatika, fonetika, eləcə də əsas nitq fəaliyyət növləri olan şifahi nitq, eşidib-anlama, yazı və oxunun öyrənilməsi özü-özlüyündə bir məqsəd kimi çıxış edə bilməz. Lakin dilin aspektlərinə və nitq vərdişlərinə yiyələnmədən həmin dildən kommunikativ məqsədlərlə adekvat şəkildə istifadə etmək qabiliyyətinə malik olmaq qeyri-mümkündür.

Xarici dildə leksik bacarıqların yaradılması, formalaşdırılması və inkişaf etdirilməsi məsələlərinə dair xüsusi tədqiqatlar aparmış bəzi metodistlərin elmi araşdırmaları ilə tanışlıq göstərir ki, leksik materialların təqdimatı və öyrənilməsi, bir neçə yeni yanaşmaların və prinsiplərin tədris prosesinə gətirilməsi sayəsində uğurlu nəticələr əldə edilmişdir.

C.Koadi, C.Hulstien, M.Hollander və T.Qreydanus tələbələrin ana dilində və ikinci xarici dildə leksik bacarıqlarının formalaşdırılmasına dair xüsusi tədqiqat aparmışlar.

Dilin aspektlərinə gəldikdə, burada leksikanın tədrisi danılmazdır. Tədqiqatçılar həm ana, həm də xarici dildə leksik vərdişlərin aşılanması prosesində lüğətin əhəmiyyətini vurğulayaraq mətnin məzmununun başa düşülməsi üçün semantik əlaqələrin sintaktik əlaqələrlə müqayisədə vacib olduğunu qeyd edirlər. Leksik vahidlərin mənimsədilməsini əhəmiyyətli dərəcədə çətinləşdirən amillərdən biri tələbələr tərəfindən dilin lüğətinin lazımi səviyyədə mənimsənilməməsidir. Tələbələrdə lüğət ehtiyatının məhdudluğu leksik vərdişlərə yiyələnmə prosesində çətinliyə və problemlərə səbəb olur (1, s.83).

Məlum olduğu kimi, xarici dil öyrənən tələbələr lüğət vahidlərini iki əsas məqsəd üçün mənimsəməlidirlər: produktiv məqsəd və reseptiv məqsəd. Leksik vahidləri reseptiv məqsədlərlə öyrənən tələbələrin qarşısında duran məqsəd oxuduqları mətnləri və yaxud eşidilən nitqin başa düşməkdirsə, produktiv məqsədlə xarici dil sözlərini mənimsəyən tələbələrin qarşısında olan məqsəd mənimsənilmiş leksik vahidlərdən yaradıcı nitq prosesində istifadə etməkdən ibarətdir. Leksik vahidlərin mənimsənilməsində əsas məqsəd onlardan kommunikativ məqsədlərlə istifadə etməkdir. Eyni zamanda hər bir söz həm semantik, həm də qrammatik mənaya malikdir. Misal olaraq “hope, speak” və “softly” sözlərini gətirmək olar. Belə ki, “hope” sözünün semantik mənası “ümid”dir. Həmin sözün qrammatik mənasından danışarkən, onun qrammatik xüsusiyyətlərini məsələn, onun isim olduğunu göstərmək lazımdır.

L**eksik bacarıqların formalaşdırılmasında** diqqət mərkəzində olan əsas məsələ məna daşıyan sözlərin kontekstual mənalarının tapılması yalnız reseptiv vərdişlərin inkişaf etdiril-

məsi məqsədini daşıyır. Lakin tədqiqatçıların fikrincə, sözlərin reseptiv və produktiv məqsədlərlə mənimsənilməsi arasında olan fərqləri müəyyənləşdirmək heç də asan deyil.

Beləliklə, leksik vahidlərin mənimsədilməsi tələbələrin produktiv lüğətinin zənginləşdirilməsi üçün müvafiq şərait yaradır. Müəllimin vəzifəsi isə əsas məna daşıyan, gələcəkdə kommunikasiya prosesində yaradıcı şəkildə istifadə edilməsi üçün vacib olan "açar" sözlərin, tələbələrin diqqətini cəlb edərək onlara xüsusi əhəmiyyət verilməsini tövsiyə etməkdir.

Xarici dil tədrisinin leksikanın digər sahələrində olduğu kimi, lüğətin öyrədilməsində də əsas məqsəd "nəyi" və "necə" öyrətməkdir. Mənimsənilməli olan lüğət vahidlərinin müəyyənləşdirilməsi onların reseptiv və yaxud produktiv məqsədlərlə tədris edilməsindən bilavasitə asılıdır. Produktiv istifadə məqsədi ilə mənimsənilməli olan sözlər iki əsas kriteriyaya əsaslanaraq seçilməlidir. Onlardan birincisi işlədilmə tezliyi göstəricisi, ikincisi isə çətinlik göstəricisidir.

İngilis dilinin aşağı kurslarında təhsil alan müəyyən bilik və bacarıqlara yiyələnmiş tələbələrə gəldikdə, mətndə olan hansı sözlərin onlar üçün naməlum olmasını müəyyənləşdirmək heç də asan olmur. Tələbələrin səviyyələri müxtəlif olan qruplarda müəllim onlara mətndəki bilmədikləri sözlərin altından xətt çəkməyi tapşırır. Onu da xüsusilə vurğulamaq lazımdır ki, deyilənlər yalnız mətndə olan açar söz və ifadələrə aid edilə bilər. Bu yolla tələbələr üçün hansı sözlərin naməlum olduğunu müəyyənləşdirən müəllim, yeni leksik vahidlərin hansı yolla onlara öyrədilməsi məsələsini həll etməlidir. Onu da qeyd etmək vacibdir ki, leksik vərdişlərin aşılanması prosesində yeni sözlər öyrədilməli deyil, onlar öyrənilməli, mənimsənilməlidir. Daha dəqiq desək, yeni leksik vahidlər tələbələrə təqdim edilməli, onlar isə həmin leksik vahidləri mənimsəməlidirlər. Müəllimin vəzifəsi yeni sözlərin hansı yollarla tələbələrə təqdim edilməsini müəyyənləşdirməkdən ibarətdir. Xarici dil tədrisinin mərhələsindən asılı olaraq, yeni lüğət vahidlərinin tələbələrə təqdim edilməsi yolları fərqli olmalıdır. Tələbənin bilik səviyyəsinin nəzərə alınması təlim prosesinin səmərəliliyini şərtləndirən əsas amillərdəndir.

Belə ki, aşağı mərhələdə leksik bilik səviyyələri hələ də aşağı olan və söz ehtiyatları məhdud olan tələbələrə yeni sözləri təqdim edərkən aşağıdakı üsullardan istifadə etmək tövsiyyə edilir:

Mətndə hər hansı sözün tələbələr üçün naməlum olduğunu bilən müəllim həmin sözün heç bir çətinlik olmadan izah oluna bildiyi aşağıdakı üsuldan istifadə edir:

S1- What does 'force mean'? - S2 - Strength, effort;

S1 - What is "handkerchief"? - S2 — Square cotton carried in the pocket or bag for wiping nose.

Nəzərə almaq lazımdır ki, burada suallar müəllim tərəfindən deyil, tələbər tərəfindən verilir. Suala cavab verməkdə tələbə çətinlik çəkərsə qrup yoldaşları və yaxud müəllim ona kömək edirlər.

Leksikanın tədrisi prosesində yeni sözlərin tələbələr tərəfindən başa düşülməsi və mənimsənilməsi məsələsini araşdırarkən burada tərcümənin rolu və yerini, onun kəsb etdiyi əhəmiyyəti xüsusilə vurğulamaq lazımdır. Eyni zamanda tərcümədən istifadə etmə probleminin mübahisəli olduğunu, metodist-alim, tədqiqatçılar və dili tədris edən müəllimlər tərəfindən birmənalı qaydada qəbul edilmir. Leksik vərdişlərə yiyələnmədə naməlum sözlərin mənalarının açılmasının ən cəld və eyni zamanda ən sadə yolu tərcümə, yəni tələbələrin lüğət vasitəsilə sözün ana dilində olan ekvivalentlərini tapmasıdır.

Xarici dilin tədrisində tərcümənin qətiyyətlə əleyhinə çıxan tədqiqatçı-alimlərlə bərabər tərcüməni dəstəkləyən, onun xüsusi rolunu vurğulayan mütəxəssislərin sayı da az deyil. Dillərin tədrisində yaradıcılar tərcümənin əhəmiyyətini danılmaz hesab edir, tərcümədən yerində və zamanında İstifadə etməyi və sui-istifadə hallarının qarşısının alınmasını tövsiyə edir.(3,s.124).

Tədrisin ilkin mərhələsində ayrı-ayrı sözlərin, adətən mətndə olan açar sözlərin mənalarının ikidilli lüğət vasitəsilə tapılması tövsiyə edilə bilər.

Leksikanın tədrisi prosesində tələbələrdə lüğət ehtiyatlarının zənginləşdirilməsi məsələsinin vacibliyinə baxmayaraq, burada sözlərin mənimsənilməsi məqsəd yox, bir vasitədir. Ən vacibi isə anlama məqsədilə verilən suallar və onların cavablandırılmasıdır. Qeyd olunduğu kimi, mətnlə tanışlıqdan əvvəl verilən suallar tələbələrin diqqətini mətndə olan vacib problem və məsələlərə yönəltməlidir. Burada verilən suallar mətndə olan məzmunla əlaqəli olmalıdır. Bu mərhələdə, tələbələrə ingilis dilli mədəniyyətdə mövcud olan qayda və normalar, müxtəlif məsələlərə dair münasibətlər haqqında fikir və rəylərini bildirmək təklif edilir, ingilis dilli mədəniyyət dedikdə, yalnız ingilislərin mədəniyyəti deyil, həm də amerikalıların və Britaniyada yaşayan digər yerli xalqların mədəniyyətləri nəzərdə tutulur. Güman edilir ki, naməlum olan leksik vahidlər deyil, məhz kulturoloji xarakterli məlumatların tələbələrdə olmaması çox vaxt oxu prosesində problem və çətinliklərə səbəb olur. Onu da qeyd etmək lazımdır ki,verilən sualların heç də hamısı dərsdə cavablandırılmamalı, əksər sualların cavablarını tələbələr dərsdə deyil, auditoriyadan kənar şəraitdə, müstəqil şəkildə araşdırmalar apararaq tapmalıdır (3, s 76).

Sualların formal cəhətdən qurulması tələbələrə imtahanlar zamanı verilən testlərin formal cəhətdən necə qurulmasından bilavasitə asılıdır. Məlum olduğu kimi, Avropa Təhsil Sisteminə inteqrasiya prosesində olan Azərbaycanda imtahanlar test üsulu ilə qəbul edilir. Tədris prosesində tələbələri müəyyən formatda keçirilən testlərə hazırlamaq proqram tərtibatçıları, dərslik müəllifləri və xarici dili tədris edən müəllimlər qarşısında duran əsas vəzifələrdən biridir.

Dərslərdə və dərsdənkənar şəraitdə tələbələrin yerinə yetirdiyi tapşırıqların həmin formatda onlara təqdim edilməsi olduqca vacib olan məsələlərdən biridir.

Tələbələrə aşağıdakı növ sualların verilməsi tövsiyə edilir:

What convinced Dick that Vish was really corrupt?

The contract for the factory in Hosur, which was really big money.

The costs for building and maintenance work were higher than they should be.

Wish was taking a percentage from the contractors in exchange for giving them the contract.

Təqdim edilən sualların böyük əksəriyyəti obyektiv suallardır. Əlavə olaraq, müəllim tərəfindən tələbələrə onları düşündürən, fikir və rəylərini, mövqe və münasibətlərini bildirməyə vadar edən sualların verilməsi tövsiyə edilir.

İngilis dili tədrisinin aşağı kurs mərhələlərində tələbələrə oxuduqları materiallar ilə əlaqədar olaraq xülasə, qısa şərh, ifadə, mətndə olan məlumat və hadisələrin qısa təhlili ilə bağlı yazılı tapşırıqların yerinə yetirilməsi tövsiyə edilir. Leksik bacarıqların formalaşması prosesində yazılı tapşırıqların yerinə yetirilməsi kommunikativ təlim prinsiplərindən ən vacibi olan interaktivlik prinsipinə tamamilə uyğundur.

Ədəbiyyat

1. Filatov V.M. Methods of teaching foreign languages in primary and secondary school. Textbook for students of pedagogical colleges. Rostov-on-don, 2004.

2. Passov E.I., Kuznetsova E.E. The problem of skills in teaching foreign languages. Textbook. Voronezh: SEI «Interlingua», 2002.

3. Nauchnaja biblioteka im. A.N. Ignatova [Electronic resource]. URL: http://www.fmx.ru/inostrannye_yazyki_i_yazykoznanie/ (date of access: 11.03.2017).

4. Teaching English grammar [Electronic resource]. URL: http://knowledge.allbest.ru/languages/3c0a65635a2ad68b4c53b89521306d27_0.html/ (date of access: 13.03.2017).

5. Markelova D.M. A method of forming lexical skills at training English language // Molodoj uchenyj, 2016. №9. [Electronic resource]. URL: moluch.ru/archive/113/29098/ (date of access: 13.03.2017).

Дж.Т.Гулиева

Пути формирования лексических навыков у студентов младших курсов факультетов английского языка

Резюме

В основном лексический подход к обучению означает то, что основное внимание уделяется оказанию помощи студентам в овладении лексикой. В преподавании английского языка методы представляют собой систему для структурирования уроков, в то время как подходы, в меньшей степени, касаются того, как структурирован урок и больше озабочены общей направленностью обучения. Эта статья посвящена таким понятиям, как лексические навыки, структуры, качество, стабильные условия для формирования лексических навыков, а также этапам изучения каждой новой лексической единицы. Все это необходимо учитывать в процессе обучения иностранному языку. Автор статьи рассматривает эффективные виды упражнений, направленные на формирование и развитие лексических навыков английского языка. Представлена классификация упражнений по различным признакам.

J.T.Guliyeva

Ways of formation of lexical skills of junior students in English courses faculties

Summary

Very basically, a lexical approach to teaching means the primary focus is on helping students acquire vocabulary. In English language teaching, methods are systems for structuring lessons while approaches are less concerned with how the lesson is structured and more concerned with the general focus of instruction. This article deals with the notion of lexical skills, structure, qualities, stable conditions for the formation of lexical skills, as well as steps that passes every new lexical unit. All this must be taken into account in the process of learning a foreign language vocabulary. The author views effective types of exercises that form and develop students' lexical skills in the English language. The classification of lexical exercises according to different principles is given.

Rəyçi: f.e.n., dos. A.Ə.Əsədov

Redaksiyaya daxil olub: 15.02.2018

X.İ.HƏSƏNOVA
e-mail: xalidahassan@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ORTA MƏKTƏBDƏ TƏDRİSİN AŞAĞI MƏRHƏLƏSİNDƏ QRAMMATİKANIN KOMMUNİKATİV TƏDRİSİ ZAMANI MATERİALLARIN SEÇİLMƏSİ

Açar sözlər: *kommunikativ yanaşma, kommunikativ qrammatika, qrammatik materiallar, qrammatik minimum, qrammatik çalışmalar*

Ключевые слова: *коммуникативный подход, коммуникативная грамматика, грамматические материалы, грамматический минимум, грамматические упражнения*

Key words: *communicative approach, communicative grammar, grammatical materials, grammatical minimum, grammatical exercises*

Heç kəs şübhə doğurmur ki, insanın intellekti uşaqlıq dövründə - doğulduğu gündən 12 yaşına kimi daha tez inkişaf edir. Həm ana dildə, həm də xarici dildə nitq bacarıqlarının inkişafı üçün optimal olan şərtlər uşaq yetkinləşməmişdən öncə də mövcud olur. Xarici dilin tədrisinə başlanılmasını uşağın inkişafının başlanğıcına yaxınlaşdırmaq onların xarici dilə böyüklərdən fərqli olaraq daha uğurlu şəkildə yiyələnmələrinə səbəb olur.

Bir çox hallarda orta məktəbin aşağı mərhələsində məhz qrammatika şagirdlərin "axsadığı" məqam olmuş və qalmaqdadır. Buna görə də son illərdə metodiki tədqiqatlarda orta məktəbin aşağı mərhələsində xarici dilin qrammatikasının öyrənilməsinə artan diqqət müşahidə olunur.

Ümumiyyətlə, tədrisin başlanğıc mərhələsində dərsliklərdə əsasən şəkillərə üstünlük verilir. Belə ki, Azərbaycanın orta məktəblərinin 1-ci və 2-si sinif İngilis dili dərslikləri də şəkillərdən ibarət olub, özündə Greeting, School, Food, My house, Countries and nationalities, Family, Numbers, School, Colours, Clothes, Animals, Food, Body, Toys, Sports and games kimi bölmələri əhatə edir (3). Öz növbəsində bu dərsliklərin tədrisi qaydası müəllimlər üçün hazırlanmış metodik vəsaitlərdə əks olunmuşdur.

Qrammatik materiallar isə 3-cü sinif dərsliklərindən başlayaraq şagirdlərə təqdim edilməyə başlayır. 3-cü və 4-cü sinif İngilis dili dərsliklərinin Qrammatika bölməsində "Articls", "Personal pronouns", "To be", "Have got/has got", "Question sentences", "İmperatives", "This/That", "Can", "There is/There are", "Possessive", "Plural of nouns", "The Present Simple Tense", "Month", "Prepositions" kimi mövzular mövcuddur (1; 2).

Bu baxımdan qrammatik materiallarının seçilməsindən danışmazdan öncə qrammatika anlayışının mahiyyəti açıqlanmalıdır. Qrammatika dedikdə, sözlərin ünsiyyət aktında adekvat başa düşmək və düzgün istifadə etmək, yəni dilin qrammatikasını intuitiv şəkildə bilmək nəzərdə tutulur. Ümumiyyətlə, qrammatika metodikada daimi mübahisələrin obyekti olmuşdur və indi də elə qalmaqdadır. Xarici dilin tədrisində qrammatikanın yeri və rolu məsələsinin həllinə dair müxtəlif yanaşmalar mövcuddur. Belə ki, qrammatika-tərcümə metodunda qrammatika çıxış nöqtəsi və tədrisin məqsədi idi. Latın dilindən tərcümədə "sərbəst sənət" mənasını daşıyan qrammatika yüksək təhsilin komponentlərindən sayılıb, filologiyaya aid məlumatları da əlaqələndirərək xarici dilə yiyələnməyi öyrənmək məqsədini qarşıya qoyurdu. İstənilən dilin tədrisi, bir qayda olaraq, latın dilinin nümunəsi əsasında qrammatika vasitəsilə aparılırdı. Qrammatika xüsusi predmet və məqsəd kimi öyrənilirdi. İfratçı baxışın tərəfdarları isə qrammatikanı tədrisdən tamamilə çıxardırdılar.

Müasir dövrdə artıq qrammatikanın xarici dilin tədrisində yeri və rolunun qiymətləndirilməsinə daha obyektiv yanaşma müşahidə olunur. İndi qrammatika məqsəd yox, xarici

dilin tədrisinin vacib vasitələrindən biridir. Qrammatika nitqin inşaat materialı funksiyasını yerinə yetirir və dilin içərisindən keçir. O, bütün sözlərin, nitq mülahizələrinin, mətnlərin dayağını təşkil edən "skelet"dir. Qrammatika canlı dili qidalandıran qan damarları sistemidir.

Xarici dilin qrammatikasının öyrənilməsinin əhəmiyyəti bir də ondan ibarətdir ki, o, bizə öz ana dilimizin qrammatik quruluşunu daha yaxşı dərk etməyə kömək edir, məntiqi təfəkkür, müşahidə, təhlili və ümumiləşdirmə qabiliyyətini inkişaf etdirir. Yəni qrammatikanın öyrənilməsi prosesində tədrisin inkişafetdirici təhsil və tərbiyə məqsədləri həyata keçirilir.

Müasir dövrdə xarici dilin tədrisi prosesində müxtəlif metodların mövcudluğunu qəbul etməklə yanaşı, qeyd etmək lazımdır ki, tədrisin üsul, vasitə və formalarının seçimini müəyyən edən kommunikativ metod lider mövqeyindədir. Kommunikativ metod əvvəl mövcud olan heç bir metodun variantı deyil, özünün möhkəm elmi-nəzəri bazası və perspektivi ilə xarakterizə olunur, ünsiyyət vasitəsi kimi dilin ünsiyyət vasitəsi kimi psixolinqvistik qiymətləndirilməsini, xarici dildə ünsiyyətin həyata keçirilməsi üçün tədris məqsəd və şərtlərini özünə daxil edir. Xarici dillərin tədrisinə kommunikativ yanaşma – təbii şəraitə maksimal yaxınlaşmış şəkildə kommunikativ nitq vəziyyətləri əsasında ünsiyyət vasitəsilə ünsiyyətin tədrisidir. Bu yanaşma müəllim və şagirdlər arasında subyekt-subyekt münasibətləri əsasında həyata keçirilir və ikidilli şəxsiyyətlərin formalaşmasına xidmət edir.

Son illərdə dünyada xarici dillərin kommunikativ qrammatikası işlənib hazırlanır. Bu anlayış altında xarici dilli şifahi nitq ünsiyyəti şəraitində reallaşan qrammatik hadisələr (əsasən sintaktik səviyyədə) nəzərdə tutulur, onlara yiyələnməyin mütləq şərti isə xarici dildə şifahi nitq ünsiyyətində uğurlu iştirak etməkdir. Kommunikativ yanaşma çərçivəsində:

- Qrammatikanın tədrisi materialı süni nümunələr və uydurulmuş vəziyyətlər olmadan dilin ünsiyyətdə təbii istifadəsini əks etdirməlidir;
- Tədris materialında formal, semantik və funksional aspektlər aydın fərqləndirilməlidir ki, öyrənənlər müəyyən kontekstlərdə onlar arasında əlaqəni qura bilsinlər;
- Qrammatik materialı onun yeni kontekstlərdə möhkəmləndirilməsi imkanlarının olması məqsədilə əlçatan həcmdə təqdim edilməsi məqsədəuyğundur;
- Yeni materiala keçməmişdən öncə əvvəl mənimsənilmiş materialın təkrarı və əyani vəsaitlərdən, sxem və cədvəllərdən geniş istifadə edilməsi zəruridir;
- Qaydalar və onların izahı qısa, dəqiq və sadə olmalı və qrammatik materialın xüsusiyyətlərini adekvat olaraq əks etdirməlidir;
- Keçilmiş qrammatik materialların möhkəmləndirilməsi üçün müxtəlif ünsiyyət vasitələrindən, cüt və ya qrup halda işdən istifadə edilmədilir (7, s. 195).

Xarici dilin kommunikativ qrammatikasını mənimsəməyə gəlincə, o, aktiv qrammatik minimumun mənimsənilməsini təmin edən kommunikativ istiqamətli qrammatik çalışmalar kompleksinin işlənib hazırlanması və yerinə yetirilməsi üçün özünəməxsus donor olan xarici dilin kommunikativ nüvəsinə əsaslanır.

Metodikada artıq çoxdan qeyd edilirdi ki, "qrammatik çalışmalar kommunikativ əhəmiyyət daşımalıdır", "kommunikativ tapşırıqlar, birincisi, təlimatların köməyilə, ikincisi, real həyatda istifadə edilə bilən ifadələrin seçilməsi yolu ilə, üçüncüsü isə tapşırıqlara uyğun vəziyyətlərin yaradılmasının köməkliyi ilə verilir" (4, s. 293).

Xarici dilin kommunikativ qrammatikasının orta məktəbin aşağı mərhələsində oxuyanlar üçün xarakterik xüsusiyyəti isə ondan ibarətdir ki:

- Birincisi, qrammatik çalışmalar üçün əyani materialların seçiminin qaynağını hər bir sinif üçün xarici dilin kommunikativ nüvəsini yaradan dialoq vahidlərinin yaxşı mənimsənilmiş sual-cavab replikaları təşkil edir;
- İkincisi, bu və ya digər qrammatik hadisələrin mənimsənilməsinə yönələn qrammatik çalışmalar şagirdlərdə həm produktiv, həm də reseptiv qrammatik bacarıqların formalaşmasını təmin edir;

- Üçüncüsü, qrammatik çalışmalar mütləq olaraq xarici dilli şifahi nitq ünsiyyətinin modeli olan qrammatik istiqamətli kommunikativ etüdlərlə tamamlanır.

Qrammatik materialların seçilməsi linqvistik təsvirin uyğun növünün seçilməsini nəzərdə tutur, yəni demək olar ki, qrammatika nitq vərdişlərinin inkişafı üçün ən yaxşı təməli təşkil edir.

Orta məktəbdə qrammatikanın tədrisində iki əsas məqsədi göstərmək olar: birincisi, şagirdlərə əsas diqqəti məzmuna cəmləməklə öz şifahi nitq mülahizələrini qrammatik cəhətdən düzgün qurmağı öyrətmək; ikincisi, şagirdlərə oxu və dinləmə zamanı əsas diqqəti məlumatın məzmununu anlamağa yönəltməklə qrammatik hadisələri tanımağı öyrətmək. Orta məktəbdə tədrisin aşağı mərhələsində, əlbəttə ki, şagirdlər ingilis dilinin qrammatikasını tam şəkildə mənimsəyə bilməzlər. Qrammatik vərdişlərə yiyələnmək çox zaman və çalışmaq tələb etdiyindən qrammatik materialların seçilməsində müəyyən məhdudiyyətlərin qoyulması çox vacibdir.

Bu baxımdan qrammatik minimum dedikdə, müəyyən olunmuş proqram hüdudlarında və onun mənimsənilməsi üçün real şəraitdə dilin ünsiyyət vasitəsi kimi istifadə olunması üçün lazım və kifayət olan prinsiplərə uyğun olaraq, seçilmiş strukturlar dəsti nəzərdə tutulur. Xarici dilin tədrisi zamanı aktiv və passiv qrammatik minimum fərqləndirilir. Aktiv material öyrənilmiş qaydaların nitq fəaliyyətinin bütün növlərində istifadə edilməsini, passiv material isə oxu və dinləmə zamanı qrammatik qaydaların tanınmasını nəzərdə tutur. Bir qayda olaraq, aktiv qrammatik material orta məktəbin aşağı və orta mərhələlərində, passiv minimuma aid edilən daha mürəkkəb qrammatik təzahürlər isə yuxarı siniflərdə öyrədilir.

Qrammatik materialların seçilməsi zamanı mənbələr və seçim prinsipləri də nəzərə alınır. Materialların seçim mənbələrinə gəlincə, produktiv qrammatika dil daşıyıcıları tərəfindən yaradılan şifahi nitqdən və ya ədəbi-danışıq və bədii stildə olan mətnlərdəki dialoji nümunələrdən seçilir. Aktiv minimuma nitq fəaliyyətinin ekspressiv növləri üçün zəruri olan təzahürlər daxil edilir.

Orta məktəbdə tədrisin aşağı mərhələsində xarici dilin tədrisi zamanı aktiv qrammatik materialların seçilməsi prinsipləri aşağıdakılar hesab olunur:

1) Şifahi və yazılı nitqin əhatə olunması prinsipi;

2) Nümunəvilik prinsipi (material analogiyaya uyğun tərtibat üçün etalon rolunu oynamalıdır);

3) Sinonim qrammatik təzahürlərin (stilistik baxımdan neytral olan) istisna edilməsi prinsipi (6).

Bundan başqa seçilmiş qrammatik material funksional cəhətdən də təşkil olunmalıdır. Belə ki, qrammatik təzahürlər cümlələrdə və daha böyük kommunikativ vahidlərdə leksik təzahürlərə uyğun olmalıdır. Qrammatik minimuma həm ayrı-ayrı, həm də ümumi qrammatik anlayışlar daxil edilir ki, bu anlayışlar, adətən, orta məktəbin ibtidai sinifləri üçün xarici dilin tədrisi proqramlarında siyahı formasında göstərilir.

Tədqiqatçıların fikrincə, nitqin qrammatik tərəfinin tədrisinin tərkibinə, birincisi, xarici dilin maddi formaları (suffiks, prefiks və s.), ikincisi, xarici dilin cins, hal, kəmiyyət və s. kimi qrammatik kateqoriyalarla müəyyən olunmuş qrammatik formaları və bu formaların qurulması və işlədilməsi qaydaları haqqında biliklər, üçüncüsü, nitqin qrammatik tərtibatı üzrə hərəkətlər kimi elementlər daxildir (5).

Beləliklə, orta məktəbdə tədrisin aşağı mərhələsində xarici dilin tədrisində qrammatikanın öyrənilməsi zamanı kommunikativ yanaşmadan istifadə edilməsi tədrisi daha səmərəli etməyə imkan verir. Kommunikativ yanaşmadan istifadə zamanı kiçikyaşlı məktəblilər qrammatik qaydaları ünsiyyət prosesində mənimsəyir. Bu yanaşma çərçivəsində müxtəlif innovativ metodların tətbiqi ilə dərsləri əyləncəli şəkildə təşkil etməklə, onların xarici dilin tədrisinə olan maraqlarının artırılmasına nail olmaq olar.

Ədəbiyyat

1. Əliyeva N., Əliyeva R., Hüseynova G. İngilis dili. Ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələrinin 3-cü sinfi üçün dərslik. Bakı, «Təhsil», 2014, 72 səh.
2. Əliyeva N., Hüseynova G., Əliyeva R. İngilis dili. Ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələrinin 4-cü sinfi üçün dərslik. Bakı, «Təhsil», 2015, 80 səh.
3. Əliyeva R., Səmədova G., Ağayeva H. İngilis dili. Ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələrinin 2-ci sinfi üçün dərslik. Bakı, «Təhsil», 2014, 64 səh.
4. Теоретические основы методики обучения иностранным языкам в средней школе / Под ред. А.Д. Климентенко, А.А. Миролюбова. М.: Педагогика, 1981. - 456 с.
5. Crystal D. Discover Grammar. Addison Wesley Longman Education, 1996, 225 p.
6. How to Teach Grammar. Series editor: Jeremy Harmer. Pearson Educational Limited, 1999, p. 182.
7. Sekelj A., Rigo I. Teaching English grammar in primary school. Tabula 9, 2011. P.188-200.

Х.И.Гасанова

Отбор материалов во время коммуникативного обучения грамматике на начальном этапе средней школы

Резюме

В статье подчеркивается важность использования методики коммуникативной грамматики в обучении иностранным языкам на начальном этапе средней школы, в то же время определяются принципы и основные характеристики отбора учебных материалов.

В наше время существует более объективный подход к оценке места и роли грамматики в преподавании иностранных языков. Теперь грамматика является не целью, а одним из важнейших способов обучения иностранному языку.

Важно также отметить, что использование коммуникативного подхода при изучении грамматики в преподавании иностранного языка на начальном этапе средней школы позволяет преподавать более эффективно. При использовании коммуникативного подхода младшие ученики усваивают грамматические правила в процессе общения. В рамках этого подхода, используя различные инновационные методы, уроки можно сделать увлекательными, увеличивая интерес к изучению иностранных языков.

Kh.I.Hasanova

Selection of materials during communicative grammar teaching at the initial stage of secondary school

Summary

The article emphasizes the importance of using the method of communicative grammar in teaching foreign languages at the initial stage of secondary school, at the same time, the principles and basic characteristics of the selection of teaching materials are determined.

Nowadays, there is a more objective approach to assessing the place and role of grammar in the teaching of foreign languages. Now grammar is not the goal, but one of the most important ways of teaching a foreign language.

It is also important to note that the use of a communicative approach in the study of grammar in the teaching of a foreign language at the initial stage of a secondary school allows one to teach more effectively. When using a communicative approach, younger students learn the rules of grammar in the process of communication. Within this approach, using various innovative methods, lessons can be organized entertaining, increasing their interest in learning foreign languages.

Rəyçi: f.e.n., dos. A.Ə.Əsədov

Redaksiyaya daxil olub: 15.02.2018

G.MƏMMƏDHƏSƏNOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏHSİL MENECERLƏRİNİN İDARƏETMƏ MƏDƏNİYYƏTİ

Açar sözlər: *idarəetmə, mədəniyyət, təhsil meneceri, şəxsiyyət, idarəetmə mədəniyyəti*
Ключевые слова: *управление, культура, менеджер по образованию, личность, культура управления*
Key words: *management, culture, education manager, identity, management culture*

Sosial-pedaqoji həyatın cəmiyyətin, məktəbin tələbatlarının dəyişilməsi şəraitində mədəni-pedaqoji dəyərlərin təhsil menecerləri tərəfindən subyektiv mənimsənilməsi və öyrənilməsi onun şəxsiyyətinin zənginliyi, professional fəaliyyətinin istiqamətlənməsi, professional-pedaqoji özünüdərk və şəxsi pedaqoji sistem ilə təyin olunur və beləliklə, insanın daxili aləmini əks etdirir. Pedaqoji fəaliyyətin çoxobrazlı növləri mədəniyyətin funksional strukturunu yaradaraq, spesifik məsələlər növündə onun formasının nəticəsi kimi ümumi predmetliyə malikdir. Məsələlərin həlli fərdi və kollektiv imkanların həyata keçirilməsini təmin edir, pedaqoji məsələlərin həlli prosesinin özü isə mədəniyyətin mövcudluğunu xarakterizə edən yaradıcı fəaliyyətin texnologiyasını təqdim edir.

İstənilən sahənin idarəedilməsində, müəssisənin mədəniyyətinin, müəssisə rəhbərinin idarəetmə mədəniyyətinin, pedaqoji mədəniyyətinin idarəetmədə uğurlu nəticələr əldə olunmasında rolu əvəzsizdir. Düşünək ki, hər hansı, elə təhsil müəssisəsində idarəetmə mədəniyyəti formalaşmayıb, müəssisə rəhbəri idarəetmə mədəniyyətinə, pedaqoji mədəniyyətə sahib deyil, bu zaman bu müəssisədə normal iş və psixoloji mühitdən, eyni zamanda düzgün formalaşmış şəxsiyyətlərarası münasibətlərdən danışmağa belə dəyməz.

Müasir dövrdə təşkilat, müəssisə üçün vacib olan mədəniyyət idarəetmə mədəniyyətidir. İdarəetmə mədəniyyəti siyasi və iqtisadi tərəqqini, davamlı sosial inkişafı, xalqın rifahını və həyat keyfiyyətinin yüksəlməsini təmin edən strateji fəaliyyət sahəsidir (4, s.65).

İdarəetmə mədəniyyətinin mühüm komponentləri – dövlət, iqtisadi və sosial idarəetmə, insanları idarə etmək bacarığı ilə şərtlənən liderlik mədəniyyətidir. İdarəetmə mədəniyyəti konkret vəziyyətdə düzgün istiqamətləndirməyə, cəmiyyətin inkişaf perspektivini görməyə, yüksək inkişaf dinamikasını və rəqabət qabiliyyətini təmin edən mədəni innovasiyaları müdafiə və inkişaf etdirməyə imkan verir. İdarəetmənin mürəkkəbliyi həm də onunla şərtlənir ki, müxtəlif insanlar eyni bir əşyaları, təzahürləri, faktları, hadisələri fərqli anlama səviyyəsinə, öz fikirlərini müxtəlif cür ifadə etmək qabiliyyətinə malikdirlər. İnsanın psixoloji xüsusiyyətləri və qənaətləri ilə şərtlənən ətraf aləm haqqında təsəvvürləri, şəxsiyyətin şüurunda mənasını müxtəlif cür dəyişərək, ayrı-ayrı çalarlar və təfərrüatlar qazana bilər. Bu qanunauyğunluğa görə insanın idarəetmə mədəniyyəti - insan şəxsiyyətinin tərbiyəsi, xarakteri, bilikləri, qabiliyyətləri, təcrübəsi, iradəsi, əqidəsi, motivləri, dəyərləri və məqsədləri ilə şərtlənən bir çox müxtəlif hədlərə malikdir. Müvəffəqiyyət orada əldə edilir ki, idarəetmə mədəniyyəti - insanın, sosial qrupun, cəmiyyətin, dövlətin və ya beynəlxalq birliyin fəaliyyətlərinə rəhbərlik üzrə dəyişən dünya şəraitində onların inkişaf gedişini istiqamətləndirən və sosial-mədəni tərəqqini təmin edən şüurlu humanist fəlsəfəni və fəaliyyətin optimal texnologiyasını özündə sintez edir (2, s.64).

Təhsil menecerinin idarəetmə mədəniyyəti – onun peşəkarlığı və etikasının sintezidir. Bu, məqsədləri düzgün qoymaq, "zəif cəhətləri" aşkar etmək, prioritet məsələləri və onların daha effektiv həlli metodlarını təyin etmək məharətidir, bu, açıq çıxış və fərdi söhbətlər, koordinasiyanı, effektiv monitorinqi həyata keçirmək və şəxsi fəaliyyətin proqnozlaşdırılması bacarığına malik olmaqdır. Nəhayət, bu – özünütəkmilləşdirmə qabiliyyəti, meydana çıxan problemlərin həllinə yeni yanaşmaların aşkar edilməsi, innovativ fəaliyyəti inkişaf etdirmək

bacarığı və onun praktik reallaşdırılmasına yardım etmək bacarığıdır. O, xüsusi nəzəri biliklər və praktik vərdişlər, təcrübə, dürüst məlumat, faktların düzgün təhlilində intuisiyanın olmasını nəzərdə tutur. Təhsil menecerinin idarəetmə mədəniyyətinin parametrləri - iradə və qətiyyət, məsuliyyət və zamanı duymaq, pedaqoji kollektivin üzvləri ilə yaxşı münasibətlər qurmaq və onların məhsuldar işini əsaslandırmaq bacarığıdır. Cəmdə bu amillər effektiv idarəetmə üçün üstün əhəmiyyətə malikdir və düzgün pedaqoji qərarların qəbul edilməsini təmin edir. İdarəetmə mədəniyyəti rəhbərə konkret vəziyyətlərdə düzgün istiqamətlənməyə, cəmiyyətin inkişaf perspektivlərini görməyə, təhsil müəssisəsinin inkişafının və rəqabət qabiliyyətinin yüksək dinamikasını təmin edən mədəni innovasiyaları müdafiə və inkişaf etdirməyə kömək edir. Təhsil menecerinin idarəetmə mədəniyyəti təhsildə mütərəqqi sosial-mədəni dəyişikliklərin həyata keçirilməsi və problemlərin aradan qaldırılması, idarəetmənin bütün səviyyələrində harmoniyaya nail olmaq üçün elmi əsaslı təhlili yerinə yetirməyə imkan verir.

İdarəetmə mədəniyyəti müəssisənin fəaliyyətinə rəhbərlik üzrə müasir şəraitdə onların inkişafını istiqamətləndirən və sosial-mədəni tərəqqini təmin edən şüurlu humanist fəlsəfəni və fəaliyyətin optimal texnologiyasını nəzərdən keçirir. O, qarşıya qoyulmuş məqsədlərə nail olunması və idarə edilən obyektin inkişafında effektivliyin əldə edilməsi üçün lazım olan, düzgün siyasi, iqtisadi, hüquqi və ya sosial qərarların qəbul edilməsinə imkan verən dərin peşəkar bilik, bacarıq və vərdişlərin formalaşması üçün siyasi və mənəvi məsuliyyəti nəzərdə tutur (4, s.65).

Təhsil müəssisəsi rəhbərinin idarəetmə mədəniyyəti onun peşə-pedaqoji mədəniyyətinin bir hissəsidir. Son illərdə pedaqoji mədəniyyət problemləri sahəsində psixoloji-pedaqoji tədqiqatlar aparılır. Pedaqoji mədəniyyət anlamı pedaqoji dəyərlər, pedaqoji texnologiya və pedaqoji yaradıcılıq kateqoriyalarında açılır.

Təhsil menecerlərinin idarəetmə mədəniyyəti özünü müxtəlif növ idarəetmə fəaliyyətində, təhsil müəssisəsini idarəetmədə dəyərlərin və texnologiyaların mənimsənilməsində, ötürülməsində və yaradılmasında göstərir. Bu mənada idarəetmə mədəniyyətinə aksioloji, texnoloji və şəxsiyyət-yaradıcı komponentlər daxildir.

Beləliklə, idarəetmə mədəniyyəti – şəxsiyyətin rifahın yüksəldilməsi, insanın kamilləşməsi üçün münasibətlərin tənzim edilməsi və onların xüsusi elmi biliklər və yeni texnologiyaların formalaşmasına, əmək qrupları və birliklərdə müsbət mənəvi-psixoloji mühitin yaradılması üzrə rəhbər fəaliyyətinin əsasını təşkil edir.

Təhsil menecerinin idarəetmə mədəniyyətinin texnoloji komponenti idarəetmə qaydalarını və priyomlarını özündə birləşdirir. Məktəbdaxili idarəetmənin texnologiyası spesifik pedaqoji vəzifələri həll etməyi nəzərdə tutur. Bu vəzifələrin həlli pedaqoji prosesin təhlili və planlaşdırılması, təşkili, nəzarət və tənzimləmə sahəsində rəhbərin bacarıqlarına əsaslanır. Menecerin idarəetmə mədəniyyətinin səviyyəsi yuxarıda göstərilən tipdə olan vəzifələrini həll etmək priyomlarına və qaydalarına yiyələnmək səviyyəsindən asılıdır. Şəxsiyyət-yaradıcılıq komponenti məktəb direktorunun idarəetmə mədəniyyətini yaradıcı akt kimi açıb göstərir. İdarəetmənin alqoritmik olmasına baxmayaraq, təhsil menecerinin fəaliyyəti yaradıcı fəaliyyətdir. Rəhbər-menecer idarəetmə dəyərlərinə və texnologiyalarına yiyələndikcə onları yeniləşdirir, onları özü başa düşdüyü şəkildə tətbiq edir. Bu, həm rəhbərin şəxsiyyət xüsusiyyətləri, həm də idarəetmənin obyektinin xüsusiyyətləri ilə müəyyən olunur. Təhsil meneceri idarəetmə fəaliyyətində bir şəxsiyyət, rəhbər, təşkilatçı və tərbiyəçi kimi özünü realə edir.

Təhsilin idarəedilməsində elə müasir tələblərə cavab verən üsul və vasitələrdən istifadə olunmalıdır ki, təhsil prosesinin iştirakçıları sərbəst olaraq qloballaşan dünyamızda informasiya cəmiyyətinin fəal üzvü olmaq üçün texnologiyaları çevik mənimsəmiş olsunlar.

Müasir pedaqoji texnologiya tədris prosesinin ənənəvi təlimdən fərqli olaraq, yüksək səviyyədə idarə olunmasını təmin edir. Pedaqoji texnologiya təhsilin idarəedilməsində hər hansı bir texnoloji cəhətdən hazırlanmış metodlar və priyomlar sistemidir.

Təhsilin idarəedilməsində yeni pedaqoji təfəkkürə əsaslanaraq müasir dövrdə təhsilin demokratikləşdirilməsi, differensiallaşdırılması və fərdiləşdirilməsinin təmin olunmasını zəruri edir. Təhsil meneceri pedaqoji texnologiyaları tətbiq edərkən pedaqoji kollektivin tədqiqat fəaliyyətlərini stimullaşdırmalıdır.

Ədəbiyyat

1. Abdullayev A., Məmmədzadə R., Kərimova F., Cabbarov R.,Rəsulov S., Quliyev Ə. Təhsilin idarə edilmsəinin bəzi problemləri. Bakı, Müəllim, 2008, 237 s.
2. Kərimov Y.S. Təlim metodları. Bakı, 2007, 264 s.
3. Nəzərov M.H.,Şərifov T. Mədəniyyət və şəxsiyyətin mənəvi aləmi. Bakı, 2004,106 s.
4. Nəzərov M.H., Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları, (Dərs vəsaiti). Bakı, 2016, 200 s.
5. Məmmədov F. İdarəetmə mədəniyyəti. Dərs vəsaiti. Bakı, 2013
6. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Dərs vəsaiti. Bakı. Mütərcim, 2010, 476 s.
7.http://kayzen.az/blog/menecment/921/diaqnostika-v%C9%99-liderlik-qabiliyy% C9%99tinininki%C5%9Faf-etdirilm%C9%99si.html

Г.Мамедгасанова

Культура управления менеджеров по образованию

Резюме

Один из основных компонентов культуры управления на высоком уровне – управление образовательным процессом. В отличие от традиционных методов обучения, управление образовательным процессом позволяет использовать современные методы и инструменты, которые также отвечают новым требованиям. Социально-культурные изменения способствуют изменению и культуры преподавания. В статье таже анализируются пути устранения проблем в сфере образования.

G.Mammadhasanova

Management culture of education manager

Summary

One of the main components of a management culture at a high level is the management of the educational process. Unlike traditional teaching methods, the management of the educational process allows the use of modern methods and tools that also meet new requirements. Socio-cultural changes contribute to the change and culture of teaching. The article also analyzes ways of eliminating problems in the sphere of education.

Rəyçi: p.f.d., dos. M.H.Nəzərov

Redaksiyaya daxil olub: 07.02.2018

N.İ.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: nermine_m@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

TƏHSİL SİSTEMİNDƏ MÜASİR TEXNOLOGİYADAN İSTİFADƏNİN HÜQUQİ QAYNAQLARI

Açar sözlər: *məktəb, müəllim, şagird, müasir təhsil, təhsilin məzmunu, müasir texnologiya, tədris avadanlıqları, tədris resursları, hüquqi qaynaq*

Ключевые слова: *школа, учитель, ученик, современное образование, содержание образования, современные технологии, учебное оборудование, учебные ресурсы, правовой источник*

Key words: *school, social studies, teacher, student, modern education, content of education, modern technology, training equipment, training resources, legal source*

Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan tədris prosesində səmərəli istifadə məsələsi normativ hüquqi aktlara: qərarlara, proqramlara, strategiyalara əsaslanmalıdır. Əks halda, yəni müəyyən qaydalar olmadan tədris prosesində tədris avadanlıqları və resurslardan istifadənin tənzim edilməsi mümkün deyildir. Ümumtəhsil məktəblərində müəllimlərin fəaliyyətində tədris avadanlıqları və resurslardan istifadə hüquq normalarının köməyi ilə tənzim edilir.

Azərbaycan Respublikasının təhsil sistemində tədris avadanlıqları və resurslardan istifadə üzrə tənzimləyici və normativ-hüquqi qaydalar, ümumtəhsil müəssisələrində onların istifadəsini dövlətin müəyyən etdiyi standartlara və qaydalara uyğun təşkil olunmasını müəyyən edir. Respublikamızda bu istiqamətdə işi tənzimləmək üçün müstəqillik dövründən başlayaraq indiyədək, mühüm əhəmiyyətə malik müvafiq qaydalar işlənib-hazırlanmış, bir sıra qanunlar qəbul edilmiş, hüquqi normalar müəyyən olunmuşdur. Tədris avadanlıqları və resurslardan istifadənin məna və məzmununda, prinsip və metodlarında yaranan yeniliklər dövlətin qəbul etdiyi bir çox rəsmi sənədlərdə: Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil Qanunu və digər müvafiq qanunvericilik aktlarında öz əksini tapmışdır.

1992-ci il "Təhsil haqqında" qanun layihəsi bu sahədə atılan ilk addım olmuşdur (12). Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatı ağır vəziyyətdə olduğundan təhsil sahəsində islahatlar bir qədər gec, mərhələlərlə aparılmışıdr.

Azərbaycan xalqının özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirən, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri özündə əks etdirən "Azərbaycan Respublikasının Konstitusiyası"nda dövlət quruculuğunun əsasları qoyulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının Azərbaycan dövlətinin təhsilin, elmin inkişafına yardım göstərməsi "Sosial inkişaf və dövlət" adlı 16-cı maddəsinin II bəndində ehtiva olunmuşdur. "Təhsil hüququ" adlı 42-ci maddəsində "Hər bir vətəndaşın təhsil almaq hüququ"nun olması təsbit edilir (13).

1999-cu il "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" qabaqcıl beynəlxalq təcrübə əsas götürülməklə, ümumi təhsilin yeni konsepsiyasının işlənib hazırlanmasında böyük əhəmiyyətə malikdir. Sənəddə əsas məqsəd Azərbaycan Respublikasında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə xidmət edən, təhsilin bütün pillə və səviyyələrində vətəndaşlara təhsil almaqda bərabər imkanları təmin edən, ölkə təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq olmuşdur (5). İslahat Proqramına uyğun olaraq, Azərbaycan təhsil sisteminin

normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində böyük əhəmiyyətə malik işlər görülmüşdür. Mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla, müstəqil Azərbaycan Respublikasının strateji məqsədlərini həyata keçirməyə qadir olan, intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrin özünü doğrultmuş və elmi-pedaqoji ictimaiyyətin təcrübəsindən istifadə etməklə, təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtləri müəyyən edilmişdir.

2000-ci ilin iyun ayında "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında**"** verilmiş fərman təhsilin yeni istiqamətdə inkişafına və əsaslı şəkildə təkmilləşdirilməsinə, İslahat Proqramından irəli gələn məsələlərin həlli, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılmasına bir təkan olmuşdur. Fərmanın icrası ilə bağlı beynəlxalq standartlara uyğun, milli və ümumbəşəri dəyərlər, həmçinin demokratik prinsiplər əsasında ölkənin təhsil sisteminin qurulması istiqamətində silsilə tədbirlər həyata keçirilməyə başlanmışdır (6). Təhsil müəssisələrinin müasir texniki avadanlıqlarla təchizatı, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi məsələsi bu istiqamətlər içərisində xüsusi yer tuturdu.

Təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlərə baxmayaraq, ümumtəhsil məktəblərinin maddi-texniki bazası, müasir texnologiyalarla təchizatı, ixtisaslı pedaqoji kadrlarla təminatı sahəsində öz həllini gözləyən ciddi problemlər mövcud idi. Məktəblərin internet şəbəkəsinə qoşulmasında vahid koordinasiya sisteminin olmaması, uzun illərdən bəri ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları və resursları ilə təminatı üçün maliyyə vəsaitinin çatmaması və s. kimi problemləri tədricən həll etmək üçün tədbirlər görülürdü. Bu məsələlərin icrası işində "Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər**)**" nın xüsusi rolu olmuşdur. Bu dövlət sənədində təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilmiş və yaxın 10 il ərzində görüləcək işlərin ümumi xətti müəyyənləşdirilmişdir. Bu istiqamətdə atılmış addımlar ölkədə informasiya-kommunikasiya texnologiyalarının təhsildə istifadəsinin səmərəliliyinin artırılmasının və ölkədə yaradılan müxtəlif təyinatlı informasiya sistemlərinin qarşılıqlı uzlaşmasının əsasını qoymuşdur. Milli Strategiyada "Mərhələlilik-informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafını nəzərə alaraq, maliyyə imkanlarından səmərəli istifadəni təmin etmək üçün informasiyalaşdırma ilə bağlı fəaliyyətin mərhələlər üzrə həyata keçirilməsi, proqram və layihələr hazırlanarkən prioritetlər və nəticələrin qısa müddətdə əldə edilməsinin nəzərə alınması, habelə Millilik-milli informasiya resurslarının hazırlanmasına, milli proqram təminatının yaradılmasına üstünlük verilməsi, Azərbaycanda yaşayan digər xalqların informasiya resurslarının formalaşması üçün şərait yaradılması" kimi prinsiplər əsas götürülmüşdür (7). Milli Strategiya (2003-2012-ci illər) ölkəmizdə bu sahənin sürətli inkişafına güclü təkan vermişdir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, ilk beynəlxalq səfəri olan Cenevrədə keçirilən (12 dekabr, 2003-cü il) İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitindəki çıxışında "Qara qızılı insan qızılına çevirək" tezisini səsləndirmişdir. Bunula da, cənab İlham Əliyev respublikamızda müasir texnologiyanın cəmiyyətin müxtəlif sahələrində, o cümlədən təhsil sistemində tətbiqinin bir növ anonsunu vermişdir.

Respublikanın ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan müasir tələblərə uyğun istifadə olunmasını təmin etmək "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə Təminatı Proqramının (2005- 2007-ci illər) təsdiq edilməsi haqqında" sərəncamda bir vəzifə kimi qarşıya qoyulmuşdur. Təminat Proqramından irəli gələn əsas vəzifələr bunlardar: ümumtəhsil məktəblərinin müasir tipli kompüter avadanlıqları ilə təchizatı, müəllimlərin, inzibati və texniki işçilərin müasir tədris avadanlıqları və resurslardan öz fəaliyyət sahələrində istifadə etməsinin

öyrədilməsi, təhsildə müasir tədris avadanlıqları və resurslardan istifadə üzrə normativ və metodik bazanın inkişafı, tədris prosesində Azərbaycan dilində istifadə edilən müasir elektron resursların (dərsliklərin, kitabxanaların), rəqəmli tədris resurslarının işlənilib hazırlanması, yayılması və tətbiqi, təhsil sisteminin informasiya infrastrukturunun (elmi-metodik, elmi-tədqiqat, ixtisasartırmanın bütün səviyyələrdəki resurs və informasiya sistemləri daxil olmaqla) yaradılması, müasir tədris avadanlıqları və resurslardan istifadənin metodologiyasının hazırlanması, elmi-metodiki, şagirdlər üçün təhsil portalının və saytlarının yaradılması, milli tədris və elmi-metodik nəşrlərdə müasir tədris avadanlıqları və resursları sahəsi üzrə terminologiyanın hazırlanması və elmi dövriyyəyə daxil edilməsi və s. (8).

2004-cü ilin yayından sistemli olaraq, respublikamızın ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları və resursları (İKT) ilə təminatı prosesində ilkin addımlar atılmağa başlanmışdır. Bu özünü, ümumtəhsil məktəbləri üçün fənn proqramlarına uyğun olaraq Təhsil Nazirliyinin birbaşa sifarişi əsasında bir sıra fənlər üzrə elektron tədris vəsaitlər («Azərbaycan tarixi»: qədim və orta əsrlər dövrü; «Kimya»: qeyri-üzvi kimya; «Biologiya»: Botanika və Zoologiya: Fizika»: mexanika və molekulyar fizika fənləri üzrə), multimedia sisteminə dair disklər, metodik vəsaitlər və plakatların hazırlanmasında göstərmişdir (4).

"Təhsildə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi üzrə (istifadə üzrə) Konsepsiya layihəsi"ndə Azərbaycanda ümumtəhsil sisteminin müasir tədris avadanlıqları və resursları ilə təchizatı təqribən üç mərhələyə bölünür. 2008-2010-cu illəri əhatə edən birinci mərhələnin əsas məsələləri bunlardır: bütün müəllim və rəhbər heyətin tam kompüter savadlılığının təmin edilməsi, müasir tədris avadanlıqları və resursları sahəsində təhsil standartları və tədris proqramlarının hazırlanması və təkmilləşdirilməsi, təhsil sisteminin müasir tədris avadanlıqları üzrə normativ bazasının yaradılması və inkişafı, elektron tədris resurslarının (elektron tədris vəsaitləri, elektron kitabxanalar və s.) yaradılması və inkişafı, mövcud olan müasir tədris avadanlıqları və resurslarının qeydiyyatı, aprobasiyası və təkmilləşdirilməsi.

Müasir tədris avadanlıqları və resursları üzrə infrastukturun formalaşdırılmasını özündə ehtiva edən 2010-2012-ci illəri əhatə edən ikinci mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuş vəzifələr bunlardır: ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları və təhsil resurslardan istifadə mühitinin təkmilləşdirilməsi, bütün təhsil pillələrində sürətli internet qoşulmalarının gerçəkləşdirilməsi, milli internet resurslarının tədris prosesində istifadəsinin təkmilləşdirilməsi, təhsil sistemində avtomatlaşdırılmış idarəetmə infrastrukturunun formalaşdırılması, elektron sənəd dövriyyəsi sisteminin yaradılması, bütün fənlər üzrə müasir tədris avadanlıqları və resusrlarının tətbiqinə əsaslanan, sınaqdan keçirilmiş elmi-metodik sistemin işlənməsi və tətbiqi.

2012-2014 -cü illəri əhatə edən üçüncü mərhələdə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur: təhsil sisteminin bütün subyektləri arasında internet şəbəkəsinin tam formalaşdırılması, təhsilin vahid informasiya sisteminin yaradılması, tədris resursları və sistemlərinin inkişaf mexanizmləri, müasir tədris resurslarının dayanıqlı inkişafını təmin edən təşkilat infrastrukturunun inkişafı, mövcud olan müasir tədris resurslarının inkişaf proqramlarının təhlili və sonrakı fəaliyyətin tənzimlənməsi, gənc nəslin müasir tədris avadanlıqlarından (informasiya və kommunikasiya texnologiyalarından) istifadə vərdişlərinə yiyələnməsi və s. (9).

2008-2012-ci illər üçün "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi müasir tədris avadanlıqlarının təhsil sistemində geniş miqyaslı tətbiq edilməsində həlledici mərhələnin əsasını qoymuşdur.

Milli Strategiya əsasında hazırlanmış bu sənəd təhsil müəssisələrinin ilk növbədə kompüter avadanlığı ilə təminatının köklü şəkildə yaxşılaşdırılması, müasir tədris (İKT) avadanlıqlarından daha səmərəli istifadə olunması, bunlara texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi, təhsil ocaqlarının ölkədaxili intrenet şəbəkəsi ilə yetərli səviyyədə əhatə olunması və yüksək sürətli internet əlaqəsi ilə təmin edilməsi, bu sahə üzrə elmi-metodik

bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması və s. kimi məsələləri özündə ehtiva etmişdir (14).

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı ümumtəhsil müəssisələrində 2009-cu ildən "Elektron məktəb" pilot layihəsinin reallaşdırılmasına başlanmışdır. Bu pilot layihəsi müasir tədris avadanlıqları və resursların ümumtəhsil məktəblərində geniş istifadəsini nəzərədə tutur. Layihədə "Elektron məktəb" sisteminə qoşulan pilot təhsil müəssisələrində vahid informasiya mühitinin yaradılması və fəaliyyət göstərməsi üçün zəruri olan müasir tədris avadanlıqları (noutbuk, proyektor, ağıllı (smart) lövhə və s.), onların proqram təminatı ilə təchiz olunması, yüksək sürətli fiberoptik internet və intrenet bağlantılarının təmin edilməsi, bu məktəblərdə çalışan kadrların (pedaqoji, inzibati, texniki və s.) İKT sahəsində bilik və bacarıqlarının artırılması üçün tədbirlərin görülməsi, əlavə kursların təşkil olunmasının təmin edilməsi nəzərdə tutulmuşdur.

"Elektron məktəb" layihəsinin əsas məqsədi seçilmiş təhsil müəssisələrində müasir tədris avadanlıqları və resurslarını müasir tələblərə uyğun tətbiq edərək, tədrisin yüksək səviyyədə təşkilini və təhsilin idarə olunmasını təmin etməkdir. Elektron məktəb" layihəsini tətbiq etmək üçün ilk dövrdə 20 pilot məktəbi seçilsə də, sonralar bu məktəblərin sayı artırılmışdır. Beləki, 2012-ci ildə 39, 2015-ci ildə isə 43 məktəb bu layihəyə daxil edilmişdir. Hazırda layihədə Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Şamaxı, İsmayıllı, Şirvan, Quba və Ağdaşın məktəbləri iştirak edirlər (4**).** Onu da qeyd edək ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında "Elektron məktəb"lərin sayının 1000-ə çatdırılacağı nəzərdə tutulmuşdur (1).

"Elektron məktəb" pilot layihəsi çərçivəsində tədris müəssisələrində tətbiq olunan texnologiyalar Azərbaycanda müasir tədris avadanlıqlarına və resurslarına əsaslanan milli təhsil modelinin formalaşdırılmasına xidmət edir. Bu pilot layihə çərçivəsində əldə edilmiş nəticələrin Azərbaycanın bütün məktəblərdə "Elektron məktəb" konsepsiyası çərçivəsində tətbiqi əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının yaradılması, ölkənin təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunması üşün şəraitin yaradılması ilə bərabər təlim və tədrisdə fürsət bərabərliyini də təmin edəcəkdir.

2009-cu ildə təsdiq olunmuş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu təhsilin bütün pillələri üzrə, müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Təhsil sahəsində çatışmazlıqların aradan qaldırılmasına hüquqi təminat verən bu qanunda "Təhsil hüququna dövlət təminatı", "Təhsilin keyfiyyət səviyyəsi", "Təhsilin məzmununa və təşkilinə verilən tələblər" və s. məsələlər tamamilə yenidir və qabaqcıl beynəlxalq təcrübəyə əsaslanır. "Təhsil hüququna dövlət təminatı" maddəsində digər məlum məsələlərlə yanaşı, təhsildə innovasiyaların tətbiqinə təminat verilməsinin təsbit olunması xüsusi əhəmiyyət kəsb edir. "Təhsilin keyfiyyət səviyyəsi" maddəsi xüsusi maraq doğurur. Bu maddəni təşkil edən bəndlərin mahiyyəti və məzmunu məntiqi baxımdan inkişafyönümlülüklə birbaşa bağlıdır. Belə ki, həmin maddəyə görə təhsilin keyfiyyəti ölkədə mövcud olan təhsil proqramları, maddi-texniki baza, infrastruktur, müasir tədris avadanlıqları və resursları, kadr hazırlığının keyfiyyəti, məzunların rəqabət qabiliyyəti, sosial-iqtisadi inkişafda tutduğu mövqe ilə müəyyən edilərsə, demək, ümumdünya məkanında geridə qalmamaq üçün təhsil sahəsində keyfiyyət göstəriciləri sisteminə daxil olan bütün parametrlərin inkişafı daim nəzarətdə saxlanmalı, bu göstəriciləri real indikatorlar kimi qəbul olunmalıdır (15**).**

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında strateji baxış və əsas prioritetlər içərisində müasir təhsil sisteminin formalaşdırılması (7.2.) əsas istiqamətlərdən birini təşkil edir (1).

Konsepsiya çərçivəsində 12 illik ümumi təhsil sisteminə keçidin təmin edilməsi, bununla əlaqədar təhsil proqramları, dərsliklər, eləcə də tədris avadanlıqları və resurslarının müasir tələblər baxımından yeniləşdirilməsi, şagirdlərin idrak fəallığını, ümumi inkişafını

ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlərin görülməsi önə çəkilir.

2013-2020-ci illərdə Azərbaycan Respublikasında təhsil sistemininin formalaşdırılmasına dair qəbul ediləcək Dövlət Proqramında:

-Azərbaycanın bütün təhsil müəssisələrinin (o cümlədən ucqar bölgələrdə yerləşən məktəblərin) internet əlaqəsi ilə təmin olunması;

-hər bir təhsil müəssisəsinin lazımi texniki avadanlıqla təchiz edilməsi və bütün təhsil müəssisələrinin vahid təhsil şəbəkəsinə qoşulmasının reallaşdırılması;

-ümumtəhsil məktəblərinin hər bir sinif otağının noutbuk, proyektor və elektron lövhə ilə, təhsil alan bütün şagirdlər "1 şagird 1 kompüter layihəsi" çərçivəsində netbuk və ya planşetlərlə təmin edilməsi;

-müəllim və şagirdlər üçün virtual öyrənmə mühitinin formalaşdırılması, bu məqsədlə bütün fənlər üzrə elektron tədris və metodik resursların yaradılmasının davam etdirilməsi;

-elektron resursların etibarlı saxlanılması və onlara asan çıxışın təmin olunması üçün "bulud" texnologiyalarının tətbiq olunması;

-ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resurslarının yaradılması, bu resursların müəllif-hüquq lisenziyaları ilə təmin olunması;

-"Elektron məktəb"lərin sayının 1000-ə çatdırılması;

-rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi;

-kitabxana fəaliyyətinin modernləşdirilməsi və elektron kitabxanaların sayının artırılması;

-təhsil sisteminin səmərəliliyində, onun nailiyyətlərinin formalaşmasında müəllim amilinin həlledici əhəmiyyəti nəzərə alınmaqla, müəllim hazırlığının gücləndirilməsinə xüsusi önəm verilməsi;

-bütün ümumi təhsil müəllimləri üçün fəal (interaktiv) təlim texnologiyaları və inklüziv təhsil üzrə məqsədli ixtisasartırmanın təmin edilməsi;

-hər bir müəllimin İKT bacarıqlarına yiyələnməsi üçün çevik sistemin yaradılması nəzərdə tutulur (1).

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ümumtəhsil müəssisələrində müasir tədris avadanlıqları və resursların infrastrukturunun və əsaslı təlim metodologiyasının yaradılması üzrə dövlət siyasətinin əsas prinsipləri ifadə olunmuşdur. Azərbaycanın təhsil tarixində əhəmiyyətli yer tutan Dövlət Strategiyasında göstərilir ki, strategiyanın məqsədi yeni texnologiyalara əsaslanan infrastukrtura malik, keyfiyyət nəticələri və əhatəliliyə görə dünya ölkələri arasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Sənəddə qeyd olunur ki, Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi (2.1.1), yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyaları (İKT) əsaslı təlim metodologiyalarına uyğun metodik vəsaitlərin, didaktik materialların və təlim vasitələrinin hazırlanmasını stimullaşdıran yeni mexanizmlərin yaradılması (2.2.1), təhsil müəssisələrində İKT əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklər yüklənmiş kompüter-planşetlə təmin olunması (4.1), habelə müasir, İKT-yə əsaslanan təhsil infrastrukturunun, o cümlədən elektron təhsilin yaradılmasına əlavə vəsaitin ayrılması (5.1.2) Dövlət Strategiyasında bir vəzifə kimi irəli sürülmüşdür (2).

2015-ci ildə təsdiq olunmuş "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi üzrə Fəaliyyət Plan"ında 12 illik təhsilə keçidlə bağlı təhsilin bütün sahələri, o cümlədən müasir tədris avadanlıqları və resursları ilə əlaqədar dövlət siyasətinin əsas prinsipləri və fəaliyyət istiqamətləri müəyyən edilmişdir. "Fəaliyyət Plan"ında 2015-

ci ildən başlayaraq bütün təhsil pillələri üçün innovativ təlim metodologiyası və müvafiq resursların yaradılması müsabiqə mexanizminin hazırlanması və müsabiqələrin keçirilməsi (2.1.1), 2016-cı ildən başalayaraq yeni kurikulumlara və İKT-yə əsaslanan metodik vəsaitlərin, didaktik materialların, təlim vasitələrinin hazırlanmasını stimullaşdıran müsabiqə və qrant mexanizmlərinin yaradılması və tətbiqi (2.2.1), təhsil proqramları, tədris resursları, təlim metodikaları, təhsilverənlər, təhsil müəssisələri arasında sağlam rəqabətin stimullaşdırılması, rəqabət elementlərinin müəyyənləşdirilməsi və tətbiq edilməsi (3.3.12), 2015-2020-ci illər üçün təhsil müəssisələrində İKT əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklər yüklənmiş kompüter-planşetlə təmin olunması (4.1), 2015-ci ildən başlayaraq təhsilverənlər, təhsilalanlar və valideynlər üçün maarifləndirmə xarakterli portalların yaradılması, onlayn təlimlər, elektron dərsliklər, video resurslar, internet əsaslı intellektual oyunların hazırlanması (4.8.2), habelə təhsilin inkişaf istiqamətlərinin düzgün başa düşülməsi üçün media işçilərinin bilik və bacarıqlarının inkişafına yönəlmiş təlimlərin təşkili, təhsil sahəsində çap, onlayn, audio və video materialların hazırlanması üzrə müsabiqələrin təşkili (4.8.3) və digər bu kimi məsələlər prioritet hesab olunmuşdur (10). "Fəaliyyət Planı" hazırda təhsil sahəsi üzrə yol xəritəsi hesab olunur.

Bu prosesin məntiqi davamı kimi 2014-2020-ci illər üçün müasir tədris avadanlıqları və resusları sahəsində dövlət siyasəti müəyyənləşdirildi. **"**Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında**"** sənəddə müvafiq sahəyə uyğun ehtiva olunan məsələlər bunlardır: təhsilli gənc nəslin yetişdirilməsi, onların müasir texnologiyaların fəal istifadəçiləri, yaradıcıları kimi formalaşdırılması, müasir tədris avadanlıqları və resursların təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, rəqəmli təhsil informasiya ehtiyatlarının yaradılması, müəllimlərin kompüter biliklərinin artırılması, təhsilin resurs mərkəzini və təhsil prosesini dəstəkləyən elektron tədris resurslarının inkişaf etdirilməsi, təhsildə müasir tədris avadanlıqları və resurslarının səmərəli istifadəsinin təşkili, onlardan istifadə üzrə bilik və bacarıqların öyrədilməsi və s. (11). Bu proqramın reallaşması istiqamətində hazırda məqsədyünlü iş aparılır. Müasir tədris avadanlıqları və resurslarının (İKT) təhsil sistemində geniş istifadəsi ilə bağlı qəbul olunmuş proqramların bir qismi həyata keçirilmiş, bir qismi də reallaşmaq üzrədir.

Bu gün ölkəmizdə təhsilin normativ-hüquqi bazası xeyli təkmilləşdirilmiş, maddi-texniki təminat, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı mühüm əhəmiyyət kəsb edən geniş tədbirlər həyata keçirilmişdir. Lakin etiraf etməliyik ki, müasir dövrdə Azərbaycan təhsilinin modernləşdirilməsinə xidmət edən problemlərə xüsusi diqqət yetirilməsi vacibdir.

Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il Sərəncamı. "Xalq qəz.", 2013, 25 dekabr.

2. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. // Azərbaycan müəllimi, 2013, 25 oktyabr.

3. "Elektron məktəb" layihəsinin tətbiq olunması haqqında". Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 oktyabr 2009-cu il tarixli 1108 nömrəli əmri. http:// www.edu.gov.az.ist.tarixi 13 oktyabr 2014.

4. Azərbaycan Respublikası Təhsi Nazirliyi, 2016-illik hesabat. Bakı, Expert Print, 2016, 96 səh. http:// www.edu.gov.az/upload/file/HESABAT/2016/TN-hesabat-2016.pdf. onlayn versiya.

5. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı. Bakı, Çaşıoğlu, 1999, 56 səh. http: www.//e-qanun.az.

6. Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı. http:// www.e-qanun.az.

7. Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər). Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli Sərəncamı. http: www.// e-qanun.az.

8. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə Təminatı Proqramı" (2005-2007-ci illər). Azərbaycan Respublikası Prezidentinin 21 avqust 2004-cü il tarixli Sərəncamı. Azərbaycan, 22 avqust 2004-cü il.

9. Təhsildə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi üzrə (istifadə üzrə) konsepsiya. Təhsil sisteminin informasiyalaşdırılması üzrə konsepsiya. Layihə. http://e-qanun.az. http://oldşcit.az./tehsil_ikt_konsep_1v.htm.

10. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə "Dövlət Strtegiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı". Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2015-ci il tarixli Sərəncamı. http:// www.e-qanun.az.

11. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında". Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2014-cü il tarixli Sərəncamı. http:/ www.e-qanun.az. http://president.az/articles/11312.

12. "Təhsil haqqında"Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. http://www. e-qanun. az.

13. Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanun).

http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf, http:// www.e-qanun.gov.az/framework/897.

14. Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" (2008-2012-ci illər üçün). Azərbaycan Respublikasının Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı. http:// www.edu.gov.az/az/page/83/599.

15. "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il qanunu. 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanun. Kurikulum jurnalı, №4, 2009. http://mdu.edu.az/index.php/q-rar-v-s-r-ncamlar/29-t%C9%99hsil-haqqinda-qanun.

Н.И.Мамедова

Правовые ресурсы современных технологий в системе образования

Резюме

В настоящее время использование современных технологий в учебном процессе является проблемой. В статье обосновывается важность правовых ресурсов для использования учебных ресурсов и дается четкое представление о том, как правильно использовать учебный процесс, и его ключевые проблемы выводятся на первый план.

Сегодня особенно важно выделить основные моменты в этом направлении в педагогическом процессе.

N.I.Mammadova

Legal resources of modern technology in the education system

Summary

At the moment the use of modern technologies in the teaching process is a problem. The article substantiates the importance of legal resources for the use of teaching resources, and provides a clear idea of how to properly use the teaching process, and its key issues are brought to the focus.

It is especially important today to highlight the main points in this direction in the pedagogical process.

Rəyçi: ped.e.d. İ.H.Cəbrayılov

Redaksiyaya daxil olub: 07.03.2018

Ş.Ə.MUSTAFAZADƏ

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TARİX DƏRSLƏRİNDƏ ROLLU OYUNLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *dərs, məktəb, rollu oyun, metod, təfəkkür, obraz, şagird, tarix*
Ключевые слова: *урок, школа, ролевая игра, метод, мышление, образ, студент, история*
Key words: *lesson, school, role play, method, thinking, image, student, history*

İnnovasiyon interaktiv metodikanın pedaqoji formalarına rollu oyunlar, birgə qrup işi, modelləşdirmə, diskussiyalar, fərdi və qrup layihələri daxildir. Mövzunun aktuallığı baxımından qeyd etmək istərdim ki, bu cür metodlar məktəblilərdə nəinki tarixə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir.

Oyunlar bütün insanların həyatından keçir. "Uşaqlar üçün oyun – dünyanı və orada öz yerini dərk etmək üsuludur, çünki, o, uşağın şəxsiyyətinin inkişafı üçün lazımdır. Ancaq yayılmış fikir var ki, böyüdükcə uşaqlarda oyuna ehtiyac azalır, yox olur – bu səhvdir. Böyüklərin əksəriyyətini oynadığı, bu cür oyunlara teatr, kino, siyasət və bir çox şeylər aiddir". (5, s. 27).

"Rollu oyun" termini olduqca çoxmənalıdır. Bu işdə biz rollu oyuna: "yaradılmış oyun dünyası prosesinə sərbəst şəxsiyyət kimi oyunçunun qatılması" kimi baxırıq. Bu məsələni daha ətraflı araşdıraq.

Rollu oyunların təsnifatı müxtəlif əlamətlər üzrə verilir. Onlar yaradılma üsulundan, keçirilmə yerindən, çətinlik səviyyələri, zaman və ya məqsədlərinə görə siniflərə bölünürlər.

Ümumiyyətlə, bütün oyunlar iştirakçılara öz təsiri baxımından üç əsas məsələni həll edir. Lakin: "... oyunları üç növə ayıraraq: tərbiyəvi, maarifləndirici və əyləncə oyunları, onların arasında dəqiq sərhədi keçirmək mümkün deyil. Hər oyun iştirakçılara nəyisə öyrədir, onlarda müəyyən keyfiyyətlər tərbiyə edir" (7, s. 27). Şərti olaraq oyunları əyləncəli (burada iştirakçılar əsasən, qeyri-ənənəvi üsulla istirahət etmək məqsədi ilə toplanırlar) və maarifləndirici (burada təşkilatçılar oyunçulara müəyyən bilik və bacarıqları çatdırmağı öz qarşılarına məqsəd qoyurlar) oyunlara bölmək olar. Bu halda: "təlimin oyun üsulu ən məhsuldar olur, çünki tarixi, siyasi, etnoqrafik və texniki modelləri yaratmağa imkanı verir, amma oyun məsələlərinin həlli oyunda irəliləyişin üsuludur və həm oyunçular, həm də təşkilatçılar üçün hədəfin nailiyyətidir" (6, s. 18).

Rollu oyun şagirdlər tərəfindən oynanılan, əsasən improvizə olunmuş kiçik səhnəcik və ya pyesdir. Onun məqsədi keçmişdə olmuş şərait və hadisələrin şagirdlər tərəfindən canlandırılmasıdır. Rollu oyunlar vəziyyətin dərk olunmasını yüksəldə və bu vəziyyətə düçar olanların halına acımaq hissi aşılaya bilər.

Şagirdlərlə birgə: rollu oyunun əks etdirdiyi problemi təyin edin; neçə nəfər iştirakçı olacağını, neçəsinin seyrçi mövqe tutacağını aydınlaşdırın; rollu oyunun kiçik qruplar daxilində və ya bütün sinifdə keçiriləcəyini müəyyənləşdirin, həmçinin rollu oyunun hansı formada təşkilini aydınlaşdırın. Utancaq şagirdləri oyunda iştiraka cəlb edin.

Rollu oyun aşağıdakı formalarda keçirilə bilər:

1. Hekayə kimi (nəql edən vəziyyəti təsvir edir, qalan şagirdlər "öz" qəhrəmanları adından sonra nə baş verdiyindən bəhs edirlər).
2. Səhnəcik kimi (iştirakçılar hadisələrin gedişində dialoq quraraq qarşılıqlı fəaliyyət göstərirlər).

Şagirdlərə vəziyyəti aydınlaşdırmaq və rollarını müəyyən etmək üçün iki-üç dəqiqə vaxt verin.

Sonra şagirdlər rollu oyunu ifa edirlər.

Rollu oyun bitdikdən sonra onun adi çalışma yox, idrakı təcrübə kimi qəbul olunması üçün nə baş verdiyi haqda şagirdlərin dərindən düşünmələri vacibdir.

Yadda saxlamaq lazımdır ki, rollu oyunlar tarixi və ya müasir həyatı əks etdirdiyindən, onlar həlli sadə olmayan müzakirə obyekti ola bilər (məsələn, səhnəcikdə iştirakçının, yaxud onun səhnəcikdə ifa etdiyi qəhrəman düzgün və ya qeyri-düzgün davranışı haqda). Hər bir sualın yalnız bir mümkün cavabı olması haqda şagirdlərdə fikir yaratmaq olmaz. Müəllim və şagirdlərin müxtəlif nöqteyi-nəzərlərinin mövcudluğunun təbii hal kimi, normal qəbul edilməsi olduqca öz fikirlərini zorla göstərməməlidir. Buna baxmayaraq, siz həmrəyliyə gətirən fikirləri ümumiləşdirə, rəy müxtəlifliyi yaradan fikirləri isə müzakirə üçün "açıq" saxlaya bilərsiniz.

Təlim prosesində rollu oyunların əhəmiyyəti danılmazdır. Rollu oyunlar şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir, onların iştirak hissini gücləndirir. Bu üsulla işlədikdə şagirdlər elə bil ki, hadisələrin canlı iştirakçılarına çevrilirlər. Rollu oyunun keçirilməsi zamanı sinfin əksər hissəsi dərs prosesinə qoşulur.

Eyni zamanda lazımi səviyyədə hazırlanmış rollu oyunun sayəsində şagirdlər digərlərinin düçüncə tərzini yaxşı anlamağa başlayır. Bu metodika şagirdlərdə qrupda işləmək bacarığını inkişaf etdirir.

Bu oyunlar dərsin yeknəsəkliyini aradan qaldırır və keçilən mövzuya maraq oyadır. Rollu oyunların keçirilməsi üsulları müxtəlifdir. Adətən müəllim sinifi qruplara bölür və bu qrupların arasında rolları bölüşdürür. Ancaq bizə elə gəlir ki, ilk növbədə rollu oyunların məqsədini müəyyənləşdirmək lazımdır. Fikirimizcə, yaxşı olardı ki, rollu oyunların keçirilməsində sinifdə olan bütün şagirdlər iştirak etsinlər. Şagirdlərin fəaliyyəti, onların oyuna nə dərəcədə cəlb olunmasından asılıdır. Şagirdlərin hamısının cəlb olunması üçün müəllimin istiqamətləndirici fəaliyyəti böyük rol oynayır. Rollu oyunlar hökmən şagirdlərə ünvanlanmış müvafiq suallarla nəticələnməlidir: bu suallar rollu oyunların məqsədlərinə xidmət etməlidir. (4, s.63)

Şagirdlərdə tarixi təfəkkürü inkişaf etdirən və onlarda zehni fəaliyyəti formalaşdıran tapşırıqlar təlimin metodları, üsullar və vasitələri ilə uyğunluq təşkil edir.

Tarixin tədrisində təşkilat formalarının və metodlarının sistemində xüsusi yeri təlim oyunları tutur. Bəzi psixoloq və müəllimlər (Y.Azarov, D.Elkonin, R.Xəlilov, D.Musayev, M.Əmirov, T.İsgəndərov, R.Məlikov və s.) qeyd edir ki, dəsrlərdə oyunların tətbiq edilməsi şagirdlərdə qeyri-rəsmi vəziyyət yaradır, informativ marağın inkişafına səbəb olur, dərin və güclü biliyi formalaşdırır, şagirdlərin intellektual və emosional sahəsini inkişaf etdirir. Oyun ərzində, onların qarşısında təlim məqsədi oyun formasında meydana çıxır. Burada aşağıdakı məsələlər yerinə yetirilir:

- rollu oyunlarda şagirdlər qruplara bölünür: rolu oynayanlar və sonra analiz prosesində iştirak edən müşahidəçilər qrupuna. Oyunda hamının iştirakı vacib şərtdir, çünki əsas təlim elementi kimi qarşılıqlı təsir çıxış edir.
- rollu oyunda iştirakçılara həll ediləsi olan problem və ya situasiya verilir.

Psixoloqlar hesab edir ki, rollu oyun özünü başqasının yerinə qoymaqla, onu dərk edib, onun dərdinə şərik olaraq, insanın empatik rolu əsasında mümkündür (2, s. 42). Lakin bu bacarıq digərləri kimi öz inkişafını tələb edir.

Rollu oyunların səmərəliliyi yalnız tarixi biliklərin təşkil edilmiş səviyyəsindən deyil, ümumi və spesifik bacarıqlar, həm də şagirdlərin, müəyyən psixoloji hazırlığından da asılıdır.

Oyunu keçirməzdən əvvəl hazırlığın kursunu müəyyən etmək lazımdır:

1. Şagirdlərin dərsdə əldə olunmuş biliklərin istifadə etmə imkanlarını qiymətləndirmək;
2. Tarixi vəziyyəti analizetmə metodlarını öyrənmək üçün şərtlərin müəyyən olunması;
3. Öyrənilən mövzunun aktual problemlərini göstərmək və təhlil etmək;

4. Şagirdlərə seçdikləri mövqeni qiymətləndirmək imkanını yaratmaq;
5. Öz mövqeyini formalaşmaq üçün şərait yaratmaq.

Rollu oyunları tətbiq edərək dərslərin keçirilməsi mühüm rol oynayır, çünki rollu oyunlar:

1. Təxəyyülün və tənqidi bacarıq vərdişlərinin inkişafına imkan yaradır;
2. Öz münasibətini və fikrini ifadə etməyə kömək edir;
3. Ünsiyyətli bacarıqların inkişafına səbəb olur;
4. Başqa insanın davranış xəttini təcrübədə yoxlamağa imkan verir;
5. Problemləri həll etmək bacarığının təcrübədə tətbiqinə yol verir;
6. Dəyərlərin formalaşmasına və s. kömək edir.

Unutmaq lazım deyil ki, oyunun əsas hissəsi oyuna yekun vurulmasıdır. Mümkün suallar:

1. Problem həll edildimi? Bu necə həll olundu?
2. Hansı başqa xətti seçmək olardı?
3. Siz bu tərəfin davranışını necə səciyyələndirə bilərsiniz?
4. Tərəfin hərəkətlərində ən müvəffəqiyyətlisi nə idi?
5. Bu tərəf hansı səhvləri buraxmışdı?

Müəllim tərəfindən oyunların xüsusi qurulması onun səmərəliliyini artırır və şagirdləri orada iştirak etməyə sövq edir. Oyun vəziyyəti oyunun maraqlılığından, onun məzmununa maraq, qaydalara hamının, həmçinin müəllimin tabe edilməsi, yekunlaşdırma və səmərəliliyin qiymətləndirməsi s. kimi faktlardan formalaşır.

Oyunun keçirməsinin əsas məqsədi — öyrənilən mövzunun problemləri haqqında şagirdlərin düşüncəsi üçün şərait yaratmaqdır. Oyun şagirdlərin dərsin problemlərinə öz münasibətinin formalaşmasının, problemlərinin anlamasının intensiv işi üçün xüsusi olaraq layihələşdirilmiş tədris meydançasıdır.

Oyunun nəticələri: oyun şagirdlərin hazırlıq səviyyəsini, onların nəzəri hazırlığını qiymətləndirməyə imkan verir və eyni zamanda onları düşünməyə və problemli vəziyyətlərdən həllində yol axtarmağa vadar edir;

- oyun göstərir ki, dərsə diqqətsiz olan şagirdlər oyunda iştirak etdikdən sonra "bitərəfliklərini" tənqidi qiymətləndirə bildi. Əksər şagirdlər dərs prosesində öz aktiv iştirakının vacibliyini dərk etdilər;
- oyun şagirdləri tədris prosesinin aktiv iştirakçısı edərək tarixi vəziyyətin analizinin mümkün metodlarını onlara açır;
- şagirdlər müxtəlif təsvirlər ilə əlaqəli olmağı və dözümlü yerləşdirməyi öyrənir;
- şagirdlər müxtəlif baxışlara və mövqelərə dözümlü olmağı öyrənirlər.

Təlimin interaktiv metodları tədris prosesini intensivləşdirə, müstəqil və yaradıcı düşüncənin formalaşması üzrə şagirdlərin təfəkkür fəaliyyətinin fəallaşdınlması üzrə məsələləri həll etməyə kömək edə bilər. Təlim zamanı təfəkkür məsələləri dərsin konkret məzmunundan asılı olaraq müxtəlif formaları qəbul edir.

Aparılmış tədqiqatların nəticələri göstərdi ki , tarix dərslərini rollu oyun metodu ilə tədris edilməsinin əhəmiyyətini aşağıdakı kimi səciyyələndirmək olar:

1.Müəllim şablon və formalizmdən uzaqlaşaraq sinfin müstəqil işini təşkil edir, bacarıq və vərdişlərin formalaşmasına yardım göstərir.

2. Fikir və mülahizələr nəinki formalaşır, hətta şagirdlərin qarşılıqlı əməkdaşlığı içərisində yaxşı möhkəmləndirilir. Danışıq prosesində fikirlərin dürüst ifadə edilməsi onların formalaşmasının əsas şərtidir.

3. Şagirdlərin idrak fəaliyyətini öyrənilən tarixi hadisələrin təhlilinə yönəldərək, onlara nəticə çıxarmağı, tarixi hadisələrin qarşılıqlı asılılığını, səbəb-nəticə əlaqəsini açmağa imkan verir.

4. Şagirdlər öz düşüncələrini və gəldikləri nəticəni formalaşdırıb fəal ifadə edirlər.

5. Hadisələrin əsl mahiyyətinin açılması, təlimin öyrədici gücünü artırır, məntiqi əməliyyatlar aparmaqla yaradıcı təfəkkür formalaşır.

6. Şagirdlər qarşısında öyrədilən tarixi materialın analizini və tərkibini tələb edən idrak məsələləri qoyulur. Bu məsələlərlə müəllimlər şagirdlərin idrak fəaliyyətini istiqamətləndirir, öyrənilən faktların qavranılmasına, əsas və ən əhəmiyyətli məsələləri mənimsəməyə kömək edirlər.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006, 136 s.
2. Bünyatova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000, 87 s.
3. Cəbrayılov İ.H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, Mütərcim, 2006, 234 s.
4. İnnovasion dərs modelləri (Müəllimlər üçün metodik vəsait). Bakı, 2002, 233 s.
5. Алексеева Н. М. Игры на уроках истории // Преподавание истории в школе. 1994. № 4, С. 26-32
6. Борзова Л. П. Игры на уроках истории. М.: Владос-пресс, 2001, 125 с.
7. Озерков И. А. Ролевые игры как технологии самовоспитания // Школьные технологии. 2000. X 1, с. 25-32.

Ш.А.Мустафазаде

Важность использования ролевых игр в уроках истории

Резюме

Игры классифицируют по различным признакам: по целям, по числу участников, по характеру деятельности. В частности, согласно одной из таких классификаций, игры разделяются на деловые и ретроспективные.

Ретроспективная игра моделирует ситуацию, ставящую учащихся в позицию очевидцев тех или иных событий. Эти игры, условно можно разделить на ролевые и не ролевые.

Ролевые игры ретроспективного характера основаны на разыгрывании ролей – участников исторических событий в условиях воображаемой ситуации прошлого. Они делятся на следующие подвиды: театрализованное представление, театрализованная игра и проблемно-дискуссионная игра.

Нужно отметить, что у ролевой игры как метода обучения – есть свои недостатки и преимущества.

Sh.A.Mustafazadeh

The importance of using role-playing games in history lessons

Summary

Games are classified according to different criteria: by goals, by the number of participants, by the nature of the activity. In particular, according to one of these classifications, games are divided into business and retrospective.

A retrospective game simulates a situation that puts students in the position of eyewitnesses of certain events. These games, conditionally, can be divided into role and non-role games.

Role-playing games of a retrospective character are based on playing the roles of participants in historical events in the context of an imaginary situation in the past. They are divided into the following subspecies: a theatrical performance, a theatrical play and a problem-debating game.

It should be noted that role-playing – as a method of teaching – has its own disadvantages and advantages.

Rəyçi: t.e.d., prof. M.İ.Əmrahov

Redaksiyaya daxil olub: 08.02.2018

S.SADIQOVA
e-mail: sabina.samadova@box.az

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ORTA MƏKTƏBDƏ BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN ÖYRƏDİLMƏSİNİN NƏZƏRİ PROBLEMLƏRİ

Açar sözlər: *ətraf mühitin mühafizəsi, təlim metodları, Təhsil qanunu, biologiya dərslikləri*
Ключевые слова: *охрана окружающей среды, методы обучения, Закон об образовании, учебники по биологии*
Key words: *protection of environment, teaching methods, law of education, textbooks about Biology*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra orta və ali məktəblərdə təhsil sistemi daha yaxşı inkişaf etməyə başladı. Azərbaycan Respublikasında yeni Təhsil Qanunu qüvvəyə mindi. Bu qanun əsasında təhsilin məzmunu, forma və metodları yeniləşdi, milli zəmində inkişaf etdi. Azərbaycanda təhsil sistemi, onun proqram və dərslikləri aparılan islahatlar nəticəsində hümanist, demokratik və inteqrativlik nəticəsində yeni məzmun aldı. Şagirdlər elmi öyrənməklə yanaşı, təbiətin, canlı aləmin, bitki və heyvanların mühafizəsinə qayğı göstərsinlər. Proqram və dərsliklərdə inteqrasiyanın yaradılması tələbi təhsildə yeni keyfiyyətlətin yaranmasına imkan verdi.

Yeni proqramlarda müasir təlim metodlarının tətbiqinə, şagirdlərin müstəqil fəaliyyətinə daha çox üstünlük verilir. Daha doğru kurikuluma əsaslanaraq, müəllim və şagirdlər müstəqil fəaliyyət göstərir və istənilən təlim strategiyası seçməyə imkan yaranır. Kurikulum tələbi ilə biologiya dərslərində insanın sosial mahiyyəti, insanın təbiətlə, ətraf mühitlə qarşılıqlı münasibəti, onun tərbiyəsi inkişaf edir və formalaşır. Təhsil kurikulumun tələbi ilə biologiya dərslərində canlıların hüceyrədən biosferə qədər təşkili, onların irsi təkamülü, ekoloji problemlər, elmi və tərbiyəvi mahiyyəti mərhələlərlə inkişaf edir, şagirdlərdə təbiətə məhəbbət və qayğı formalaşır. Kurikulumun tələblərinə müvafiq olaraq hazırkı proqramlar və dərsliklərin daha təkmin məzmunu verilir:

1) canlıların təbiətdə yayılması və müxtəlifliyi;
2) biosferin insan və heyvan orqanizmlərinə təsiri;
3) canlıların həyatında ətraf mühitin rolu, ekoloji problemləri, canlıların mühafizəsini;
4) insanın sağlamlığı və gigiyena qaydalarını.

Ətraf mühitin qorunması problemi proqram və dərsliklərdə öz əksini aşağıdakı məzmunda tapmışdır:

1) VI sinifdə təbiətdə və insan həyatında fotosintezin əhəmiyyəti;
2) xarici və daxili amillərin, bitkilərin inkişafına təsiri;
3) bitkilərin mühafizəsi.

VII sinifdə: balıqların ekologiyası, quşların əhəmiyyəti və qorunması, heyvanlar aləminin qorunması, təbii qruplaşmaların mübarizəsi, Azərbaycanın qoruq və yasaqlıqları. Areal. Bitki və heyvanların təbii qruplaşmaları. Təbiətdə canlı bitkilərin həyatı, insanın təbiətə təsiri.

IX sinif proqramında ətraf mühitin orqanizmə təsiri, mühitin qorunması probleminə toxunulmur. Yalnız dərinin gigiyenası, xarici amillərin təsirindən dəridə əmələ gələn zədələnmələr və qarşısının alınması, ekoloji fiziologiya, sağlamlığın qorunması və möhkəmləndirilməsinin əsasları verilmişdir.

X sinif proqramında problemlə bağlı məzmun yoxdur. XI sinifdə ətraf mühitin qorunması və ekoloji problemlə əlaqədar ekologiyanın əsasları bəhsində geniş məzmun verilir. Burada ekologiyanın vəzifələri, ekoloji amillər, abiotik amillər: işıq, temperatur, rütubət, təbiətin

mövsüm hadisələri, növün ekoloji xarakteristikası, ekoloji sistemlər, ekosistemin həyatı, insanın yaratdığı ekosistemlər və aqrosenozla bağlı lazımı məlumatlar öz əksini tapmışdır. Eyni zamanda biosfer, insanla biosferin qarşılıqlı əlaqəsi, insan fəaliyyətinin biosferə təsiri ilə əlaqədar əhatəli məzmun verilmişdir. Proqramın təkrarında da ekologiya və ətraf mühitin qorunmasına üstünlük verilir.

Yeni kurikuluma uyğun olan yeni biologiya dərslikləri yazılmışdır (VI, VII, VIII, IX). Bu proses yenə də davam edir, X-XI sinif dərslikləri də yenidən yazılacaq. Hazırda orta ümumtəhsil məktəbində 6, 7, 8-ci sinif "Biologiya" dərslikləri yeni təlim kurikulumu əsasında tədris olunur.

VII sinifin "Biologiya" dərsliyində (müəlliflər Y.Seyidli, X.Əhmədli, N.Əliyeva) ətraf mühitin mühafizəsi ilə əlaqədar aşağıdakı mövzuların məzmunu verilir:

1. Balıqların müxtəlifliyi. Balıq ehtiyatının qorunması;
2. Quşların ekoloji qrupları. Quşların əhəmiyyəti;
3. Biomüxtəliflik. Nadir və nəsli kəsilmək təhlükəsi olan heyvanlar.

Proqramda bir sıra mövzular vardır. Lakin bunlar şagirdlərə yetərincə öyrədilmir. Balıqların qorunması, onların ehtiyatının azalması ilə əlaqədar çox səthi məzmun verilir. "Quşların ekoloji qrupları. Quşların əhəmiyyəti" mövzusunda quşları tipinə və həyat tərzinə görə qruplara bölünür, lakin mövzuların tədrisində quşların qorunmasına toxunulmur.

VII sinfin "Biologiya" dərsliyində nadir və nəsli kəsilməkdə olan heyvanlar, onların yerli faunasının mühafizəsi ilə əlaqədar yalnız "Qızılağac qoruğu" haqqında yığcam məlumat verilir. "Biomüxtəliflyin saxlanılması" mövzusunda yer üzərində olan bütün canlıların ətraf mühitin insan fəaliyyəti nəticəsində pozulduğu, heyvanların qorunması ilə bağlı Azərbaycanda da bitki və heyvanların mühafizəsi, təbii sərvətlərin mühafizə olunmasına diqqətin yetirilməsi şagirdlərə başa salınır. "Qırmızı kitab" və onun əhəmiyyəti barədə yığcam məlumat verilir. Lakin "Qırmızı kitaba" düşən digər heyvanların da növ sayını yazmaq lazım idi. Məsələn, balıqların 5 növü, amfibiya və reptiliyaların 13 növü, həşəratın 40 növü, bitkilərin 140 növü daxil edilmişdir. VIII sinfin "Biologiya" dərsliyində ətraf mühitin qorunması, ətraf mühit və orqanımız haqqında məzmun verilir. Mövzu üzrə mətndə ətraf mühitin insanlar tərəfindən yaradılmış zavod və fabriklərdən, neft tullantılarından və məişət qalıqlarının tullantılarından yararsız hala düşdüyü diqqət mərkəzinə gətirilir. Havanın çirklənməsinin qarşısını almaq üçün görüləcək tədbirlər verilir. Lakin ətraf mühitlə əlaqədar tərbiyə məsələlərinə toxunulmur. Bu mövzuda suyun və torpağın da çirklənməsinin qarşısını almaq üçün bir sıra tədbirlərin aparılması aydınlaşdırılır. Mövzu əhatəli yazılmamışdır. Apardığımız araşdırmalar, dərsliklərin təhlili göstərir ki, proqramda (kurikulumda) verilən məzmun, alt standartlar dərsliklərlə uyğun gəlmir. Proqramda irəli sürülən problemlər, verilən məzmunlar dərsliklərlə uzlaşmır. Dərslik proqrama tam uyğun olmalı və onu tamamlamalıdır. Ancaq müəllim üçün metodik vəsaitlərdə ətraf mühitin qorunması bitki və heyvanların mühafizə problemləri daha üstün yazılmışdır.

9-cu sinif dərsliyində ətraf mühitin qorunması ilə əlaqədar aşağıdakı mövzular verlib:

1. Mühit amilləri. Abiotik amillər;
2. Azərbaycanda növ müxtəlifliyinin qorunması;
3. "Qırmızı kitab";
4. Respublikanın ekoloji problemləri.

Mühit amilləri ayrıca müəyyənləşdirilib: abiotik, biotik və antropogen (insan) amillər. Antropogen amillərə aid: işıq, ultrabənövşəyi şüalar, görünən işıq şüaları, infraqırmızı şüalar, temperatur, rütubət. Dərslikdə bunların canlı orqanizmlərə təsiri yığcam izah olunur.

Azərbaycanda növ müxtəlifliyinin qorunması bəhsində Zəngəzur milli parkında: bəbir, çöl pişiyi, qonur ayı; Qafqaz beroar keçisi; dağ qoyunu və s. Şirvan parkında ceyran, Xəzər tısbağası, Flaminqo, şahin və s; Ağgöl milli parkında: turac, qara leylək, sultan toyuğu, ərsindimdik quşları; Hirkan milli parkında dəmirağac, şabalıd yarpaq palıd, Hirkan ənciri bitkiləri və qara leylək kimi nadir quşlar qorunur.

Altıağac milli parkında: Qafqaz vələsi, Şərq fısdığı, qonur ayı və s. bitki və heyvanlar; Abşeron milli parkında: oxlu kirpi, yaşılbaş ördək və s.; Şahdağ milli parkında: Şərq palıdı, qaratoyuq, çöl donuzu, qonur ayı, təkə və s. heyvanlar; Göygöl milli parkı: qara kəpkəz, nəcib Qafqaz maralı, cüyür və s.; Samur Yalama milli parkında: çöl donuzu, kəklik, yem ot, qırqovul və s. heyvanların qorunması haqqında məlumat verilmişdir. Dəslikdə həm də təbiətinin qorunması vacib olan bitki və heyvanlar haqqında əhatəli məlumat verilir. Azərbaycanda 10 qoruqda mövcud olan və mühafizəsi vacib olan bitki və heyvanların adları sadalanır, onların əhəmiyyəti qeyd olunur. Bundan başqa, 24 yasaqlıqlarda (müvəqqəti qoruqlar) mövcud olan bitki və heyvanların qorunmasının zəruri olduğu qeyd olunmuşdur. Dərslikdə respublikamızın ekologiyası və "Qırmızı kitab" haqqında bilik verilir.

M. Babayev, Ə. Hüseynov, Q. Mustafayev və b. yazdıqları "Ümumi biologiya" (XI sinif) dərsliyində "Ekologiyanın əsasları" fəslində: ekoloji sistemlər, ekoloji amillər, ekoloji sistemin davamlılığı və inkişafı, təbiətlə insan cəmiyyətinin qarşılıqlı əlaqəsi, noosfer haqqında təlim problemlərinin məzmunu verilir. Ümumi biologiya dərsliyində ekologiya, ekoloji mühit amilləri və insanın təbiətə təsiri problemləri haqqında əhatəli bilik verilir. Lakin təbiəti necə mühafizə etmək, onu qorumaq kimi problemlərə az yer ayrılır. Ekoloji problemlər dərslikdə yüksək elmi səviyyədə yazıldığına baxmayaraq, orta məktəblərdə bu vacib problemin öyrədilməsi aşağı səviyyədədir (11).

Məqalənin elmi yeniliyi: Orta məktəbdə biologiya fənninin tədrisində ətraf mühitin mühafizəsinin öyrədilməsinin nəzəri problemləri araşdırılmışdır.

Məqalənin praktik əhəmiyyəti: Məqalədə irəli sürülən təklif və nəticələr orta məktəblərdə nəzərə alına bilər.

Ədəbiyyat

1. Babayev M., Hüseynov Ə., Mustafayev Q. və b. Ümumi biologiya: Dərslik. Bakı, 2014,126 s.
2. Əhmədov B. Rzayev A. Pedaqogikadan mühazirə konspektləri. Bakı: Maarif, 1983, 350 s.
3. Əhmədov B. Məktəb təcrübəsini necə öyrənməli // Azərbaycan məktəbi, 1978, № 9, s. 5.

С.Садыгова

Теоретические проблемы изучения охраны окружающей среды в средней школе

Резюме

В новых программах (курикулумах) больше внимания уделяется использованию современных методов обучения и самостоятельной деятельности учащихся. Основываясь на учебной программе, учителя и ученики действуют самостоятельно. У них появляется возможность выбирать любые стратегии обучения. По мнению автора, проблемы защиты окружающей среды должны стать приоритетными в учебниках и методической литературе.

S.Sadigova

Theoretical problems of studying environmental protection in secondary schools

Summary

At the new programs, much more priority is given to the utilization of contemporary teaching methods and students' independent activity. Based on the Curriculum, teacher and students act independently, and they get a chance to choose any teaching strategies they want. However, for teachers, problems about the protection of environment – plants and animals – should get more priority at the methodological literature.

Rəyçi: prof. A.N.Abbasov

Redaksiyaya daxil olub: 09.02.2018

N.B.SALMANOVA
professor

S.Q.QARAYEVA
dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

POLİATLONÇULARIN İDMAN FƏALİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *poliatlon, idman fəaliyyəti, məşqetmə, psixoloji xüsusiyyət*
Ключевые слова: *полиатлон, спортивная деятельность, тренерованность, психологические особенности*
Key words: *polyatlon, sport activity, training process, psychological characteristics*

Poliatlonçular fiziki və psixoloji keyfiyyətlərinin, qabiliyyətlərinin, idman fəaliyyətinin təkmilləşməsi sayəsində yarışlarda müvəffəqiyyət qazanırlar. Bu isə məşq prosesinin elmi-metodiki cəhətdən düzgün qurulmasından əsaslı surətdə asılıdır. Poliatlonun aktual məsələlərindən danışanda, bunların arasında məşq prosesinin təşkili, onun müxtəlif xüsusiyyətləri, poliatlonçuların hazırlıq sistemi ön plana çəkilir. Poliatlonçuların hazırlıq sisteminə dair mütəxəssislər (I.T.Osipov, N.Q.Ozolin, V.M.Puqaçov, T.S.Qulmitdinov, V.V.Babiç və b.) müəyyən dövrlərdə müxtəlif araşdırmalar aparmışlar. Buna baxmayaraq, poliatlonçuların psixoloji hazırlığı mürəkkəb olduğu üçün hələ də tədqiq olunması gözlənilən aktual məsələləri mövcuddur.

Poliatlonda yüksək nailiyyətlərin əldə olunması, təkcə fiziki, texniki, taktiki, psixoloji, nəzəri hazırlığın inkişaf səviyyəsi ilə deyil, həm də bu hazırlıqların poliatlona daxil olan hər bir növə tətbiqi ilə səciyyələnir. (3, 5)

Məşq prosesində poliatlonçunun fəaliyyətinin psixoloji xüsusiyyətləri psixoloji hazırlığının səviyyəsi ilə müəyyən olunur. Bu hazırlıq ümumi və xüsusi olmaqla iki qrupa ayrılır: ümumi psixoloji hazırlıq dedikdə, poliatlonçunun orqanizminin funksional imkanları və davranış formalarının psixi-sinir tənzim mexanizminin təkmilləşməsinin qanunauyğunluqları, xüsusi psixoloji hazırlıq dedikdə isə konkret yarışa hazırlıq nəzərdə tutulur.

Məşq prosesində poliatlonçunun fəaliyyətinin səmərəliliyinə təsir edən amillərdən biri psixi gərginliyin səviyyəsidir. Orqanizmin fəallaşdırma mexanizmləri mürəkkəb olsa da, onun əsasını iradi-emosional tənzimetmə təşkil edir. Emosiyanın tənzimi güclü həyəcan zamanı, məsələn, təhlükəli vəziyyətlərdə, yüksək idman nəticəsinə nail olmaq ehtirası gücləndikdə tələb olunur. Bəzən emosiya ehtiyatı kortəbii olaraq avtomatik şəkildə aşkar olunur. Yüksək emosiya vəziyyətlərində elə güclü psixi gərginliklər yaranır ki, orqanizmin təbii imkanları onu cilovlaya bilmir. Poliatlonçudan daha ciddi, daha kəskin qərarların qəbul edilməsi tələb olunur. Bu məqsədlə bir sıra vasitələrdən istifadə edilə bilər.

İradi tənzimetmə fiziki və psixi qüvvələrin, məqsədyönlü şəkildə, fəaliyyətdə yüksək nəticələrə nail olmaq üçün səfərbər edilməsidir. İradi tənzimetmənin əsasında yalnız arzu deyil, həm də özünə qalib gəlməyi bacarmağın zəruriliyi kimi vacib məsələ durur.

Hər hansı bir fəaliyyətin məhsuldarlığına təsir edən psixi səfərbəretmə, həm məşqlərdə, həm də yarışlarda özünü müxtəlif istiqamətlərdə göstərə bilər. Məşqlərdə gərginlik, fəaliyyət prosesi ilə, artmaqda olan fiziki yükün icra zəruriliyi ilə əlaqədar olur. Ekstremal yarış şəraitində isə bu gərginliyə nəticə ilə bağlı olan psixi gərginlik də əlavə olunur. Gərginliyi, şərti olaraq, məşqlərdə prosesual, yarışlarda isə qətedici adlandırırlar. Bu gərginlik növləri fəaliyyətin başlanmasına qədər də özünü göstərə bilər. Lakin onları yaradan səbəblər isə, zaman vəhdətinin pozulmasına baxmayaraq dəyişməz qalır.

Yüksək səviyyəyə malik uzunmüddətli gərginlik, poliatlonçuya, xüsusilə monoton məşq proseslərində mənfi təsir göstərə bilər. Yüksək nailiyyətlərə meyl edən idmanda məşqetmə prosesi elə qeyri-adi vəziyyətlərlə rastlaşır ki, poliatlonçu gərgin psixi hallar keçirməli olur. Psixi gərginlik, məsuliyyət baxımından müsbət hadisə hesab olunur, məhsuldarlıq təmin olunur. Lakin gərginlik həddən artıq yüksək və uzunmüddətli olduqda, bəzən də qorxu hissi ilə müşayiət olunduqda, bu xoşagəlməz münasibətlərin yaranmasına, özünəinam hissinin zəifləməsinə, sinir proseslərinin sarsılmasına səbəb olur.

Psixi gərginliyin səviyyəsi aşağı olduqda, bu, orqanizmdə heç bir iz buraxmır və maksimal yükün verilməsindən bir neçə gün sonra yox olur. Uzunmüddətli və güclü gərginlik bir həftə, hətta bir ay sonra özünün mənfi təsirini saxlaya bilər. Belə gərginliyin acı nəticələri başqaları ilə baş verən xoşagəlməz münasibətlərdə qeyri-adi davranış formalarında təzahür edir.

Poliatlonçu üçün məqbul hesab olunmayan duyğular onun tapşırıqları icradan imtina etməsi, yaxud məğlubiyyət məqamlarında baş verir. Belə hallar qulaq ardına vurula bilmədiyi kimi, kəskin addımların atılması üçün də səbəb ola bilməz. Məşqçinin düşünülmüş həssas münasibəti əsas olmalıdır.

Psixi gərginliyi, məşqlərin yüksək tələbkarlıqla keçirilməsinin qanunauyğun nəticəsi hesab etmək lazımdır. Bu vəziyyət məşqçini daim düşündürməli və narahat etməlidir. Öncə yüksək gərginliyi yaradan səbəblərin aşkar edilməsinə, yarışlar və məşqetmə qaydalarında müvəqqəti dəyişikliklər aparılmasına, asudə vaxtın təşkilinə, psixotənzim metodlarından istifadəyə geniş yer verilməsinə çalışmaq lazımdır.

Əhval-ruhiyyənin depressivliyi əzginlik, üzüntülər, ləngimələr, ilkin arzuların zəifləməsi, gümrahlıq və həyata bağlılıq sevinclərinin olmaması, fəaliyyət motivinin zəifləməsində təzahür edir.

Həyəcanlanmaq daxili psixi bütövlüyün pozulmasında, narahatlıq keçirməkdə, yaxud poliatlonçunun əvvəllər laqeyd olduğu ayrı-ayrı situasiyaların lüzumsuz qorxu yaratmasında təzahür edir. Öz qüvvələrinə inamsızlıq, imkanların məqsədlə müvafiq olmamasının nəticəsi kimi, yarışdan imtina etməyə və idmandan uzaqlaşmağa səbəb olur.

Hədsiz inciklik, senzitivlikdə isə poliatlonçu münasibətlərindəki ən xırda xoşagəlməz məsələlərə diqqət yetirir, gün rejiminin pozulmasına, yarış vəzifələrinin nəzərə alınmasına kəskin reaksiya verir. Məşqçi və ya yoldaşları tərəfindən qəfil deyilən söz, atıcılıq tirindəki gur işıq, geyimdəki dəyişiklik psixoloji təsir kimi poliatlonçunu qıcıqlandırmağa başlayır. Psixoloji təsirlərdən müdafiənin yeganə rolu: İdmançının yüksək səviyyədə özünüidarəetməsi, həmçinin diqqətini toplamaq və çevik surətdə lazımi obyektə yönəltmək bacarıqlarını formalaşdırmaqdan ibarətdir. (1, s.61)

Məşqetmə prosesinin səmərəliliyi, onun istənilən nəticəni verməsi, bir-biri ilə əlaqədar olan bir sıra amillərlə: məşqlərin maddi-texniki təchizatı, idman bazalarının müasir tələblərə cavab verməsi, avadanlıqların, trenajorların keyfiyyəti, qidalanma, bərpaedici mərkəzlər və s. bağlıdır. Bu amillər poliatlonçuların əhval-ruhiyyəsinə, psixoloji vəziyyətinə təsir edir. Sağlam komanda, komandada olan ümumi psixoloji iqlim də nəzərə alınmalıdır. Poliatlonçuların öz aralarında və məşqçilərlə işgüzar dostluq münasibətləri məşqlərin səmərəliliyini artıran psixoloji şərtlər kimi diqqət mərkəzində olmalıdır.

Poliatlonçunun fəaliyyətinin motivi proqnozlaşdırılmış nəticənin əldə olunması üçün əsas sayılan psixoloji şərtlərdən biridir. Motiv, poliatlonçuda fəallıq, mütəşəkkillik, intizamlı olmaq kimi keyfiyyətləri formalaşdırır, onun yarış fəaliyyətinə müsbət təsir edir.

Poliatlonçu üçün planlaşdırılmış müxtəlif səviyyəli yarışlar, onun idman fəaliyyətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Sözsüz ki, bu fəaliyyətdə psixoloji xüsusiyyətlər mühüm əhəmiyyət kəsb edir. İlk növbədə poliatlonçunun startqabağı vəziyyətini öyrənmək zəruriyyəti ön plana keçir. Yarışqabağı psixoloji vəziyyət dinamik xassəyə malik olması ilə səciyyələnir. Bu dinamikliyə təsir edən əsas amillərə aşağıdakıları aid etmək olar:

*yarışın əhəmiyyəti – poliatlonçunun hazırlığı, onun məqsədi və fəaliyyətə münasibətinin səviyyəsi ilə müəyyənləşir. Burada yarışların miqyası da əhəmiyyətlidir. Çoxnövçü hazırlığının səviyyəcə aşağı olması, məqsədlə bağlılığı zəiflədir. Bununla psixi gərginlik də aşağı düşür. Yüksək hazırlıq səviyyəsi, əldə ediləcək nailiyyətlərlə müvafiqlik təşkil edirsə, bu psixi gərginliyin dinamikasına müsbət təsir edir;

*yarış iştirakçılarının tərkibi - yüksək səviyyəli hazırlığa malik olan poliatlonçuların iştirakı ilə yarışlar daha çox əhəmiyyət kəsb edir. Bu baxımdan, rəqiblər haqqında məlumatların toplanmasına tələbat artır. Məlumatların olmaması, qeyri-obyektiv təsəvvürlərin gərginlik yaratdığı diqqət mərkəzində saxlanılmalıdır. Yarış iştirakçıları səviyyəcə bərabər olduqda, mübarizənin gərginliyi xeyli artır;

*yarışların təşkili - yarışların təntənəli açılışı, yarışqabağı tədbirlərin keçirilməsi, yarışın reqlamentinə dəqiq əməl olunması, start komandalarının vaxtında verilməsi, tamaşaçıların sayı, hakimlərin obyektivliyi yarışqabağı vəziyyətin dinamikasına təsir edə bilər;

*poliatlonçuları əhatə edənlərin davranışı - belə hallarda məşqçi münasibəti ön plana çəkilir. Təsadüfi, düşünülməmiş deyilən bir söz, əsəbi verilən cavab, süni həyəcanlar yaratmaq, motivlərin yarımçıq olması, yersiz iradlar, yalan danışmaq, poliatlonçunun fəaliyyətinə düzgün qiymət verməmək onun ümumi vəziyyətinə və yarışqabağı psixi gərginliyinin dinamikasına mənfi təsir edir;

*poliatlonçunun fərdi-psixoloji xüsusiyyətləri - sinir sistemi və şəxsiyyətin fərdi xassələri ilə bilavasitə əlaqədardır. Bu xüsusiyyətlər, poliatlonçunun startqabağı vəziyyətinin sabitliyini təmin edir, fərdi üslubun formalaşmasına, hiss və emosiyaların tənzim olunmasına imkan verir;

*komandada psixoloji iqlim – komanda üzvləri arasında münasibətlərin xarakteri və xüsusiyyətləri, qarşılıqlı kömək, poliatlonçunun çətin anlarda yardım və kömək alacağına inamının olması poliatlonçuların yarışqabağı psixoloji vəziyyətinin dinamikasına təsir göstərir;

*öz fəaliyyətini, davranışını ixtiyari idarəetmə - bu qabiliyyət güclü olmaqla yarışa psixoloji hazırlıq vəziyyətinin əlaməti kimi təzahür edir (2, s.75).

Poliatlonçuların idman fəaliyyətinin psixoloji xüsusiyyətləri çox müxtəlif və mürəkkəb xarakterə malikdir. Bu baxımdan da hər bir məşqçi poliatlonçunun müxtəlif idman şəraitlərində psixoloji vəziyyətlərinin dinamikasının qanunauyğunluqlarını yetərincə bilməli və məşq prosesində səmərəli şəkildə tətbiq etməyi bacarmalıdır.

Ədəbiyyat

1. Əliyev K. İdmançının qələbə psixologiyası. Bakı, "Ozan", 2008

2. Salmanova N. Poliatlon. Bakı, 2010

3. Литовченко Г., Буланов Г., Ткаченко С. Содержание тренировочного процесса подготовки полиатлонистов. Чернигов, 2008

Н.Б.Салманова, С.Г.Караева

Психологические особенности деятельности полиатлонистов

Резюме

За счет физических и психологических качеств и совершенствования спортивной деятельности полиатлонисты достигают успехов в соревнованиях. Все это основательно зависит от правильной научно-методической организации тренировочного процесса. Психологические особенности проведения тренировочного процесса определяются уровнем психологической подготовки полиатлониста. Эта подготовка в свою очередь делится на общую и специальную: под специальной подготовкой подразумевается усовершенствование механизма психонервного равновесия. Говоря о специальной психологической подготовке подразумевается конкретная подготовка к соревнованию. В статье освещаются психологические аспекты и факторы, влияющие на плодотворность и эффект тренировочного процесса.

N.B.Salmanova, S.G.Garayeva

Psychological characteristics of sport activity of polyathlon sportsmen

Summary

According to the improving of physical and psychological qualities, abilities, sport activities polyathlon sportsmen gain successes at the competitions. It mainly depends on the right scientific-methodical structure of training process. Psychological characteristics of training process are defined with the psychological training level of polyathlon sportsmen. Being general and special training it divided into two groups: functional conditions, psychology-nerves legalities of improving of regulated mechanisms of behavior forms of polyathlon sportsman means the general psychology training, but the special psychology training to a concrete competition. The article deals the psychological aims influences to the successes of training process.

Rəyçilər: ped.e.f.d., dos. Y.B.Səmədov;
Azərb.DBTİA-nın Kütləvi-sağlamlıq idman növləri kafedrası
(31.01.2018-ci il tarixli iclasının qərarı (pr. № 05))

Redaksiyaya daxil olub: 07.02.2018

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

N.Ə.HEYDƏROV,
M.H.DADAŞOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

TƏNƏFFÜS SİSTEMİNİN FUNKSİONAL POZULMALARI ZAMANI FİZİKİ HƏRƏKƏTLƏRİN METODİKİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tənəffüs sistemi, tənəffüs yolları, əzələ işi, fiziki hərəkətlər*
Ключевые слова: *дыхательная система, дыхательные пути, работа мышц, физические упражнения*
Key words: *respiratory system, respiratory ducts, crick, physical exercises*

Tənəffüs-atmosfer havası ilə ağciyərlər arasında gedən qazlar mübadiləsidir. Orqanizmdə maddələr mübadiləsinin fasiləsizliyini təmin etmək üçün hüceyrə və toxumalara daim O_2 çatdırılmaqla, yaranan parçalanma məhsullarından olan CO_2 və H_2O xaric olunmalıdır. Tənəffüs sistemi qazları nəql etməklə yanaşı ifrazat, qoruyucu, qan deposu və istilik tənzimlənməsində də iştirak edir, udulan havanın tənəffüs yollarında nəqli zamanı zərərli toz qarışıqlarından, bakteriyalardan təmizlənir və qismən nəmlənir və isinir.

Uşaqların tənəffüs sistemi bir sıra xüsusiyyətlərə malikdir. 7-8 yaşınadək olan uşaqlarda bronxial kökün differensiallığı və alveolların miqdarının artması müşahidə olunursa, sonralar yalnız onların həcmi artır. Alveollar səthin artması ilə kiçik qan dövranının kapillarlarının sayı da çoxalır. Uşaqlarda ağciyərlərin diffuz imkanları (parsional təzyiqlərin vahid həcminə düşən diffuziya edən qazın miqdarı) böyüklərə nisbətən kiçikdir. Diffuz imkanların artması ağciyər alveolların səthinin böyüməsinə səbəb olur. Lakin, yaşa dolduqca ağciyər alveollarından qana keçən qazların diffuziyasının sürəti cüzi dəyişir. Bədən kütləsinin hər vahidinə düşən ağciyərlərin ventilyasiyasının səviyyəsi uşaqlarda olduqca yüksəkdir (1).

Böyüklərdən fərqli olaraq, uşaqlarda tənəffüs aktı (nəfəsalma və nəfəsvermə) təxminən eynidir. Nəfəsvermənin müddətinin artması, əsasən, yeniyetməlik dövründə müşahidə olunur. Yaşın artması ilə tənəffüsün həcminin böyüməsi arasında xətti asılılıq müşahidə olunur. Yaşa dolduqca bədən kütləsinin hər bir kq düşən tənəffüs həcmi cüzi dəyişilir. AHT, əsasən 9 – 10 yaşlarından sonra sürətlə dəyişir. 7 – 11 yaşlı uşaqların döş qəfəsinin forması, konusvari olaraq qabırğaların bir qədər maili olması ilə səciyələnir. Yeniyetmələrin döş qəfəsi silindrə bənzərdir, qabırğaların maillik bucağı və tənəffüs əzələlərin gücü artır. Bu amillər nəfəsalmanın və nəfəsvermənin ehtiyat həcmlərinin artmasını təmin edirlər. Eyni yaşlı uşaqların AHT onların boyundan, bədən quruluşlarından, fiziki hazırlıqlarından asılıdır. Pubertat dövrdə oğlanlarda AHT qızlara nisbətən daha yüksəlir. Tənəffüs prosesində yüksək elastik və qeyri-elastik müqavimət uşaqlar üçün səciyyəvidir. Məhz buna görə də, tənəffüs əzələləri (əsasən də nəfəsalmada) ağciyərlərin ventilyasiyasına nisbətən çox enerji sərf edir. Uşaqlarda qanın oksigen həcminin az olmasına baxmayaraq, ağciyərlərin intensiv ventilyasiyası və qan dövranın yüksək sürətli olması hesabına onların toxumaları kifayət qədər oksigenlə təmin edilirlər. Hər yaş dövrü üçün qaz homeostazın mühafizə olunması sakitlikdə olan insanın maddələr mübadiləsinin xüsusiyyətlərinə və orqanizmin müxtəlif əzələ fəaliyyətindən baş verən dəyişikliklərə müvafiq olur. Fiziki yükləmələr zamanı uşaqlarda ağciyərlərin ventilyasiyasını inkişaf etdirilməsi xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu zaman qazların mübadiləsi həm ağciyərlərin ventilyasiyasını, həm də qanın dəqiqəlik həcminin artmasını təmin edilir. Qan dövranı sistemin funksiyalarının fəaliyyətdən qabaq (işə

başlamadan) şərti-reflektor güclənməsi böyük fizioloji məna kəsb edir. Uşağın fiziki fəallığı da işçi hiperemiyanın inkişafına zəmin yaradır. 7-8 yaşında uşaqlar nisbətən yüngül fiziki yükləri yerinə yetirə bilirlər. Müntəzəm fiziki tərbiyə və idmanla məşğul olan 12 – 14 yaşlı uşaqlar intensiv, lakin uzun sürməyən fiziki yüklərə qarşı dözümlüyü yüksəlir (2).

Çoxillik statistik məlumatlara görə uşaq və yeniyetməlik dövründə ümumi respirator xəstəlikləri tənəffüs sistemi xəstəlikləri arasında ilk yerlərdən birini tutur (Алябьева, 1984).

Tənəffüs yolları xəstəliklərindən daha çox təsadüf olunanların səbəbləri: cəmiyyətin sosial-iqtisadi inkişafının səviyyəsi ilə bağlı olması və nəticə etibarı ilə tibbi xidmətin və gigiyenik biliklərin lazımınca olmaması; fiziki tərbiyənin və sağlamlaşdırıcı hərəkətlərin yetərincə olmaması; qeyri səmərəli qidalanma; həddən artıq soyuq və isti kimi ekoloji problemlər, atmosferin çirklənməsi; irsiyyət amilləri; valideyinlərin zərərli vərdişlərə aludə olması ilə əlaqədar olan inkişafın qüsurları; bir yaşınadək dövrdə tənəffüs yolların xəstəlikləri; yad cismin (virus və bakteriyaların) tənəffüs yollarına düşməsi və s.

Qulaq, burun və boğaz xəstəlikləri, raxit, qızılca, göy öskürəkdən sonrakı ağırlaşmalar və s. amillər uşaqların daha çox meyilli olduqları xəstəliklərin yaranmasına rəvac verir.

XTQ ağciyər, bronxların, damarların qüsurları olan, bronxların və ağciyərlərin irsən şərtləndirilmiş dəyişkən və immunoloji xəstəliklərinin xroniki patologiyası kimi tənəffüs aparatının xəstəlikləri olan və həmçinin tənəffüs sisteminin funksional xəstəlikləri: xroniki bronxit, xroniki bronxiolit, xroniki pnevmoniya, emfizema, bronxoektatik xəstəliyi, pnevmosklerozu, bronxial astması, vərəm və s. olan uşaqlar daxil edilirlər. Məhz buna görə də, fiziki tərbiyə məşğələlərində müəllim zökəm, öskürək, təngənəfəslik, qan qusmaq, baş ağrıları, hava çatışmamazlığı, tənəffüsün çətinlikləri, döş qəfəsindəki sıxıntılar kimi patoloji simptomlara diqqət yetirməlidir. Bunların xarici görünüşü - məcburi duruş, dərinin göyərmiş və ya bozarmış rəngi, süstlük, xışıltılı tənəffüs ola bilər.

Tənəffüs sisteminin xəstəlikləri zamanı dözümlülüyə, cəldliyə, sürət-güc keyfiyyətlərinin inkişafına yönəldilən məşğələləri məhdudlaşdırmaq və onları elə bölüşdürmək lazımdır ki, məşğələnin fizioloji əsaslarına görə bütün əzələ qrupları işə dalğavari şəkildə qoşulsunlar. Hər 4-6 məşğələdən sonra tənəffüs və bərpaedici məşğələləri keçirmək lazımdır.

Uşaqlarda 7-12 yaşlarında tənəffüsün tezliyi bir dəqiqədə 18-23 dəfə, 12 yaşından yuxarı olan uşaqlarda isə 16-20 dəfə təşkil edir. Məktəblilərdə tənəffüs tezliyinin ÜVS-nın sayına olan nisbəti 1:4 (5) təşkil etdikdə, bu normal hesab edilir.

Tənəffüs gimnastikasının aparılmasının əsas vəzifələri düzgün tənəffüsü öyrətməkdən ibarətdir:

Bunun üçün havanı burunla almaq, ağızla xaric etmək və həm də bu zaman nəfəsvermə nəfəsalmadan daha uzunmüddətli olmalıdır;

Müxtəlif əzələ qruplarının yükləməsini tədricən artırmaqla, tənəffüs əzələlərinin tam olaraq tənəffüs aktına qoşulmasını və döş qəfəsinin mütəhərrikliyinin artırılmasına nail olmaq;

Tənəffüs aktına ağciyərlərin maksimal həcminin cəlb edilməsi;

Tənəffüs yolların qazlar mübadiləsi funksiyasının yaxşılaşdırılması;

Düzgün qamətin formalaşdırılması və qorunması;

Buteyko və Strelnikovanın yaratdığı tənəffüs gimnastikasından mualicəvi məqsədlə, uğurla istifadə olunması;

Tənəffüs məşğələlərini çiyinüstü, qabırğaarası və qarın əzələlərinin ümumi inkişaf etdirən massajı ilə birləşdirməklə, onların səmərəliliyinin artırılması;

Bu zaman düzgün qamətin saxlanılmasına diqqət yetirilməli;

Məşğələlər yorğunluq və təngnəfəsliklə müşahidə olunan və ürək nahiyəsində yarana bilən narahatlıqlara yol açmamalıdırlar.

Əzələ işi sklet əzələlərinə nəql olunan oksigenin və qida maddələrinin axınını sürətləndirir. Əzələlərə nəql olunan qanın həcmi artır, nəticədə qanın dəqiqəlik həcmi yüksəlir, mübadilə prosesi yaxşılaşır. Qanin dəqiqəlik həcminin artması sürətli adaptasiyanın yaranma

mexanizminin vacib və etibarlı təminatıdır. Bu mexanizm müxtəlif cür həyata keçirilə bilər: ürək vurğularının sayının azalması və ya qanın vurğu həcminin yüksəlməsi hesabına (3).

Əzələ işi ağciyərlərin ventilyasiyasını bir neçə dəfə artırır. Məşq etməmiş yeniyetmələrdə ağciyərlərin ventilyasiyasının yüksəlməsi, əsasən tənəffüsün tezliyinin və dərinliyinin yüksəlməsi sayəsində olur. Tənəffüsün effektliyinin yüksəlməsinin vacib fizioloji mexanizmlərdən biri şərti reflektor əlaqələrinin möhkəmlənməsi olub, tənəffüs aktlarının əlaqəli işinin sayəsində həyata keçirilir. Bu zaman fizioloji funksiyaların sistemli xarakterə malik olması özünü büruzə verir. Formalaşdırılmış və möhkəmləndirilmiş şərti refleks yolu ilə xüsusi hərəki funksiyalar proqramlaşdırılmış şəkildə əzələ fəaliyyətinin oksigenlə təmini həyata keçir (Медведев,1998).

Atletika məşğələlərində tətbiq olunan qaçış bütün hərəkətləri yaş qrupları üçün əlçatandır, fiziki bir vasitə kimi sağlamlığın və hormonik inkişafın gedişinə müsbət təsir edir. Qaçış çox asan dozalaşdırılan və asan icra olunan vasitə olduğundan, ondan istənilən şəraitdə və istənilən formada tətbiqi mümkündür. Qaçış zamanı əzələlər sistematik fəliyyətdə olduğundan, tənəffüs əzələlərinin gücünü artırır. Tənəffüs hərəkətlərinin gücü də aydın şəkildə yüksəlir. Fizioloji olaraq təkmilləşdirilmiş, səmərəli tipli tənəffüs forması yaranır. V.S.Farfel (1969) qeyd etdirdi ki, hərəkətlərin təsirindən sinir liflərinin qalınlığı və sinir liflərin terminalların armatsına gətirib çıxarır. Sistematik fiziki yüklərin təsirindən qanın tənəffüs funksiyası yüksəlir, miokardın tənəffüs qabiliyyətinin yüksəlməsi nəticəsində ürəyin hipertrofiyası fizioloji normalar çərçivəsində inkişaf edir (4).

Dərindən nəfəsalma, güclü nəfəsvermə intensiv əzələ işi zamanı ağciyər və alveollaınr ventilyasiyanı gücləndirir. Ağciyərlərin həyat tutumunu (AHT) ölçüsü yeniyetmə idmançılarda qeyri-idmançılarla müqaysədə xeyli yüksəlir. Sistematik fiziki yüklərin təsiri altında orqanizmlərin imkanları artır, hipoksiza (oksigen çatışmamazlığı) hallarını daha asan keçirir. Əzələ işinin orta və yüksək dağ şəraitində icrası zamanı yaranan hipoksiya orqanizmin qan yaranma hallarına güclü təsir edir. Ona görə də hipoksin məşqlərdən idman praktikasında geniş istifadə olunur (Исаев А.П. и др., 2003). Ürəyin təqəllüs qabiliyətin yüksəlməsi diastola zamanı bərpa proseslərin təkmilləşməsi ilə uyğunluq təşkil edir. Bu ürəyin işinin qənaətli təqəllüsü fəaliyyətin fazalı analizi zamanı yaxşı nəzərə çarpır. İzometrik təqəllüs fazası uzanır və qanın qovulması nisbətən qısalır. Belə hallarda hipodinamikanın tənzimlənən fazalı sindromu müşahidə olunur (5).

Beləliklə, məşq etmiş, tədricən hipertrofiyaya uğramış ürək, fizioloji nisbi sakitlik zamanı aşağı mübadilə proseslərinə, mülayim bradikardiya, idman bradikardiyası aşağı dəqiqəlik həcmə malik olur. Ürək 15-20%-ə qədər qənaətlə işləyir (məşq etməyənlərlə müqayisədə) (6). Qeyd etmək lazımdır ki, sistematik əzələ fəaliyyəti zamanı tənəffüs əzələlərinin gücü nəzərəçarpan şəkildə yüksəlir, təkmilləşdirilmiş səmərəli tipli tənəffüs yaranır və tənəffüs sisteminin funksional pozulmaları aradan qalxır.

Ədəbiyyat

1. Hacıyev F.M. Yaş fiziologiyası və məktəb gigiyenasi. Dərslik, Bakı "Maarif", 1992, 345 səh.

2. Məmmədyarov Q.M., Əliyev S.A. İdman biokimyası. Dərslik, 2005, 245 səh.

3. Быков Е.В., Исаев А.П., Сашенков С.Л .Спорт и кровообращение: возрастные аспекты. Челябинск, 1998, 64стр.

4. Фарфель В.С. Физиология спорта. М.: ФиС, 1969,383 стр.

5. Меерсон Ф.В., Пшенникова М.Ф. Адаптация к стрессовым и физическим нагрузкам. М.: Медицина, 1988, 256 стр.

6. Дубровский В.И. Спортивная медицина. МВЛАДОС, 1998, 480 ст

.

Я.Б.Самедов, Н.А.Гейдаров, М.Г.Дадашов

Методические особенности функциональных нарушений дыхательной системы во время физических нагрузок

Резюме

В статье говорится о функциональном нарушении дыхательной системы у детей.

Здесь показываются основы и причины этих часто встречающихся нарушений. С этой точки зрения указывается важность обращения внимания педагога на исполнение физических нагрузок во время занятий (тренировок). Также обращается внимание на идеи некоторых ученых, связанные с физиологическими процессами, которые происходят в дыхательной системе и в организме.

Для того чтобы предотвратить функциональные нарушения в дыхательной системе, советуется использовать дыхательную гимнастику и другие методы физического воспитания.

Y.B.Samadov, N.A.Heydarov, M.H.Dadashov

Methods of physical education of children with poor health

Summary

The article deals with the disorders in respiratory system of children. The basis and causes of these frequently occurred disorders are presented here.

From this point of view it is very important for teachers to pay attention to the performance of physical loads during the trainings. Ideas of some scientists related to physiological process in the respiratory system and in the organism are considered in the article.

To prevent these functional disorders it is advised to use breathing gymnastics (exercises) and other methods of physical education.

Rəyçi: dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 09.02.2018

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

F.A.QURBANOVA,
S.İ.İSAQOVA

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

SAĞLAMLIĞI ZƏİF OLAN UŞAQLARIN FİZİKİ TƏRBİYƏSİ VƏ ONUN VƏZİFƏLƏRİ

Açar sözlər: *sağlamlığı zəif olan uşaqlar, fiziki tərbiyə, gigiyenik vərdişlər*
Ключевые слова: *детей со слабым здоровьем, физическое воспитание, гигиенические навыки*
Key words*: children with poor health, physical education, hygienic addiction*

Müasır dövrdə məktəblilərin və yeniyetmələrin sağlamlığının möhkəmləndirilməsi problemi çox çətin və zəruridir.

Sağlamlığı zəif olan uşaqların fiziki tərbiyəsinin məqsəd və vəzifələri, millətin genofondunun saxlanılması probleminin əsas tərkibi olaraq, yetişən nəslin sağlamlığının müdafiəsini, həm də uşaqların özlərini idmanla məşqul olmağa sövq etmək məqsədini daşımalıdır. Məktəblərdə aparılan sorğular göstərir ki, bu vəzifələr üzrə məktəblilərin maraq prioritetləri növbəti sıralamaya əsaslanır: 1) sağlamlığın möhkəmlənməsi; 2) fiziki keyfiyyətlərin inkişaf etdirilməsi; 3) əhval-ruhiyyənin yaxşılaşması; 4) bədənin və hərəkətlərin gözəlləşdirilməsinə nail olmaq; 5) yorğunluğun aradan götürülməsi və əqli fəaliyyətin yaxşılaşdırılması; 6) ünsiyyət və yeni dostlar tapmaq; 7) digər cinsin nümayəndələrinə cəlbedici görünmək vasitəsi; 8) yüksək idman nəticələrinə nail olmaq.

Məktəbdə sağlamlığı zəif olan uşaqların fiziki tərbiyəsinin vəzifələləri:

1. Fiziki inkişafın səviyyəsini və ahəngliyini yüksəltmək;
2. Orqanizmin funksional vəziyyətini optimallaşdırmaq;
3. Orqanizmin müdafiəsinin spesifik və qeyri-spesifik faktorlarının səviyyəsini artırmaq;
4. Xəstəliklərin və qüsurların inkişafının qarşısını almaq, əzm və iradə səviyyəsini artırmaq və sağlam həyat tərzinin inkişafına tələbatı artırmaq;
5. Bütövlükdə orqanizmə və onun funksional sistemlərinə sağlamlaşdırıcı təsir göstərəcək fiziki tərbiyə və idman vasitələrindən istifadə etmək.

Bu vəzifələləri hələ uşaq vaxtında sağlamlığın bərpasına və möhkəmlənməsinə yönəldilən həyati vacib olan biliklərin, bacarıqların və vərdişlərin kompleks şəkildə formalaşdırmaqla, öz imkanlarına və reallığa anlaşıqlı yanaşmaqla, psixoloji və fiziki yükləri aradan qaldırmaqla, sağlam həyat tərzini, o cümlədən, yetərincə fiziki fəallığı inkişaf etdirməklə əldə etmək olar.

Hazırlıq qruplarında fiziki tərbiyənin əsas vəzifələri:

- Subyektiv vəziyyəti yaxşılaşdırmaq, orqanizmin müqavimətini artırmaq;
- Orqanizmin fiziki yükləmələrə qarşı uyğunlaşma mexanizmlərini inkişaf etdirmək və təkmilləşdirmək;
- Orqanizmin funksional vəziyyətini yaxşılaşdırmaq;
- Təkrar xəstəliklərin qarşısını almaq.

Xüsusi məsələlər:

- Düzgün tənəffüsü aşılamaq;
- Əl, çiyin qurşağı, döş qəfəsi və kürək əzələlərinin möhkəmləndirilməsi;
- Qamətin pozulmasını düzəltmək;
- Burun, boğazın limfatik və qan dövranını yaxşılaşdırmaq.

Xüsusi tibbi qruplardakı məşğələlərin ümumi vəzifələləri:

- məktəblilərin sağlamlığında yaranan pozuntuları aradan qaldırmağa yönəldilən fəal münasibət yaratmaq;
- xəstəliklərin yaranması və fiziki inkişafın geriləməsi, xəstə və zəif orqanizmin xüsusiyyətləri, sağlamlaşdırmanın metod və vasitələri, həmçinin özünənəzarət üsulları haqqında biliklər əldə etmək;
- uşaqlarda orqanizmin möhkəmləndirilməsinə və mütəmadi olaraq fiziki məşqləri yerinə yetirməyə yönəldilən dayanıqlı vərdişləri formalaşdırmaq;
- fərdin fiziki inkişafının və fiziki hazırlığının səviyyəsinə müvafiq olaraq fiziki tərbiyənin ən rasional üsul və metodlarını seçmək və istifadə etmək;
- fiziki məşqlərin səmtinə, intensivliyinə, müddətinə görə olan, ümumi və fərdi tələblərə cavab verən hərəkət aktivliyinin lazımi səviyyəsini təmin etmək;
- tibbi tövsiyələrə ciddi olaraq əməl etmək, fiziki tərbiyəyə zidd olan vasitələrdən istifadə etməmək;
- həddən artıq yükləmələrdən uzaq olmaq, zədələnmələrin qarşısını almaq;
- səmərəli istirahəti və optimal funksional vəziyyəti və işgüzarlığı təmin etmək.

Sağlamlığı zəif olan uşaqlarla gün rejimində keçirilən bədən tərbiyəsi-sağlamlıq tədbirlərinin gigiyenik cəhətləri ön plana çəkilməlidir. Bu məqsədlə aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

1. Dərsəqədər səhər gimnastikasının gigiyenası;
2. Bədən tərbiyəsi dərslərinin gigiyenası və şagirdlərdə gigiyenik vərdişlərin formalaşması;
3. Böyük tənəffüslərdə keçirilən tədbirlərin gigiyenası və s.

Məlum olduğu kimi, gün rejimində keçirilən tədbirlər orqanizmi möhkəmləndirir, şagirdlərin gücünü, davamlılığını (bu və ya digər mürəkkəb fiziki hərəkətlərə qarşı) artırır, onların digər dərslərdə fəal iştirak etmələrinə böyük kömək göstərir. Habelə şagirdlərin orqanizmində olan yorğunluğu, süstlüyü aradan qaldırmaqda və yaxud onların əmək qabiliyyətinin tezliklə bərpa olunmasında bu tədbirlərin əvəzsiz rolu vardır.

İdman oyunlarına gəldikdə isə bunların hamısını açıq havada keçirilməlidir. Aydın məsələdir ki, uşaqların oyun zamanı paltarları qalın olarsa, onlar tez yorular, tərləyər və xəstələnərlər. Bu da gigiyenik qaydaların pozulmasına gətirib çıxarar. Çünki bədən tərləyən zaman uşaqlara tez soyuq dəyir. Ayaqqabılar rahat və yüngül olmalıdır ki, oyun zamanı maneçilik törətməsin.Təcrübə göstərir ki, məşğələlər açıq havada keçirildikdə orqanizmdə olan qanın tərkibinin oksigenlə təmin olması yaxşılaşır. Mərkəzi sinir sistemi fəallaşır, ürək-qan-damar sisteminin fəaliyyəti yaxşılaşır.

Bədən tərbiyəsi dərslərində gigiyenik vərdişlərin formalaşdırılması dedikdə, birinci növbədə idman salonu və idman meydançasının gigiyenası, ilk növbədə, şagirdlərin bədən tərbiyəsi dərslərində gigiyenik qaydalardan necə istifadə etmələri nəzərdə tutulur.

Dərsə başlamazdan əvvəl idman salonunun havası dəyişdirilməlidir. Keçiriləcək dərsin mövzusuna müvafiq idman alətlərinin təmizlənməsinə ciddi nəzarət olunmalıdır.

İdman geyimlərinin ilin fəsillərinə uyğunluğu da gigiyenik cəhətdən az əhəmiyyət kəsb etmir. Ona görə də çalışırıq ki, şagirdlər isti vaxt pambıq parçadan hazırlanmış idman geyimində olsun, ayaqqabıları yüngül, corabları yun olsun. Bu, dərs zamanı ayağın tərləməsinin qarşısını alır, yəni ayaq tərlədikdə tər coraba hopur, ayağın quru olmasına, iylənməsinə, xəstələnməməsinə bir növ normal şərait yaradır.

Gigiyenanın ən mühüm bölmələrindən biri də şəxsi gigiyenadır. Bu, hər bir adam üçün tədbirlər kompleksidir. Əgər şagird cəmiyyətin sağlam və normal üzvü olmaq istəyirsə, bu tədbirlərə ən kiçik yaşlardan başlayaraq, bütün ömrü boyu əməl etməlidir (1, s.300).

Böyüyən nəslin sağlamlığının pozulması üzrə çoxillik meyilin olması gündəlik rejimin gigiyenik tələblərinin pozulması, tədris yükünün çoxalması və tədris prosesinin intensivləş-

məsi ilə səciyyələnən müasir tədrisin və tərbiyənin şəraiti ilə əlaqələndirilir. Tədrisin keçirilməsi uzunmüddətli oturaq tərzinin saxlanılması ilə səciyyələnir, bu da bel və kürək nahiyyəsinin əzələlərinin statik gərginliyini (statistik stress) formalaşdırır və hərəkət fəallığını azaldır. Bundan başqa, hipodinamiya şəraitində qan dövranı sistemində durğunluq proseslərinin formalaşmasına zəmin yaradır (2).

İnsanın sağlamlığı bir çox amillərdən asılıdır. Uşaqların sağlamlığı onların müxtəlif yaş dövrlərində fiziki, zehni, funksional inkişafından, böyümə prosesi zamanı adaptasiya reaksiyalarının səviyyəsindən, keçirdiyi xəstəliklərdən, rezistentliyindən, immun sisteminin müdafiə qabiliyyətindən və s. asılıdır. Ontogenez prosesinin gedişində uşaq və yeniyetmələrdə intensiv morfofunksional dəyişiklikər baş verir. Bu hal sağlamlığın qiymətləndirilməsində nəzərə alınmalıdır. Eyni zamanda, bu dövr sosial-iqtisadı şəraitin tez-tez dəyişilməsinin təsiri ilə səciyyələnir (körpələr evi, uşaq bağçası, orta məktəb, peşə məktəbi, ali məktəb, əmək fəaliyyəti və s.). Bioloji və sosial faktorların mürəkkəb qarşılıqlı əlaqəsi uşaqların və yeniyetmələrin sağlamlıq vəziyyətinin formalaşmasına təsir edir (3).

Elmi tədqiqat işlərinin təhlili nəticəsində məlum olmuşdur ki, müasir dövrdə yaşından asılı olaraq yalnız uşaqların 2-15% tam sağlam hesab etmək olar (4). Bütün yaş qruplarında olan uşaqlar arasında aparılan müşahidələrdə xroniki xəstəliklərin yüksəlməsi qeyid olunur. Son dövrlərdə xroniki xəstəliklər onilliklərdə 22% artıb, məktəb şagirdləri arasında sağlamlığa zərər vuran xəstəliklər 32% -ə çatır (5).

Bədən tərbiyəsi ilə idmanın tərbiyəvi əhəmiyyəti əvəzsizdir. Onunla müntəzəm məşğul olmaq üçün müəyyən iradi qüvvə tələb olunur. İdman sayəsində insan yerinə yetiriləcək hərəkətlərin vaxtını düzgün hesablamaq, vaxtdan səmərəli istifadə etmək, hərəkətləri dəqiq yerinə yetirmək vərdişlərinə yiyələnir.

Aydın məsələdir ki, hərəkətlərdən sonra yorğunluq halları, nəbzin tez-tez vurması baş verir. Bunun üçün müxtəlif məşğələ formasından istifadə etmək olar. Məsələn, gərilmək, dartınmaq, irəliyə, geriyə, yanlara əyilmələr, bədənin dairəvi hərəkətləri, yerindən hündürlüyə və uzununa yüngül tullanmalar, yüngül yeriş və qaçış hərəkətlərindən istifadə etmək olar.

Hər gün yerinə yetirilən hərəkətlər 4-6 kompleksdən ibarət olmalıdır. Hər bir hərəkət öz mürəkkəbliyinə görə 6-8 dəfə təkrar edilməlidir. Seçilən hərəkətlər tənəffüsü gərginləşdirən xarakterli hərəkətlər olmamalıdır. Hərəkətlər yüngül idman paltarında yerinə yetirilməlidir.

Hərəkətləri səlist və düzgün yerinə yetirmək üçün hər cür şəraiti qabaqcadan yaratmaq lazımdır. Döşəməyə salınan xalça və sair köməkçi vəsaitlərin hamısı təmiz və səliqəli olmalıdır. Əks halda xəstəliktörədici mikroorqanizmlər (mikroblar, bakteriyalar, viruslar, göbələk və s.) tərəfindən müxtəlif xəstəliklərə məruz qalmaq olar. Bu da haqqında danışdığımız gigiyenik qaydalara düzgün əməl olunmasını poza bilər.

Məşğələ prosesində və digər tədbirlər zamanı bütün bunları uşaqlara ətraflı izah etməklə yanaşı, onlarda gigiyenik vərdişlərin formalaşmasına da xüsusi fikir verilməlidir.

Ədəbiyyat

1. Səmədov Y.B., Qəhrəmanova Z.İ. və Cəfərova A.K. Bağça yaşlı uşaqlarda gigiyenik vərdişlərin formalaşdırılması. Humanitar elmlərin öyrədilməsinin aktual problemləri. Ali məktəblərarası elmı məqalələr məcmuəsi. Bakı, № 4/2017.

2. Кучма В.Р. Новые подходы к интеграции профилактических и оздоровительных программ в образовательном процессе / В.Р. Кучма, П.И. Храмцов, Е.Н. Сотникова // Гигиена и санитария. 2006. №3. С. 61-64.

3. Кучма В.Р. Методы оценки показателей физического развития детей при популяционных исследованиях / В.Р. Кичма, Н.А. Скоблина// Российский педиатрический журнал. 2008. №2. С. 47-49.

4. Баранов А.А. Состояние здоровья детей в Рассийской Федерации /А.А. Баранов// Педиатрия. Т . 91. №3. С. 9-14.

5. Кучма В.Р. Научно- методические основы охраны и укрепления здоровья подростков России / В.Р. Кучма, И.К. Рапопорт// Гигиена и санитария. 2011.

Я.Б.Самедов, Ф.А.Гурбанова, С.И.Исакова

Физическое воспитание и его задачи для детей со слабым здоровьем

Резюме

В этой статье рассматривается роль физического воспитания в работе с детьми со слабым здоровым. Согласно результатам опроса и в соответствии с приоритетами интересов школьников выявляется важность данных задач. Особенно отмечается физическая подготовка, общие задачи упражнений в медицинских группах и для детей со слабым здоровьем с точки зрения гигиены, проведенных в целях физического воспитания и оздоровительных мероприятий.

Y.B.Samedov, F.A.Gurbanova, S.I.Isagova

Physical education and its characteristics of the students with weak healthy

Summary

This article deals the physical education and its task of the students with weak healthy. Due to the results of asking and interests of students the importance of this tasks is appeared. From the point of view of hygiene the general tasks of exercises in medical group's helding with the aim of physical education and healthy preparations are noticed in given article.

Rəyçi: dos. Ə.M.Xəlfəyev

Redaksiyaya daxil olub: 14.02.2018

H.İ.ŞƏRİFOV
pedaqogika üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

TƏHSİLİN MƏZMUNUNA YENİ YANAŞMALAR

Açar sözlər: *təhsil sistemi, bilik, bacarıq, vərdiş, səriştə, məzmun, prinsip, modul, model*
Ключевые слова*: система образования, знания, умения, навыки, компетенции, содержание, принципы, модуль, модель*
Key words: *education system, knowledge, skill, competences, content, principles, module, model*

Müasir dövrdə təhsil anlayışı müxtəlif mənalarda işlədilir:

- müəyyən sistemə malik olan bir sahə kimi (bura aid edilir təhsilin pillələri və səviyyələri);
- tədris prosesi kimi (müəyyən müddət ərzində həyata keçirilir);
- təhsil faktına görə, yəni müəssisənin bitirməyini təsdiq edən müəyyən sertifikatın verilməsini özündə əks etdirir.

"Təhsil – sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir (10, s.8). Təhsil dedikdə, tədris müəssisələrində verilən, tərbiyə və inkişaf imkanlarına malik olan bilik, bacarıq və vərdişlər sistemi başa düşülür. Cəmiyyət inkişaf etdikcə, təhsilə yanaşmalar da dəyişir, yəni yeni məna çaları kəsb edir. Bu gün təhsil daha geniş məna daşıyır. İnsanların bilik, bacarıq və vərdişləri, elmi-texniki biliklərə yiyələnməsi və təlim prosesinin nəticəsi olaraq qazanılmış bilik, bacarıq və vərdişlərə yiyələnməsi kimi mənalarda şərh olunur (9, s.10).

Təhsil son nəticədə insanın nəzəri bilik və bacarıqlarının inkişaf səviyyəsini, onun bilik, bacarıq və vərdişlərini bu və ya digər praktik fəaliyyət növünə hazırlığını göstərir. "Müasir təhsil sosial praktikanın mürəkkəb bir forması olub, indiki tarixi bir mərhələdə cəmiyyətin yeniləşdirilməsində və inkişafında qabaqcıl yer tutur. İdeoloji baxışların, ictimai münasibətlərin və təfəkkürün xarakterini müəyyənləşdirən parametrlərin dəyişdiyi indiki şəraitdə yeni yaşayış formalarına adaptasiya olunmağa, həmçinin sosial həyatın əsas prinsiplərini öyrənməyə, yeni siyasi reallıqların və inkişaf istiqamətlərinin ictimai şüurda, praktikada möhkəmləndirməsinə nail olmaq üçün təhsil geniş imkanlara malikdir (6, s.90).

Təhsil məna tutumuna görə daha geniş anlayışdır, yəni o, təlimi, tərbiyəni və inkişafı özündə birləşdirməklə aşağıdakı xüsusiyyətlərə malik olur (9, s.11):

- ✓ təhsil cəmiyyətin mənafeyinə xidmət edir;
- ✓ təhsil şəxsiyyətin intellektual, emosional, iradi keyfiyyətlərini inkişaf etdirir, onu ictimai və şəxsi həyata hazırlayır;
- ✓ təhsilin məzmunu müasir dünya standartlarına uyğun olaraq müəyyənləşdirilir;
- ✓ təhsilin məzmunu təhsil müəssisələrində həyata keçirilən pedaqoji prosesdə reallaşdırılır;
- ✓ təhsil prosesində mənimsəmənin səviyyəsi müəyyən olunmuş meyarlarla yoxlanılır;
- ✓ təhsil müəyyən hüquqi sənədlərin verilməsi ilə başa çatır.

Təhsilin məzmunu didaktikanın əsas sahəsidir. Təhsil haqqında Qanunda (10, s.17-18) təhsilin məzmununa və təşkilinə verilən tələblər aşağıdakı kimi öz əksini tapmışdır:

- ✓ təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq; öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik

təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq; təhsilalanların fasiləsiz təhsil almasını daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömürboyu təhsilin hamı üçün açıq olmasını və bərabər imkanlı olmasını təmin etmək; yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq; cəmiyyətin yüksək səviyyəli və rəqabət qabiliyyətli kadr potensialına tələbatın ödənilməsi üçün real zəmin yaratmaq; təhsil müəssisələrində təhsil prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək.

Göründüyü kimi, təhsilin məzmunu:

- dünya səviyyəsinə uyğun olaraq təlim alanın təhsil proqramları çərçivəsində (təlim pillələri üzrə) müasir biliklər əsasında formalaşdırılması;
- cəmiyyətin mədəni peşəkarlığının ümumdünya səviyyəsinə uyğunlaşdırılması;
- şəxsiyyətin milli və dünya mədəniyyətləri sisteminə inteqrasiyası;
- müasir cəmiyyətə inteqrasiya olmuş insanın, vətəndaşın formalaşdırılması və cəmiyyətin kadr potensialının inkişafı və yenidən hazırlanmasını təmin etməlidir (13, s. 9-10).

İ.Y. Lernerə görə (15, s.125), "təhsilin başlıca sosial funksiyası ― əvvəlki nəsillər tərəfindən toplanmış təcrübənin yeni nəslə ötürülməsidir". Ənənəvi yanaşma olan belə fikirlər "öyrənənlər tərəfindən reallığın müəyyən fraqmentlərinin başa düşülməsinin dərinliyi (keyfiyyəti, səmərəliliyi) öyrənilən materialın miqdarı (keyfiyyəti) ilə düz mütənasibdir"- artıq informasiyalı cəmiyyətin müasir tələblərinə cavab vermir və təhsil sistemində ağır nəticələrlə müşahidə olunan problemlər yaradır.

Təhsilin məzmunu daxili və xarici komponentləri (7, s.127) ilə xarakterizə olunur. Xarici komponent iki tərkib hissədə - real həqiqətlər və ona dair biliklər sistemindən ibarət olan "təhsil sahəsi" anlayışında cəmlənir. Daxili komponent təhsilalan şəxsin atributudur, bu mənada təhsil ehtiyacların ödənilməsi ilə uyğunlaşdırılmalıdır.

Təhsilin məzmunu dəyişilərkən, yaxud təkmilləşdirilərkən bir sıra tələblər nəzərə alınmalıdır:

- *təhsildə məqsədin yenilənməsi*: Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır (10, s.11-12): Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdır. Bu mənada təhsilin
- məzmununun təşəkkül yolu ilə dəyişdirilməsi;
- məzmunun şəxsiyyətyönlü, dəyəryönlü, nəticəyönlü olması;
- məzmunun tamlığı tələbinin gözlənilməsi müasir yanaşmalardan sayılır.

Araşdırmalar göstərir ki, təhsilin yeni məzmununa keçid təkamül-axtarış və innovasiyalı olmaqla iki qrupa ayrılır (7, s.132).:

Birinci qrupa ənənəvi formada müəyyən dəyişikliklər etməklə, ikinci qrupda isə şəxsə istiqamətlənmiş, fəaliyyətyönlü, kamil insanın, rəqabətədavamlı şəxsiyyətin formalaşdırılması üçün nəticəyönlü təhsilin qurulmasını, yeni yanaşmaların, interaktiv təlim üsullarının tətbiqi əsas tələb kimi qəbul edilir.

Şəxsiyyətin formalaşması üçün material və mənbə kimi milli və dünya mədəniyyəti – bəşər təcrübəsi tərəfindən əldə olunmuş bütün mənəvi və maddi mədəniyyətə yiyələnməsi

lazımdır. Bəşər mədəniyyətinin tərkibi nədirsə, şəxsiyyətin məzmunu da elə olmalıdır. Deməli, təlimin məzmunu və mahiyyəti onun dərk olunmasına istiqamətləndirilir.

N.F. Qolovanova (12, s.186) təlimin məzmun elementlərini bu çəkildə müəyyənləşdirir:

- biliklər;
- fəaliyyətə yönəlmiş üsullar;
- yaradıcı təcrübə;
- öyrənilən obyektə və real gerçəkliyə emosional-dəyər münasibəti, o cümlədən, digər insanlara, özünə münasibət, ictimai, elmi, peşəkar fəaliyyətin motivləri və tələbləri.

Tədqiqatçılar (13, s. 186) bunlara istinad edərək bildirirlər ki, təlim prosesi mahiyyətinə görə məqsədyönlü və sosial cəhətdən səriştəli, təlimalanların şəxsiyyətinin inkişafı prosesinin təşkilidir. Bu, sistemli elmi biliklərin və fəaliyyətin üsullarını əldə etməkdən ibarətdir. O, bəşər mədəniyyətinin mənəvi və maddi tərkibini əks etdirir. N.F.Qolovanova "Müasir təhsilin məzmunu"ndan (12, s.68) danışarkən insan həyatında dəyərinə görə təhsil məzmununu: "avtoritar model" və "humanitar model" deyərək iki yerə bölür. Avtoritar model sistemlər, əsasnamələr, qaydalar, nizamnamələr, müəyyən müddəalar və s. əsasında qurulur. Humanitarlaşdırma modelində insanın istək və tələbatı, onun mədəniyyətinin formalaşdırılması önə çəkilir.

Bununla yanaşı, təhsilin məzmununa başqa yanaşmalar da mövcuddur. Onlar əsasən təhsilin sistem, proses, nəticə və dəyər olduğunu müəyyənləşdirməklə aşağıdakı modelləri də təklif edirlər:

✓ *Təhsilin müəssisə (dövlət) modeli*ndə təhsilin məzmunu, təhsil müəssisəsinin, tədris fənlərinin, bütövlükdə təhsil sisteminin nomenklaturasının və onun məqsədinin müəyyənləşdirilməsi mərkəzləşdirilmiş qaydada, idarəçilik prinsipləri əsasında qurulur.

✓ *Təhsilin ənənəvi modeli*. Əvvəlcədən sistemləşdirilmiş akademik təhsil modeli olmaqla, gənc nəslə mədəniyyətin klassik elementlərinin verilməsini, yenidən hasil və ya təkrar istehsal edilməsini əsas göstərərək, təhsil prosesini qurmağın xüsusi üsulu hesab olunur.

✓ *Təhsilin rassionalizmə əsaslanan modeli*. Bu model, gənc nəsli mövcud cəmiyyətin ehtiyaclarını ödəmək məqsədilə tələb olunan bilik, bacarıq, vərdiş və praktik qabiliyyətlərini təmin etmək üçün elə təşkilati formalardan istifadə olunmasını nəzərdə tutur ki, onlar mövcud dünyanın tələblərinə cavab verə bilsin.

✓ *Təhsilin fenomenoloji modeli*. Bu modelin tərəfdarları öyrənənlərin şəxsi-psixoloji xüsusiyyətlərinə, onların istəklərinə və tələbatlarına ehtiyatla və hörmətlə yanaşılmasına, təhsilin şəxsi xarakter daşımasına üstünlük verir. Təhsilə humanist nöqteyi-nəzərdən baxır, onun insan təbiətinə tam və adekvat olunmasını əsas məqsəd kimi qarşıya qoyurlar.

✓ *Təhsilin qeyri-institusional modeli*. Bu modeli təklif edənlər təhsilin təşkilini sosial institutlardan, xüsusi halda məktəb və ali təhsil müəssisələrindən kənarda təşkilinə üstünlük verirlər. Onun "təbiətin qoynunda", internetin köməyilə, "açıq məktəb" şəraitində, distant təhsil yolu ilə və s. həyata keçirilməsini məqbul hesab edirlər (5, s.119-120).

Aparılan araşdırmalar göstərir ki, müasir təhsilin məzmun xətti (ardıcıl və fasiləsiz), konsentrik (bir məsələ bir neçə dəfə təkrar olunur), spiralvari (genişləndirilərək və zənginləşdirilərək) və modul (bütövlükdə baxılan bölməyə (təhsil vahidinə) daxil olan mövzular üzrə müvafiq istiqamətlərdə paylanması) qurulur. Müasir təhsil prosesi özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Təsilin məzmunu aşağıdakı prinsiplərlə xarakterizə olunur (10, s.10): humanistləşdirmə, humanitarlaşdırma, diferensiallaşdırma, diversifikasiya, standartlaşdırma, çoxvariantlılıq, çoxsəviyyəlik, fundamentallıq, kompüterləşmə, informatiklik, fərdiləşdirmə, fasiləsizlik və s.

Təhsilin yeni məzmunu elə qurulmalıdır ki, insanı şəxsiyyət kimi formalaşdırmalı, yəni onun mənəvi, psixi, fiziki, intellektual, emosional inkişafını təmin etməlidir.

Ədəbiyyat

1. Əhmədov H.H. Pedaqogika. Dərslik. Bakı: Təhsil, 2008
2. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. Dərslik. Bakı: Nasir, 2007
3. Kazımov N.M. Tətbiqi pedaqogika. Bakı: Çaşıoğlu, 2010
4. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002
5. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010
6. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007
7. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012
8. Rüstəmov F.A., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007
9. Standart və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı: "Şahin- MB" MMC, 2016
10. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq, 2009
11. Təhsil lüğəti. Bakı, 2011
12. Голованова Н.Ф. Общая педагогика. Учебное пособие для вузов. СПб.: Речь, 2005
13. Столяренко Л.Д. Педагогика.Для студентов колледжей. Ростов н/д., Феникс, 2000
14. Давыдов В.В. Теория развивающего обучение. М., 1996
15. Лернер И.Я. Дидактические основы методов обучения. М., 1981
16. Теоретические основы процесса обучения// Под. ред.В.В.Каевского, И.Я.Лернера. М., 1989
17. Теоретические основы содержания общего средного образования //Под. ред. В.В. Каевского, И.Я. Лернера. М., 1983

Х.И.Шарифов

Новые подходы к содержанию образования

Резюме

В статье раскрываются новые подходы к содержанию образования. Указаны различные подходы к этой проблеме, существующие в нормативно-правовых документах и в педагогических исследованиях. Отмечено, что содержание образования определяется как соответствующее мировым стандартам с точки зрения услуги содержания образования, представляющей интерес общества, развития интеллектуального и эмоционально-волевых качеств личности, а также подготовки его к общественной и личной жизни. Дается сравнение между принципами, указанными в государственной политике и принципами, предъявленными к содержанию образования.

H.I.Sharifov

New approaches to the content of education

Summary

The article reveals new approaches to the content of education. Various approaches to this problem are presented, which exist in normative legal documents and in pedagogical studies. It is noted that the content of education is defined as conforming to world standards from the point of view of the educational content service, which is of public interest, the development of intellectual and emotional-volitional qualities of a person, and also preparation for public and private life. A comparison was made between the principles indicated in the state policy and the principles presented to the content of education.

Rəyçi: ped.e.d., prof. P.B.Əliyev

Redaksiyaya daxil olub: 05.02.2018

Z.SULTANOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

GƏNC NƏSLİN ESTETİK TƏRBİYƏSİNDƏ MUSİQİNİN DİNLƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ

***Açar sözlər**: gənclər, musiqi, təhsil, mədəniyyət, dinləmə*
***Ключевые слова**; молодежь, музыка, образование, культура, слушание*
***Key words:** younger, music, education, culture, listening*

Bu gün respublikamızda aparılan təhsil islahatları ilə bağlı tədrisə yeni yanaşmalar baş verir. Estetik təlim – tərbiyənin yeni konsepsiyaları işlənib – hazırlanır ki, burada şəxsiyyət-yönümlü istiqamət aparıcı rol oynayır.

Estetik tərbiyə əsasən "Musiqi" dərsləri vasitəsilə həyata keçirilir. Bu dərslərin əsas məqsədi şagirdlərin musiqi qabiliyyətlərinin üzə çıxarılması və musiqinin qavrama, ondan estetik zövq alma bacarığının formalaşdırılmasıdır. Əgər musiqi qabiliyyətlərini biz dərsin "mahnı oxuma" və ya "nəzəriyyə" bölməsində inkişaf etdirə biləriksə, musiqini qavrama və ondan estetik həzz alma bacarığının əldə olunmasına isə əsasən dərsin "musiqi dinləmə" bölməsində çoxlu və müxtəlif musiqi materialının dinlənilməsi və mənimsənilməsi yolu ilə nail olmaq mümkündür. Bu iş forması bunun üçün ən əlverişlidir.

Dünya klassik musiqisinin mənəvi sərvətlərinə maraq və hörmət etmək, onun mədəniyyətinin zənginliyini dərk etmək gənclərin estetik tərbiyəsinin əsas amillərindən biridir. Çünki hərətərəfli inkişaf etmiş şəxsiyyətin yetişdirilməsi üçün yalnız milli musiqiyə istinad kifayət deyil, dünya mədəniyyətindən də bəhrələnmək, müxtəlif xalqların musiqisini anlamaq və sevmək əsl ziyalı və mədəni insan üçün vacibdir.

Şagirdlərdə beynəlmiləlçilik, dostluq, ümumbəşəri dəyərlərə hörmət hisslərinin tərbiyəsi ümumiyyətlə "mədəni insan" simasının formalaşdırılması üçün həlledici rol oynayır. Bu gün Qərb və Şərq mədəniyyəti bir-birinə daxil olaraq və bir birini zənginləşdirərək yeni insan tipini ortaya çıxarır. Multikulturalizm (yəni çoxşaxəli mədəniyyət) bizim dövlətimiz tərəfindən də apardığı siyasət ilə üst-üstə düşür.

Ölkəmizdə gənc nəslin hərtərəfli inkişafında, onun formalaşmasında estetik tərbiyənin rolu, mövqeyi böyükdür. Estetik tərbiyə vətənpərvərlik, mərdlik, sülh uğrunda mübarizlik beynəlmiləlçilik kimi nəcib mənəvi sifətlərin aşılanmasında mühüm rol oynayır.

Estetik tərbiyənin qüvvətli təsir gücünə malik vasitələrindən biri də musiqidir. Musiqi – səs incəsənətinin, səs təfəkkürünün obrazıdır. Musiqi böyük emosional təsir qüvvəsinə malik sənətdir. O, insanların əxlaqi və estetik ideallarının formalaşmasına xidmət edir.

Musiqi insan həyatında mühüm yerlərdən birini tutur. İnsan dünyaya gəldiyi gündən musiqi ilə hər addımda rastlaşır. Musiqinin qeyri – adi qüvvəsi insanların düşüncələrinə və hisslərinə təsir edərək, onlarda müvafiq duyğular, əhval – ruhiyyə yaradır, ən çətin anlarda belə adamlara kömək edir, qəm-qüssəsinə şərik olur. Digər tərəfdən musiqi, ədəbiyyat və rəsm kimi bizim dünyagörüşümüzü genişləndirir, həyatı daha dərindən qavramağımıza kömək edir.

İncəsənət əsərlərində insanın hiss və həyəcanları, əhval-ruhiyyəsi, düşüncələri, eləcə də təbiət hadisələri təsvir edilə bilir. İncəsənətin bir növü olan musiqidə əsl həqiqəti, insanların ictimai həyatı, onların fəaliyyətləri, ümumiyyətlə bütün daxili aləmi öz əksini tapır. Həmçinin təbiətdə baş verən hadisələr – göy gurultusu, suyun şırıltısı, yağışın yağması, küləyin əsməsi və bir çox təbiət hadisələri də musiqinin ifadə vasitələrinə daxildir. Musiqinin ifadə imkanları müxtəlif və rəngarəngdir. Musiqi insanda olan müxtəlif hisslərə, hiss və həyəcanlara təsir edərək dinləyicini özünə cəlb etmək imkanına malikdir.

Musiqi ictimai şüur forması kimi çox sahəlidir. O, yaradıcı, ifaçı, təlimedici estetik tərbiyə vasitəsi kimi böyük təsir qüvvəsinə malikdir. Yaranan hər bir musiqi əsəri öz dövrünün ictimai həyatının mühüm xüsusiyyətlərini əks etdirən mədəniyyət nümunəsidir. Qeyd etmək lazımdır ki, musiqi qabiliyyəti insanda hələ uşaqlıq dövründən üzə çıxır.Musiqi bacarığına malik uşaqlar mahnını, hər hansı bir melodiyanı çox tez yadda saxlayır, onu musiqi alətində çalmağa və ya oxumağa çalışır. Hər bir insanda müəyyən dərəcədə musiqi qabiliyyəti, musiqi duyumu mövcuddur. Bu ümumi musiqi qabiliyyətini adi ritmi hiss etməkdə belə görmək olar. Odur ki, musiqi dərslərində müəllim şagirdlərin musiqi qabiliyyətini inkişaf etdirməli, müntəzəm surətdə bunun üzərində işləməli, uşaqlara çox miqdarda musiqi dinlətdirməli, eşitdiyi melodiyanı qavramaq və yadda saxlamaq, müxtəlif janrlı musiqi əsərlərini başa düşmək və sevmək bacarığını inkişaf etdirməlidir.

Şagirdlərin musiqi mədəniyyətinin formalaşmasında musiqini dinləmə fəaliyyəti ən mühüm əhəmiyyət kəsb edir. Musiqinin dinlənilməsi musiqi fəaliyyətinin vacib növlərindən biridir ki, onun vasitəsilə şagirdlərin bütün əsas musiqi qabiliyyətlərinin inkişafı təmin olunur. Müxtəlif məzmunlu və janrlarda olan klassik əsərlərin dinlənilməsi prosesində şagirdlərin obrazlı təfəkkürü, musiqi yaddaşı yaradıcı potensialı və ən əsası musiqi qavrama bacarığı formalaşır. Musiqi təliminin nəzəriyyəsinə görə dinləmə fəaliyyətinin əsas vəzifəsi klassik, xalq və müasir musiqinin yüksək səviyyəli nümunələri ilə təmas prosesində şagirdlərin musiqi mədəniyyətinin, bədii zövqünün və musiqini qavrama bacarığının formalaşdırılmasıdır.

Musiqinin dinlənilməsi prosesi aşağıdakı vəzifələri həll edir:

Şagirdlərin musiqiyə marağını artırır, musiqi eşitmə qabiliyyətini və musiqi yaddaşını inkişaf etdirir; musiqi qavramanı gücləndirir və yaradıcı qabiliyyətləri üzə çıxarır; musiqi əsərlərinin mənimsənilməsini təmin edir və alınmış bilikləri tətbiq etmə bacarığını aşılayır; musiqi zövqünü, mənəvi və estetik hissləri tərbiyə edir; incəsənətə qarşı emosional – qiymətləndirici münasibəti formalaşdırır.

Rusiya alimi E.Abdulin qeyd edir ki, musiqinin dinlənilməsi prosesinin məzmunu və təşkil bir sıra pedaqoji şərtlərdən asılıdır:

1) hansı musiqi dinləniləcək (xalq, klassik, müasir); 2) sinfin ümumi və musiqi mədəniyyəti hansı səviyyədədir; 3) şagirdlərin musiqi – yaradıcı qabiliyyətlərinin hansı istiqamətdə inkişafı nəzərdə tutulur; 4) uşaqların maraq dairəsi və tələbatları nədir.

Bədii zövqün tərbiyə olunması müxtəlif vasitələrlə, rəngarəng maraqlı tədbirlərin köməyi ilə aparılır. Bu sahədə dünya klassik musiqisi müstəsna imkanlara malikdir. Şagirdlərdə fəal qavramanın əsasında musiqiyə emosional münasibətin formalaşdırılması – musiqi tərbiyəsinin mühüm vəzifələrindən biridir.

Musiqi dinləmə mədəniyyətinin inkişafından danışarkən unutmaq olmaz ki, hər bir uşaq musiqini özünəməxsus şəkildə dinləyir və eşidir. Musiqiçi – pedaqoq A. Piliçəuskas bu problemin üzərində işləyərkən, musiqinin idrakının "ideal-kompleks" modelini hazırlamışdır. Onun obyekti kimi dinlənilən əsərin emosional intonasiyaları çıxış edir. O, üç komponentli quruluşa malikdir: 1.musiqili obraz; 2.mənəvi-estetik fon; 3.bədii obraz. Bu model vasitəsilə şagirdlər klassik musiqinin bədii qiymətliliyini və sosial əhəmiyyətini dərk etməyi öyrənir. Musiqinin ifadə vasitələrinin vəhdəti musiqi materialında obraz məzmunun emosional vasitəsi kimi özünü nümayiş etdirir. Musiqi materialının qarşılıqlı təsiri obrazların münasibətlərinin inkişaf prosesində öz əksini tapır. Əsərin kompozisiyası, hisslərin və bölmələrinin vəziyyəti onun dramaturgiyasına öz təsirini göstərir. Bəstəkar bu obrazları yaratmaq üçün musiqinin müxtəlif ifadə imkanlarından istifadə edirlər.

Melodiya musiqinin ən əsas ifadə vasitəsidir. Eləcə də, temp, lad, ritm, musiqi səsinin dinamikası registr və sairlər musiqinin əsas ifadə vasitələrindəndir. Bəstəkarlar bu ifadə vasitələrindən istifadə edərək musiqinin məzmununu açıqlayan obrazları yaratmağa müvəffəq olurlar. Musiqi obrazlarının lazımi səviyyədə dinləyiciyə çatdırılması səs diapazonunun, eləcə də müxtəlif musiqi alətlərinin müvafiq diapazonundan məharətlə istifadə etmək əhəmiyyət

kəsb edir. Məsələn, rus bəstəkarı N.A.Rimski – Korsakovun "1001 gecə" nağılı əsasında yazdığı "Şəhrizadə" simfonik poemasında dənizin dalğalanmasını təsvir etmək üçün yaxud "Çar Soltan haqqında nağıl" operasında arının uçuşunu təsvir etmək üçün simli musiqi alətlərindən, həmçinin Azərbaycanın görkəmli bəstəkarı S.Hacıbəyovun "Karvan" simfonik lövhəsində dəvə karvanının hərəkətini təsvir etmək üçün "zəng", "üçbucaq" adlanan musiqi alətindən istifadə obrazların lazımi səviyyədə təsvir edilməsinə imkan yaradır. Hər hansı bir obrazın lazımi səviyyədə təsvirini yaratmaq üçün təkcə musiqi alətinin tembri, yaxud səs diapazonu kifayət edə bilməz. Bunun üçün musiqinin bütün ifadə vasitələrindən lazımi dərəcədə istifadə olunmalıdır. Məsələn, lirik əhval – ruhiyyə, kədər, qəm və sairə bu kimi hissləri təsvir edərkən ağır, sakit templər, piano, metso piano dinamik işarələrindən istifadə olunmalıdır. Əksinə, sevinc, həyəcan, qıvraq xarakterin tərənnüm etdirilməsi üçün tez templərdən, forte, fortissimo dinamik işarələrindən istifadə edilə bilər.

Obrazların dəqiq təsviri üçün major-minor lad sisteminin, aranjimanın, harmonizmin, alətləşdirmənin və istifadəsi vacib olan bir çox saysız-hesabsız ifadə imkanlarının əhəmiyyəti, rolu böyükdür. Musiqi əsərlərinin məzmunu müxtəlif olduğu kimi, bu məzmununun açılması üçün də geniş imkanlar var. Bu imkanlardan istifadə edərək bəstəkarlar yüksək səviyyədə əsərlər yaratmışlar. Şagirdlər isə həmin əsərləri başa düşmək, yadda saxlamaq, digər əsərlərdən fərqləndirmək üçün diqqətlə dinləməlidirlər. Onlar məzmunun açılmasına öz münasibətlərini bildirməyi bacarmalıdırlar. Musiqi əsərlərinin qavranılması qabiliyyəti aktiv şəkildə musiqinin dinlənilməsi prosesində formalaşır. Belə ki, musiqi dərslərində uşaqların fəaliyyəti rəngarəng və fəal olduğu halda, musiqinin emosional – şüurlu qavranılması baş verir. Klassik musiqiyə qarşı emosional həssaslıq, musiqi obrazların sanki daxilinə "keçmə" bacarığının inkişafı, klassik musiqinin müxtəlif janrlarına qarşı dayanıqlı marağın yaranmasına təkan verir. Musiqiyə şüurlu münasibətin formalaşdırılması da vacib məsələlərdən biridir. Burada əsas məsələlərdən biri – şagirdlər tərəfindən musiqini şüurlu şəkildə qavramaq təcrübəsinin əldə edilməsidir.

Şagirdlərə nəinki musiqini hiss etməyi, hətta onu başa düşməyi, musiqili obrazların xarakterini, onların inkişaf məntiqini dərk etməyi öyrətmək lazımdır.

Musiqini dinləmə prosesində bəstəkarın şəxsi üslubu məsələlərində şagirdlərin diqqətini cəmləşdirmək vacibdir. Əsərin üslubundan danışarkən, biz sənətkara xas olan ifadə vasitələrini və ətraf aləmin özünə məxsus tərzdə əksini xarakterizə etməklə bərabər, onun orijinallığını və ictimai ideallardan asılılığını da nəzərə almalıyıq. Bəstəkarın üslubunu anlamaq üçün onun mənsub olduğu ölkəni, yaşadığı mühiti, tarixi dövrü və s. məsələləri onun yaradıcılığı ilə vəhdətdə öyrənmək lazımdır. Bununla əlaqədar olaraq rus tədqiqatçısı A.Qoldenveyzer belə yazırdı: "Əsəri öyrənərkən müəllifin daxili aləminə baş vurmaq, onun musiqisi vasitəsilə ruhunu, xalqının ruhunu, onun əsrini duymaq və bunları dinləyicilərə çatdırmaq gərəkdir." (4, s.109). Hər bir üslub onun mahiyyətini, spesifikasını, bu üslubun digərlərindən fərqliliyini göstərən ümumi prinsip cəhətlərinə malikdir. Bütün yuxarıda dediklərimizi musiqinin dinlənilməsi prosesində nəzərə almaq lazımdır. Şagirdlər bir əsəri dinlədikdə, onun müəllifini bilməsələr belə əsərin ümumi üslub xüsusiyyətlərinə görə onun müəllifini təxmini də olsa tapa bilməli, ən azından hansı dövrə və cərəyana mənsub olduğunu ayırd etməlidirlər.

Beləliklə, şagirlər tərəfindən dinlədikləri əsəri bədii məzmununun dərk edilməsi üçün hər bir əsərin həyat dünyası ilə geniş əlaqələrinin mənimsənilməsi zəruridir və bununla da bəstəkar yaradıcılığının bütövlükdə öyrənilməsi, müvafiq milli məktəbin xüsusiyyətləri, onların yaranmasının tarixi dövrün nəzərə alınması vacibdir.

Şagirdlər dinlədikləri musiqi əsərin obyektiv mahiyyətini öz yaş, bilik, musiqi qabiliyyətləri səviyyəsində dərk etməlidir. Məhz bu səbəbdən musiqi müəlliminin ən mühüm məqsədlərindən biri şagirdlərin fərdi qabiliyyətlərinin daha dolğun üzə çıxarılmasıdır. Çünki bu olmasa, neçə-neçə gözəl əsərlər uşaqlar tərəfindən qavranılmaz, anlaşılmaz, onların zehni və qəlbi üçün bağlı qalar.

Ədəbiyyat

1. Э.Б.Абдулин. Методика музыкального образования / Учебник для студентов высших педагогических учебных заведений, Москва, 2006
2. Л.Р.Болотина. Музыкальное воспитание. Москва, 1987
3. M.Dadaşova. Musiqi müəlliminin hazırlığının metodikası. Bakı, 2010
4. O.Rəcəbov, F.Hidayətova. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013

З.Султанова

Значение слушания музыки в эстетическом воспитании подрастающего поколения

Резюме

Эстетическое воспитание школьников, молодежи имеет большое значение. Оно формирует у них патриотические чувства. Основная идея музыкального сочинения обычно находит выражение в художественном образе, поэтому работа над его воплощением является важной составляющей при подготовке студента к исполнению музыкальных произведений и в его эстетическом развитии. Самостоятельное активное отношение к искусству у молодежи может воспитать в ней определенную жизненную гражданскую позицию.

Z.Sultanova

The importance of listening to music in the aesthetic education of the younger generation

Summary

Aesthetic education of schoolchildren, young people is of great importance. It forms their patriotic feelings. The basic idea of a musical composition usually expressed in an artistic image, therefore work on its embodiment is an important component of student`s preparation for the performance of musical works and his aesthetic development. This knowledge, an independent active attitude to the art of youth can become a certain civic position.

Rəyçi: ped.f.d., dos. N.N.Abutidze

Redaksiyaya daxil olub: 14.02.2018

S.Ə.VAHABOVA
e-mail: vahabova.simuzer@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MÜSTƏQİLLİK DÖVRÜNDƏ ŞAGİRDLƏRƏ MƏNƏVİ TƏRBİYƏNİN AŞILANMASI

Açar sözlər: *ictimaiyyət, şəxsiyyət, əxlaq, vətənpərvərlik, milli qürur*
Ключевые слова: *общественность, личность, нравственность, патриотизм, национальная гордость*
Key words: *community, individual, morality, patriotism, national pride*

Yaşadığımız dövrdə, elm və texnikanın inkişafı şəraitində mənəvi tərbiyə məsələlərinin araşdırılması və böyüməkdə olan gənc nəslə mənəvi hisslərin, milli-mənəvi dəyərlərin aşılanması xüsusi əhəmiyyət daşıyır. Sovet imperiyası dövründə milli soykökümüzün, mənəvi dəyərlərimizin araşdırılmasına sədlər çəkilmişdisə, demokratik inkişaf yolunda addımlayan Azərbaycan Respublikasında mənəvi tərbiyə məsələləri yeni müstəvidə öz tədqiqini və təhlilinin vacibliyini saxlayır. Cəmiyyət müstəqil düşünən, kamil, rəqabətə qabil şəxsiyyət, yaradıcı insan yetişdirməyi problem kimi təhsil müəssisələrinin qarşısında qoyulmuşdur. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə "milli mənlik şüuru" yeni aspektdən tədqiq edilir ki, bu problemlə əlaqədar xeyli miqdarda ədəbiyyat mövcuddur. Mənəvi tərbiyə məsələləri ilə bağlı həm Şərq mənbələrində, həm Rusiya və Avropa müəlliflərinin əsərlərində, həm də azərbaycanlı mütəxəssislərin tədqiqatlarında müəyyən qədər məlumat vardır. Tərbiyəetmə çox dinamik və didaktik prosesdir. "Tərbiyəetmə prosesində müxtəlif əlaqə və asılılıqlar sosial, psixoloji, pedaqoji bir-birinə qovuşmuş və qarşılıqlı şəkildə şərtlənmişdir. Tərbiyəetmə prosesinin didaktikası onun ziddiyyətliyində, inkişafında, mütəhərrikliyində, dəyişikliyində ifadə olunur. Belə bir fəaliyyətin təşkili şəxsiyyətin formalaşması prosesinin elmi əsaslarını təşkil edir. Şəxsiyyət sosial əlaqələrə və qarşılıqlı sosial münasibətlərə malik insandır." (1, s.91).

Qədim zamanlardan mənəvi təsəvvürlər mövcud ədəbiyyatlarda, dini kitablarda şərh edilmiş və yüksək tutulmuşdur. Mənəvi tərbiyə ilə bağlı məsələlərə Zərdüştlüyün müqəddəs kitabı olan "Avesta"da da rast gəlirik. Belə ki, kitabın əsas qayəsini xeyirlə şərin mübarizəsi təşkil edir. Orta əsrlər dövründə yaşayıb yaratmış şair-pedaqoq Nizami Gəncəvi təlim və tərbiyənin şəxsiyyətin hərtərəfli inkişafında böyük rol oynadığını qeyd etmişdir. Dahi şair əsərlərində qeyd olunan mənəvi keyfiyyətlərin əhəmiyyətini şərh etməklə yanaşı, əxlaq tərbiyəsinin bir sıra üsul və vasitələrini də göstərmişdir. Klassik şərq ədəbiyyatının digər nümayəndələri olan X.Şirvani, İ.Nəsimi, Ş.İ.Xətai, A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və digərlərinin əsərlərində mənəvi tərbiyə məsələlərinə diqqət yetirilmişdir. Azərbaycan tarixşünaslığının banisi Abbasqulu ağa Bakıxanov "Təhzibül-əxlaq" əsərində gənclər arasında nəcib əxlaq normalarını, mənəvi gözəllikləri təbliğ edir. Əsərdə dostluğa sədaqət göstərməyə, böyüklərə hörmət etməyə və ədalətli olmağa çağırır, dünyəvi əxlaq cəbhəsində duraraq, ümumbəşəri əxlaq normalarını təbliğ edir.

Sonradan mənəvi tərbiyə məsələləri XX əsrin əvvəllərində C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov, H.Cavid və digərlərinin əsərlərində humanizm, davranış normaları, ədalətli olmaq, xeyirxahlıq, mərdlik və s. kimi göstərilir.

SSRİ dövründə mənəvi məsələlər, tərbiyə problemləri əsas etibarilə kommunist idealogiyası əsasında tədqiq və təbliğ edilirdi. A.S.Makarenko əxlaq tərbiyəsinə fərdi yanaşmanın əhəmiyyətini vurğulayır, o, uşaqların doğruçuluq, çalışqanlıq, başqalarına hörmət ruhunda tərbiyə edilməsinin əhəmiyyətini göstərirdi. Böyük rus pedaqoqu K.D.Uşinski ixtiyari diqqəti

"fəal diqqət" adlandıraraq yazır ki, fəal diqqət zamanı şeylər insan üzərində deyil, insan şeylər üzərində hakim olur. İxtiyari diqqət şüurlu şəkildə baş verir. İdrak fəaliyyətinin lazımi səviyyədə təşkili onların ümumi fəaliyyət aktivliyinə və diqqətin tərbiyəsinə müsbət təsir göstərir. Təcrübə göstərir ki, məktəblilər qarşıya konkret vəzifənin qoyulması sayəsində müvafiq təlim tapşırıqlarının yerinə yetirilməsi prosesində qarşısına çıxan çətinlikləri aradan qaldırmaq üçün iradi səy göstərir." (2, s.27). K.D.Uşinskinin tərbiyə ilə bağlı fikirləri də maraqlıdır: "Tərbiyəçi insanı həqiqətdə olduğu kimi bilməli, onun bütün zəif və qüvvətli cəhətləri ilə, bütün gündəlik xırda ehtiyacları ilə tanış olmalıdır. Tərbiyəçi insanı ailədə, cəmiyyətdə, xalq arasında bəşəriyyət içərisində və öz vicdanı ilə üzbəüz durduğu halda öyrənməlidir. O insanı bütün yaşlarda, bütün vəziyyətlərdə, şadlıq və qəmginlik hallarında öyrənməlidir. Yalnız bu zaman o insan təbiətinin özündən tərbiyə vasitələrini əxz edə bilər" (3, s.41).

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra tərbiyə məsələləri, əsasən də mənəvi tərbiyə, milli dəyərlər, soy kökə qayıdış, adət-ənənələrin dərindən tədqiqi və bu məsələlərin gənc nəslə düzgün bir formada çatdırılması prioritet məsələ oldu. Belə ki, 70 illik yad ünsürlərin mövcud olduğu bir dövr ərzində hər vəchlə xalqımızı öz adət-ənənələrindən, milli hisslərindən, dini görüşlərindən uzaqlaşdırmağa cəhdlər edilmişdir, lakin onu da qeyd edək ki, bütün bu təsirlərə baxmayaraq, xalqımız milli özünüdərkini, mənəvi keyfiyyətlərini qoruyub saxlaya bilmişdir. XX əsrin ortalarından etibarən ümumtəhsil orta məktəblərində və ümumilikdə, gənc nəsildə əxlaqi-mənəvi dəyərlərin tərbiyə edilməsi problemləri ilə bağlı müasir pedaqoqlar və metodistlər bir sıra tədqiqat əsərləri ortaya qoymuşdur. M.Əmirov, P.Əliyev, Ə.Həmidov, Y.Talıbov, S.Quliyev, A.Abbasov, A.Həsənov mənəvi tərbiyə, milli dəyərlərin gənc nəslə ötürülməsi məsələlərinə xüsusilə əhəmiyyət vermişlər. Məktəb və pedaqoji fikir tarixinin görkəmli nümayəndələri, tanınmış tədqiqatçı alimlər olan Hümeyir Əhmədov və Piralı Əhmədovun həmmüəllifliyi ilə "Təhsil" nəşriyyatında çapdan çıxmış "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi" kitabı təkcə pedaqogika elminin inkişafına deyil, bütövlükdə müstəqillik illərində cəmiyyətimizdəki ictimai münasibətlər sisteminə mühüm töhfə kimi qiymətləndirilə bilər. L.Qasımova "Azərbaycan tarixi fənninin tədrisi prosesində şagirdlərin milli mənəvi dəyərlər əsasında tərbiyə edilməsi (V-IX siniflərin materialları üzrə)" (4) əsərində Azərbaycan tarixi dərslərinin tədrisi prosesində gənclərə milli hisslərin, vətəndaşlıq mövqeyinin tərbiyə edilməsinin vacibliyini, həmçinin müstəqillik qazandıqdan sonra mənəvi dəyərlərin təbliğinin aktuallıq qazandığını göstərmişdir. Əsərin diqqətəlayiq cəhəti Azərbaycan tarixinin tədrisi zamanı məktəblilərə milli dəyərlərin, milli idealogiyanın önəmini hərtərəfli formada çatdırmasıdır. S.Xəlilovun "Təhsil, təlim, tərbiyə" (5, s.381) kitabı mühüm tədqiqat işidir. Bu əsərdə tərbiyə problemləri yeni konsepsiya əsasında, milli dəyərlər əsasında tədqiq və təhlil edilmişdir. Tədqiqatçı "Milli ruh və vətəndaşlıq tərbiyəsi" adlı hissədə "müstəqillik və milli dövlətçilik ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma artıq hansısa bir subyektin deyil, xalqın, millətin öz maraqları istiqamətində yönəlsin, ümummilli ahəng üstündə köklənsin"- deyərək, bir daha göstərmiş olur ki, mənəvi tərbiyə zamanı milli dəyərlərin, vətəndaşlıq tərbiyəsinin aşılanması tərbiyə prosesi ilə ümummilli ahəng təşkil etməlidir.

Qeyd etdiyimiz kimi, müstəqilliyimizin bərpasından sonra milli-mənəvi dəyərlər və mənəvi tərbiyə məsələləri aktuallıq daşımağa başladı. Belə olan halda məhz bu mövzu ilə bağlı bir sıra tədqiqat əsərləri, dissertasiyalar yazılmağa başladı. M.Aslanovun "Yuxarı sinif şagirdlərində mənəvi şüur və mənəvi davranış vəhdətinin formalaşdırılması" adlı namizədlik dissertasiyasında mənəvi davranış məsələləri xüsusilə təhlil edilmişdir. Əsərdə, həmçinin, mənəvi hisslər, mənəviyyat məsələləri də hərtərəfli araşdırılmışdır. C.Mirzəyevin "Orta məktəbin VIII-XI siniflərində humanitar fənlərin əsasında şagirdlərdə mənəvi keyfiyyətlərin formalaşdırılması yolları (əməyə dair materiallar əsasında)" dissertasiyasında mənəvi keyfiyyətlərin formalaşdırılmasında humanitar fənlərin xüsusi rolu olduğunu göstərmişdir. Z.Əzizova pedaqoji elmlər namizədi alimlik dərəcəsini almaq üçün yazdığı "Orta ümumtəhsil

məktəblərinin IX-XI siniflərində şagirdlərə milli-mənəvi tərbiyənin aşılanmasının səmərəli yolları (ictimai-humanitar fənlərin materialları əsasında)" dissertasiyası milli-mənəvi dəyərlərin mahiyyətini hərtərəfli şəkildə izah etmişdir. Tədris-tərbiyə prosesində IX-XI siniflərə mənəvi keyfiyyətlərin, milli xüsusiyyətlərin aşılanmasının yolları təhlil edilmiş, həmçinin məktəbdənkənar tədbirlərdə şagirdlərə mənəvi dəyərlərin ötürülməsinin əhəmiyyəti vurğulanmışdır. O, qeyd etmişdir ki, əxlaq tərbiyəsi mənəvi tərbiyənin tərkib hissəsidir. L.Qasımovanın "Ümumtəhsil məktəbləri şagirdlərinin milli mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi fənnləri üzrə)" adlı dissertasiyası səciyyəvi cəhətləri ilə seçilir. Tədqiqatçı nəzəri və praktiki əsasda mənəvi tərbiyənin aparılması işinin mahiyyəti, problem baxımından müxtəlif pedaqoqların fikirlərini təhlil edir. Mənəvi dəyərlərin gənc nəslə çatdırılması işində humanitar fənlərin-ədəbiyyat və Azərbaycan tarixinin əsas yer tutduğunu qeyd edir. Dissertasiyada yalnız V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi materiallarında milli dəyərlərin, mənəvi keyfiyyətlərin aşılanması elmi, nəzəri və təcrübi cəhətdən izah olunmuş, sinifdənxaric işlərin milli-mənəvi dəyərlərin ötürülməsindəki əhəmiyyəti açıqlanmışdır.

Ümumiyyətlə, qısa da olsa tarixin müxtəlif mərhələlərində yazılmış tərbiyə işinin sisteminə, mənəvi dəyərlərin, milli hisslərin, özünüdərkin, milli qürur hissinin aşılanması məsələləri ilə bağlı ədəbiyyatları təhlil etdikdə, nəzərdən keçirilən bütün elmi fikirlərə yekun vuraraq, belə bir nəticəyə gəlmək olar ki:

a) Ədəbiyyatların bir hissəsi sovet dövründə yazıldığından kommunist idealogiyasından çıxış edir;

b) Sovet imperiyası dövründə islam dinində əksini tapan mənəvi məsələlər, əxlaqi keyfiyyətlərin araşdırılmasına maneələr törədilsə də, müstəqilliyimiz yenidən bərpa olunduqdan sonra İslam dinində, onun müqəddəs kitabı "Qurani-Kərim"də əsasını tapan mənəvi-əxlaqi keyfiyyətlərin dərindən tədqiqinə və təbliğinə geniş imkanlar açılmışdır;

c) 1991-ci ildən etibarən yazılan tədqiqatlarda məsələyə milli dəyərlər çərçivəsindən baxılmış, problemin ayrı-ayrı məsələləri öyrənilmişdir;

d) Məktəbdə tarix kursunda tədris olunan tarix dərslikləri üzərində ayrı-ayrı siniflərin dərslik materialları əsasında təhlillər aparılmışdır;

e) Ənənəvi təlimdə tarix dərslərində mənəvi tərbiyə ilə modern təlimdə kurikulum konsepsiyasına əsaslanan mənəvi tərbiyə işinin təşkili və müqayisəli təhlili məsələləri hələ tam həllini tapmamışdır.

Beləliklə, əvvəldə qeyd etdiyimiz kimi müstəqil Azərbaycanda təhsil və tərbiyə milli zəmində tədqiq və təbliğ edilir. Milli Kurikulum konsepsiyasına start verildikdən sonra bu məsələlər artıq yeni bir istiqamət üzrə araşdırılmağa başlandı. Tarix fənninin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşə malik olan və onun daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrinə, milli mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daima ucaltmağa çalışan vətənpərvər insan yetişdirməyə, azad və demokratik ruhlu vətəndaş tərbiyə etməyə xidmət edir. "Tarix fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin formalaşmasında, onlarda mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq və hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarıqlarının aşılanmasına xidmət edir."(6, s.50)."Təlim strategiyasında" təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşdirmə, differensiallaşdırma, fərdiləşmə, sosiallaşma, inteqrativlik və inkluzivlik aparıcı prinsiplər kimi əsas rol oynayır."(http://www.kurikulum.az.), (7).Təhsilin məzmunca təkmilləşdirilməsi, keyfiyyətcə yeni səviyyəyə qaldırılması üzrə əməli tədbirlərin həyata keçirilməsi, heç şübhəsiz ki, "Təhsil Qanunu"nda dövlətin təhsil sahəsində siyasətinin əsas prinsiplərindən biri kimi qəbul olunmuş

təhsilin humanistləşdirilməsi prinsipinin təcrübədə tətbiq edilməsi ilə sıx bağlıdır. Beləki, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan təhsilin bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək amalı ətrafında birləşdirilməsi mövcud təhsil sisteminin əsas qayəsidir .

Ədəbiyyat

1. Mustafayeva. R, Mustafayeva. S. Pedaqogika, Bakı, 2002, 205s.
2. Rüstəmov. F. Pedaqogika tarixi, Nurlan, Bakı, 2006, 462 s.
3. Baharlı. M. Dərs müasirlik tələb edir, Maarif, Bakı, 1981, 65 s.
4. Qasımova. L. N. Azərbaycan tarixi fənninin tədrisi prosesində şagirdlərin milli mənəvi dəyərlər əsasında tərbiyə edilməsi (V-IX siniflərin materialları üzrə), Bakı Dövlət Universiteti, BDU, 2003, 120 s.
5. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə, "Azərbaycan Universiteti" nəşriyyatı, Bakı, 2005, 650 s..
6. Hüseynov. R. Azərbaycan tarixinin tədrisi məsələləri. "Kurikulum" elmi- metodiki jurnal, №1, s, 50.
7. http://www.kurikulum.az

С.А.Вахабова

Нравственное воспитание учеников в период независимости

Резюме

После восстановления независимости национально-нравственные ценности и вопросы нравственного воспитания начали носить актуальный характер. Изучение задач нравственного воспитания в условиях развития науки и техники, а также привитие нравственных чувств, национально-нравственных ценностей возрастающему молодому поколению имеет особенное значение. Воспитание – это очень динамичный и дидактический процесс. Моральное воспитание является составной частью нравственного воспитания. Обучение и воспитание играет огромную роль во всестороннем развитии личности. Основным стремлением настоящей системы образования является формирование личности, владеющей глубокими и всесторонними знаниями, навыками и умениями, высоким интеллектом и широким мировоззрением, а также воспитание патриотичного человека, ссылающегося на свои корни, обычаи, национально-нравственные ценности, в корне изучающего свое «достойное» историческое прошлое, любящего и постоянно возвышающего свою Родину и нацию.

S.A.Vahabova

The implementation of moral education for students in the period of independence

Summary

After the restoration of independence, the national and moral values and objects of moral education began to be relevant.The study of the tasks of moral education in the conditions of the development of science and technology, as well as the implementation of moral feelings, national and moral values to the growing younger generation is of prime importance. Education is a very dynamic and didactic process. Intellectual education is an integral part of moral education. Training and education play a huge role in the comprehensive development of the individual. The overriding concern of the present education system is the formation of an individual who possesses deep and comprehensive knowledge, skills and abilities, a high intellect and a broad vision, as well as the education of a patriotic person who refers to his roots, customs, national and moral values, who are thoroughly studying his "worthy" historical past andloving and constantly exalting his Motherland and Nation.

Rəyçi: t.e.d., prof. M.İ.Əmrahov

Redaksiyaya daxil olub: 14.02.2018

İ.F.YUSİFOV

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TARİXİN TƏDRİSİ PROSESİNDƏ İKT-dən İSTİFADƏNİN İNTERNET İMKANLARI VƏ YOLLARI

Açar sözlər: *ənənəvi təlim, interaktiv təlim, təlim metodları, dərs tipləri, innovasiya, texnologiya*
Ключевые слова: *традиционное обучение, интерактивное обучение, методы обучения, типы урока, инновация, технология*
Key words: *traditional training, interactive training, teaching methods, the types of lessons, innovation, technology*

Tarixin tədrisində İKT-dən məhsuldar və məqsədyönlü istifadə yollarını tədqiq edərkən, əvvəlcə, onun dünya təcrübəsində təhsil məqsədləri üçün necə istifadə edildiyi araşdırılmışdır. 1970-1980-ci illərdən başlayaraq, dünya təcrübəsində məktəb daxilində yerli şəbəkələrin yaradılması, məlumatların məsafədən çatdırılması işlərinə başlanmışdır. Yerli şəbəkələr məktəb kompyuter laboratoriyalarında informasiyaların müəllim-şagird, şagird-şagird arasında mübadilə edilməsinə şərait yaratmaqla təlimin səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərirdi (1, s. 123).

Bir neçə məktəbin kiçik yerli şəbəkələrinin ümumi, geniş şəbəkədə birləşdirilməsi müəllimlərin və şagirdlərin, eləcə də, ümumilikdə, məktəblərin ünsiyyət dairəsinin genişlənməsinə və informasiya əldə elmək imkanlarının yüksəldilməsinə xidmət edirdi. Şagirdlər öz məktəblərinin kitabxanalarında əldə edə bilmədikləri kitabları qonşu məktəbin elektron kitabxanasından axtarır, lazım olan məlumatları əldə edə bilirdi. Eləcə də geniş şəbəkəyə qoşulmuş bir məktəbin şagirdi kompyuter vasitəsi ilə digər məktəbin şagirdi ilə ünsiyyət yarada, məlumat mübadiləsi edə bilirdi (2, s.95).

Lakin məktəblərin arasındakı məsafənin uzaqlığı daha geniş şəbəkələrin qurulmasına mane olurdu. 1980-cı ildən başlayaraq artıq belə şəbəkələr yalnız rayon daxilindəki məktəbləri deyil, rayonlararası əlaqələrin də yaradılmasnda böyük əhəmiyyət daşımağa başladı. 1990-cı illərdə şəbəkələr elə geniş miqyasda yayıldı ki, artıq məktəblilər yüzlərlə və minlərlə kilometr uzaqlıqda olan informasiyalarla ünsiyyətə girib müxtəlif məlumatlar əldə edə bilirdilər. Nəticədə dünyanın ümumi şəbəkəsində minlərlə geniş şəbəkələr və ölkələr arasında məlumat mübadiləsi həyata keçirilməyə başlandı.

İnternet kompyuter texnologiyalarının informasiya çatdırma və təhsil sahəsi üçün olan digər xidmətlərini daha da inkişaf etdirdi. İnternet vasitəsilə istifadəçilər kommunikasiyalar, media və kompyuter texnologiyalarını bir vəhdətdə inteqrasiya etməklə məlumatları istədikləri istiqamətə göndərə bildilər. İnternet aşağıdakı məqsədlərlə istifadə imkanlarına malikdir:

1. Yer kürəsini əhatə edən elektron poçt xidməti;
2. Qruplarla müzakirələrin təşkili;
3. Konfransların təşkili;
4. İnformasiya yayımı;
5. Digər (ictimai, əyləncə, yeniliklər) məqsədləri ilə.

Məktəblərdə təhsilin təşkili zamanı internetdən istifadə aşağıdakı məqsədlərə nail olmaq üçün əhəmiyyətli hesab edilir:

1. Məktəblərdə şagirdlər daha geniş cəmiyyət üçün faydalı olmaq və işləmək üçün hazırlanır;
2. Fərdin gələcəkdə internetdən istifadə ilə əlaqəli tələbatı ödənilir;

3. Təhsil işçilərinin müəyyənləşdirdiyi təlim məqsədləri və nəticələrinə nail olmaq üçün şagirdlərin kommunikasiya sistemində fəaliyyətlərinin təşkili ilə bağlı ehtiyacları nəzərə alınır.

İnternet nəhəng bir şəbəkədir. Təhsilin təşkili üçün onun müxtəlif imkanları mövcuddur:

- Elektron poçt fəaliyyəti (Problemin həlli ilə bağlı nəticələri, hesabatları, yenilikləri və digər materialları göndərmək);
- Sual-cavab (İstənilən məsələ ilə bağlı verilən sualları cavablandırıb verilən ünvana göndərmək);
- İnternet səhifələrinin yaradılması;
- Distant təlim.

Məktəblilərin təhsil aldıqları məkandan ayrılmasına heç bir ehtiyac olmadan ümumi qovşağa qoşulma və informasiya əldə etmə imkanı qazanması böyük bir irəliləyiş və təlimin təşkilində əhəmiyyətli yenilikdir. Bu, şagirdlərin vaxtına qənaətə və təlimin səmərəliliyinin yüksəldilməsinə xidmət edir.

- Tədris edilən mövzu ətrafında verilən tapşırıqların yerinə yetirilməsi məqsədilə internet səhifələrində aparılan araşdırmalar zamanı tədqiqatçı-şagird yazıçının yaşadığı dövr, onun həyatı və yaradıcılığı ilə bağlı mövzu ətrafında əlavə informasiyalar əldə edir, həmin informasiyaları yaratma fəaliyyətinə qoşulur, müstəqil təlimə hazırlanır. Bu zaman onun tədqiqatçılıq bacarıqlarının və bununla da tənqidi təfəkkürünün inkişafına geniş şərait yaranmış olur;
- Müxtəlif siniflər, məktəblər və şəhərlər arasında əlaqəli konfrans, debat, müzakirə dərslərin həyata keçirilməsinə imkan yaranır. Bu cür dərslər şagirdlərin ictimai bacarıqlarını inkişaf etdirir, eləcə də onların təlimə marağının yüksəldilməsinə xidmət edir.
- Şagirdlərin tarixlə bağlı istər yerli, istərsə də beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən layihələrdə iştirak etməsinə şərait yaradır.

İKT-nin internet imkanlarından məhsuldarlıqla və şagirdin yüksək fəallığını təşkil etməklə istifadə etmək tarix müəlliminin peşəkarlığından xəbər verir. Dünya təhsil təcrübəsində İKT və onun internet imkanlarından istifadə təlim prosesinin keyfiyyəti kimi dəyərləndirilir. Problemin həlinə nail olmaq üçün internet səhifələrindən əldə edilmiş məlumatlardan məqsədyönlü istifadə etməsi şagirdin idraki fəaliyyətinin, tədqiqatçılıq bacarıqlarının, ictimai münasibətlərinin, maraqlarının, inkişafının və eləcə də, yaradıcı fəaliyyətini təşkil etmək üçün mühüm vasitədir. Mövzu ilə bağlı məlumatların internet səhifələrindən çevik əldə edilməsi üçün şagirdlərin istiqamətləndirilməsi yollarını müəyyənləşdirmək məqsədilə araşdırmalar aparmışıq. Axtarış səhifələrindən axtarış hərəkətverici (Yahoo və ya Looksmart) və axtarışa rəhbərlik edənlər (Google və ya Alta Vista) kimi xidmətlərdən ikincisi, tədqiqatlar aparmaq üçün mütəxəssislər tərəfindən daha səmərəli hesab edilir. Bununla yanaşı, müəyyən olunmuşdur ki, şagirdlərin axtarışları o zaman uğurla həyata keçirilə bilir ki, onlar nə axtardıqlarını dəqiq bilsinlər və axtarışlara başlamazdan əvvəl öz işlərini aşağıda göstərilən qaydalara riayət etməklə düzgün təşkil etsinlər (3, s.175):

- əsas məsələni müəyyənləşdirmək;
- həmin mənanı ifadə edə bilən sinonim sözlər tapmaq (birinci variantda heç bir nəticə əldə edilmədiyi halda digər variantlara müraciət etmək);
- müxtəlif axtarış saytlarının xidmətindən istifadə etməyə çalışmaq;
- əgər axtarışa mövzunun başlığı verilirsə, mötərizədə onu dəqiqləşdirən sözləri qeyd etmək;
- "Axtarış" damasında ideyanı əks etdirən sözün dəqiq seçilməsini təmin etmək;
- təkrar axtarışlara yol verməmək üçün axtarılmış sözlərin və ifadələrin qarşısına bir + işarəsi yazmaq;
- geniş axtarışlara mane olan sözlərin qarşısına da bir * işarəsi əlavə etmək;
- yersiz materiallarla üzləşməmək üçün çox sözdən istifadə etməməyə çalışmaq (3-4 söz kifayətdir);

- Təcrübi yardıma ehtiyac duyduqda çaşqınlığa düşməmək, müəllimə müraciət etmək.

Araşdırmalar göstərir ki, Azərbaycan tarixinin tədrisinin təşkili üçün yararlı ola bilən internet saytların sayı hər gün artmaqdadır. Odur ki, tədris zamanı istənilən mövzu ilə bağlı axtarışların aparılmasını təmin edən müvafiq saytları tapmaq mümkündür. Aşağıda göstərilən internet səhifələri təlimin təşkilində şagirdlər üçün yararlı hesab edilə bilər:

-www.google.az
-www.edu.gov.az
-www.azerpaint.aznet.org
-www.azeribooks.aznet.org
-www.kitabxana.org
- www.teh tehsil.20m.com
-www.t.q.d.k.gov.az
-www.top.az

Təcrübələr zamanı müəyyən edilmişdir ki, internet səhifələrindən istifadə təlimin hər üç mərhələsində (təlimə hazırlıq, təlim vaxtı və öyrənilənlərinyekunlaşdırılması) səmərəlilik baxımından çox əhəmiyyətlidir. Tədris edilən mövzu şagirdə tanış deyilsə və ya az tanışdırsa, o, kompyuter vasitəsilə internet səhifələrdən yeni informasiyalar əldə edir, bunları öz tapıntısı kimi dəyərləndirir və araşdırmalarının diapazonunu daha da genişləndirməyə cəhd edir. Beləliklə, əldə etdiyi hər yeni məlumat araşdırmaların məhsulu kimi dəyərləndirilir. Mövzu mənimsənildikdən sonra da araşdırmalar aparmaq faydasız deyil. Əksinə, şagird artıq mənimsəmiş olduğu məlumatları internet səhifələrindəki informasiyalarla müqayisə edir, onların arasında fərqli cəhətlər aşkar edirsə, məsələ ətrafında geniş müzakirələr açır. Faktlarla bağlı məlumatları dəqiqləşdirmək məqsədilə, internet səhifələrində digər mənbələrə üz tutur. Bu da öz növbəsində şagirdin araşdırma və tədqiqatçılıq qabiliyyətinin inkişafına xidmət edir. Digər tərəfdən, əgər şagird dərsliklə internet səhifələri arasında bir fərq görmürsə, bu onun biliklərinin təkmilləşməsinə daha yaxşı təsir göstərir, mövzunun mənimsənilməsinə yardımçı olur.

Dərsin əsas məqsədi şagirdlərin tədqiqatçılıq və idraki fəaliyyətinin təşkilinə istiqamətlənsə də, ictimai yanaşmalar və maraqların inkişafı məsələləri də diqqətdən kənarda qalmamışdır. Belə ki, problemli təlim zamanı həmin bacarıqların inkişafına təcrid olunmuş şəkildə nail olmaq qeyri-mümkündür. Buna baxmayaraq, təlimin məqsədindən asılı olaraq həmin bacarıqlardan biri təlim prosesində aparıcı, digərləri isə yardımçı xarakter daşıya bilər. Aparılan eksperimentlər göstərilənləri bir daha təsdiq etdi. Belə ki, problemin həllinə nail olmağa xidmət göstərən məlumatların əldə edilməsi üçün şagirdlər internet səhifələrində və digər mənbələrdə tədqiqatçılıq, əldə edilən informasiyaların emalı zamanı idraki, birgə fəaliyyət zamanı ictimai bacarıqlar baxımından fəaliyyətdə olmuşlar. Təlimin təşkili zamanı şagird marağı və onun inkişafının təşkili də aparıcı rol oynamışdır. Belə nəticəyə gəlmək olar ki, bu bacarıqların inkişafının qarşılıqlı əlaqəli şəkildə təşkili təlimin səmərəliliyinin yüksəldilməsində mühüm şərtdir. Aparılan təcrübələr bu mülahizələrin doğruluğunu təsdiq etdi. (4, s.168)

Aparılan təcrübələr və əldə edilən nəticələr sübut etmişdir ki, həqiqətən tarixin tədrisində internetdən istifadə şagirdlərin tədqiqatçılıq və idraki fəallığının yüksəldilməsi ilə həmin bacarıqların formalaşmasında çox səmərəli vasitədir. Belə ki, təlim prosesində İnternet Explorer proqramı vasitəsi ilə müxtəlif səhifələrdən əldə edilmiş elektron məlumatlar tətbiq, təhlil və sintez edilərkən şagirdlərin induktiv, deduktiv və məntiqi düşünməsinin inkişafı üçün optimal şərait yaranmışdır. Təlim prosesində şagirdlər idraki bacarıqlarla yanaşı həm də internetdən istifadə edərkən qaydalara riayət etməklə ictimai mədəniyyət nümayiş etdirmişlər. Şəxsi maraqlarını çoxluğun maraqları ilə uzlaşdırmaq istiqamətində də yüksək nəticələr nümayiş etdirmişlər. Bu da sinifdə şagirdyönümlü təlim şəraitinin yaradılması və öyrənənlərin təlim prosesində fəal olmasını təmin edən mühüm amil kimi dəyərləndirilir.

Ədəbiyyat

1. Fəal təlim və məktəb rəhbərliyi / "Fəal təlim məktəbləri şəbəkəsinin yaradılması" mövzusunda keçirilmiş seminarın materialları. Bakı, YUNİSEF, 2000
2. M.C. Mərdanov Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr… Bakı, 2001.
3. Григальчик Е.К., Губаревич Д.И.Обучаем иначе. Стратегия активного обучения. Минск, 2003, 148 стр
4. Fəal təlim və məktəb rəhbərliyi / "Fəal təlim məktəbləri şəbəkəsinin yaradılması" mövzusunda keçirilmiş seminarın materialları. Bakı, YUNİSEF, 2000.
5. Амонашвили Ш.А. В школу –с шести лет./ Педагогический поиск., М., Педагогика, 1989, 560 стр.
6. Əlizadə Ə.Ə., Əlizadə H.Ə.Yeni pedaqoji təfəkkür: psixopedaqogiyaya giriş. B., ADPU, 2008, 479 səh.
7. Жук А.И., Кошель Н.Н.Активные методы обучения в системе повышения квалификации педагогов М., «Аверсэв», 2004, 244 стр.
8. Григальчик Е.К., Губаревич Д.И. Обучаем иначе. Стратегия активного обучения. Минск, 2003, 148 стр.

И.Ф.Юсифов

Использование возможностей интернет-технологий и ИКТ в процессе преподавания истории

Резюме

В статье, на основе сравнения, отмечаются позитивные и негативные стороны традиционного и интерактивного методов обучения. Интерактивный метод играет огромную роль в развитии ментальных способностей студентов, возникновении мотивации.

Использование ИКТ для развития дистанционного обучения и возможностей Интернета. Были отмечены преимущества дистанционного образования и информатизации образования. Были зарегистрированы веб-сайты.

I.F.Yusifov

Use of Internet technologies and ICT opportunities in the process of teaching history

Summary

The positive and negative sides of traditional and interactive methods of teaching wish comparison are noted in this article. Interactive methods have a great role in development of students' mental activity and comprehension, organization of motivation.

The use of ICT for the development of distance learning and Internet opportunities. The advantages of distant education and the informatization of education were mentioned. Web sites were recorded.

Rəyçi: t.f.d., dos. E.E.Məmmədov

Redaksiyaya daxil olub: 02.03.2018

И.Г.ГАСЫМОВА

Азербайджанский университет языков
(г. Баку, ул. Р.Бехбудова, 60)

ВЗАИМОСВЯЗЬ УСТНЫХ ФОРМ РАБОТЫ С ПИСЬМЕННЫМИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

Ключевые слова: *взаимосвязь устных форм работ с письменными, письменная речь, устная речь, упражнения*
Açar sözlər: *qarşılıqlı əlaqə, şifahi nitq, yazılı nitq, mərhələlər*
Key words: *interrelation, oral form, written work stages, exercises*

Если долгое время в обучении русскому языку как иностранному большое внимание уделяли письменным формам работы, в основном выполняли упражнения для развития письменной речи студентов, то на современном этапе большое внимание уделяют развитию устной речи студентов, и зачастую выполняют упражнения для развития устной речи студентов-иностранцев.

Применение упражнений для развития только письменной или только устной речи может не дать требуемых результатов. По нашим наблюдениям, на уроках РКИ педагоги дают недостаточно заданий для развития слуховой памяти, поэтому при обучении необходимо использовать элементы аудирования с целью развития и взаимообогащения слуховой, зрительной, речевой функций. Однонаправленный процесс обучения приводит к снижению уровня мотивации студентов.

На наш взгляд, подбор и применение разнообразных упражнений как для развития письменной и устной речи студентов одновременно является обязательным условием для получения не только теоретических знаний (правила, грамматический строй языка, правописание, орфографические навыки), но и выработать у них необходимые умения и навыки, которые они могли бы использовать в дальнейшей речевой деятельности (как в письменной так и устной).

Наша речь имеет два способа выражения – в устной форме и в письменной. Для того чтобы добиться наиболее эффективных результатов, следует соотносить развитие устной и письменной речи.

Так, из наблюдений над студентами второго курса стало ясно, что, хотя устная и письменная речь являются двумя сторонами одного языка, доминирующим выступает развитие устной речи, и если она не подкрепляется письменными упражнениями, устные формы работ начинают терять свою эффективность.

Естественно, на сегодняшний день устная речь при изучении языка мотивирует студентов больше, чем письменная.

Для развития устной речи студентов выполняется немало упражнений типа: заучивание типовых фраз, заучивание диалогов, стихотворений и т.д., составление диалогов (по заданной тематике), импровизация, вставка реплик, пересказ услышанного, беседа на заданную тему, повторение слов или фраз за учителем, монолог и т.п. При выполнении упражнений такого типа устная речь сопровождается невербальными средствами общения: мимика, жесты, интонация, паузы, поза и т.д.

Подобные формы работы развивают лишь слуховое восприятие языка, письменное подкрепление со стороны студентов отсутствует, в результате чего наблюдается смешение языков, что приводит к понижению эффективности. Продуктивным является применять параллельно письменные формы работы, которые строятся на грамматическом строе языка, способствуют вынесению недостатков в устной речи.

«Устная речь обладает таким интонационным разнообразием речи, что может передать всё богатство человеческих переживаний, настроений». (2, с.8)

Упражнения, выполняемые для развития устной речи (выше приведенные) характеризуются такими моментами как: контакт с собеседником, ситуативность, интонационная оформленность, темп, позы, жестикуляция, обилие простых предложений, имеет место инверсия, используются эллиптические конструкции (часто встречается в диалоге), вставные конструкции, перифразы, риторические вопросы. Ошибки создаваемые в устной речи студентов отражаются (неосознанно переносятся) в их письменной речи. Необходимо заранее предвидеть данные ситуации и вводить корректировки в устную речь студентов (таких как следить за правильным произношением ими: слов, фраз и т.п., лексическим сочетанием слов, падежных окончаний, согласование во времени и т.д.).

Оформление мыслей в словесную оболочку зависит от говорящего.

«Письменная речь – это графическая передача устной речи (её звукового потока) и вместе с этим смысло-интонационного содержания, заключенного в ней». (5, с.159)

В противовес устной речи в развитии письменной речи используется книжный язык, применяются предложения со сложной синтаксической конструкцией, причастные и деепричастные обороты, распространённые определения, строгая логическая связь между предложениями или абзацами в тексте, полнота содержания, детальность содержания. Вырабатываются навыки письма и совершенствуются орфографические знания.

Письменная речь способствует грамотному и логическому формированию мысли.

Для развития письменной речи учащихся и в случаях, когда уделяется внимание развитию устной речи используются упражнения типа: списывания, переписывания с осложненными заданиями, орфографические задачи, грамматический разбор, выписки и т.д., наряду с этим развивается зрительная память. Студенты наглядно запоминают правильное написание слов (но в некоторых случаях не знают правильного произношения встречаемых слов).

После проделанных теоретических и практических анализов, мы выбрали упражнения, в которых развитие устной и письменной речи взаимодействуют:

1. Изложение прослушанного в письменной форме. Перед тем, как излагать текст в письменной форме студенты воспринимают его на слух, что способствует активному вниманию и логической памяти. При изложении имеют место элементы рассуждения, оценки своего отношения. Подобные упражнения вырабатывают навыки связно и логично излагать мысли.

2. Диктант – учащиеся записываю текст под диктовку педагога. Эффективность данной формы работы заключается в том, что студенты развивают умения писать на слуху, параллельно применяются теоретические знания и вырабатываются навыки письма в целом.

3. Сочинения (сочинения по опорным словам, с дополнением текста, сочинения по картине, сочинения с грамматическими заданиями). Сочинения расширяют лексический запас слов студентов. Далее работы читаются вслух. В случаях, когда при произношении или лексической сочетаемости слов имеются ошибки, педагог может ввести коррективы или указать на них, чтобы предотвратить их наличие в речи.

Как средство взаимосвязи устной и письменной речи, продуктивным является использование при обучении интерактивной доски, в качестве укреплении нового материала, правил и лексического минимума. В наглядной форме обработка зрительно-слухового материала с более четким и последовательным аудированием. Также возможно использование аудиофайлов, слайдов с тематическими рисунками и правилами на новую тему, со слуховым восприятием для определения четкости произношения в целях усовершенствования речи.

Так, например, на интерактивной доске отразились подобные слова, в которых сочетание согласных «ЧН» в устной речи слышится «ШН». Зрительно студенты запоминают написание данных слов (конечно, скучно, пустячный и т.д.) и предлагаются составить предложения с данными словами или построить диалог с учетом их употребления в устной речи. В результате проведенного анализа количество ошибок сводится к минимуму.

Литература

1. Бедалов Ч.А.Методика преподавания русского языка в азербайджанской школе. Баку: Маариф, 1981.
2. Бубнова Г.И., Гарбовский Н.К. Письменная и устная коммуникация: Синтаксис и просодия М., 1991.
3. Ладыженская Т.А.Устная речь как средство и предмет обучения. М., 1998.
4. Максимов В. И. Русский язык и культура речи, М., 2004.
5. Шанский Н.М. Современный русский язык. М.,1987

İ.Q.Qasımova

İkinci xarici dil kimi rus dili dərslərində rus dilinin yazılı və şifahi formaları arasında qarşılıqlı əlaqə

Xülasə

Məqalə rus dili dərslərində məhsuldar tapşırıqlar sistemindən istifadə etməklə tələbələrin həm yazılı, həm də şifahi nitqin qarşılıqlı şəkildə inkişaf etdirilməsi problemlərinə həsr edilmişdir. Yaddaş tipinin inkişaf etdirilməsi əsasında mərhələlərin qurulmasının səbəbləri və üstünlükləri məsələləri araşdırılır, şifahi nitqi və eyni zamanda kommunikativ bazanı inkişaf etdirən tapşırıq tipləri müəyyən edilir.

Göz yaddaşını inkişaf etdirən elementlərlə yanaşı şifahi nitq prosesindən kifayət qədər istifadə edilməməsi səbəbindən əmələ gəlmiş səhvlər və xətalar müəyyən edilir. Yaddaşın konkret tipini inkişaf etdirmək qabiliyyəti ilə yanaşı, şifahi və yazılı nitqi bərabər səviyyədə inkişaf etdirmək məqsədi ilə dərslərin daha səmərəli keçilməsinə imkan yaradan vasitələr məqalədə nəzərdən keçirilir.

I.G.Gasimova

Interrelations between oral forms of work and written work in the lessons of Russian language as a Foreign language

Summary

The article has been devoted to the consideration of issues on the development of oral and written speeches among the students, using the productive types of exercises. The advantages and causes of setting up the stages of teaching on the basis of one type of memory development, the types of exercises developing the oral speech and also the communicative basis are determined.

The causes of mistakes and errors appearance, linked with less application of the process of oral speech along with the elements to develop the eye memory. Along with the ability to develop a concrete type of memory, means, assisting to carry out the lesson effectively, equal development of oral and written speeches are considered in the article.

Рецензент: к.ф.н., доц. Ф.С.Бахшиева

Redaksiyaya daxil olub: 27.02.2018

А.Р.ИСМАИЛОВА

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

«КУЛЬТРОЦЕНТРИЗМ» И ВОСПИТАНИЕ ЯЗЫКОВОЙ ЛИЧНОСТИ

Ключевые слова: *языковая личность, культуроцентризм, художественный концепт, лингвокультурология*
Açar sözlər*: dil şəxsiyyəti, kulturosentrizm, bədii konsep, linqvokulturologiya*
Key words*: language personality, cultural centrism, artistic concept, linguoculturology*

В связи с современным компетентностным подходом все больший интерес вызывает концептная методика. Что это такое? Термин-концепт в словаре лингвистических понятий определяется как «сгусток языка и культуры в сознании человека». Иными словами, это есть такое понятие, в виде чего культура органично входит в ментальный мир человека. Концептная методика является в данном отношении важным дополнением к анализу основ русской нации в силу того, что она отражена и сформирована во внутренних формах национального языка.

1. Барселона и шедевры Гауди. - М.: Вече, 2015**.** - 240 с.
2. Воскресенский В.Ю. Международный туризм: учебное пособие. - Москва: Юнити-Дана, 2012 г.
3. Ирисова Т. А. География туристтических центров. М., 1996.г.
4. www.gezipgordum.com/Barselona-gezilecek-yerler/
5. www.unesco.org
6. www.csmonitor.com/Books/2013/0625/10-books-about-Antoni-Gaudi
7. www.gezimanya.com/ispanya/barselona
8. Kentler ve Gölgeler - Antoni Gaudi - Barcelona - Anlatan: Mehmet Kütükçüoğlu

Б.Билалов, Ф.Джахангирова

Туристические места Барселоны

Резюме

В статье рассказывается о прекрасных достопримечательностях Барселоны, втором по величине городе в Испании, который играет важную роль в индустрии туризма. Здесь также находятся легендарные творения архитектора Гауди с их интересной историей. Для создания мнимых изображений существующих туристических направлений даются конкретные рекомендации. Вы также познакомитесь с известными музеями и пляжами в городе.

B.Bilalov, F.Jahangirova

Barcelona's tourist attractions

Summary

The paper is about the must-see places of Barcelona, the second biggest city of Spain, which plays an important role in tourism sector. Besides, architect Gaudi and his legendary creative works, as well as their interesting history of formation are reflected here. Concrete directions have been given to create imaginary descriptions about the current tourist attractions. With reading paper you will also have a chance to get acquainted with famous museums and beaches of the mentioned city.

Rəyçi: c.f.d., dos. M.Sadıqov

Redaksiyaya daxil olub: 07.03.2018

Ə.H.CABBARLI
tarix üzrə fəlsəfə doktoru, dosent

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

NAXÇIVAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ

Açar sözlər: *Azərbaycan, Naxçıvan, cümhuriyyət, respublika, mübarizə, parlament*
Ключевые слова: *Азербайджан, Нахчыван, республика, борьба, государственность*
Key words: *Azerbaijan, Nakhchivan, republic, democratic, parlament*

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 16 may 2017-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalamışdı. Həmin Sərəncamda qeyd edilir ki, 2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın–Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Bu məqsədlə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik sələnməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsi təmin edilsin (16).

Doğrudan da, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dəfə yeni suveren dövlət – Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bu dövlət öz suverenliyini qoruyub saxlamaq üçün təkcə Rusiya ilə deyil, dünyanın böyük dövlətləri ilə də mübarizə aparmalı olmuşdu. Amma bu yol olduqca çətin bir yol idi. Böyük – ABŞ, İngiltərə, Fransa kimi dövlətlərin təzyiqi altında 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası Azərbaycan-Ermənistan arasındakı sərhəd problemini müzakirə edərək öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi barədə qərarı qəbul etməyə məcbur oldu və bu qərarı "tarixi zərurət", "labüd bəla" hesab etdi (2, s.249).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr belə Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürməyə başladılar. Bu dövrdə Cümhuriyyətin ərazisi 113,895,97 km^2 idi (3, s.161). Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla da bağlı məsələlərin həllində böyük işlər görmüşdü. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına ikman verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdi.

Çar Rusiyası bir sıra Azərbaycan torpaqlarını, xüsusilə, Naxçıvan diyarını Ermənistana vermək uğrunda açıq və gizli mübarizə aparırdı. Naxçıvana yiyələnmək uğrunda böyük kapitalist dövlətlərinin də arasında mübarizə gedirdi. 1828-1930-cu illərdə Naxçıvan diyarına köçürülmüş və orada məskunlaşmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Xarici qüvvələrə arxalanan Ermənistan Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətini daha da genişləndirirdi. Eyni zamanda, ABŞ, İngiltərə, Fransa kimi böyük dövlətlər də Ermənistana hərtərəfli yardım göstərirdilər. Ermənilərin Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu diyarı daha da çıxılmaz vəziyyətə salmışdı. Naxçıvanda yaşayan ermənilər burda fitnəkarlıq törədir, Andranik Ozanyanın silahlı dəstələrinin hücumu nəticəsində şəhər və kəndlər talan edilir, dinc əhaliyə divan tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi diyarın Azərbaycan torpağı kimi qorunub saxlanması uğrunda mübarizə aparırdı. Lakin mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin mübarizəsinə böyük əngəllər törədirdi. Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi türklərlə əlaqələri daha da genişləndirməyi lazım bilirdi. Həmin vaxtda türklər Naxçıvana doğru irəliləyirdilər. Naxçıvan əhalisi daşnaklara

layiqli cavab vermək üçün, torpaqlarının müdafiəsi üçün ayağa qalxdı, xalq qoşun dəstələri yaradıldı. Qoşun dəstələri 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsini məğlub etdi.

Türkiyə Mudros müqaviləsinə (1918, 30 oktyabr), 1918-ci ilin noyabrın ilk günündə qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu. Yerli əhali 1918-ci il noyabrın 3-də Araz-Türk Cümhuriyyətinin müvəqqəti müstəqilliyini elan etdi. Bu cümhuriyyət bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə diyarın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi (4, s.47).

Araz-Türk Cümhuriyyətinin silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı. Naxçıvan əhalisi ermənilərə qarşı ciddi-cəhdlə mübarizə aparırdılar. Əhalinin 1919-cu il yanvar ayının 4-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə müraciətində ermənilərin Naxçıvan, Şərur və Ordubadda törətdikləri vəhşiliklər haqqında məlumat verilirdi.

Naxçıvanda baş verən hadisələrə diqqət yetirən Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökuməti Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmişdi (5, s.246).

1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərdi. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu (2, s.253). Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı (6, s.153-154).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti erməni daşnaklarına Naxçıvanda törətdikləri vəhşiliklərə son qoymaq üçün müttəfiqlərin Qafqazdakı Ali Komissarına müraciət etdi. 1919-cu il yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Cümhuriyyətinin yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdi.

Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı dövləti çox güclü bir şəkildə yerləşdiyi Qafqaza vida etdi. Beləcə Cənubi Qafqaz İngiltərənin təsir dairəsinə daxil edildi. İngilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya, 1919-cu ilin yanvarında isə Naxçıvana gəldi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan bölgəsinə dair suveren hüquqlarının bərqərar edilməsinə yönələn tədbirlərin həyata keçirilməsi ingilislər tərəfindən müdafiə olunmur və müxtəlif maneələrlə qarşılaşırdı (7, s.129).

Bu kimi çətinlikərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi bölgənin təhlükəsizliyinin təmin edilməsi və əhaliyə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq üçün böyük tədbirlər həyata keçirir, bu diyarın Azərbaycanla birləşməsini təmin etmək istəyirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli işlər görə bilməsə də, bəzi diplomatik və siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskinin fikrincə əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək omazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında Təkinskinin böyük əməyi omuşdur (8).

Naxçıvan bölgəsinin əhalisi özlərini Azərbaycanın ayrılmaz hissəsi sayırdılar. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvanın Azərbaycanın ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi köməklik etmiş və qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirmişdilər. Hətta F.Xoyski Parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb, azadlığa çıxdıqlarını söyləmişdi. N.Yusifbəyli 1919-cu il avqustun 18-də Parlamentdəki

çıxışında qeyd etmişdi ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirib (2, s.256).

1919-cu il dekabrın 22-də N.Yusifbəyli Parlamentdə çıxış edir və naxçıvanlıların fədakarlığından bəhs edərək deyirdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." (2, s.256)

Göründüyü kimi, Naxçıvan əhalisi ciddi - cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqə yaratmağa çalışmış, onunla birləşmək üçün müxtəlif yol və vasitələr axtarmışdı. Naxçıvanlıların həyata keçirdikləri bu kimi bütün tədbirlər Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən razılıqla qəbul edilmiş və müəyyən tədbirlər görülmüşdü.

1920-ci ilin əvvəllərindən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin özündə siyasi böhran dərinləşməyə başladı, bu isə Naxçıvana hərbi yardım göndərilməsini çətinləşdirdi. Ermənilərin üstün qüvvəsi qarşısında tək qalmış Naxçıvan rəhbərliyi kömək üçün osmanlılara müraciət etməli oldu. Bu isə öz növbəsində Naxçıvanda Azərbaycanın mövqeyini xeyli zəiflətdi. Bunun nəticəsi kimi 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldu. Bundan sonra Naxçıvanda hərbi-siyasi vəziyyət xeyli mürəkkəbləşdi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan əhalisi ermənilərə qarşı ciddi mübarizə aparır, onların torpaqlarımıza girməsinə imkan vermirdilər. Məhz bu qəhrəmanlıq nəticəsində Şərur, Ordubad, Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi.

Bütün bu kimi məsələlərin təhlili onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və hökuməti Naxçıvan diyarının ərazi bütövlüyünü qorumağa çalışmış, ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş, Naxçıvana hərbi və maddi köməklik göstərmişdir.

Ədəbiyyat

1. "Respublika"qəzeti, 2017, 17 may
2. Naxçıvan tarixi. Üç cilddə, II cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, 528 s.
3. Azərbaycan tarixi: Yeddi cilddə, V cild, Bakı: Elm, 2008, 696 s.
4. Hacıyev A. Qars və Araz türk respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 119 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, II cild Bakı: Lider, 2005, 472 s.
6. Abbasoğlu A. Qafqazda Türk Cümhuriyyətləri. "Ədəbiyyat qəzeti", 1991, yanvar.
7. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dölətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti nəşriyyatı, 1998, 385 s.
8. Paşayev. A Məmmədxan Təkinski kimdir? Xalq qəzeti, 2010, 18 iyul.

А.Г.Джаббарлы

Нахчыван в период Азербайджанской Демократической Республики

Резюме

Как известно, 28 мая 1918 года впервые на мусульманском Востоке появилось новое суверенное государство – Азербайджанская Демократическая Республика. Новые азербайджанские государство зародилось в сложнейних внутренних и международных обстоятельствах. Для сохранения своего суверенитета оно должно было вести неравную борьбу не только с Россией, но и с другими державами мира. В этот период АДР-ой было сделано многое и в отношении Нахчивана. Так, правительство и парламент АДР уделяли особое внимание в своей деятельности, во внутренней и внешней политике вопросам, непосредственно связанным с Нахчываном, в частности, территориальной целостности края. Благодаря целенаправленной политике АДР территория региона не была захвачена армянами, при этом ему была оказана помощь в

политической, военной, материальной и моральной сферах. В статье были освещены эти и другие вопросы, свзанные с поддержкой АДР древного азербайджанского края-Нахчывана.

A.H.Jabbarli

Nakhchivan in the period of Azerbaijan Democratic Republic

Summary

As you know, on May 28, 1918, for the first time in the Muslim East the new sovereign state emerged – the Azerbaijan Democratic Republic. The new state was formed in ultimately complicated internal and external conditions. To preserve it`s own sovereignty, it had to wage an unequal struggle not only with Russia, but also with other powerful countries of the world. During this period the ADR did a lot toward Nakhchivan. Thus, the government and the parlament of the ADR paid special attention to issues directly and indirectly related to Nakhchivan, in particular, the territorial integrity of the region, in its activities, in domestic and foreign policy. Thanks to the purposeful policy of the ADR, the territory of the region was not captured by the Armenians, it was assisted in political, military, material and moral spheres. The article covered these and other issues related to supporting the ADR of the ancient Azerbaijani province of Nakhchivan.

Rəyçi: t.f.d., dos. İ.İ.Kəngərli

Redaksiyaya daxil olub: 30.01.2018

M.A.ƏHMƏDOV
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN TELEXƏBƏR APARICILIĞINDA BƏZİ ETİK PROBLEMLƏR

Açar sözlər: *Azərbaycan telekanallarında xəbər, televiziya, xəbər aparıcıları, jurnalistika, etik problemlər, etik prinsiplər*

Ключевые слова: *новости на Азербайджанских телеканалах, телевидение, ведущие новостей, журналистика, этические проблемы, этические принципы*

Key words: *news on Azerbaijan TV-channels, TV-journalism, news anchors, journalism, ethical issues, ethical principles*

Zaman keçdikcə milyonların seyr etdiyi televiziya yaradıcılıq sahəsi və eyni zamanda, informasiya vasitəsi kimi inkişaf edib müasir günümüzə kimi gəlib çatdı. Burada yaradıcı peşələrlə yanaşı, texniki peşələr də müəyyənləşdi və beləliklə televiziyada çalışanların hər birinin ayrı-ayrılıqda fəaliyyətinin özünəməxsus iş üsulu, peşəkar özəllikləri, ən əsası isə etik qaydaları formalaşdı.

İstənilən televiziyanın baş qəhrəmanı, onun siması birmənalı olaraq xəbər proqramlarının aparıcılarıdır. Zaman keçdikcə özünü tamaşaçıya sevdirə bilən telexəbər aparıcısı az qala bütün insanların doğmasına çevrilir, çalışdığı telekanalın nüfuzunu tamaşaçı gözündə yüksəldir. Bu isə ona heç də asanlıqla başa gəlmir; aparıcı ilə tamaşaçı arasında kommunikasiyanın yaranması üçün ondan yüksək peşəkarlıq tələb olunur. Əgər aparıcı ünsiyyət qurma bacarığına malik ola bilsə, o zaman onun aparıcılığı tamaşaçı tərəfindən asanlıqla qəbul olunacaq. Yəni tamaşaçı televiziya ekranından səslənən çıxışın şəxsən ona aid olduğunu rahatlıqla qavraya biləcək. Lakin bu, ilk növbədə aparıcının yaradıcılıq qabiliyyətindən, istedadından və peşəkarlığından asılıdır. Əgər aparıcı öz tamaşaçısını efirə çıxdığı ilk gündən özünə cəlb edə bilsə, onu özünə inandırsa, bunu aparıcının gələcəkdə ən sevimli aparıcılardan biri kimi yadda qalacağına zəmin yaradan amil kimi hesab etmək olar.

İstənilən aparıcı öz tamaşaçısının gözündə istədiyi səviyyəyə qalxmaq üçün çatdıracağı xəbərə ilk növbədə özü inanmalıdır. Çünki aparıcı jurnalistin sözünün kəsərli, qüvvətli, ən əsası isə inandırıcı olması üçün bu əsas amillərdəndir. Əgər aparıcı öz proqramını tamaşaçıya çatdırmaqda etik baxımdan təsdiq etmək, eyni zamanda, peşəkarlığını tamaşaçı və nəzəriyyəçilər qarşısında sübut etmək istəyirsə, onun qarşısında dayanan müəyyən vacib şərtlərə mütləq əməl etməlidir.

Bu şərtləri aşağıdakı kimi qruplaşdırsaq, aparıcı:

- verilişin mövzusuna yaxından bələd olmalıdır;
- hər verilişə tam və əminliklə hazır olmalıdır;
- səlis nitq və fikri çatdırma qabiliyyətinə malik olmalıdır;
- tamaşaçı ilə öz arasında kommunikasiya yaratmağı bacarmalıdır.

Bu şərtləri yerinə yetirmək üçün aparıcıya yardımçı olan müəyyən amillər mövcuddur. Burada, aparıcının mimikası, jestikulyasiyası və ümumi davranışı diqqət mərkəzində olan əsas amillərdəndir. Əlbəttə, aparıcının saç düzümü, makiyajı və geyimi də tamaşaçı ilə rabitə zamanı böyük rol oynayır, eləcə də tamaşaçıda onun barəsində rəy yaratmağa şərait yaradır. Çünki tamaşaçı ilk növbədə efirdə hər hansı xəbərin səslənməsindən əvvəl, əsas diqqətini aparıcının təbəssümünə, mimikasına, jestlərinə və ünsiyyət qurma, eləcə də rabitə yaratma bacarığına yönəldir.

Televiziya aparıcıları barədə danışanda öncə gözönünə müxtəlif telekanallarda çalışan, tamaşaçıları hər gün ölkə və dünyada baş verən ən son hadisələrlə məlumatlandıran xəbər aparıcıları gəlir.

İtənilən sahədə olduğu kimi televiziyada çalışan hər bir gənc aparıcı jurnalist də əvvəlcə özünü təsdiq etməyə çalışır. Lakin bu ona heç də zəhmətsiz və ya asanlıqla başa gəlmir.

Televiziya xəbərini tamaşaçıya çatdırmaq digər proqramlarda olduğu kimi yalnız aparıcının işi deyil, bu, həm də kollektiv yaradıcılıqla məşğul olan insanların işidir. Ona görə bu işdə hər peşə sahibinin öz işini dəqiq bilməsi və onu layiqincə yerinə yetirməsi olduqca vacib şərtdir.

Amma burada bir amili də nəzərə almaq lazımdır ki, aparıcı digər peşə sahiblərindən fərqli olaraq tamaşaçı tərəfindən ekranda görünür. Bununla yanaşı burada aparıcı, sanki öz tamaşaçısını görür, onunla az qala açıq təmasda olur. Şübhəsiz ki, aparıcının auditoriyasız studiyada, sanki canlı olaraq tamaşaçı ilə üz-üzə dayanması psixoloji baxımdan çox çətindir. Çünki xəbəri çatdıran zaman aparıcının fikri əsasən, kameranın obyektivində - telesuflyorda olur. Ona görə də bu prosesi yerinə yetirən zaman aparıcı sanki iki işi eyni anda görməyə məhkum olunur. Bu, xəbər çatdırma zamanı aparıcının məharətini üzə çıxaran əsas amillərdən biridir. Digər tərəfdən isə aparıcı bütün hallarda ümumi işin məhsuldar alınması üçün öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Bunun üçün də aparıcının yaradıcılıq qabiliyyəti ilə yanaşı həm də texniki vərdişlərə malik olması çox vacibdir.

Azərbaycan telekanallarında xəbər aparıcılarının fiziki özəllikləri - xoşagəlimli görkəm, səs tembri, bəzi aparıcılar istisna olmaqla düzgün tələfüz olsa da, amma onların tamaşaçını inandırma bacarıqları hələ ki tam olaraq gözlənilən səviyyədə deyil. Bu problem, əsasən, özəl televiziya kanallarında daha çox müşahidə olunur. Şübhəsiz ki, bunun əsasında yerli telekanallarda çalışan xəbər aparıcılarının əksəriyyətinin gənclərdən ibarət olması dayanır.

Aparıcı xəbərə nəzarət etməyi bacarmalı, xəbərə nəzarəti ələ ala bilməyən aparıcı çox rahatlıqla tamaşaçıya həyəcanını, hər hansı ekstrimal vəziyyəti biruzə edə bilər. Xəbər aparıcısı öz tamaşaçısında inam və güvən yaratmağı bacarmalıdır.

AZTV-nin keçmiş xəbər aparıcısı Rəşad Mehdili deyir: "Aparıcı özü xəbəri yaşamalı, xəbərin mahiyyətini bilməli, xəbəri tamaşçıya elə çatdırmalıdır ki, onu inandıra bilsin, eləcə də elə təqdim etməlidir ki, izləyici aparıcıya güvənsin onun dediklərini qəbul etsin". İlk dəfə efirə çıxmağından danışan Rəşad Mehdili qeyd edir ki, "efirə ilk çıxdıqda çox həyəcanlıydım. Jurnalistin ilk efirə çıxmağı xüsusi "mərasim" olur desəm, yanılmaram. Qabaqcadan efirə hazırlayırlar, çalışırlar ki, materialın az olsun ki, rahat olsun. Onsuz da həyəcanın var, kamera həyəcanı, üstəlik bu ilk efirdi, hər kəsin diqqəti səndədir. Kameralar, işıq, baxmayaraq ki, mütəmadi məşğul olursan, hazırlaşırsan, amma ilk efiri həyəcansız təsəvvür etmək olmaz. Başlıq gedəndən sonra rejissor komanda verir: "Rəşad donub". Sadəcə, kameraya baxmışam. Operator işarə edir: "başla", növbətçi redaktor gülür, saniyələr gedir və birdən ayılıram ki, efirdəyəm axı. Tez salamlaşdım və ardınca xəbər başlıqlarını oxumaga başladım. Bir də onu gördüm ki, texniki, yaradıcı heyət dərindən bir ah çəkdi. Beləliklə, birinci efirim belə həyəcanlı keçdi" (1).

Amma Amerikada xəbər aparıcısı seçimində orta yaşlı kişilərə üstünlük verilir və tədqiqatçıların fikrincə, orta yaşlı insanda inam oyadan, sakit görkəmli kişilərin təqdim etdiyi xəbər auditoriyanı daha tez cəlb edir və inandırır. Çünki xəbər aparıcısı çalışdığı kanalın bir növ ən çox tamaşaçı ilə üz-üzə gələn simasıdır. Buna görə də aparıcı seçimində bir çox telekanalların öz yanaşması olur. Məsələn, ABŞ-da əvvəllər gənc aparıcılara üstünlük verilirdisə, amma statistik göstəricilərdən məlum oldu ki, orta yaşlı kişi və ya qadın aparıcı tamaşaçılarda daha çox inandırıcılıq hissi yarada bilir.

Bununla bağlı "Xəzər xəbər"in aparıcısı Vamiq Nasirov bildirir: "Fikrimcə, xəbər aparıcısı nisbətən yaşlı olmalıdır ki, daha çox inandırıcı təsir bağışlasın. Məsələn, 50 yaşlı bir kişi bir informasiyanı jestlə izah eləsə, efirdə bu daha tez qəbul olunar, amma cavan 18-21 yaşlı biri çıxıb efirdə nə isə izah etməyə çalışsa, orta yaşlı tamaşaçı fikirləşəcək ki, bu kimdiki

mənə nəyisə izah edir. Əgər yaşlı və inandırıcı danışan biri çıxıb efirdə xəbər versə, bu daha inandırıcı, eləcə də tamaşaçı tərəfindən qəbul olunan olacaq. Hətta 25 ya 26 yaşlı birinin xəbər aparmağına həm də ana xəbər dediyimiz əsas xəbər buraxılışını aparmağına müsbət baxmıram. Tez-tez müraciət etdiyimiz Türkiyə mediasından deyək, Məmmədəli Birandı brendləşmiş bir adam kimi göstərmək olar, bundan başqa Oğuz Aksever, Ali Kırca bunların çoxunun 60 ya 70 yaşı var, aralarında bir az cavan Can Dündarı göstərmək olar. Belə aparıcılar həm gördüyü işləri ilə, həm də yaşları ilə sözlərini demiş insanlardır, onların dedikləri hər hansı tanınmamış ilk dəfə efirə aparıcı kimi çıxmış insanlardan daha təsirli və inandırıcı olar. Hazırda ölkə telekanallarında bu kriteriyaya riayət olunmur, demək olar, aparıcıların əksəriyyəti gənclərdir. Müəyyən qədər 30-35 yaşlı aparıcılar günorta bülletenlərini apara bilər, tamaşaçı bu bülleteni səbirsizliklə gözləmir ancaq, ana xəbər bülletenində bu doğru deyil. Ana xəbər aparıcıları bu meyarlara görə xüsusi seçilməlidir və bu çox önəmlidir" (2).

Əlbəttə informasiya elə oxunmalıdır ki, xəbər tamaşaçıya tam dəqiqliyi ilə çatsın. Tamaşaçı aparıcıya inansın. Məsələn, "CNN", "BBC", "Əl-Cəzirə" kanalları bu məsələdə çox öndə gedir, Azərbaycan teleməkanında isə bu hələ də problem olaraq qalır. Elə bir aparıcı yoxdur ki, veriliş onun adına bağlansın, böyük tamaşaçı auditoriyası qazana bilsin. Nəzərə almaq lazımdır ki, tamaşaçı hər gün aparıcının nitqinə, daxili mədəniyyətinə, biliyinə, zövqünə və ən əsası isə inandırıcılıq bacarığına xüsusi diqqət yetirir.

Azərbaycanın 1 saylı televiziyası olan "AzTV" bu mənada əgər 1991-1994-cü illərdə digər kanallardan seçilirdisə, təəssüf ki, bu gün onun barəsində bu sözləri demək olmur. Rusiyanın "İctimai Televiziyası" və "RTR" bu mənada "AzTV"-dən çox öndədirlər.

Doğrudur, "AzTV"-də xəbər aparıcıları yaş baxımdan düzgün seçilmiş, səlis nitqləri, aydın tələffüzləri ilə seçilsələr də, onlar ekrandan hadisələrə müdaxilə edən, xəbər süjetlərinin məzmunundan irəli gələrək mətn yazan və bu xəbəri tamaşaçıya çatdıran aparıcı yox, redaktorlar tərəfindən yazılmış mətni sadəcə oxuyan diktorlara bənzəyirlər. Məhz bu amil aparıcıların ekran davranışlarını yorucu, solğun, tamaşaçıları özlərinə inandıra bilməyən və psixoloji cəhətdən emosional təsirə malik olmayan bir tərzə salır. Əlbəttə ki, bu amillərin olması telekanalı və aparıcıları inkişafdan saxlayır.

Özəl telekanallarda isə digər qüsurlar özünü göstərməkdədir. Məsələn, "Space" telekanalının xəbər aparıcısı, "Hər gün" informasiya proqramında xəbəri qışqıraraq və yüksək templə aparması, digər televiziyalardakı xəbər aparıcıları ilə müqayisədə daha qüsurlu görünür. Onun özünün efirdə yaxşı görünməsinə baxmayaraq, ana xəbər aparıcısının xəbəri telesuflyordan oxuyarkən yüksək səs tonu və tempi tamaşaçı tərəfindən normal qarşılanmır. Çünki tamaşaçı onun söylədiklərini yalnız səs olaraq eşitdiyindən, xəbərin mahiyyətində nələrin dayandığını dərk etməyə vaxt çatdıra bilmir.

Halbuki, ekranda olan informasiyanın qavranılmasında vizual cəhətlərlə bərabər səs amili olduqca həlledici gücə malikdir. Bu baxımdan aparıcının səs quruluşu, danışıq tərzi, nitq ifadəliyi əhəmiyyətini saxlayır. Aparıcının səs obrazı daha çox informasiyanın keyfiyyətindən və xarakterindən asılı olur. İnformasiya proqramlarında pozitiv xəbəri söyləyərkən yüksək tonda səslənmə, dərindən nəfəs alma baş verir. Kədərli xəbəri çatdıranda isə sürətin azalması, tonun aşağı düşməsi hiss olunur. Tamaşaçı birbaşa bu dəyişmələri hiss etməsə də informasiyanı qavramasına təsir edir. Səsin emosional gücü, təsir imkanları danılmazdır. Səs tonunun qulağa yatımlıq səviyyəsinin aşağı olması, düzgün köklənməməsi informasiyanın çatdırılmasına böyük maneələr yaradır.

Əlbəttə, əgər müasir Azərbaycan telexəbər aparıcısının tamaşaçıya hərtərəfli müsbət enerji verə bilməsinə diqqət yetirsək, onda bunu hələ ki, ATV kanalının efirində görmək olar.

Azərbaycan telexəbər aparıcılığında aparıcıların özlərindən başqa, etik problemlər xəbər proqramlarında nümayiş olunan müəyyən kadrlarda da nəzərə çarpır. Burada əsas problemlərdən biri kimi televiziyada qəddarlığı əks etdirən kadrlara, onların tamaşaçıya necə təqdim edilməsinə diqqət ayırmaq olduqca vacib məsələdir.

Nəzərə almaq lazımdır ki, xəbər proqramlarında zorakılığı əks etdirən kadrları təqdim edən zaman televizorların qarşısında uşaqlar, eləcə də ürəyi xəstə insanlar diqqətdən yayınmamalıdır. Bu kadrların qəfil - xəbərdarlıq edilmədən (ürəyi zəif olanların ekrandan çəkilmələri xahiş olunur) efirə verilməsi onların sağlamlığına - psixikasına birmənalı olaraq mənfi təsir göstərir. Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin 32.0.5-ci bəndinə əsasən terrorizm, zorakılıq, qəddarlıq, milli, dini və irqi ayrı-seçkilik təbliğ olunmamalıdır (3).

Amma təəssüf ki, Azərbaycan teleməkanında bu problemə lazımınca diqqət göstərilmir.

Media eksperti Zeynal Məmmədli qeyd edir ki, məşhur xəbər kanallarında bu tip xəbərlər peşəkarlıqla ictimaiyyətə çatdırılır: "Onlarda sızdırma gedir, zorakılığın olmasını müəyyən vasitələrlə ictimaiyyətə çatdırırlar, daha kadrları tam çılpaqlığı ilə vermirlər. Azərbaycan telekanallarında əksər vaxt bu məqam nəzərdən qaçır. Belə kadrların verilməsi birbaşa zorakılığın təbliğidir. Avropa Şurasının, Nazirlər Kabinetinin zorakılıq və digər bu kimi məqamları əhatə edən tövsiyələri var. O tövsiyələrdə göstərilib ki, materialları heç bir halda zorakılığın təbliğinə, terrorçuluğun təşviqinə, insanlarda şiddət, qorxu yaradacaq bir vasitəyə çevirmək olmaz".

Şübhəsiz ki, etik problemlər inzibati yollarla tənzimlənmir. Yuxarıda qeyd etdiyimiz kimi, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununa görə terrorçuluğun, zorakılığın təbliği olmaz. Etik qaydalar jurnalistlər üçün əsas qanundur. Jurnalistlər etik pozuntuya getməməlidirlər. Zorakılığı təbliğ edən kadrları efirə verməklə ürək xəstələri, xüsusən də uşaqlar psixoloji zədə almış olurlar. Onlarda gələcəkdə ola biləcək intiqamı belə almaq istəyi formalaşır. Bundan başqa, zorakılıq kadrlarını tamaşaçı tez-tez gördükcə ətrafına qarşı soyuqqanlı və ya biganələşməyə başlayır.

"Əsas məqsəd nədir? İnformasiya. Məsələn, filankəs filan yerdə öldürüldü. Amma onun necə öldürülməyini vermək isə düzgün deyil. Yəni, öldürüldüyünü göstərən bir şey verəsən, amma onun incəliklərini, xırdalıqlarını göstərmək, güllə burdan dəydi, burdan çıxdı, insanlar belə təpiklədilər, belə sürüklədilər, əgər bu araşdırma mövzusu deyilsə, peşəkar yanaşma deyil. Yəni ani kadrlarla informasiyanı sızdırırsan, amma qalan detalları göstərmirsən. Əgər tam açıq şəkildə kadrlar təbliğ olunursa, deməli, zorakılıq təbliğ edilir. Baxın, söyüşü necə verirlər, hansısa bir səslə. Burda da ona oxşar vasitələrdən istifadə etməlisən. Məsələn, tutaq ki, çəkici qaldırır, vurmaq istəyəndə kadrı dayandırırsan və yaxud başqa şeylə əvəzləyirsən. Daha necə əzilir, qan necə axır, belə şeyləri göstərmək olmaz" (4).

Məsələn, Liviya prezidenti Müəmmar Qəddafinin qan içində tutulması, öldürülməsi demək olar ki, dünya televiziya və mətbuatının əsas gündəmində oldu. İlk baxışda düşünmək olar ki, xalqına qarşı qəddar davranış nümayiş etdirmiş, şəxsi ambisiyalarına görə minlərlə vətəndaşının canına qıymış bir adamın cəzası məhz bu formada olmalı idi. Amma burada göstərilən kadrlardan psixoloji zədə alabiləcək tamaşaçıların sayının Qəddafinin öldürtdüyü insanların sayından daha çox ola biləcəyini də unutmaq lazım deyil.

Azərbaycan telekanallarında 20 yanvar və Xocalı faciələri ilə bağlı il ərzində tamaşaçını psixoloji zədəyə məruz qoyabiləcək belə kadrlar öz əksini tapır. Doğrudur, belə kadrların göstərilməsi ilk baxışda bu dəhşətli faciələrin xalq tərəfindən unudulmaması və dünyaya çatdırılması nöqteyi-nəzərdən zəruri olduğundan qaçılmazdır. Lakin, qətlə yetirilmiş insanların bu kadrlara hər dəfə baxan doğmalarının mənəvi-psixoloji vəziyyəti, onların bu mənada zərbə altında qalmaları mütləq nəzərə alınmalıdır. Ona görə jurnalistlər bu kimi kadrlara həssaslıqla yanaşmalı və nümayiş zamanı televiziyanın texniki imkanlarından – "mozayka"dan istifadə etmələri çox vacibdir.

Azərbaycan televiziyalarında uşaqlara aid informasiyalarda dəqiq adların verilməsi, bəzən onların fotolarının göstərilməsi qətiyyən yolverilməzdir.

Tanınmış telejurnalist, professor Qulu Məhərrəmli qeyd edir ki, "Etik qaydalara zidd olaraq münaqişəli situasiyalarda uşaqların rəyinə istinad edilməsi, bəzən onlardan müsahibə

alınması, qanuna zidd olaraq azyaşlı uşaqların reklama çəkilməsi də ciddi nöqsanlar sırasındadır. Nöqsanların əsas səbəbi jurnalistlərin peşə etikasından, uşaq hüquqlarından və beynəlxalq konvensiyalardan bixəbər olmalarıdır. Uşaq hüquqları ilə məşğul olan təşkilatlar bu sahədə müəyyən iş aparır, lakin bu işlər 5-6 il əvvəl olduğu kimi ardıcıl, sistemli və səmərəli deyil".

Professorun sözlərinə görə Televiziya təsir vasitəsi olmaqla, uşaqların davranışı və xarakterinin formalaşmasında böyük rol oynayır. Uşaq zorakılığı ilə bağlı verilişləri efirdə detalları ilə vermək olmaz. Bunun qanunla qadağası "Teleradio haqqında" qanunda və "İctimai Yayım haqqında" qanunda da var. Bizim efir jurnalistlərimiz zorakılıqla bağlı, xüsusən də uşaq zorakılığı ilə bağlı verilişlərin yayımında çox diqqətli olmalıdırlar. Hər bir hadisənin işıqlandırılmasında müəyyən özünəməxsusluq var. Jurnalistlər bu detalları nəzərə almalıdır. Xüsusən də, azyaşlı uşaqlarla bağlı efirə gedən verilişlərə həssas yanaşmaq lazımdır. Faktı vermək üçün televiziyanın verdiyi imkanlar daxilində anonimliyi qorumaq labüddür.

Yuxarıda qeyd etdiyimiz kimi zorakılığı əks etdirən kadrlar və ya uşaqlara mənfi təsir edəbiləcək hər hansı bir görüntü, onların psixoloji zədə almalarına zəmin yaradan amillərdən biridir.

Psixoloq Elnur Rüstəmov da qeyd edir ki, bu qəbildən olan verilişlərin və ya kadrların efirə getməsi uşaqların psixikasına həddindən artıq mənfi təsir göstərən amillərdir: "Uşaqlara qarşı zorakılıq, qəddarlıq kimi verilişlərin mənfi fəsadları həddindən artıq çoxdur. Bu cür kadrlar uşaqlarda davranış pozuntusu ilə nəticələnə bilər. Bu narahatlıqdan dolayı onlarda nitq qüsurları da yarana bilər" (5).

Xəbər proqramlarında zorakılığı əks etdirən və ara-sıra nümayiş olunan elə kadrlar olur ki, orada təkcə qan içində qətlə yetirilmiş insan deyil, həm də təhqirə məruz qalan - döyülən, aşağılanan insanlar olur.

Məsələn, hansısa dayə tərəfindən ona həvalə olunmuş azyaşlı uşağa qarşı fiziki zorakılıq, xəsarət yetirmə səhnələrinin efirdə açıq şəkildə nümayiş etdirilməsi, uşaqların gözündə dayə obrazını yalnız qorxunc bir varlıq kimi canlandırır. Halbuki heç də bütün dayələr elə deyil, amma televiziyalar bu kadrları göstərməklə nəticədə uşaqları dayələrdən psixoloji olaraq çəkindirir, uşaqlar onların qorxunc bir varlıq olduqlarını düşünürlər.

Məsələn, Space Tv-nin "Hər gün" xəbərlər proqramının saat 20.00 buraxılışında aparıcı uşaqların və əsəbləri zəif olanların ekran qarşısından uzaqlaşması üçün heç bir xəbərdarlıq etmədən, Uqandada dayənin uşağa verdiyi işgəncəni əks etdirən kadrlar yayımlanıb. Kadr bitdikdən sonra isə aparıcı bu videonu efirdən qabaq izləmədiyini və dəhşətə gəldiyini bildirərək tamaşaçılardan üzr istəyib (6).

Bu onu deməyə əsas verir ki, istənilən xəbər aparıcı efir başlamazdan əvvəl təqdim edəcəyi bütün xəbərlərlə yaxından tanış olmalı və onların təqdimatında olan ən kiçik detalı diqqətdən kənarda saxlamamalıdır.

Doğrudur, biz nə qədər desək də ki, uşaqları kriminal, zorakılıq tipli kadrlardan və ya verilişlərdən uzaq tutmaq lazımdır, bu, heç də səmərəli çıxış yolu olmayacaq. Çünki bir çox hallarda uşaqlar televizor qarşısında özləri tək ola bilərlər və aparıcı tərəfindən kadrla bağlı xəbərdarlıq olunsa belə, onlar aparıcıya məhəl qoymadan nümayiş olunan qorxunc kadrlara baxa bilərlər. Ona görə də xəbər proqramlarında belə kadrların ən kiçik detalları ilə göstərilməsi dayandırılmalıdır. Bunu istənilən telekanalda gecə saatlarında nümayiş olunan kriminal verilişlərin öhdəsinə buraxmaq daha məqsədə uyğun olar. Doğrudur bu kadrların belə bir vaxtda göstərilməsi uşaqlardan yaxşı mənada yan keçsə də, böyüklərdə də yuxusuzluq problemi yarada bilər. Bütün bu kimi hallardan uzaq olmaq üçün, belə kadrların efirə verilməsinin strukturu elə qurulmalıdır ki, tamaşaçı buradan yalnız xəbər almaq deyil, eyni zamanda, maariflənsin.

Bu bölmədə son olaraq onu qeyd edək ki, aparıcı hazırlanan xəbərləri anlaşıqlı və maksimum sadə dildə ifadə etməyi bacarmalı, efirə çıxmazdan əvvəl hər hansı bir yaranabiləcək sual və qeydini redaktorlarla mütləq aydınlaşdırmalıdır.

Azərbaycan telekanallarında çox vaxt nəzərdən yayınaraq zorakılığı təbliğ edən kadrların efirə verilməsi hallarının qarşısını almaq üçün, redaktorların bu məqamlarda son dərəcədə diqqətli olmaları çox vacibdir. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin 32.0.5-ci bəndinə riayət edərək, bu kimi kadrların efirdə nümayiş etdirilməsinin qarşısı birmənalı şəkildə alınmalıdır.

Ədəbiyyat

1. Rəşad Mehdili: "Çəkiliş zamanı şir əlimi dişlədi" (http://simsar.az/news/a-33975.html 30 Aprel, 2013, 14:27

2. Radio ve Televizyon Haberciliği. Eskişehir. Anadolu Üniversitesi Web-Ofset Tesisleri. 2013. səh. 67.

3. Mübariz Əhmədov "Azərbaycanda jurnalist etikası: problemlər və vəzifələr", Bakı – Mütərcim - 2017. səh. 139.

4. Şərq qəzeti "Qəddafinin öldürülməsi kadrları zorakılığı təbliğ edir"
http://www.sherg.az/2011/10/22/read=42705.

5. ŞƏRQ QƏZETI, HTTP://WWW.SHERG.AZ/SITE/ID-6976/TELERADIO_%C5%9EURAS%C4%B1_HAQL%C4%B1D%C4%B1R#.WECCTTGLTFI 2014-12-27 00:36:58

6. SPACE TV xəbərdarlıq etmədən dəhşətli görüntüləri efirə verdi http://aktual.az/space-tv-xeberdarliq-etmeden-dehsetli-gruntuleri-efire-verdi-sok-video-18/ 01 Yanvar 2015, 04:00

M.A.Ахмедов

Некоторые этические проблемы в подаче новостей в азербайджанских новостных программах

Резюме

Главным героем любого новостного телеканала, его лицом, несомненно, является ведущий новостных программ.

Хотя физические данные ведущих новостей на азербайджанских телеканалах – приятный внешний вид, тембр голоса и чёткая дикция, за исключением некоторых ведущих, – профессиональны, их способность убеждать своих зрителей еще не достигла ожидаемого уровня.

Сегодня, наряду с другими видами СМИ, нарушение этических принципов журналистики встречается и в телевизионных новостных программах. Поэтому в этой статье основное внимание уделяется этическим нарушениям в азербайджанских новостных программах, которые противоречат общепринятым нормам и принципам журналистики.

M.A.Akhmedov

Some ethical problems in news coverage in Azerbaijani news programs

Summary

The main character of any television news channel, the face on this network, no doubt, is the anchor of the news program.

Although the physical givens of the news anchors on Azerbaijani TV channels – a pleasant appearance, a timbre of voice, and a clear diction, with the exception of some anchors' diction, - are professional, their ability to convince their viewers has not reached the expected level yet.

Today, along with the other types of media, violation of the ethical principles of journalism is also found in TV news programs. Therefore, this article focuses on ethical violations in Azerbaijani news programs, which contradict the generally accepted norms and principles of journalism.

Rəyçi: filol.f.d., dos. Ə.Ç.Ağamirzəyev

Redaksiyaya daxil olub: 28.02.2018

M.İ.ƏMRAHOV
tarix üzrə elmlər doktoru, professor
e-mail: mayisemrah@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN TÜRKİYƏ CÜMHURİYYƏTİ VƏ AZƏRBAYCAN SSR-ə QARŞI ƏRAZİ İDDİALARI

Açar sözlər: *faşist Almaniyası, torpaq iddiası, erməni-azərbaycanlı münasibətləri, yeni ərazilərin əldə edilməsi*
Ключевые слова: *фашистская Германия, претензии на земли, армяно – азербайджанские отношения, приобретение новых территорий*
Key words*: fascist Germany, land claim, armenian – azerbaijan relations, obtaining of new territories*

XX əsrin 30-cu illərinin sonunda dünya iqtisadi böhranının dərinləşməsi və A.Hitlerin Almaniyada hakimiyyətə gəlişi ilə erməni liderləri onlarla iş birliyi quraraq SSRİ-yə qarşı faşistlərlə əməkdaşlığa üstünlük verdilər. Ermənilərin faşist Almaniyası ilə əməkdaşlıqda SSRİ-yə düşmən münasibət bəsləyən yəhudilər və qaraçılarla yanaşı, SSRİ-ni sevməyən və Türkiyə Cümhuriyyətinə düşmən münasibət bəsləyən ermənilər də Hitlerin sadiq quluna çevrilmək üçün dəridən-qabıqdan çıxırdılar. Bundan istifadə edən alman-faşist gestaposunun şefi Henrix Müller 1938-ci ilin oktyabrında qondarma mühəndis Krauze adıyla Bakıya gələrək «Daşnaqsütyun» partiyasının üzvlərini «beşinci kolona» cəlb edir. SS qruppenfürerü H.Millerin «…Bakıya gəlişindən sonra erməni milli təşkilatı «Daşnaqsütyun»un casusları məlumatları faşist Almaniyasına ötürməyə başlayırlar.

Əslində ermənilərin Türkiyə dövlətinə olan düşmən münasibəti faşistlərin ermənilərlə əlaqə yaratmasının əsas səbəbi idi. Hitler Almaniyasının siyasi əlaqələndiricisi, siyasətçi Alfred Rozenberq yazımışdı: «Almaniyanın Qafqazda siyasətinin, həmçinin onların cənub qonşularının məqsədi siyasi və hərbi arenada hakimiyyətə keçməkdir». İşgal olunacaq ərazilərin Alfred Rozenberq tərəfindən tərib olunmuş yeni xəritə Türkiyə dövlətiin ərazilərini də əhatə edirdi. Faşistlər ermənilərin türklərə olan nifrətini bildikləri üçün bundan ağılla istifadə etməyə səy göstərirdilər.

Bu səbəbdən də, Reyxin nümayəndələri ermənilərə açıq müraciət ünvalayaraq birgə hərəkət üçün imkanları haqqında dəqiq məlumat verməyi, sonra arzuları bildirməyi tələb etmişlər.

«Gertrud» planına görə Türkiyə Cümhuriyyətinə qarşı hücum üçün Ermənistan və Gürcüstan Almaniya üçün 100 minlik ordu toplamalı idi. Plana görə Ermənistana Şərqi Anadolu və Kilikiya, Gürcüstana isə Trabzon, İtaliya, Bolqarıstan və Yunanıstana isə İzmir ərazisi vəd olunmuşdu.

Müharibənin ilk illərində Türkiyə Cümhuriyyəti ilə Hitler Almaniyası arasında münasibətlər yaxşı idi. İtaliyanın Almaniyaya yaxınlaşması bu münasibətlərə mənfi təsir göstərdi. İkinci dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə ilə münasibətləri həddindən artıq kəskinləşdi. 1945-ci il martın 19-da SSRİ hökuməti 17 dekabr 1925-ci ildə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etdi. Türklərə və azərbaycanlılara qarşı düşmənçlik hissi bəsləyən ermənilər özlərinə mövqe qazanmaq, məkrli planlarını həyata keçirmək üçün üzdə özlərini dost kimi göstərsələr də, yaranmış vəziyyətdən istifadə edərək Mərkəzin əli ilə həyata keçirməyə can atdılar. Faşist Almaniyasına xidmət edən erməni başbilənlərindən ilham alan

ermənilər SSRİ-nin antitürk və antiazərbaycan milli siyasətindən qaynaqlanaraq ərazi iddialarına başladılar.

SSRİ-nin Türkiyə Cümhuriyyətindən qopartmaq istədiyi əraziləri məskunlaşdırmaq problemi ortaya çıxanda sovet rəhbərliyi problemi xaricdə yaşayan Türkiyə Cümhuriyyəti əsilli ermənilərin hesabına həll etmək niyyətindən yararlanmaq istədi. Həm də, qarşıdan bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi. 1945-ci il aprelin 3-də bütün ermənilərin katolikosunun seçkiləri ərəfəsində Eçmiədzin kilsəsinin arxiyepiskopu Gevorq VI Çörəkçyan mövcud problemlərin həlli ilə bağl İ.Stalinə məktubla müraciət edir. İ.Stalin bu məqamdan istifadə edərək, arxiyepiskop VI Gevorq Çörəkçyanı Moskvaya çağırdı. Aprelin 19-da VI Gevorq Çörəkçyan SSRİ Nazirlər Sovetinin nəzdindəki Dini İşlər Şurasının sədri Polyanskinin müşayiəti ilə İ. Stalinlə görüşür. Görüşdə G.Çörəkçyan əvvəllər Eçmiədzin kilsəsinə məxsus olmuş torpaqların qaytarılmasını irəli sürdü. Lakin həmin torpaqlar artıq kolxozlara məxsus olduğundan və qaytarılması böyük narazılıqlar yarada biləcəyindən ehtiyat edən İ.Stalin torpaq tələbindən başqa arxiyepiskopun bütün xahişlərinin yerinə yetiriləcəyini bildirdi. Görüşün sonunda İ.Stalin müharibə qurtardıqdan sonra 1921-ci ildə Ermənistanın Osmanlı dövlətinə verilmiş qərb əyalətlərini geri qaytarmaq istədiyini və bu məqsədlə təqribən 100 min erməninin köçürülməsinin təşkilinin vacibliyindən danışdı və… sonda xaricdən köçürülüb gətiriləcək ermənilərin mənzil problemlərinin azərbaycanlıların Ermənistan SSR-dən deportasiya edilməsi yolu ilə həll edilməsinə işarə etdi. Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə ciddi hazırlıq görülməyə başlandı.

Baş verən hadisələrdən yaralanmaq istəyən Ermənistan Kommunist Partiyasının birinci katibi Q.Arutyunov 1945-ci il mayın 15-də məktubla İ.Stalinə müraciət edərək xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qaytarılmasına icazə verilməsini xahiş etdi. İyunun 22-də arxiyepiskop VI Gevorq Çörəkçyan bütün ermənilərin katolikosu seçildi. Katolikosun seçilməsi münasibətilə müxtəlif ölkələrdən Eçmiədzinə gələn din xadimləri fürsətdən istifadə edərək Sovet hökumətinə Qars və Ərdahanın Ermənistana birləşdirilməsi məsələsinin həll olunması barədə müraciət etdilər. ÜİK(b)P MK-nın Siyasi Bürosu 1945-ci ilin noyabr ayının 21-də Q.Arutyunovun müraciətlərini müzakirə edərək *"Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında"* qərar qəbul etdi.

Qərarda xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə qayıtmasına icazə verilir və bununla bağlı SSRİ XKS-nin qərar layihəsi təsdiq olunurdu. Siyasi Büronun qərarından dərhal sonra SSRİ XKS də qərar qəbul etdi. Onun ardınca bütün ermənilərin katolikosu VI Gevorq SSRİ, ABŞ və Böyük Britaniyanın dövlət başçılarına Türkiyə tərəfindən zorla alınmış ərazilərin Sovet Ermənistanına birləşdirilməsi tələbi ilə müraciət göndərdi.

Eçmiədzin kilsəsi də xaricdəki erməni din xadimlərinə, partiyalara, xeyriyyə təşkilatlarına, erməni diasporunun tanınmış nümayəndələrinə ermənilərin repatriasiya sını təşkil etmək barədə müraciətlər ünvanladı. Həmin ilin payızında Ermənistan SSR hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi Komitə yaradıldı və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərdi.

Qars və Ərdahanın Ermənistana birləşdiriləcəyinə əmin olan Gürcüstan və Ermənistan rəhbərliyi İran Azərbaycanının Sovet Azərbaycanına birləşmə ehtimalının güclənməsi fonunda Türkiyə Cümhuriyyətinə qarşı ərazi tələblərinin gündən-günə real xarakter almasından yararlanmaq istəyərək Azərbaycandan da ərazi qopartmaq həvəsinə düşürlər. 1945-ci il noyabr ayının 28-də Ermənistanın sovetləşməsinin 25 illiyinə həsr olunmuş geniş iclasda Stalinə məktub göndərilməsi qərara alınır. Məktubun əsas ideyasını erməni-azərbaycanlı münasibətləri, yeni ərazilərin əldə edilməsi və s. təşkil edirdi. İclasda çıxış edən yazıçı Hraç Koçaryan Stalinə təbrik teleqramını oxuyur. Teleqramda Naxçıvan haqqında da qeydlər səsləndirilir. Bundan istifadə edən ermənilər Stalinə məktub yazaraq Naxçıvanın Ermənistanın tərkibinə verilməsi məsələsini yada salırlar. (3, s.162-163)

Müharibənin başa çatması ilə əsirlərin repatriasiyasının gündəmə gəlməsindən istifadə edən Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutyunov 1945-ci ilin payızında xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə dönməsinin həll edilməsi məqsədilə 1945-ci ilin noyabr ayının ilk günlərində ikinci dəfə İ.Stalin və G.Malenkova müraciət edir. Q. Arutyunov yazırdı: "Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibinə daxil edilib. Bu vilayətin əhalisi əsasən ermənilərdən ibarətdir. 153 min əhalinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynilik təşkil edir. Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil olması onun inkişafını və təsərrüfatlara rəhbərliyini yaxşılaşdırardı. Əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət göstərilməsi işinə Ermənistan SSR-in hökumət orqanları tərəfindən rəhbərliyi gücləndirərdi. Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə daxil olması yerli kadrların ana dilində öz təhsillərini Ermənistanın ali məktəblərində davam etdirməsinə imkan verərdi. Digər tərəfdən Ermənistan SSR Dağlıq Qarabağdan əlavə kadrlar ala bilərdi. Bunu və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan K(b)P Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti kimi Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılmasını ÜİK(b)P MK və İttifaq hökuməti qarşısında irəli sürür (4, s.208). Bu məsələ müsbət həll olunarsa, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti sovet hakimiyyəti qurulması ərəfəsində dağıdılmış Qarabağın keçmiş vilayət mərkəzi Şuşa şəhərinin bərpa olunması təklifi ilə İttifaq hökumətinə müraciət edəcəkdir". (2, v.7)

Q. Arutyunovun məktubu tanış olmaq üçün 1945-ci il noyabr ayının 28-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova göndərilir. M.S.Bağırovun tapşırığı ilə materiallar toplanır (2, v.1-60) və 1945-ci ilin dekabr ayının 10-da Ermənistan və Gürcüstanın Azərbaycana qarşı irəli sürdükləri ərazi iddiaları ilə bağlı fikir və mülahizələr ÜİK(b)P MK-nın katibi G.Malenkova göndərilir. Məktubun məzmununa toxunmadan onu bildiririk ki, M.C.Bağırov Ermənistan SSR-nin əsasən azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-ə birləşdirilməsi şərti ilə Şuşa istisna olmaqla DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsinə etiraz etmədiyini bildirdi. (2, v.9-11)

Məktub məsələsinə toxunan və hadisələrin şahidi olan T.Musayev yazır ki, Azərbaycan tərəfindən yazılan cavabda əsaslandırılırdı ki, «…Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. …bir halda ermənilər mədəniyyət, ədəbiyyat məsələsini irəli sürürlər, əgər MK məsləhət bilirsə, Şuşa şəhəri istisna olmaq şərti ilə Dağlıq Qarabağın Ermənistana birləşməsinə razılıq vermək olar, o şərtlə ki, əvvələr Azərbaycan torpağı olmuş, indi də əksəriyyəti azərbaycanlılar yaşayan, dil və mədəniyyətindən daha çox məhrum olan, Azərbaycanla bilavasitə sərhəddə yerləşən Basarkeçər, Vedibasar, Qafan rayonları da Azərbaycan tərkibinə verilsin». (3, s.163-164)

Moskvadan güclü dəstək alan Gürcüstan SSR də Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddiaları ilə eyni vaxtda Azərbaycan SSR-ə qarşı ərazi tələbləri ilə Sovet rəhbərliyinə müraciət edir. Gürcüstan K(b)P MK-nın birinci katibi K.Çarkviani İ.Stalinə məktub göndərərək Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarında gürcü əhalisinin çoxluq təşkil etdiyini bildirir və həmin ərazilərin Gürcüstan SSR-ə birləşdirilməsi məsələsini qaldırır. (1, v.11)

Əslində Gürcüstanda bu prosesə 1944-cü ildən hazırlıq görməyə başlanmışdı. 1944-cü ildə işləmək adı ilə Azərbaycan SSR-in Qax rayonuna göndərilən gürcü müəllimlər rayonun Gürcüstana birləşdirilməsi təbliğatı aparırdılar. Sonralar Balakən və Zaqatalada da işləmək adı ilə gürcü dili müəllimləri göndərilmiş və məktəblər açılmışdı.

Gürcüstan rəhbərliyinin ərazi iddialarına verilən cavabda bildirildi ki, Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-ə daxil edilməsi haqqında məsələ ilə bərabər Azərbaycan SSR-ə bitişik, əhalisi demək olar ki, ancaq azərbaycanlılardan ibarət olan Gürcüstan SSR-nin Borçalı bölgəsinin Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi haqqında məsələyə də baxılmalıdır. Məktubda həmçinin Dağıstan Muxtar SSR-in Azərbaycan

SSR-ə bitişik olan, vaxtilə Bakı quberniyasının tərkibinə daxil olmuş və keçmişdə Azərbaycanın bir hissəsi kimi Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələyə baxılması xahiş olunurdu. (1, v.11-12)

Fikrimzcə, ermənilərin "vətənə dönüş"ü haqqında qərarı qəbul etməkdə İ.Stalinin başlıca məqsədi Türkiyə Cümhuriyyətinə qarşı ərazi tələbləri ilə bağlı qətiyyətli mövqeyini qərb müttəfiqlərinə və bütün dünyaya nümayiş etdirmək idi. Lakin Türkiyədən iddia olunan torpaqları almaq mümkün olmadıqda, Moskvanın təlimatı ilə Azərbaycan və Ermənistan respublikalarının birinci şəxslərinin erməni repatriantlarının yaşayış evləri və həyətyanı sahələrlə təmin etmək üçün 130 min azərbaycanlının Ermənistandan Azərbaycana köçürülməsi barədə Stalinə müraciəti təşkil olundu. Digər tərəfdən bütün bunlar Cənubi Azərbaycanda milli hərəkatın başlanması, bunun son nəticədə Şimali və Cənubi Azərbaycanın birləşməsinə gətirib çıxaracağı, bu halda SSRİ-nin tərkibində Azərbaycan SSR-nin ərazilərinin xeyli genişlənəcəyinə Sovet rəhbərliyinin yuxarı eşelonunda yaranmış inamla bağlı idi. (5, s.293)

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi işləmiş Mirhəsən Seyidov xatirələrində yazır ki: "1945-ci ilin payız günlərinin birində M.C.Bağırov Stalinin qəbulunda ÜİK (b) P MK Siyasi Bürosunun iki üzvü - erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə rastlaşır. Onların hər ikisi bildirirlər ki, Cənubi Azərbaycan haqqında məsələ artıq həll edilib və tezliklə Azərbaycan SSR-in ərazisi əhəmiyyətli dərəcədə artacaq. Ola bilsin zarafat kimi, ola bilsin ki, yox, onlar ümidvar olduqlarını bildiriblər ki, indi M.C. Bağırov səxavətli olacaq və Dağlıq Qarabağın Ermənistana, respublikanın şimalında bir sıra rayonların (Balakən, Qax, Zaqatala və digərlər ərazilər) Gürcüstana qatılmasına razılıq verəcək. M.C. Bağırov cavab verib ki, hələ bu haqda düşünməyin vaxtı deyildir". (6, s.27)

Fikrimizcə, Azərbaycan partiya təşkilatının fəaliyyətinin əsasını Azərbaycanı birləşdirmək dayanırdı. Təbii ki, bu sahədə M.C.Bğırovun İ.Stalinlə olan şəxsi münasibətləri mühüm rola malik idi. İki rəhbərin münasibətlərindən və Azərbaycanın cənubu ilə şimalının birləşdirilməsi planından xəbərdar olan erməni-gürcü qruplaşmaları yenidən Azərbaycandan torpaq qoparmaq həvəsinə düşmüş, istədiklərinə nail ola bilməyəcəklərini yəqin etdikdən sonra Cənubi Azərbaycanda baş verən hadisələrin istiqamətini dəyişmək, alovlanan milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ-nin üzünü Türkiyə Cümhuriyyəti istiqamətinə çevirməyə cəhd edən erməni rəhbərlər «Böyük Ermənistan» yaradılmasını həyata keçirməyə fürsət gözləyirdilər.

Ədəbiyyat

1. ARPİİSSA, f.1, s.169, i.249/I hissə.
2. ARPİİSSA, f.1, s.169, i.249/II hissə.
3. Musayev T. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr). Bakı, 2008.
4. На имя Багирова, за подписью Багирова / Сборник архивных документов / Составитель Теюб Гурбан, редактор А.Балаев. Баку, 2016.
5. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку, 2003
6. Сеидов М.Г. Общественно-политическая обстановка в Азербайджане в 1940-е – начале 1950-х годов. Рукопись книги

М.И.Амрахов

Претензии армян в годы Второй мировой войны против Республики Турция и Азербайджанской СССР

Резюме

В статье на основе фактов устанавливается, что армяне, служащие фашистской Германии к концу Второй мировой войны, начали извлекать выгоду из анти-тюркской и анти-азер-

байджанской национальной политики СССР. В тот момент, когда возникла проблема заселения территорий, которые СССР пытался отобрать у Республики Турция, церковь Эчмиядзин и руководство Армении, желающие извлечь выгоду из своего намерения разрешить данную проблему за счет населения Республики Турция армянского происхождения, добились принятия решения о возвращении армян, проживающих за рубежом, в Армянскую СССР. Руководители Армении и Грузии, получившие сильную поддержку Москвы, начали выступать против Республики Турции и Азербайджанской СССР с территориальными претензиями.

M.I.Amrahov

Territorial claims of Armenians against the Republic of Turkey and Azerbaijan SSR during the years of World War II

Summary

In the article it is established on the basis of facts that Armenians, serving Nazi Germany by the end of the Second World War II began to benefit from the anti-Turk and anti-Azerbaijani national policy of the USSR. At the time when the problem of settling the territories which USSR was trying to take away from the Republic of Turkey, the church of Echmiadzin and the Armenian leadership, wishing to benefit from their intention to solve this problem at the expense of the Armenian origin population of the Republic of Turkey, achieved a goal of decision to return Armenians living abroad to the Armenian SSR. The leaders of Armenia and Georgia, with strong support from Moscow, applied territorial claims against the Republic of Turkey and Azerbaijan SSR.

Rəyçi: t.f.d. C.Ə.Bəhramov

Redaksiyaya daxil olub: 13.02.2018

G.Ş.İMANOVA
e-mail: gunayimanova1@hotmail.com

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

TƏBİƏT QORUQLARININ TƏSNİFAT XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *təsnifat, ekosistem, qoruq, landşaft, təbii resurs*
Ключевые слова: *классификация, экосистема, заповедник, ландшафт, природные ресурсы*
Key words: *classification, ecosystem, reserve, landscape, natural resource*

Turizm bazarında xüsusi çəkiyə malik olan sektorlardan biri də ekoturizmdir. Ekoturizmin özünəməxsusluğu onun birbaşa olaraq təbiətlə həmahəng olmağındadır (19, yanvar 2011). Belə ki, ekoturizm ətrafa zərər vermədən ondan faydalanma, o bölgəni öyrənmə, mədəni dəyərlərini mənimsəmə və məhv etmədən müşahidə etmək anlamını daşıyır. Ekoturizm-müəyyən ərazilərdə dincəlmək məqsədiylə və yaxud təbiətdən zövq almaq üçün edilən səyahət növüdür.Ümumiyyətlə, ekoturizmə flora, fauna və mədəni mirasın mövcud olduğu yerlər aid edilir. (1, s. 7)

Ekoturizm böyük bir turizm növüdür. Ekoturizm məhsulu kimi milli və təbiət parklarının, təbiət qoruqlarının, yasaqlıqların özünəməxsus yeri vardır. Milli və təbiət parkları, təbiət qoruqları, yasaqlıqlar xüsusi mühafizə olunan təbiət ərazilərdir.

Təbiət qoruqları müxtəlif kateqoriyalar üzrə təsnifatlaşdırıla bilər. Əksər ölkələr Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyi (İnternational Union for Conservation of Nature and Natural Resources, IUCN) tərəfindən qəbul edilən təsnifləşdirməni öz ölkələri üçün məqbul saymış və qəbul etmişlər. Bu təsnifat kateqoriyası aşağıdakılardan ibarətdir:

- Ciddi təbiət qoruğu (Strict Nature reserve)
- Vəhşi təbiət sahəsi (Wilderness Area)
- Təbii təbiət abidəsi (Natural monument or feature)
- Heyvan/növlərin sahəsi (Habitat/Species Management Area)
- Mühafizə edilən landşaft/akvatoriya (Protected Landscape/ Seascape)
- Təbii resursların davamlı istifadəsi üçün qorunan sahə (Protected Area with sustainable use of natural resources)

Ciddi Təbiət Qoruğu (Strict Nature reserve) - ərazinin biomüxtəlifliyi, geoloji və geomorfik xüsusiyyətlərinin qorunduğu və insan istifadəsinə cüzi miqdarda icazə verilən kateqoriyadır. Bu ərazilər elmi-tədqiqat, ətraf mühitin monitorinqi və təhsil kimi hallardan başqa digər insan fəaliyyətlərinin məhdudlaşdırıldığı sıx təbii ekosistemlərə ev sahibliyi edir. Çünki bu ərazilər çox ciddi şəkildə qorunur. Bəzi hallarda da Ciddi Təbiət Qoruğu yerləşdiyi ərazidəki toplum üçün mənəvi əhəmiyyət daşıması səbəbindən də qorunur. Milli, regional və ya qlobal miqyasda olan ekosistemləri, növləri və yaxud geomüxtəlifliyi qorumaq - bu xüsusiyyətlər demək olar ki, heç bir insan qüvvəsi olmadan yaranan və cüzi miqdarda olacaq insan təsirindən belə məhv ola bilmə iqtidarındadır. Bu kateqoriyanın digər məqsədləri aşağıdakılardır:

- son dövrdə mümkün ola biləcək insan fəaliyyətlərindən ekosistemləri, növləri və geomüxtəlif xüsusiyyətləri qorumaq;
- təbii mühit nümunələrini elmi-tədqiqat, ətraf mühitin monitorinqi və təhsil üçün mühafizə etmək.

Ciddi təbiət qoruğunun fərqləndirici xüsusiyyətləri

- Mühafizə məqsədlərinə nail olmaq davamlı müdaxilə tələb etmir;
- İnsanlar tərəfindən nisbətən az ziyarət edilməsi şəkildə idarə olunur;

- Minimal narahatlığı sığartalamaq üçün idarə oluna biləcək səviyyədə olmalı (xüsusilə dəniz mühitinə aiddir).

Vəhşi Təbiət Ərazisi (Wilderness Area) – Ciddi təbiət qoruğu şəkildə qorunur, lakin bir az sərt şəkildə qorunmaqdadır. Bu ərazilərdə biomüxtəliflik və ekosistem proseslərin (təkamül də daxil olmaqla) zənginləşməsinə imkan verən və ya insan fəaliyyəti nəticəsində bərpaya ehtiyac duyan hissələr qorunmaqdadır. Bu qoruq ərazilərində iqlim dəyişkənliyinin təsirinə qarşı təhlükə altında qalan bitki və heyvanat aləmi qorunur. Bu kateqoriyada olan qoruqlara insan səfərləri məhduddur və səfərin edilməsi o şəxslərə icazə verilir ki, onların marşutu ayaqla, xizəklə və ya qayıqla olacaq. Lakin bütün bunlarla yanaşı turistlərə unikal imkanlar da təklif edilir. Ərazidə insan fəaliyyəti (təbiətə müdaxilələr), müasir infrastruktur olmadan mövcud və gələcək nəsillər üçün təcrübə edə bilmə imkanı yaratmaq və təbii sahələrin uzun müddətli ekoloji bütövlüyünü qorumaq vəhşi təbiət qoruğunun salınmasında əsas məqsəddir. Bu qoruq kateqoriyasının digər məqsədləri bunlardır:

- Mövcud və gələcək nəsillər üçün ərazinin "vəhşi təbiət" özəlliyini özündə saxlayacaq növləri ictimaiyyətə çatdırmaq
- Yerli sakinlərə (qoruq sahəsinin yerləşdiyi ərazilərdə) özlərinin həyat tərzlərini qoruyub saxlamağı və bu kateqoriyanın məqsədlərinə uyğun bir şəkildə resurslardan istifadə etmə imkanını yaratmaq
- Az təsiri ola biləcək təhsil və elmi-tədqiqat fəaliyyətlərinə icazə vermək (bu fəaliyyətlər ərazi xaricində ola bilməz)

Vəhşi təbiət sahəsi kateqoriyasının fərqləndirici xüsusiyyətləri

- Ekosistemin, fauna və floranın orijinallığını qorumaq, xüsusilə yırtıcı heyvanları və böyük məməliləri mühafizə etmək
- Bioloji müxtəlifliyin qorunması üçün uyğun ölçü olmalıdır; ekoloji prosesləri və ekosistem xidmətlərini qorumaq; iqlim dəyişikliyinin təsirlərinə qarşı mühafizə tədbirləri
- Sadə, sakit tərzdə olan səyahət etməyə icazə vardır. Əlbəttə ki, yuxarıda sadalanan ekosistemə, flora və faunaya zərər vurmadan
- İqlim dəyişkənliliyə cavab vermək üçün imkanlar yaratmaq

Təbii təbiət abidəsi (Natural monument or feature) - Təbii təbiət abidəsi və onun ətraf mühitinin mühafizəsi üçün xüsusi olaraq ayrılmış nisbətən daha kiçik bir sahədir. Bu sahədə qorunan abidələrə insanlar tərəfindən yaradılan və ya insan fəaliyyət nəticəsində meydana gələn abidələr də daxildir. IUCN-nin təlimatlarına uyğun olaraq, təbii abidələrə təbii geoloji və geomorfoloji xüsusiyyətləri olan abidələr, mədəni təsirləri, təbii mədəni sahələri özündə əks etdirən və ya ekologiya ilə bağlılığı olan abidələr daxildir. Bu kateqoriyanı 2 alt qrupa bölmək olar: biri biomüxtəlifliyin təbii şəraitlə əlaqəli olduğu, digəri isə əsasən dəyişmiş ekosistemin yaratdığı müqəddəs məkanların mövcudluğundan asılı olan biomüxtəliflikdir. Təbii təbiət abidələri geniş miqyaslı qoruma tədbirlərinin icrasında az, lakin əsas ekoloji rol oynayır. Təbii təbiət abidələrinin yüksək mədəni və mənəvi dəyərinin olması qoruma istiqamətli problemlərin dəstəklənməsində istifadə edilməklə ziyarət və ya istirahət hüququna imkan yaradır və bu da öz növbəsində ərazinin qorunması təşəbbüsünə səbəb olur. Bu kateqoriyanın digər məqsədləri:

- əsaslı dəyişikliyə məruz qalmış landşaft və ya akvatoriyada biomüxtəlifliyin qorunmasını təmin etmək
- biomüxtəliflik dəyərləri olmaqla yanaşı, mənəvi və mədəni dəyərləri olan xüsusi təbii əraziləri qorumaq
- ərazinin ənənəvi mədəni və mənəvi dəyərlərini mühafizə etmək

Təbii təbiət abidəsinin fərqləndirici xüsusiyyətləri-belə ki, bu kateqoriyada ekosistemdən çox ekologiya ilə əlaqəli olan təbii xüsusiyyətlər qorunur. Bu kateqoriya üzrə qorunanlar:

- **Təbii geoloji və geomorfoloji xüsusiyyətlər** baxımından qorunur: şəlalələr, uçurumlar, kraterlər, mağaralar, fosil yataqları, qum təpəlikləri, qaya formaları, vadilər və mərcanlar

- **Təbii-mədəni ərazilər** baxımından qorunur: müqəddəs məkanlar-dağlar, bulaqlar
- **Ekologiya ilə əlaqəli mədəni ərazilər** baxımından qorunur: özündə mühüm biomüxtəliflik əks etdirən, təbii əraziyə ayrılmaz şəkildə bağlı olan arxeoloji/tarixi məkanlar

Heyvan/növlərin sahəsi (Habitat/Species Management Area) bu kateqororiya bir növ təbii təbiət abidəsi kateqoriyasıyla bənzərlik təşkil edir. Lakin bu kateqoriya daha çox diqqəti xüsusi növ heyvanların üzərində cəmləyir ki, bunlar da davamlı qoruma tələb edir. Bu qorunan sahələr, xüsusilə ənənəvi vasitələrlə, müəyyən növ heyvanların saxlanılması, qorunması və çoxalmasını təmin etmək üçün lazımi qədər nəzarəti təmin edəcəkdir. Heyvan/növlərin sahəsi geniş ekosistemin və ya qorunan ərazinin bir hissəsi kimi mövcud ola bilər və müxtəlif səviyyələrdə aktiv qorunma tələb edə bilər. İdarəetmə tədbirlərinə brakonerliyin qarşısının alınması (qanunsuz ov etmə), süni yolla heyvanların çoxaldılması, əlavə qida təcrübələri daxildir (lakin tədbirlər bununla məhdudlaşmır). Bu kateqoriyada yerli, milli və beynəlxalq əhəmiyyətli flora növləri, yerli, milli və beynəlxalq əhəmiyyətli fauna növləri qorunmaqdadır. Bu kateqoriyanın digər məqsədləri:

- Heyvan və növlərin saxlanılması, qorunması və çoxalmasını təmin etmək
- Landşaft və ya dəniz akvatoriyasının qoruma strategiyasının tərkibi kimi növ və heyvanların qorunması
- Şəhər sakinlərinin təbiətlə müntəzəm əlaqə qura biləcək bir üsulunu təmin etmək.

Bu kateqoriyanən fərqləndirci xüsusiyyətləri:

- Xüsusi növlərin qorunması: Ümumiyyətlə təhlükə altında olan müəyyən hədəf növlərinin qorunması (məsələn, son qalan növlərdən biri)
- Yaşayış mühitinin qorunması: Ekosistemlərin parçaları olan yaşayış sahələrini saxlamaq və ya bərpa etmək
- Mədəni əsaslı ekosistemlərin aktiv idarə edilməsi - İdarəetmənin əsas məqsədi bioloji müxtəlifliyin təmin olunmasıdır.

Mühafizə edilən landşaft/dəniz akvatoriyası (Protected Landscape/ Seascape) Qorunan landşaft və dəniz akvatoriyası açıq təbii mühafizə planı ilə bütün quru torpaq və okeanı əhatə edir, lakin adətən bir sıra kommersiya məqsədləri üçün fəaliyyət göstərir.

Bu kateqoriya üzrə əsas məqsəd ekoloji, bioloji, mədəni xarakterli xüsusiyyətləri olan bölgələri qoruyub saxlamaqdır. Əvvəlki kateqoriyalardan fərqli olaraq, bu kateqoriyada ətrafdakı cəmiyyətlərin ərazidə daha çox olmalarına, ərazinin davamlı idarəolunmasına və təbii mədəni irs ilə maraqlanmalarına şərait yaradır.

Bu kateqoriyaya daxil olan landşaft/dəniz akvatoriyası insan və təbiət arasında ayrılmaz bir tarazlığı təmsil etməlidir. Sahənin davamlı qorunmasını, ekoloji bərpasını təmin edə biləcək şəraitdə ənənəvi kənd təsərrüfatı və meşəçilik sistemləri kimi fəaliyyətlər davam etdirirməlidir. Nəticədə qorunan landşaft və dəniz akvatoriyası ekoturizm kimi müasir inkişaf meyllərinə uyğunlaşa bilər və eyni zamanda tarixi idarəetmə təcrübələri qorumaqla su biomüxtəlifliyi və aqro biomüxtəlifliyin davamlılığını təmin edə bilər. Burda əsas məqsəd ənənəvi idarəetmə prinsipləri vasitəsilə insanlarla qarşılıqlı fəaliyyət nəticəsində yaranan mühüm landşaftları/dəniz akvatoriyasını və digər dəyərləri qorumaq və saxlamaqdır. Kateqoriyanın digər məqsədləri:

- Landşaft və ya dəniz akvatoriyası ilə əlaqədar ənənəvi idarəetmə yanaşmalarının, cəmiyyətlərin, mədəniyyətlərin və mənəvi dəyərlərin qorunmasıyla təbiət və mədəniyyətin balanslaşdırılmış qarşılıqlı təsirini təmin etmək
- Turizm və rekreasiya vasitəsiylə əyləncə və istirahət üçün daha yaxşı sosio-iqtisadi vəziyyəti təmin etmək
- Təbii məhsul və ətraf mühit xidmətləri təmin etmək

Kateqoriyanın fərqləndirici xüsusiyyətləri

- İnsan və təbiət arasında balanslı qarşılıqlı təsir zamanla davam edəcəkdir və bu bir bütövlükdür

- Landşaft və dəniz akvatoriyası növ/heyvan sahəsiylə, flora və fauna və mədəni xüsusiyyətlərlə əlaqəlidir
- Həyat tərzi və iqtisadi fəaliyyətlərə uyğun rekreasiya və turizm imkanları

Təbii resursların davamlı istifadəsi üçün qorunan sahə (Protected Area with sustainable use of natural resources) İnsan müdaxiləsi qorunan ərazilərin idarə edilməsində böyük bir amildir. IUCN torpaq kütləsinin bir hissəsinin öz təbii vəziyyətində qalmasını tövsiyə edir. Adətən milli səviyyədə qəbul edilən qərar qorunan hər bir ərazi üçün keçərlidir. Bu kateqoriya insan müdaxiləsinin az olduğu boş ərazilər üçün uyğundur . Bu kateqoriya qoruma və davamlı istifadə, qarşılıqlı faydalı ola bildiyi halda təbii ekosistemləri və təbii resurslardan istifadəni qorumağı əsas məqsəd kimi qəbul edir.

Ədəbiyyat

1. Əsgərov Ə., Bilalov B., Gülalıyev Ç. Ekoloji turizm. Bakı: Adiloğlu, 2011.
2. Bilalov B., Gülalıyev Ç. Turizmin əsasları. Bakı: QHT Nəşriyyatı, 2015.
3. Sadıqov M. Turizmin əsasları: Dərslik. Bakı: QHT nəşriyyatı.
4. https://blogs.ntu.edu.sg/hp331-2014-30/?page_id=18
5. https://www.tab-beim-bundestag.de/en/pdf/publications/summarys/TAB-Arbeitsbericht-ab077_Z.pdf
6. https://www.iucn.org
7. https://www.iucn.org/theme/protected-areas/about/protected-areas-categories/category-ia-strict-nature-reserve
8. https://www.iucn.org/theme/protected-areas/about/protected-areas-categories/category-ib-wilderness-area
9. http://drustage.unep.org/resourceefficiency/tourism-and-environmental-conservation
10. https://lemanpirimova.wordpress.com/2011/01/19/ekoloji-turizm/#more-227

Г.Ш.Иманова

Классификация природных резервов

Резюме

Статья описывает классификацию природных заповедников. Всем известно что существуют разные категории классификации резервов. Но здесь, в основном, была дана информация о системе классификации Международного союза охраны природы и природных ресурсов, (МСОП) для охраняемых территорий (заповедников) в соответствии с ее целями**.** МСОП состоит из шести категорий,которые поясняются в статье.

G.Sh.Imanova

The classification of the nature reserves

Summary

In the article the classification of the nature reserves was described. As you know, there are different categories of reserve classification. But in this article the International Union for the Conservation of Nature (IUCN) system of categorization to classify protected areas (nature reserves) in accordance to its objectives was described. IUCN consists of six categories,which are described in the article.

Rəyçi: c.f.d. M.O.Sadıqov

Redaksiyaya daxil olub: 02.03.2018

M.H.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏHSİL PARADİQMALARI SOSİAL-MƏDƏNİ FENOMEN KİMİ

Açar sözlər: *təhsil paradiqmaları, paradiqma, təhsil, təhsil prosesi, tərbiyə*
Ключевые слова: *парадигмы образования, парадигма, образование, процесс образования, воспитание*
Key words: *educational paradigm, paradigm, education, education process, education*

İstənilən cəmiyyətin mədəniyyətinin səviyyəsi və həyat fəaliyyətinin sosial xarakteri onun təhsilinin səviyyəsindən asılıdır. Ümumi planda götürəndə təhsil – dünyanı dərk etmənin və anlamanın, həmçinin cəmiyyətin həyatında professional ustalığa yiyələnmənin forma və vasitəsidir.

Başqa sözlə təhsil ümumbəşəri sərvət olub, insanın elm və mədəniyyət dünyasına çıxmasının vasitəsidir. Təhsil prosesində insan mədəni sərvətləri mənimsəyir.

Mədəniyyəti mənimsəməklə insan nəinki daimi dəyişkən dünyaya adaptasiya edir, həmçinin fəal fəaliyyətə qabil olur, öz subyektivliyinin inkişafına nail olur. Təhsil iqtisadiyyatın, siyasətin, mədəniyyətin və bütövlükdə cəmiyyətin inkişafının mühüm amilidir. Mədəniyyət və təhsil ictimai tərəqqi və sivilizasiyanın inkişafının aparıcı amilləri olmaqla, öz növbəsində cəmiyyətin tələbatlarının təsiri altında inkişaf edir (3, s.166).

Bu baxımdan təhsil sisteminin cəmiyyətdə yerinin və özünəməxsus funksiyalarının öyrənilməsində təhsil paradiqmalarını sosial-mədəni problem kimi təhlil etmək olar.

Müasir tədqiqatlar göstərir ki, bir çox proseslər həm təbiət, həm də cəmiyyətdə müəyyən proqramlar, modellər və nümunələr əsasında baş verir. Aydındır ki, bu hal əsasən sosial sistemlər üçün xasdır. Məhz buna görə də müxtəlif sosial hadisələrin təhlili üçün, o cümlədən müasir təhsilin metodoloji problemi kimi "paradiqma" anlayışından istifadə olunur.

Paradiqmalar proqramlaşdırılanlara məzmun, forma, istiqamət, mərhələlər və inkişaf məqsədi və dünyanın ideal informativ strukturu kimi baxır.

Paradiqma anlayışı mücərrəd sxem kimi, rasionalizm cərəyanı və xüsusilə də alman klassik fəlsəfəsi üçün xarakterikdir. Sosial paradiqmalar təhsil sahəsində, utopik layihələr real gerçəklik nəzərə alınmadan həyata keçirilir.

Ümumiyyətlə, "paradiqma" anlayışı sosial fəlsəfə və sosial-humanitar elmlərdə sosiomədəni münasibətlər, mədəni-tarixi inkişaf prosesi kimi pedaqoji təfəkkür və pedaqoji praktikada, qarşılıqlı fəaliyyət, davranış və modellərin nümunələrini göstərmək üçün istifadə edilir. Paradiqma anlayışı sosial sistemlərin xüsusiyyətini, modellərin müəyyən obrazlar əsasında özünü yenidən hasil etmək və yaratmaq kimi başa düşülür. Paradiqma bir-birindən sosial sistemlərin parametrləri, onların eyniliyi, unikallığı ilə seçilir. Müvəqqəti məkan olaraq hər zaman orada insanın özünə və başqasına, dünyaya, təbiətin həqiqətlərinin xarakteristikası haqqında təsəvvürlər formalaşır, bu da özündə səbəb-nəticə əlaqələri və münasibətləri ehtiva edir, dünyagörüşündən asılı olaraq hadisələrin mahiyyətini göstərmək üçün xüsusi bir mənzərəyə malik olur.

Təhsil anlayışının şərhi insan ideyasına yanaşmadan asılıdır. Təhsilin sosial-mədəni ölçüsü də vardır və bu müasir fəlsəfənin inkişafı, onun həyat fəaliyyətinin və sistemləri cəmiyyətin özünün təkrar istehsalını təmin edən sosiumun funksiyası kimi nəzərdən keçirilir. Bu funksiya insanların, nəsillərin bir-birini arasıkəsilmədən əvəz edən sosial münasibətlər, mədəniyyət və mədəni normaların dəyişən tarixi hallarda təhsil prosesləri vasitəsilə həyata keçirilir.

Sosiomədəni paradiqmalar insan və cəmiyyətin tərkibində təhsil paradiqmalarına uyğun inkişaf edir. Təhsil paradiqmaları vasitəsilə sosiomədəni varislik, yəni təhsil sahəsinin reallaşdırılması məkanı sosiomədəni paradiqmaları çıxış edir.

Təhsil paradiqmaları artıq iki aspektdə özünü qədim insanın formalaşması nümunələri kimi təqdim edib: Fundamental - dünyagörüşü (identifikasiya), əməli -praktiki. Birinci aspekt dünyagörüşü xarakterli və həyəcanı kimi təqdim olunur və o, ümumiyyətlə müəyyən sosial qrupların, cəmiyyəti və fərdi özündə əks etdirir. İkinci aspekt əmək bölgüsünün və vəzifə bölgüsü ailənin formalaşması kontekstində fərdin statusu və sosial rolu ilə bağlı ilk dövlət kimi təqdim olunur (1, s.14). Bu meyllər vasitəsilə müstəqil paradiqmalar (paradiqma məktəbi) tədricən formalaşır. Paradiqmalar konkret cəmiyyətin strukturunu yaradır. Bu baxımdan O.E. Peturinin fikrincə: "paradiqmalar müəyyən prosedurlar və qaydalar əsasında hərəkət edərək, struktur-funksional təşkilini və ona uyğun olaraq subyektin müəyyən məqsəd üzrə fəaliyyət proqramını həyata keçirir" (5, s.59-60).

Bu yanaşma əsasında paradiqmalar təhsil sahəsində reallaşdırılır, proqramlar, təhsil məqsədləri, nümunələri, ona uyğun olaraq subyektin tarixən struktur-funksional təşkili, müəyyən sosiomədəni prosedurlar və qaydalar əsasında fəaliyyət göstərəcək.

Təhsil paradiqmaları - (atribut və ekzistensializm) bir şəxsiyyətin və cəmiyyətin özünübərpası və inkişaf qabiliyyəti ilə bağlı modellər, matrisalar və ya arxetiplər, antropoloji və sosial nümunələr əsasında həyata keçirilir.

Sosial biliklərin paradiqmalarının təhlili təhsil paradiqmalarının başa düşülməsinə kömək edir.

Təhsil paradiqmaların əlavə prinsipi üzrə sosial-mədəni fenomenin yüksək təqdimolunması kimi yanaşmalardan istifadə etmək məqsədəuyğundur. Nəticədə paradiqmalar təhsilin inkişafı əsasında istehsal üsulu olduğu, formal xarakterli təsiri, hər bir konkret cəmiyyətin inkişafının xüsusiyyətləri ilə bağlıdır.

Sosial-mədəni fenomen kimi səciyyələndirən təhsil paradiqmaları, onların strukturunu bir-birindən fərqləndirən üç səviyyəyə ayırmaq olar: sürətlə, keyfiyyətlə və dəyişikliklərin məzmun xarakteri.

Birincisi, endogen - daxili, ən dərin qatı. Onda dərinliklərində dünyagörüşün mənasının nüvəsi olan sosiomədəni və antropoloji nümunələr, kodlar, matrisalar, arxetiplər yerləşir. İnsan və cəmiyyət vasitəsilə təsvir edildiyi təhsil məzmunu müəyyənləşir.

Təhsil paradiqmaları onların rolu və əhəmiyyətinə görə birinci səviyyəli subyektləri müəyyən edərək subyektlərin dünyagörüşünün mənasının nüvəsinin qorunmasına və formalaşmasına görə cavab verir. Bu - filosoflar, mütəfəkkirlər, maarifçilər ilə bağlıdır. Məhz onlar təhsil paradiqmaları nüvəsini formalaşdırır. Bu səviyyə dünyagörüşlü, dini-mənəvi və sosiomədəni şəxsiyyət və sosial qrupların formalaşdırılması prosesi ilə maksimum dərəcədə bağlıdır.

İkincisi, peşəkarcasına - tətbiqi, təhsil paradiqmaların mezogen (orta) səviyyəsi olan tətbiqi – praqmatik kimi müəyyənləşdirmək olar. Bu səviyyə fərdin və sosial qrupların müəyyən peşə keyfiyyətlərinin formalaşması ilə bağlıdır. Tədris prosesinin müvafiq subyektləri bu səviyyədə hazırlanmasına məsul olan peşəkar profil üzrə fəaliyyət göstərir. Bir qayda olaraq, bu, alimlər, mühəndis-texniklər, konstruktorlar və s üçün tətbiq edilir.

Üçüncüsü, ekzogen (xarici) səviyyədə təhsil paradiqmaları. Öz növbəsində, bu səviyyədə təhsil fəaliyyəti nümunələri və parametrləri, maddi-mənəvi, siyasi-hüquqi və sosial təminatı həyata keçirən subyektlər bu nümunələri və parametrləri özündə ehtiva edir.

Göründüyü kimi, təhsil paradiqmalarının zəngin və formal cəhətləri var. Bu təhsil paradiqmalarnın məzmunu ilə bağlıdır, formal tərəfi isə bu təşkilatın strukturlarında özünü göstərir.

Paradiqma çərçivəsində təhsil subyektlərinin fəaliyyəti həmişə diqqət mərkəzində olmaqla sosial subyektlərin, ayrı-ayrı şəxslərin, qurumların, müəyyən motivlərinin toplaşması ilə bağlıdır. Mədəni-tarixi dövrlərdən və formasiyaların dəyişməsi xarakteri təhsil paradiqmalarının iki formasını ayırmağa imkan verir: İnqilabi və təkamül. Birinci halda təhsil

paradiqmaları subyektləri arasında barışmaz mübarizə aparır. İkinci halda paradiqmaların dəyişikliyi onların subyektlərinin nisbətən yumşaq və hiss edilmədən baş verir.

Sonda belə nəticəyə gəlmək olar ki, təhsil paradiqmaları sosial-mədəni fenomen kimi onunla səciyyələnir ki, sosiomədəni və antropoloji paradiqmalardan istifadə edərək, bu və ya digər mədəniyyətin cəmiyyətin müxtəlif sosial subyektləri arasında sosial münasibətləri formalaşdırır.

Ədəbiyyat

1. Безрогов В.Г. Традиции ученичества и институт школы в древних цивилизациях. М., 2008. С. 14.

2. Кун Т. Структура научных революций / Пер. с англ. И.З.Налетова. Общая ред. и послесловие С.Р.Микулинского и Л.А.Марковой. М.: Прогресс, 1975. 2 изд. 1977. с. 220

3. Nəzərov M.H., Babayeva A.R, Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. Bakı: 2016, 200 s.

4. Nəzərov M.H. Təhsil mentaliteti metodoloji paradiqma kimi. GeoStrategiya jurnalı. № 04 (40) Bakı – 2017. s.36-40

5. Петруня О.Э. Тупики софистики и пространства философии: новый этап борьбы за Логос //Вестник Московского университета. Серия 7. Философия. 2007. № 3.

6. https://portal.edu.az/index.php?r=glossary/

7. http://kayzen.az/blog /fəlsəfə/

8. https://az.wikipedia.org/wiki/Paradiqma

M.X.Назаров

Социокультурный феномен как парадигма образования

Резюме

В статье анализируются характеристики парадигмы образования и социального знания. Образовательная парадигма социокультурного феномена характеризуется как богатый и формальный аспект общества. Также отмечается, что парадигма систем образования и социальных субъектов, отдельных лиц служит выражением определенных мотивов. Образовательная парадигма для реализации перспективных областей социально-культурного феномена, характеризуемая как социально-культурная парадигма с использованием этого и другого культурного общества, формирует социальные отношения между различными социальными субъектами, то есть антропологические.

M.H.Nazarov

Socio-cultural phenomenon as a paradigm of education

Summary

The article analyzes the characteristics of a paradigm of education and social knowledge. Educational paradigm of socio-cultural phenomenon is characterized as rich and formal aspects of society. It is also noted that the paradigm of education system is expression of certain motivs and social entities, private individuals. Educational paradigm for the implementation of promising areas of socio-cultural phenomenon characterized as socio-cultural paradigm using this and other cultural society is formed social relations between different social subjects, that is, and anthropological.

Rəyçi: f.e.d. V.İ.İsmayılov

Redaksiyaya daxil olub: 13.02.2018

G.Z.ZƏKİYEVA
e-mail: gulshen.velibeyli@mail.ru

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

QALAALTI KURORTU - AVROPA TARİXİ TERMAL ŞƏHƏRLƏR ASSOSİASİYASININ ÜZVÜ KİMİ

Açar sözlər: *turizm, Müalicə-sağlamlıq turizmi, Azərbaycanın turizm potensialı, ATTŞA, Qalaaltı kurortu*
Ключевые слова: *туризм, лечебно-оздоровительный туризм, туристический потенциал Азербайджана, ЕАИТ, курорт Галаальты*
Key words: *tourism, medical health tourism, tourism potensial of Azerbaijan, EHTTA, resort Galaalti*

Bu gün Azərbaycan bir turizm ölkəsinə çevrilməkdə əmin addımlarla addımlayır. Ölkəmizin malik olduğu iqlim rəngarəngliyi, müxtəlif mineral və termal su mənbələri, müalicəvi neft və vulkanik palçıq eyni zamanda digər təbii ehtiyyatlarburada müalicə-sağlamlıq turizminin inkişafı üçün zəmin yaradır. Xüsusilə ölkəmizin malik olduğu müalicə-sağlamlıq turizm ənənələri ilə bərabər dövlətin bu sahəyə verdiyi dəstək son zamanlar öz təsirini göstərməkdədir. Bunun nəticəsi olaraq Qafqaz dağlarının ətəyində yerləşən unikal, balneoloji Qalaaltı kurortu Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının Termal Şəhərlər mədəni marşrutuna üzv seçilib.

AVROPA TARİXİ TERMAL ŞƏHƏRLƏR ASSOSİASİYASI – Avropada tarixi termal şəhərləri təmsil edən bir təşkilatdır. 15 ölkədən 41 nümayəndə - şəhərin təmsil olunduğu bu təşkilat Avropa Şurasının Mədəni Marşrutlar (Cultural Routes) proqramı çərçivəsində təsdiq olunub. Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının üzvlərinin tərkibi ildən ilə artır. Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasına üzv seçilmək üçün hər bir namizəd şəhər əsas bu 3 xüsusiyyətə malik olmalıdır:

1. Namizəd şəhər və ya kurort qədim və zəngin tarixə malik olmalı,
2. Termal suarla zəngin olmalı,
3. Müasir tələblərə cavab verən infrastruktura malik olmalıdır.

2015-ci ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycanın Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının Termal Şəhərlər beynəlxalq mədəni marşrutuna qoşulması istiqamətində lahiyə həyata keçirilmişdir. Bununla bağlı Avropa Tarixi Termal Şəhərlər Assosiasiyası lahiyəsinin eksperti Mişel Tomas Pinet və Bursa valisinin köməkçisi Ahmet Hikmet Şahindənibarət nümayəndə heyəti 22-29 iyul 2015-ci il tarixində ölkəmizdə səfərdə olmuşlar.

Səfər çərçivəsində ekspertlər Masallı, Qəbələ və Siyəzən rayonlarının termal su mənbələrinə və turizm infrastrukturuna baxış keçirmişlər. Həmin ilin 19-20 oktyabr tarixlərində bu assosiasiya tərəfindən keçirilən seminara Türkiyənin Bursa şəhəri ev sahibliyi etmişdir. 19 oktyabr tarixində öz işinə başlayan iclasda Türkiyənin səhiyyə naziri Mehmet Müəzzinoğlu, Bursa Valisi Munir Karaloğlu, Avropa Tarixi Termal şəhərlər Birliyinin prezidenti Guiseppa Bellandi, Bursa şəhər bələdiyyə sədri Recep Altepe və turizm sahəsinin mütəxəssisləri iştirak etmişlər. İclasda Mədəniyyət və Turizm Nazirliyinin Turizm Şöbəsinin Təbliğat sektorunun aparıcı məsləhətçisi Günel Aslanova da iştirak etmiş və Azərbaycanın Tarixi Termal Şəhərlər layihəsinin təqdimatını həyata keçirmişdir. İclas zamanı lahiyənin birliyə qoşulması istiqamətində danışıqlar aparılmış və Bursa Valisinin köməkçisi Ahmet Hikmət Şahin Azərbaycanın bu marşruta üzv olaraq qoşulması üçün bütün imkanların mövcud olduğunu iclas üzvlərinin diqqətinə çatdırmışdır. 21 yanvar 2016-cı ildə Avropa Tarixi Termal

Şəhərlər Assosiasiyasının Baş Assambleyasında keçirilən görüş zamanı Qalaaltı Kompleksinin Termal Şəhərlər mədəni marşrutuna üzv seçilməsi barədə qərar qəbul edilmişdir (1).

Assosiasiyanın 2017-ci il 2-5 oktyabr tarixlərində Yunanıstanın Loutraki Şəhərində keçirilən Baş Assambleyasında isə Qalaaltı regionunun geniş təqdimatı keçirilmişdir. Təqdimat zamanı bu kurortun hələ sovet dövründən, ötən əsrin 70-ci illərindən fəaliyyət göstərməsi və 2015-ci il avqustun 9-dan ölkə prezidentinin qərarı ilə yenidən qurularaq istifadəyə verilməsi haqqında məlumat verilmişdir. O da qeyd olunmuşdur ki, hal hazırda Qalaaltı dünya səviyyəli beynəlxalq müalicə və istirahət kompleksi kimi fəaliyyət göstərir, burada yaradılan infrastruktur isə ən yüksək standartlara uyğundur. Beşulduzlu otel, SPA mərkəzi, əyləncə zonaları turistlərin ixtiyarındadır və ən başlıcası, burada yerin altından çıxan müalicəvi su insanların sağlamlığına xidmət edir (2).

Qeyd edək ki, Qalaaltı Bakıdan 120 kilometr məsafədə Şabran rayonunda yerləşir. Zamanında bu şəhər böyük karvanların əsas dayanacaq yeri olması səbəbilə adı da Dəvəçi adlanırdı, lakin, bu günlərdə burada dəvəyə rast gəlmək mümkün deyil. Şabran rayonu şərq tərəfdən Xəzər dənizi ilə həmsərhəddir. Xəzərin qumlu sahilləri yüksəkliklərə daha sonra isə meşə ilə örtülmüş dağlara keçid alır. Şabran meşələrinin ümumi sahəsi 21.5 min hektar təşkil edir. Rayonun ərazisi mineral sular və palçıq vulkanları ilə zəngindir. Şabran rayonunda həm də iki tarixi-arxeoloji qoruq yerləşir. Şabran haqqında danışanda Çıraqqala qalası yada düşür. Qalaaltı kurortu da öz adını məhz Çıraqqaladan götürür, çünki Çıraq qalasının altında yerləşir. Çıraqqala isə Çaraq kəndi ərazisində yerləşən Çaraqqaya adlı sıldırım qayanın zirvəsində 1232 metr hündürlükdə yerləşir. Çıraqqala – istehkam qarovulxana məqsədi ilə Sasani hökmdarları tərəfindən IV-VI əsrlərdə tikilmişdir. Gilgilçay səddinin başqarovulxanası olub. Buradan geniş bir ərazini nəzarət altında saxlamaq və düşmənin gəlişini görüb tonqallar vasitəsilə ətrafa xəbər vermək mümkün olmuşdur. Adından göründüyü kimi Çıraqqala həm də qala rolunu oynayıb və Xəzər dənizindən Babadağın ətəklərinə qədər uzanan səddin üç böyük qalasından biri olub. İkiqala ilə birlikdə səddin böyük bir hissəsi də tarixin zərbələrinə davam gətirməyərək dağılmış, "Çıraqqala" isə özəzəməti və vüqarı ilə hələ də insanları heyran etməkdədir. Çıraqqalanın adının yaranmasının da bir neçə izahı vardır. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində bu qalanın adını "Çıraqqala" kimi göstərmiş və o, bu adla da tanınmağa başlamışdır. Lakin yerli əhali həmişə və bu gündə belə qalanı "Çaraqqala" adlandırır və orada orta əsrlərdən qala şəhər olmasını göstərirlər. Qalanın bir neçə km-liyindəki kəndin Çaraqolması, qalanın yerləşdiyi dağ zirvəsinin adının da Çaraqqaya olması deyilənləri bir daha təsdiqləyir. Qalanın sadəcə düşmənin gəlişini xəbər vermək üçün tikildiyi də inandırıcı deyil. Belə ki, qalanın ərazisinin böyüklüyü və ərazinin dörd tərəfdən keçilməz olan təbii sıldırımlı qaya üzərində yerləşməsi, möhtəşəm qala divarları ilə əhatələnməsi və eləcədə 17 bürcünün olması buranın qala şəhər oldugunu göstərir. Eyni zamanda məlumdur ki, bu qalanın Sasanilər tərəfindən təyin edilmiş ilk hakiminin də adı Çora və ya Çara olmuşdur. O zaman bu qala-şəhərcik ətraf əhali tərəfindən Çara yaşayan qala adlanması daha inandırıcıdır. Dilimizin xüsusiyyətlərinə əsasən Çaraqala dönüb Çaraqqala olmuşdur. Qalanın adı haqqında ehtimallardan digəri isə onun Çora vilayəti ilə bağlı olaraq Çoraqqala olmasıdır.

Qalaaltı suyunun fiziki-kimyəvi xüsusiyyətlərinə gəldikdə isə bu keçmiş S.M.Kirov adına Azərbaycan Elmi Tədqiqat Tibb Bərpa İnstitutunun (indiki Səhiyyə Nazirliyi Elmi tədqiqat Tibb Bərpa İnstitutu) geologiya və hidrokimya şöbəsinin əməkdaşlarının 1965-ci ildə o vaxt ki, Dəvəçi rayonu ərazisində kəşfiyyat işləri aparan zaman tərkibində mineral və üzvi maddələr olan bu bulağı aşkar etməsi ilə ortaya çıxmışdır. Aparılan ilkin fiziki-kimyəvi tədqiqatlar bu suyun tərkibinin Naftusiya suyuna oxşar olduğunu və suyun sutka ərzində debitinin 10 mindən 20 min litrədək olduğunu göstərmişdir. 1969 cu ildə suyun müalicəvi xüsusiyyətlərinin öyrənilməsi üçün SSR-i Səhiyyə Nazirliyinə verilən təklif qəbul olunduqdan sonra bu suyun klinik tədqiqatlarına başlanmışdır. Bundan sonra Siyəzənneftin nəzdində yaradılan 50 çarpayılıq sanatoriyada ilk dəfə Qalaaltı suyu ilə 100 xəstənin müalicəsi aparıl-

mışıdır. Aparılmış bütün müalicələrin nəticəsi uğurlu olmuşdur. 1974-cü ilədək aparılmış klinik tədqiqatların nəticəsində Qalaaltı suyunun bir çox xəstəliklərin müalicəsində əvəzsiz şəfa mənbəyi olduğu təsdiq edilmişdir.

Qalaaltı suyunun tərkibində bütün mineral sulara aid olan naften turşusundan əlavə uçucu fenollar, humin maddələr, yağ turşuları və qətran vardır. Mineral tərkibinə görə "Naftusiya" suyuna çox yaxın olsa da bu suda zərərli fenolların azlığı, faydalı bitum və nafte turşularının çoxluğu iləfərqlənir. Belə ki, Qalaaltı suyunda bitum 2.3-3.9 mq/litr, naften turşusu 0.7 mq/litr, fenollar 0.1-0.48 mq/litr təşkil edir. Naftusiya suyunda isə bitum 0.5-0.8 mq/litr, nafte turşusu 0.06 mq/ekv/litr, fenollar 1.3-2.2 mq/litrdir. Bir çox dünya alimləri mineral suların tərkibindəki bitum və nafte turşularının çoxluğunun müalicəyə yaxşı təsir etdiyini təsdiq etmişlər. Qalaaltı suyunu ancaq mənbədən içmək olar, çünki su daşınmaya və saxlanılmaya uyğun deyil (tərkibində uçucu üzvi birləşmələrin olması səbəbiylə). Azmineral-laşdırılmış Qalaaltı suyunun tərkibində 15 mq/l-dən 25 mq/l-dək üzvi maddələr var. Buraya fenollar kimi efirdə həllolunan üzvi birləşmələr, karbohidrogenlər, uçucu üzvi turşular, humin maddələri daxildir. Az miqdarda suyun tərkibində karbon qazı, hidrogen-sulfid, xlor, natrium, kalium, dəmir, mis vardır. Qalaaltı suyuna özünə məxsus xüsusiyyətlərinə tərkibində olan kar-bohidrogen oksidləşdirici, disulfidləşdirici və tion mirkoorqanizmlərın olmasını göstərmək olar, hansılar ki, suyun tərkibindəki üzvi maddələrə keyfiyyət və kəmiyyət baxımından təsir göstərir (3).

Qalaalti suyunun tərkibinin araşdirilmasına A.Qasımova, A.H.Acalov, H.Ə.Əliyev kimi bir çox alim və professorlar öz töhvəsini verişlər. Aparılmiş tədqiqatların nəticəsi olaraq məlum olmuşdur ki, Qalaaltı mədən suyu öd kisəsində, öd yollarında, böyrək yollarında, böyrək ləyənində, sidik kisəsində, sidik yollarında əmələ gələn daşların əridilməsində, eləcə də qaraciyərin, ödyollarının, boyrəklərin, sidik kisəsinin, sidik axarlarının, mədə-bağırsaqların iltihabı xəstəliklərinin müalicəsində olduqca müsbət nəticə verir. Bundan başqa Qalaaltı suyunun istifadəsi zamanı orqanizmdə maddələr mübadiləsinin sürətləndirir, iltihablanma prossesinin, öd və böyrəklərdə daşəmələgəlmə prossesinin qarşısını alır.

Qalaaltının bu tip müalicəvi mineral və termal imkanlarının olması ilə bərabər həm də qədim tarixə malik ərazidə yerləşməsi onun ATTŞA-na üzv seçilməsinə səbəb olub. ATTŞA üzvlüyünün əhəmiyyətini isə ölkə əhəmiyyətli və yerli əhəmiyyətli olmaqla iki yerə bölmək olar. Ölkə miqyaslı əhəmiyyətini aşağıdakı bəndlərdə göstərmək olar:

– Azərbaycanın müalicə-sağlamlıq turizm potensialının dünyada tanınması üçün bir vasitə olacaq,

– Dayanıqlı turizmin inkişafına öz töhvəsini verəcək,

– Azərbaycanda müalicə turizm marketinq fəaliyyətinə təsir edəcək,

Qalalatı baxımından əhəmiyyətini aşağıdakı bəndlərdə göstərmək olar:

– Qalaaltı istirahət kompleksinin infrastukturunun inkişafına töhvə verəcək,

– Qalalatı kurortunun əvvəlki məşhurluğunuözünə qaytaracaq və dünya şöhrəti gəti-rəcək,

– ATTŞA-nın rəsmi səhifəsində tanınmiş mütəxəssislər tərəfindən kurort haqqında rəylər nəşr olunacaq,

– Digər termal şəhərlər arasında əlaqələrin yaradılmasına və inkişafına təkan verəcək,

– Beynəlxalq turizm termal sertifikatların alınmasına öz töhvəsini verəcək.

Beləliklə, Qalaaltının belə bir beynəlxalq əhəmiyyətli təşkilata üzv olması Qalaaltının simasında Azərbaycanın sahib olduğu müalicə-sağlamlıq turizm ənənələrinin və yaradılmış müasir tələblərə cavab verən turizm infrastrukturunun dünyaya çatdırırlmasında, bunun nəticəsi olaraq ölkəyə tibbi turizm məqsədilə turist axınlarının artımına səbəb olacaqdır. Bu isə öz növbəsində ölkədə mövcud turizm infrastukturunun daha da inkişafına öz tohvəsini verməklə davamlı turizmin inkişafına təkan verəcəkdir.

Ədəbiyyat

1. www.mct.gov.az
2. www.qalaalti.com
3. Dərgahov V. Rekreasiya-turizm ehtiyatları. Bakı, 2008
4. Hüseyn A.A. "Turizmin inkişafı dünya praktikası və Azərbaycan reallıqları", "Azərbaycan İqtisadi və Sosial Araşdırmalar" jurnalı, səh 6-8, Bakı, 2015
5. Özdemir G., Gürol K., "Kırsal Turizm potensialının SWOT anailizi ilie degerlendirilmesi- Balıkesir örneyi", 2012

Г.З.Закиева

Курорт Галааалты – как член Ассоциации Исторических Курортных городов Европы

Резюме

В статье излагается создание и реконструкция уникального бальнеологического курорта Галааалты, который находится у подножия Кавказских гор, и его избрания в культурный маршрут Ассоциации исторических курортных городов Европы. В то же время подчеркивается важность этой организации для Азербайджана и для региона.

G.Z.Zakiyeva

Resort Galaalti – as the member of The European Historic Thermal Towns Association

Summary

The article describes the establishement and renovation of a unique, balneological Galaalti resort which is located at the root of the Caucasus Mountains and the election of it to the European Historic Thermal Towns Association Thermal Cities Cultural Route. At the same time the importance of this organization for Azerbaijan and for the region accentuated.

Rəyçi: c.f.d., dos. G.R.Ağakişiyeva

Redaksiyaya daxil olub: 02.03.2018

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

A.H.BAYRAMLI
OMONİMLƏRİN ÇOXMƏNALI SÖZLƏRDƏN FƏRQİ ... 3

F.İ.CƏFƏROVA
DİLİMİZ BU GÜN ... 9

S.R.ƏZİZOVA
AZƏRBAYCAN ƏLİFBASI, AZƏRBAYCAN DİLİNİN YARANMASI VƏ İNKİŞAF TARİXİ ... 13

N.Y.HACIYEVA
İNGİLİS DİLİNDƏ MÜSBƏT KEYFİYYƏT BİLDİRƏN BƏZİ SİFƏTLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ ... 19

X.Ə.QOCAYEVA
İNGİLİS DİLİNDƏ DİSKURSUN İNTONASİYA TƏHLİLİ HAQQINDA ... 23

A.A.QULİYEVA
İSPAN DİLİNDƏ QEYRİ-MÜƏYYƏNLİK KATEQORİYASI ... 28

Ü.İ.ZEYNALOVA
İNGİLİS DİLİNDƏ SONOR SAMİTLƏRİN FONETİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR ... 32

Дж.А.САФАРОВА
ВАРВАРИЗМЫ НЕМЕЦКОГО ПРОИСХОЖДЕНИЯ В СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ ... 36

Р.Р. ШИХАМИРОВА
ПРОЯВЛЕНИЕ ПРОЦЕССА ЛЕКСИКАЛИЗАЦИИ В СФЕРЕ ВОЕННОЙ ТЕРМИНОЛОГИИ ... 40

T.S.GULIYEV
INFLUENCE OF THE AMERICAN ENGLISH ON THE WORLD OF IDIOMS ... 45

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

Ə.E.ƏLİZADƏ
COZEF HELLERİN "TƏLƏ-22" ROMANINDA MÜHARİBƏ MÖVZUSU İRONİK KONTEKSTDƏ ... 48

A.H.HÜSEYNOVA
ABBAS PƏNAHİ MAKULUNUN HEKAYƏLƏRİNDƏ VƏTƏN HƏSRƏTİ MOTİVLƏRİ ... 52

V.Ə.HÜSEYNOVA
SİNKLER LÜİSİN SATİRİK DÜNYASI ... 57

A.S.MƏHƏRRƏMOVA
RİÇARD BAXIN «CONATAN LİVİNQSTON ADLI QAĞAYI» ROMANI MÜSBƏT DÜŞÜNCƏNİN APOFEOZU KİMİ ... 63

L.M.QƏDİROVA
İSA HÜSEYNOVUN POVESTLƏRİNDƏ KİŞİ TİPAJLARI ... 66

Z.A.RÜSTƏMOVA
SOL BELLOUNUN “HERSOQ” ROMANININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ ... 72

A.XƏNDAN
XX ƏSR TÜRK POEZİYASINDA ATATÜRK OBRAZI VƏ MİLLİ MÜBARİZƏ MÖVZUSU 75

Ф.М.ИСАЕВА
РАЗВИТИЕ ХАРАКТЕРА ЖЕНСКИХ ГЕРОЕВ В ПРОИЗВЕДЕНИЯХ А.П.ЧЕХОВА И С.МОЭМА («ПОПРЫГУНЬЯ» И «УЗОРНЫЙ ПОКРОВ») 80

С.А.МУСАЕВА
ОСНОВНЫЕ ЭТАПЫ ИЗУЧЕНИЯ И ВОСПРИЯТИЯ ТВОРЧЕСТВА Н.А.НЕКРАСОВА В АЗЕРБАЙДЖАНСКОЙ ПЕРИОДИЧЕСКОЙ ПЕЧАТИ ПЕРВОЙ ЧЕТВЕРТИ XX ВЕКА . 87

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

K.N.BAYRAMOV
İXTİSASÇI MÜƏLLİM VƏ İFAÇILIQ 93

N.B.CƏFƏROV
MƏKTƏBLİLƏRİN MƏNƏVİ-İRADİ KEYFİYYƏTİNİN FORMALAŞDIRILMASI YOLLARI 97

İ.Ə.ƏHMƏDOVA
KONSERTMEYSTER SİNFİNDƏ VOKAL ƏSƏRLƏRİN ƏHƏMİYYƏTİ 104

B.H.ƏSƏDOVA
FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏ 108

C.T.GÜLİYEVA
İNGİLİS DİLİ FAKÜLTƏLƏRİNİN AŞAĞI KURS TƏLƏBƏLƏRİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI 111

X.İ.HƏSƏNOVA
ORTA MƏKTƏBDƏ TƏDRİSİN AŞAĞI MƏRHƏLƏSİNDƏ QRAMMATİKANIN KOMMUNİKATİV TƏDRİSİ ZAMANI MATERİALLARIN SEÇİLMƏSİ 115

G.MƏMMƏDHƏSƏNOVA
TƏHSİL MENECERLƏRİNİN İDARƏETMƏ MƏDƏNİYYƏTİ 119

N.İ.MƏMMƏDOVA
TƏHSİL SİSTEMİNDƏ MÜASİR TEXNOLOGİYADAN İSTİFADƏNİN HÜQUQİ QAYNAQLARI 122

Ş.Ə.MUSTAFAZADƏ
TARİX DƏRSLƏRİNDƏ ROLLU OYUNLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ 129

S.SADIQOVA
ORTA MƏKTƏBDƏ BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN ÖYRƏDİLMƏSİNİN NƏZƏRİ PROBLEMLƏRİ 133

N.B.SALMANOVA, S.Q.QARAYEVA
POLİATLONÇULARIN İDMAN FƏALİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ 136

Y.B.SƏMƏDOV, N.Ə.HEYDƏROV, M.H.DADAŞOV
TƏNƏFFÜS SİSTEMİNİN FUNKSİONAL POZULMALARI ZAMANI FİZİKİ HƏRƏKƏTLƏRİN METODİKİ XÜSUSİYYƏTLƏRİ 140

Y.B.SƏMƏDOV, F.A.QURBANOVA, S.İ.İSAQOVA
SAĞLAMLIĞI ZƏİF OLAN UŞAQLARIN FİZİKİ TƏRBİYƏSİ VƏ ONUN VƏZİFƏLƏRİ ... 144

H.İ.ŞƏRİFOV
TƏHSİLİN MƏZMUNUNA YENİ YANAŞMALAR 148

Z.SULTANOVA
GƏNC NƏSLİN ESTETİK TƏRBİYƏSİNDƏ
MUSİQİNİN DİNLƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ 152

S.Ə.VAHABOVA
MÜSTƏQİLLİK DÖVRÜNDƏ ŞAGİRDLƏRƏ MƏNƏVİ TƏRBİYƏNİN AŞILANMASI 156

İ.F.YUSİFOV
TARİXİN TƏDRİSİ PROSESİNDƏ İKT-dən İSTİFADƏNİN İNTERNET İMKANLARI
VƏ YOLLARI 160

И.Г.ГАСЫМОВА
ВЗАИМОСВЯЗЬ УСТНЫХ ФОРМ РАБОТЫ С ПИСЬМЕННЫМИ
НА УРОКАХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО 164

А.Р.ИСМАИЛОВА
«КУЛЬТРОЦЕНТРИЗМ» И ВОСПИТАНИЕ ЯЗЫКОВОЙ ЛИЧНОСТИ 167

А.Р.КУРБАНОВА
ИСПОЛЬЗОВАНИЕ ЭЛЕМЕНТОВ ФОЛЬКЛОРА
В ОБОГАЩЕНИИ СЛОВАРНОГО ЗАПАСА СТУДЕНТОВ 172

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

E.A.AĞASİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN
BƏRPASINA QƏDƏRKİ DÖVRDƏ BAKI ŞƏHƏRİNDƏ TURİZMİN VƏZİYYƏTİ 175

B.BİLALOV, F.CAHANGİROVA
BARSELONANIN TURİZM MƏKANLARI 180

Ə.H.CABBARLI
NAXÇIVAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ 184

M.A.ƏHMƏDOV
AZƏRBAYCAN TELEXƏBƏR APARICILIĞINDA BƏZİ ETİK PROBLEMLƏR 188

M.İ.ƏMRAHOV
İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN
TÜRKİYƏ CÜMHURİYYƏTİ VƏ AZƏRBAYCAN SSR-ə QARŞI ƏRAZİ İDDİALARI 194

G.Ş.İMANOVA
TƏBİƏT QORUQLARININ TƏSNİFAT XÜSUSİYYƏTLƏRİ 199

M.H.NƏZƏROV
TƏHSİL PARADİQMALARI SOSİAL-MƏDƏNİ FENOMEN KİMİ 203

G.Z.ZƏKİYEVA
QALAALTI KURORTU - AVROPA TARİXİ TERMAL ŞƏHƏRLƏR
ASSOSİASİYASININ ÜZVÜ KİMİ 206

Nəşriyyat redaktoru: ***Əliş Ağamirzəyev***
Kompyuter tərtibatı: ***Günel Muxtarova***

Çapa imzalanıb: 13.04.2018. Format: 84x108 1/16.
Həcmi: 13,5 ç.v. Tiraj: 300.

MÜTƏRCİM
TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:

   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125**
tel.: 596 21 44; 497 06 25
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**